**Hacı Əli Sobulu**

# PİRÇİVAN KƏNDİNDƏN ZƏNGİLAN ŞƏHƏRİNƏ GEDƏN YOL

Mənə kitabın çapa hazırlanmasında maddi və mənəvi dəstək verən dostlarıma təşəkkür edirəm.

**Bakı - 2022**

Məndən böyüklər ata-anam, həmyaşıdlarım qardaşım-bacım, məndən kiçiklər isə oğlum və qızım yerindədir.

***Hacı Əli Sobulu***

Ədalətli atanın ədalətli övladı və ədalətli övladın da atası olmaq ən böyük xöşbəxtlikdi.

***Hacı Əli Sobulu***


Tərtibçilər: **Asif Bağırov,**
**Hacı Əli Sobulu**
Redaktor: **Alı Rəhimoğlu**
Korrektorlar: **Asif Bağırov**
**Alı Rəhimoğlu**

Hacı Əli Sobulu
**PİRÇİVAN KƏNDİNDƏN ZƏNGİLAN ŞƏHƏRİNƏ GEDƏN YOL**
Bakı, «Zərdabi Nəşr» MMC, 2022, 448 səh.


Kitabda Zəngilan rayonunun mərkəzi Pirçivan kəndinin (indiki Zəngilan şəhərinin) tarixinin araşdırılmasına cəhd edilmişdir.

Üz qabığında Zəngilan şəhərinin küçələrindən birinin bu günki görünüşü.


**ISBN 978-9952-553-66–6**



© Hacı Əli Sobulu, 2022

## Müəllifdən

Hər bir insana doğulduğu ev, sonrakı illərdə yaşadığı kənd, şəhər, ölkə, eləcə də bütün dünyamız elə vətəndir, əzizdir, doğmadır.

Allah dünyamızı və insanları yaradanda nə ölkələr, nə də ki, millətlər var idi. Sonrakı illərdə insanları Allah Təala millətlərə ayırdı. Belə olanda bir dildə danışan, bir birini anlayan, adət və ənənələri uyğun olan toplumlar bir yaşamaq qərarına gəldilər və yaşadıqları əraziləri özününküləşdirərək ona öz adlarını verdilər.

Beləliklə, millətlərdən sonra ərazilər, yəni ölkələr yarandı. Hər bir millət həmin əraziyə vətən dedi və oranın sahibi kimi çıxış etməyə başladı.

Bu gün bizim də doğulduğumuz və yaşadığımız ərazi vətənimiz Azərbaycandır. Onu da anamız kimi, ondan da çox qorumaq hər birimizin vəzifəsidir, borcudur.

Mən də istədim ki, dünya xəritəsində kiçik görünsə də dünyaya sığmayan, dühaları olan Azərbaycanın kiçik bir hissəsi olan Zəngilan, daha doğrusu, onun mərkəzi olan Pirçivan kəndi barədə bir neçə kəlmə deyəm. Bu günkü Zəngilan rayonunun mərkəzi olan Zəngilan şəhərinin ilk adı Pirçivandır.

Mən burada kiçik bir kənd olan Pirçivanın tədricən böyüyüb Zəngilan kimi bir gözəl şəhərə çevrilməsindən, onun təbiətindən, sərvətlərindən və eləcə də ziyalılarından, elm, sənət, sadə peşə sahiblərindən söz açmağa çalışdım.

Bu diyarın dünyada əvəzi olmayan bir incisi var. O, da təbii çinar meşəsidi. Neçə illərdi ki, onu dünyada ikinci kimi tanıdırdılar. Guya Kanada da belə bir meşə var. Düzdü belə bir meşə var, amma o çinar yox, ağcaqayın meşəsidi. Bunu təsdiq edən bir hal var ki, o da Kanadanın bayrağındakı ağcaqayın yarpağıdı. Çinar meşəsi olsaydı Kanadalılar bayraqlarına çinar yarpağını atardılar, ağcaqayın yarpağını yox.

Bir şeyi anlamıram ki, Sovet hökuməti niyə buna göz yumub. Düşünürəm ki, burada da hay barmağı olub.

Bilmirəm, buna nə qədər nail olmuşam. İndi sizləri bu kitabla baş başa buraxıram.

## Redaktordan

**«Kiçik kəndi qapı-qapı, küçə -küçə bölən də biz,**
**Fəqət bütün bəşər üçün ölən də biz».**

Elmi, bədii, publisistik əsərləri ilə kifayət qədər tanınan, oxucuların rəğbətini qazanan, özünəməxsus üslubu ilə fərqlənən tədqiqatçı, tarixçi peşəkar yazarlardan biri də Hacı Əli Sobuludur (Əli Cümşüdlü)

Bu kitabda o, Zəngilan şəhərinin (əvvəl Pirçivan kəndi, sonra qəsəbə, sonralar şəhər statusu verilmiş, indi Zəngilan rayonunun mərkəzidir) tarixi keçmişi, coğrafiyası, əhalisi, idarə və müəssisələri, məhəllə və küçələri sənədlər, faktlar, rəqəmlərlə incələmişdir. Göz yaddaşına güvənərək şəhərin mənzərəsini can yanğısı, ürək ağrısı ilə zərrə-zərrə, qətrə-qətrə, qarış-qarış zamanın və kainatın fövqünə qaldırmağa cəhd göstərmiş, hər yerdən hər kəsin görə biləcəyi səviyyədə tanıtmağa çalışmışdır.

Ən sadə, ən adi peşə, əmək adamlarından yüksək zirvədə duran, qanları ilə yurdumuzu xilas edən şəhidlərimizə qədər heç kimi diqqətdən kənar saxlamayıb, kövrək duyğularla, ülvi hisslərlə tərənnüm etmişdir.

Əgər erməni (hay) faşistləri torpaqlarımızı işğal edəndən sonra şəhəri vəhşicəsinə talan edib, viran qoyub dağıtmasaydılar, yəqin ki, bu kitabın bələdçiliyi ilə hər bir sakin evini-ocağını, ünvanını asanlıqla tapa bilərdi. Çox təəssüf ki, geri qayıdanlar şəhər yerində cəngəllik, dağıntı, uçuq evlər, binalar, təsərrüfat və obyektlər bir sözlə xarabalıqla üzləşəcəklər.

Gərgin psixoloji duruma baxmayaraq Hacı Əli Sobulu «iynədən-düyməyə», doğum evindən qəbiristanlığa qədər məsafəni ağrı-acı, əzab, kədərlə vizual olaraq keçir, böyüdücü rakursdan foto yaddaşına köçürüb sözlə ifadə edir.

Necə də fəxr və qürurla məhəllələri-Məscid düzü, Kirdəzir, Şaftalı dərəsi, Köhnə Pirçivan, Çeşmə gözü, Bağırsaq dərəsi...... (yerli sakinlər tərəfindən qeyri-rəsmi verilən adlar-toponimlər) və yerli hökümət tərəfindən küçələrə verilən adlar (İttifaqın və ölkənin hər əyalətində bu trafaret-qəliblərdən istifadə edilirdi)

1 May, K.Marks, Kommunist, Lenin, Oktyabr küçələri və s. sadalayır. Yəqin ki, oxucu bu adların fərqindədir, biri doğma, digəri yad, yabançı, dilimizin şirinliyini korlayan......

Kitabda son yüzilliklərdə rus imperiyası və erməni quldurları tərəfindən ölkəmizə, bölgəmizə qarşı törədilən işğal və cinayət faktları geniş işıqlandırılıb.

1941-1945-ci illər müharibəsində respublikamızdan səfərbər olunan döyüşçülərimizdən üç yüz mindən çoxunun həlak olması, o cümlədən, Pirçivandan (indiki Zəngilan şəhəri) 122 nəfərin itkin düşməsi və şəhid olması, 23 nəfərin isə şikəst-əlil qayıtması dərin təəssüf hissi ilə yad edilir.

Təkcə İttifaq ərazisi ilə kifayətlənməyən imperiya maşını digər dövlətlərə, ərazilərə əl uzadaraq Əfqanıstanda qəhrəman oğullarımızı- Həsənov Elnur Əbil oğlu, Əhmədov Sahib Əhməd oğlunu da «gilyotin» maşınından keçirmişdir.

Müəllif bu itkilərə etirazını belə ifadə edir «...Sovet İttifaqı 1979-cu ildə müstəqil Əfqanıstana hərbi müdaxilə etdi. Özünü dünyada sülhün carçısı, dayağı adlandıran nəhəng bir dövlətin belə bir addım atmağı dünyanı çaşdırmışdı.

Əfqan xalqına qarşı aparılan bu müharibə işğalçılıq müharibəsi idi. Azərbaycanın da say-seçmə oğulları məcburi olaraq bu savaşa cəlb edilmiş və həyatlarını qurban vermişlər»

Heç bir bəşəri kökləri, mənəvi, humanist dəyərləri olmayan, daxilən çürüyən, süquta uğrayan Sovet İttifaqı çökürdü, can verirdi, xilas yollarını təcavüzdə görürdü. Ona görə də 20 yanvar 1990-cı ildə Bakı şəhərində qətliam törətdi. Dinc əhalini-qoca, qadın, uşaqları tankların dəmir dişləri altında əzdi, çeynədi.

1991-ci 20 noyabrda Qarakənd səmasında vertolyotu partlatdı, 22 nəfər dövlət məmuru qətlə yetirildi. 25-26 fevral 1992- ci ildə misli görünməmiş Xocalı faciəsi-soyqırımı törətdi. Halbuki həmin dövrdə Azərbaycan müstəqil dövlət idi.

Davam edən təcavüz Dağlıq Qarabağ və 7 ətraf rayonun işğalı ilə nəticələndi. (bu təcavüzü erməni terrorçularının adına yazsalar da hamıya aydın idi ki, hadisələrin ssenari müəllifi Rusiyadır)

Hacı Əli Sobulu da yurdu-yuvası dağılmış, ocağı sönmüş yüz minlərlə məcburi köçkünlərin arasında idi. O da bu məhrumiyyəti,

əzabı , ağrı-acını, məşəqqəti yaşamalı oldu.

Çiynimizdə ağır yükə dönən bu üzüntülü ayrılıq, məğlubiyyət çox uzun çəkdi, ürəyi qubarlı, əlləri yurda uzalı, arzuları puç olan minlərlə didərgin soydaşlarımız əbədiyyətə qovuşdu.

Həhayət, düz 27 il sonra 20 oktyabr 2020-ci ildə Ali baş komandan İlham Əliyev cənabları Zəngilanın işğaldan azad edilməsi müjdəsi ilə bizə sevinc yaşatdı. Sanki günəşin parlaq şəfəqləri gözlərimizi qamaşdırdı, duman, çən yox oldu. Bu sevinci xalqımıza yaşadan və səmadan boylanan şəhidlərimizin ruhu idi.

Dəyərli oxucular, həmvətənlər. Bu kitabı mütləq oxuyun. Oxuyun ki, yaddaşıınız təzələnsin, məktəbə yollananda sinənizi «bəzəyən» beşgüşəli qırmızı ulduz, fəxrlə boynunuza keçirdiyiniz qan qırmızı qalstukun mahiyyətinin bəlkə indi fərqində olaq.

Son olaraq bildirirəm ki, vətənpərvərliyi özünə həyat meyarı, daxili aləminin özəyi, mayası seçən, ana torpağa bütün varlığı ilə bağlı olan Hacı Əli Sobulunun yaradıcılığı daxili, mənəvi, fizioloji ağrılardan keçir. Bu yükü daşımaq, çəkmək hər kəsə nəsib olmur. Çünki Rəsil Rza demişkən:

«Dindirin məni,
Yükü çiynimdə,
Qayğısı beynimdə»dir

**Yazıçı publisist Alı Rəhimoğlu (Əliyev)**

## Pirçivan

Pirçivan kəndi indiki Zəngilan şəhərinin əvvəlki adıdır. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra düz on il yeni quruluş olan sovet hökuməti ölkəni Azərbaycan Xalq Cümhuriyyətinin inzibati bölgüsü əsasında idarə etdi. 1930- cu ildə isə burada yeni inzibati ərazi vahidləri olan rayonlar yaradıldı. Zəngilan rayonu 1930-cu ilin avqust ayında təşkil olunandan sonra rayon mərkəzi kimi ilk olaraq kənd Zəngilan seçildi. Lakin həmin il burada malyariya xəstəliyi baş verdiyindən mərkəz Pirçivan kəndinə köçürülüb. Ola bilsin ki, xəstəlik olmasaydı da rayon mərkəzi Pirçivana köçürüləcəkdi. Çünki kənd Zəngilanın ərazisinə baxanda Pirçivan daha perspektivli sayılırdı. Pirçivan toponiminə geniş izah vermək fikrində deyiləm. Qısası deyim ki, bu ad ərazidəki Pirlə bağlıdı.

Pirçivan sözünün kökündə pir sözü var. Kəndin qarşısında dağın təpəsində əhalinin ziyarət etdiyi bir pir var. Bura yerli əhalinin ziyarət etdiyi yerlərdən hesab olunurdu. Çox güman ki, bu ziyarət yerinin Islam dini ilə bağlılığı yoxdur. Ziyarət olunan yer İslamdan xeyli əvvələ aid edilə bilər. Kənd deyərdim ki, qədim yaşayış məskənidir. Çünki, kəndin ərazisi həm karvan yollarının kəsişdiyi yerdə yerləşməklə yanaşı, həm də ki, ətrafı çox da hündür olmayan dağlarla əhatə olunub. Bu hündürlüklərdən karvanların işarə verilməklə qəbulu və yola salınması üçün istifadə edilirdi.

Keçmişdə və eləcə də orta əsrlərdə karvanlar uca dağlardan məşəllə işarə verilməklə qəbul olunub yola salınardı. Çünki müəyyən yerlərdə həm karvanlar dincələr, həm də ki, bəzi mallar mübadilə edilərdi.

Pirçivan kəndi iki hissədən ibarətdir. Birinə köhnə Pirçivan, əsas hissəyə isə sadəcə Pirçivan deyilib. Əsas hissə Zəngilan şəhərinin Məscid düzü deyilən yerdə, köhnə Pirçivan isə şəhərimizi bu hissə ilə ayıran dərənin (son illərdə orada yerləşən MTS-in şimal tərəfində) şimal tərəfindəki hissə idi. Son illərdə

köhnə Pirçivan yaşayış massivi buradan «Çeşməgözü»nə kimi olan geniş bir ərazini əhatə edirdi.

Niyə ora köhnə Pirçivan deyilirdi. Bu «köhnə» ifadəsi qədim yox, evlərin nimdaşlığı səbəbindən köhnə adlanırdı. Çünkü əgər Məscid və kəndin bəylərinin şəxsi evləri əsas hissədə idi, köhnə Pirçivan qədim ola bilməzdi. Çox güman ki, köhnə Pirçivanda bəylərin təsərrüfatında işləyən əhali yaşayır və orada da qalırdılar. Əsas hissədə də bəylərin xidmətçiləri yaşayırdı. Əsas hissənin qədimliyini llk növbədə ərazidə olan tarixi memarlıq abidələri və epiqrafik (yazılı daşlar, kitabələr) abidələrlə müəyyən edərdilər.

Təbii ki, əlimizdə elə yazılı kitabələr yoxdur. Biz qəbiristanlıqlara əsasən fikir yürüdə bilərik.

Əsas hissədə son illərdə istifadə olunmayan suvarma kanalının, Milis şöbəsinin köhnə binasının şərq hissəsində, şəhərin ilk hamamlarından olan ərazidə qədim bir qəbiristanlıq qalıqları aşkar edilmişdir.

Bu ərazidə 1960-61-ci illərdə yeni bazarın tikintisi zamanı aparılan planlaşdırma zamanı traktorla planlama işləri aparılarkən insan kəlləsi və digər sümüklər üzə çıxmışdı. Bu ərazidə sovet hakimiyyətinin ilk illərində inşa edilmiş kiçik gücə malik GES-in (Su Elektrik Stansiyası) işlədilməsi üçün kanal çəkilmişdi. Kanal demək olar ki, lap qəbiristanlığın ortasından keçib gedirdi. Mən özüm bu hadisənin şahidiyəm.

Onu deyə bilərəm ki, bu qəbirisrtanlıqda heç bir yerüstü iz yox idi. Pirçivan kimi kiçik bir kənddə bir qəbiristanlığı doldurmaq üçün məntiqlə desək 50-100 il bəs eləməz. Bunun üçün ən azı min il gərəkdi.

İkinci bir qəbiristanlıq isə köhnə Pirçivan ərazisində Beşdəli kəndi istiqamətinə gedən yolun üstündə idi. Burada da deyərdim ki, sovet hökümətinin qurulduğu illərdə, daha doğrusu, XX əsrin əvvəllərində dəfn aparılmırdı. Bu qəbiristanlıq da dolmuşdu.

Zəngilanın, daha doğrusu, Pirçivanın sayca bilinən üçüncü qəbiristanlığı isə İkinci dünya müharibəsindən sonra salınmışdı.

Bu, şəhərinizin son qəbiristanlığı oldu.

Yekunda bir arxeoloq olaraq onu deyim ki, Pirçivan kimi kiçik bir kənddə iki qəbiristanlığın bağlanması və üçüncüsünə ehtiyac yaranması onu deməyə əsas verir ki, kəndin ən azı 2 min il tarixi var.

Bu mənim fərdi-subyektiv yanaşma üslubumdur. Qarşı tərəfləri də dinləmək, fikir mübadiləsi etmək tarixinmizi tədqiq edib yeni məlumatlar əldə etmək baxımından xeyirli olar.

Pirçivanlı Asif Kərim oğlu Bağırovun dediklərindən:

-60-cı illərdə köhnə Pirçivanda təxminən 25-30 ev var idi. Bunlardan Kəlba Musa (o, qara Allahverdi ilə bacanaq idi) dayının (Qurban Quliyevin atası), Mikayıl Qarayevin, qara Allahverdi dayının (onların əsli Üdgün kəndindən gəlmədi), Hümbətoğlunun (oğlanları İsmayıl, Məhərrəm, Quluş dayılar), əslən Bartazdan olan Seyfulla dayının (Y.Hacıyevin atası, onlar haradasa müharibə illərində (1941-1945) burada yaşayırdılar), Yaqub (çoban) dayının (yoldaşı Tavat, oğlu Təhsil şöbəsinin kassiri Süleyman), Xudaverdi dayının (Ərşad Mehtiyevin atası İbiş dayının əmisi oğlu), Mirseyib dayının ( oğlu Cümşüd) Cəbrayılın, Nobat xalanın (Göyüşov İlyasın anası), Durna xalanın, (Ərşad Mehtiyevin anası), Məmmədvəli dayının, Anaxanım xalanın (qızları Asya və Sadat, Anaxanım Gülüş Məmmədovun bacısıdır), Allahverdinin (yoldaşı Şahnisə), əslən Qazançı kəndindən olan Quliyev İskəndərin, Cəbrayılın, onun oğlu Ramazanın evləri (o 1993-cü ilin oktyabrında şəhid olmuşdur) var idi. İşğal zamanındakı Pirçivan evlərinin əksəriyyəti 1960- cı ildən sonra tikilib.

Asif müəllim bildirir ki, ola bilsin bəzilərini unutmuşam, məni üzrlü hesab etsinlər.

Kiçik bir kəndin bu qədər qəbiristanlığı olması onun qədimliyini təsdiq edir.

Oxucuların və Pirçivanlıların marağına səbəb ola biləcək bir məlumatı da bildirim.

Şəhərimizdə çoxlarının, xüsusən də yaşlı və orta nəslin

tanıdığı Qurban, Fərman, Məmməd və Mehman Quliyevlərlə, milis Ərşad Mehtiyev, həmçinin Əli, Bəhmən (bu iki qardaş 56-60-cı illərdə Zəngilan yığma futbol komandasının əsas oyunçularından idi) və Bahadur Allahverdiyevlər xala oğludurlar. Eyni zamanda tanınmış hərbi həkim, tibb elmləri namizədi tibb xidməti polkovniki Mürşüd Məmmədov isə Ərşad Mehtiyevin bibisi oğludur.

Zəngilanda sovet hakimiyyəti 1920-ci ildə qurulsa da əsas dövlət qurumları 1930-cu ildən sonra, yəni rayonlar yaradılanda təşkil olunmağa başladı. İlk illərdə rayon ərazisində partiya xəttini Zəngilan dairə firqə komitəsi və onun Nağdalı Ocaqverdiyevdən, Xanməmməd Xanməmmədovdan, Əkil Allahverdiyevdən və Niftalı Niftəliyevdən ibarət olan Rəyasət Heyəti, Rayon İcraiyyə Komitəsinin funksiyasını isə Zəngilan Dairə İcraiyyə Komitəsi həyata keçirirdi. **Fond 50. Opis 1.delo 3.səh 53.**

1929-cu ilə olan məlumata görə Zəngilan Dairə İcraiyyə Komitəsinin sədri Əkil Allahverdiyev olub**.**

Rusiya İmperiyası zamanındakı bölgüyə əsasən Pirçivan 19-cu kənd dairəsinə daxil edilib. Bu dairədə Genlik, Malatkeşin, Pirçivan və Şəhərcik (Tağlı) adlı kəndlərdəki evlərin sayı (tüstü deyilirdi), əhalisi (kişi və qadınlar ayrı-ayrılıqda) barədə məlumat verilir. 1886-cı ilə aid olan bu statistik məlumatlar 1893-cü ildə Tiflisdə bir hayın mətbəəsində çap olunub. (Bax səh 11)

## Şəhərin tarixindən.

İndiki Zəngilan şəhərinin adı əvvəllər Pirçivan adlanırdı. Sovet hakimiyyətinə qədər indiki şəhərin ərazisində bir Məscid və buranı idarə edən bəylərin şəxsi mülkündən və təsərrüfat binalarından başqa bir fərli bina yox idi. Pirçivanın yerli əhalisinin bir qismi köhnə Pirçivanda yaşayırdı. Ərazinin qədimliyini burada olan ilk qəbiristanlıq göstərir. Sonrakı illərdə bura rayon mərkəzi kimi seçiləndən sonra köhnə qəbiristanlığın yanında yeni bir



СВОДЪ
СТАТИСТИЧЕСКИХЪ ДАННЫХЪ
О НАСЕЛЕНИИ
ЗАКАВКАЗСКАГО КРАЯ,
ИЗВЛЕЧЕННЫХЪ ИЗЪ ПОСЕМЕЙНЫХЪ СПИСКОВЪ 1886 Г.

ИЗДАНЪ,
По распоряженію Главноначальствующаго гражданскою частію на Кавказѣ,
ЗАКАВКАЗСКИМЪ СТАТИСТИЧЕСКИМЪ КОМИТЕТОМЪ

ТИФЛИСЪ.
Типографія И. Мартиросіанца, Орбел. ул., д. № 1, 2.
1893.



| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 16. Охчинское с. о. . . | | | 423 | 2056 | 1505 | 3561 | 138 | 809 | 705 | 285 | 1247 | 800 |
| 987 | Аткизъ . . . . . | | | 18 | 71 | 49 | 120 | — | — | — | 18 | 71 | 49 |
| 988 | Геджананъ (Каджаранцъ) . . . . | | | 46 | 256 | 209 | 465 | 46 | 256 | 209 | — | — | — |
| 989 | Курди-кендъ . . . | | | 36 | 227 | 215 | 442 | 36 | 227 | 215 | — | — | — |
| 990 | * Охчи . . . . . . | 75 | 25 | 160 | 662 | 460 | 1122 | — | — | — | 160 | 662 | 460 |
| 991 | Паниелы . . . . . | | | 33 | 198 | 167 | 365 | 33 | 198 | 167 | — | — | — |
| 992 | Пир-Довуданъ . . | | | 30 | 132 | 91 | 223 | — | — | — | 30 | 132 | 91 |
| 993 | Фурхутъ (Пирхудъ) | | | 28 | 128 | 114 | 242 | 28 | 128 | 114 | — | — | — |
| 994 | Шабадин-Охчи . | | | 77 | 382 | 200 | 582 | — | — | — | 77 | 382 | 200 |
| | 17. Пирчеванское с. о. | | | 271 | 664 | 525 | 1189 | — | — | — | 271 | 664 | 525 |
| 995 | Генлыхъ (К—) . . | | | 83 | 175 | 143 | 318 | — | — | — | 83 | 175 | 143 |
| 996 | Малат-кешишъ. . | | | 115 | 315 | 250 | 565 | — | — | — | 115 | 315 | 250 |
| 997 | * Пирчеванъ . . . | 80 | 30 | 50 | 121 | 90 | 211 | — | — | — | 50 | 121 | 90 |
| 998 | Шагарджикъ 2-й (Таглу) . . . . | | | 23 | 53 | 42 | 95 | — | — | — | 23 | 53 | 42 |

qəbiristanlıq da yaranır. Bu qəbiristanlıq şəhərin son illərə kimi yeganə və son qəbiristanlığı oldu.

Şəhərin ərazisində 1920-ci ilə kimi bir Məscid və dörd ədəd ikimərtəbəli bina mövcud olub ki, bunlar bu ərazinin bəylərinə məxsus idi. Sonrakı illərdə Pirçivan rayon mərkəzi kimi təsdiq olunandan sonra burada yeni inzibati və şəxsi binalar tikildi və rayon mərkəzi böyüdü. 1993- cü ilin məlumatına görə şəhərin əhalisi 10.000 nəfərə yaxın olub.

Rayon haqqında nəşr olunmuş kitab və məqalələrdə qeyd olunur ki, Həmdullah Qəzvininin yazdığına görə Zəngilanın əsası 639-cu ildə qoyulmuşdur. Maraqlısı odur ki, heç birində mənbə göstərilmir və tarix də bir-biri ilə düz gəlmir. Birində 639, digərində isə 636-cı il qeyd olunur.

Bunu mən araşdırdım və belə bir məlumat tapdım. Onu sizlərə təqdim edirəm.

**XIII əsr səyyahı Həmdullah Qəzvini (*Həmdullah Mustovfi Qəzvini*** *(1281-1346) —Elxanilər dövlətinin vaxtında şair, tarixçi, çoğrafiyacı-Ə.S.)* «**Nüzhət əl-qülub əsərində Kür və Araz çayları arasındakı** ərazini **Aran vilayəti adlandırır. Əsərdə göstərilir ki, Bərdə şəhəri eramızdan əvvəl Makedoniyalı İsgəndər tərəfindən salınıb. Sonralar Sasani şahı Qubad ibn Firuz şəhərdə geniş abadlıq, inşaat işləri aparıb. Mü**əllifin Xüdafərin körpüləri barədə məlumatları xüsusilə maraqlıdır. O, yazır ki, Araz çayı üzərində Zəngilan yaxınlığındakı (*onbir aşırımlı*) **körpu hicri tarixi ilə 15-ci ildə (636-cı il) Məhəmməd (saas) Peyğəmbərin (saas) yaxın adamlarından Bərk ibn Əbdallah tərəfindən salınmışdır. Buna görə də «Xüdafərin», yəni «Allah yaratmış»** körpu adlanır. On beş aşırımlı körpünü isə Karkar ticarət mərkəzinin yaxınlığında xeyriyyət məqsədilə Diya əl-Mülk Naxçıvani saldırmışdır». ommons.wikimedia.org

Buradan aydın görünür ki, söhbət Xudəfərin körpüsünün salınması tarixindən gedir, Zəngilanın yox. Ola bilsin ki, XIII əsrdə Qəzvini Xudafərin körpüsünün, yaşadığı dövrdə mövcud olan Zəngilanın yaxınlığında olduğunu bildirmək istəmişdir. Bu o demək deyildi ki, Zəngilanın əsası bu ildə qoyulub. Körpünün, hər hansı bir binanın müəyyən ildə inşa edildiyini demək olar. Zəngilan bir binadan ibarət deyil ki, onun əsası bir ildə qoyulsun. Qədim şəhərlərin əsasının konkret olaraq filan ildə qoyulub ifadəsi yanlışdır.

Zəngilanın keçmişi ilə bağlı ən dəyərli və dəqiq məlumatlar Yeməzli kəndi yaxınlığında tapılmış sikkələrdir. Onlar Böyük

İskəndər (e.ə 336-323–cü illərdə Makedoniya çarı. Eramızdan əvvəl 356-323-cü illərdə yaşamışdır) dövrünə aiddir. Bu sikkələr buraya göydən düşməyib, onu bura gələn tacirlər, səyyahlar gətirmişlər. Belə olan halda Zəngilan rayonunun tarixi bizim eranın 639-cu ilinə yox, 2.300 il əvvələ, (bizim eradan əvvələ) gedib çıxır. Yeməzliyə gələn tacirlər və səyyahlar mütləq ya Araz çayından keçməklə Həkəri çayı boyunca, ikincisi də Naxçıvan tərəfdən Araz boyu gələrək Oxçuçayı boyunca hərəkət etmiş və oraya gedib çıxmışlar. Hər iki çayın hövzəsi Karvan yolları üçün çox əlverişli idi. Buna əsaslanaraq deyə bilərik ki, Zəngilanın (kənd Zəngilandan söhbət gedir) əsası 639-cu ildə qoyula bilməz. Onun tarixi bizim eradan əvvəlki dövrə gedib çıxır.

XX əsr millətimiz və məmləkətimiz üçün fəlakətlər dövrü oldu. Tarixi torpaqlarımız dəfələrlə parçalandı, bölüşdürüldü, hərraca qoyuldu. Xalqımız tarixində ən çətin bir sınaq qarşısında qaldı. Bir millət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdıq.

Müəyyən hallarda bunun qarşısı alınsa da fəlakətdən, sürgünlərdən, deportasiyalardan yaxamızı tam qurtara bilmədik.

XX əsrin son rübündə isə ərazimiz yenidən müharibələr meydanına çevrildi. Bu sınaqdan da məğlub ayrıldıq və torpaqlarımızın yenə bir hissəsi (20-%) işğal olundu. Bu ərazilərdə on minlərlə yaşayış məntəqələrimiz düşmən tapdağına düşdü. Tarixi yer adlarımız getdikcə tarix səhnəsindən silinməyə məruz qalır.

Mən də boya-başa çatdığım yer barədə bildiklərimi, eşitdiklərimi və gördüklərimi qeyd etmək qərarına gəldim ki, gələcəkdə yeni doğulacaq nəsillər bunu heç olmasa unutmasınlar.

P.S. 2020- ci ilin 20 oktyabrında müzəffər Azərbaycan ordusu Zəngilan şəhərini və kəndlərini işğaldan azad elədi.

**1929. Zəngilan Dairə Firqə Komitəsinin heyət rəyasət iclasında seçilmişlər.**

**Heyət üzvləri:** Nağdalı Ocaqverdiyev, Xanməmməd Xanməmmədov, Əkil Allahverdiyev, Əli Əhmədov, Niftalı Niftaliyev.

**Aktivlər**: Bayramov Həsənqulu, Kərimov Bəhlul, Quliyev Əzim, Məmmədov Kamran, Nəcəfquliyev Baxış, Həsənquliyeva Yetər. **15 fevral 1929-cu il iclas protokolundan**

**1929.** Bu il dərslər sentyabrın 20-də başlanacaq. 160 nəfər şagirdin 65-i pioner, 50-si isə komsomolçudur.

**7 illik Pirçivan məktəbinin müdiri Baxış Nəcəfquliyevin çıxışından. 15 mart 1929. Protokol 15.**

Baxış Nəcəfquliyev eyni zamanda Zəngilan Dairə Pedaqoji kollektivinin sədri idi.

**1930.** Kənd Zəngilanda malyariya xəstəliyi yayıldığından mərkəz Pirçivan kəndinə köçürüldü**.**

**1930.** Mincivanda ibtidai məktəb üçün 4 otaq tikildi.

**1933.** Pirçivanda (11-ci kilometrdə) qatarların dayanması üçün Culfa rəisindən icazə istənilsin. **Rayon Komitəsinin 28.06.1933-cü il büro iclası, maddə XXII.**

**1935. 1935-**ci ilin I rübündə Çeşməgözü suyu rayona gəlməli, SES (Su Elekrtik Sransiyası) tikintisi qurtarmalı, Pirçivanın bütün küçələri daşlanmalı, Xəstəxananın tikintisi I rübdə başa çatmalı, Xəstəxana nəzdində Aptek açılmalı, diş texniki kabinəsi təşkil olunmalıdır.

**1934-cü ildə keçirilən Zəngilan rayon şuralar qurultayında Cuvarlinskinin məruzəsindəki qərardan.**

Artıq 1935- ci ildən sonra Zəngilanda səsli kino göstərilirdi.

**1948.** Mincivanda 7 illik məktəb açıldı.

**1950.**Şəhərimizdə çörək zavodu, 8 otaqlı yaşayış evi, Su idarəsi üçün 8 otaqlı, Maliyyə şöbəsi üçün 15 otaqlı, Meşə idarəsi üçün 4 otaqlı inzibati binalar tikilmiş, Lenin bağında Leninə heykəl qoyulmuşdu.

**1954.** Mincivanda 2 mərtəbəli məktəb binası tikildi. (dəmiryol tabeliyində)

**1956.** 1937-1956-cı illərdə Rayonda bir dənə də olsa məktəb binası tikilməyib**.**

**1956-cı ilin dekabrında keçirilən XX Partiya Konfransının**

**materiallarından.**

**1960. 1960-**cı ildə tikilib. 32 yerlik mehmanxana, Rayon İstehlak Cəmiyyətinin anbar binası, Zəngilan qəsəbə Dəmiryolu vağzalı, Qonaq evi.

**1964.** Zəngilan qəsəbəsində 8 illik məktəb açıldı.

**1993.** Bu gözəl diyarla vidalaşdıq. 27 Oktyabr 1993. Ən çətin, ağrılı və qara günümüzün başlanğıcı oldu bu tarix. **20.10.2020.** Həsrətimizin, nisgilimizin sona çatdığı gün. Zəngilan şəhəri 27 ilin tamamına 7 gün qalmış işğaldan azad olundu. Şükür Allahın kərəminə.

## Tarixdən vərəqlər. Zəngilan rayon Partiya komitəsinin XVIII konfransından-1954- cü il

1.Telman adına kolxozun sədri **Hüseyn Hüseynov** deyir ki, 200 hektardan dövlətə 580 ton pambıq verməli idik. Lakin biz dövlətə 440 ton pambıq verərək planı 80 % yerinə yetirdik. M. Nağıyev (I katib-Ə.S) yoldaş haqlı olaraq bizi tənqid etdi. Ələt dəmiryolunun kadrlar şöbəsi bizim işimizə mane olur. Belə ki, 78 nəfərə kimi işçini dəmiryoluna işə götürüblər. Bu da işimizə mənfi təsir edir. Mincivan dəmiryolunun növbətçisi işləyən Hüseyn Nuruyev heç bir təhsili olmasa da o işə götürülüb ki, o da daha 6 nəfər kolxozçunu kolxozdan aparıb. Xahiş edirəm bu barədə kolxoza kömək göstərilsin.

2. Rayon xalq Maarif şöbəsinin müdiri **Mamed Əhmədov** (Əhmədov Məmməd Oruc oğlu-Ə.S) deyir ki, rayonun məktəblərində təmir işi çox pis aparılır. Belə ki, Rəzdərə, Bartaz, Canbar məktəblərində yağış yağanda damır. Bu da ondan irəli gəlir ki, rayon Partiya komitəsinin katibləri, İcraiyyə Komitəsinin sədri, rayon partiya və İcraiyyə Komitəsinin işçiləri bu işə fikir vermirlər. Məktəb direktorlarının partiya və İcraiyyə komitələrinə təmir üçün yazılan məktubları mənə göndərilir. Mən həmin işin öhdəsindən gələ bilmirəm. Təmir zamanı yerli Sənaye Kombinatı

da bizə kömək etmir. Azərbaycan SSR Maarif nazirliyi də inşaat materialları sahəsində bizə kömək eləmir. 9 aydır ki, Maarif nazirliyindən bir nəfər də olsa bizim məktəblərə gəlməyib. Müəllimlərə dövlət imtiyazlarının verilməsinə də rayonda fikir verilmir.

3. Dəmiryolu işçisi **Miriyev Miri** yoldaş deyir ki, bəzi idarə müdirləri öz vəzifələrini dövlət və partiyanın göstərişləri əsasında yerinə yetirmirlər. Belə ki, rayon Hərbi Komissarlığı dəmiryolundan Qarakişi adlı işçinin hesabını kəsmədən iş üstündən çağırıb ordu sıralarında göndərib ki, bu da düz deyil. Rayonun kolxoz sədrləri və sovet rəhbərləri işdən çıxandan sonra kolxozda işləmək istəmirlər. Rayona qaçaraq iş alırlar. Bu da ki, indiki tələblərə uyğun deyildir. Kolxoz və sovet sədrləri dəmir yoluna yaxşı baxmırlar. Kolxozçuların və fermanın heyvanlarını dəmir yoluna ötürürlər ki, bunun da nəticəsində avariya baş verir, həm də malın ölümünə səbəb olur.

4. Rayon Komsomol komitəsinin katibi **Oktyabr Rüstəmov** deyir ki, rayon İstehlak Cəmiyyəti və Rabitə idarəsi komsomolçulara yaxşı baxmır. Onları məzuniyyətə buraxmırlar.

5. Molotov adına kolxozun sədri **Ələkbər Sadıqov** yoldaş göstərir ki, Nağıyev yoldaşın məruzəsində bəzi sahələr göstərilməmişdi. Belə ki, mexanizm sahəsində işimiz çətindi, kiçik bir hissədən ötrü maşınlar işləmir. Yaylağa gedəndə çətinlik çəkirik. Mal-qaranın hansı yaylağa gedəcəyi vaxtında bilinmir. Rayonda telefon danışığı pisdir. Söz verirəm ki, bu il hər hektardsan 45 sentner pambıq verim.

6. Rayon «Stalinçi» qəzetinin redaktoru **Məhəmmədəli İsmayılov** yoldaş göstərir ki, biz yerli qəzetlərin işi ilə yaxşı maraqlanmırıq, rayon qəzetlərinin müşavirəsini çağırmırıq. Bəzi sovet sədrləri, kolxoz rəhbərləri qəzetin yazdığı siqnallara fikir vermirlər. Bizim mətbəənin bunası yararsızdır. Çap maşını əl ilə işləyir.

7. Mincivan dəmiryolu 24-cü distansiyanın partiya təşkilatı

katibi **Allahverdi Allahverdiyev** dedi ki, biz Azərbaycan dəmiryolunda birinci yeri tutduğumuza görə keçici bayraq almışıq. Dəmiryolu işçiləri, arasında partiya-siyasi işi aparılmasında raykomun işçiləri xüsusən də Nağıyev yoldaş bizə kömək edib.

Stansiyada bu il vağzal, iki mərtəbəli orta məktəb binası, mağaza tiklib istifadəyə verilib. Lakin stansiyanın elektrik işığına və işməli suya ehtiyacı var.

8. Müəllim **Salahov Seyfəl** dedi ki, bizim məktəbin yerləşdiyi bina keçmiş bəylərin evidir. Məktəb üçün yararsızdır. Müəllimlərə dövlət imtiyazı verilmir. Rəzdərə kənd dükanı müdiri RİC-dən gətirdiyi sənaye və ərzaq mallarını əhaliyə artıq qiymətə satır, əhalini aldadır. Bizim çox işlənən mallara- un, neft, duz, sabuna- ehtiyacmız olduğu halda RİC təmin etmir. Sovetlikdə həkim məntəqəsi yoxdur. Rayon səhiyyə şöbəsi bu işə fikir vermir. Bizim kolxozda heyvandarlıq məhsulları üzə çıxmır. Kolxoz sədri, fermanın işçiləri bunu mənimsəyirlər. Böyük Vətən müharibəsi əlillərinə və həlak olanların ailələrinə qayğı zəifdir.

9. Lenin adına kolxozun ilk partiya təşkilatının katibi **İmran Hacıyev** yoldaş göstərir ki, bizdə istər partiya təşkilatı, istərsə də kolxoz idarə heyətinin pis işləməsi nəticəsində kolxoz bu il pambıq planını 4 faiz kəsirlə yerinə yetirib. Bunun bir səbəbi də MTS-in və rayon təşkilatlarının bizə kömək etməməsindədir. Belə ki, kolxozda dedi-qodular çoxdur, onlar bizim başımızı qatırlar və işimizə maneçilik törədirlər. Kolxozda Səhiyyə işi yarıtmazdır, rayon Səhiyyə şöbəsi bu işə fikir vermir.

10. MTS-in direktoru **A.Həsənov** (Allahverən-Ə.S) yoldaş deyir ki, biz xam torpaqlar hesabına əkin yerlərini genişləndirə bilərik. Lakin bizdə olan texnika ilə bunu edə bilmirik. Biz 18 kolxoza xidmət edirik. Üç ildir ki, mərkəzi təşkilata bir ekskavator verilməsini xahiş etsək də xəbər yoxdur.

Dağlıq kolxozların əkin ərazisini genişləndirmək üçün biz yuxarı təşkilatdan bizə iki korsovka kotanı verilməsini xahiş etsək də hələ də bir xəbər yoxdur.

Kənd təsərrüfatı maşınlarını saxlamaq üçün bir navesimiz (talvar) yoxdur. Kolxozlarda da maşınlara pis baxılır. Onlar bir naves belə tikməmişlər. Maşınların ehtiyat hissələrinə böyük ehtiyac var. Bizə ayrılan hissələr Horadizdə olan bazaya gəlir. Biz xəbər tutana kimi yaxın rayonlar bizim hissələri də alıb götürürlər. «Kalinin» adına zavod da bizə kömək etmir. Mən təklif edirəm ki, Akara stansiyasında rayonlararası təchizat bazası yaradılması üçün yuxarı təşkilatlar qarşısında məsələ qaldırılsın. Bizdə MTM və MTS işçilərinin mənzil şəraiti olduqca yarıtmazdır. Fəhlələr 1934-cü ildə tikilmiş taxta baraklarda yaşayırlar. Xahiş edirəm, fəhlələrin mənzil şəraitini yaxşılaşdırmaq üçün 1955-ci ildə yaşayış binası tikilməsi Mərkəzi təşkilatlar qarşısında qoyulsun.

11. Rayon İstehlak Cəmiyyətinin sədri **Kərim Kərimov** bildirdi ki, ticarət işi sahəsində biz işimizi SSRİ NS və Sov.İKP-nın qərarları səviyyəsində layiqincə yerinə yetirə bilməmişik. Əhalini çox işlənən sənaye və ərzaq malları ilə təmin edə bilmirik. Bu da ondan irəli gəlir ki, kəndlərdə olan dükan binaları yararsızdır, kolxoz sədrləri isə bu binaların təmir olunmasına fikir vermirlər. Dükan müdirlərini isə bacarıqlı kadrlarla yerli təşkilatlar təmin etmir. Bizim isə kənd dükanlarını bina ilə təmin etməyə və təmir etdirməyə ixtiyarımız yoxdur. Əhalinin, kolxozların xüsusən inşaat materiallarına olan tələbatını təmin edə bilmirik. Çünki «**Azərittifaq**» bizə olduqca az inşaat materialı verir.

12. Rayon partiya komitəsinin təşkilat şöbəsinin müdiri **Əbil Həsənov** yoldaş göstərir ki, rayon partiya komitəsinin şöbə müdirləri ilk partiya təşkilatları ilə sıx əlaqə yarada bilməmişlər. Partiya təşkilatlarında kommunistlərin tərbiyəsi ilə təşkilat katibləri yaxından məşğul olmurlar, partiya təşkilatlarında partiyaya qəbul işi yaxşı təşkil edilmir, qabaqcıl kolxozçulardan, fəhlələrdən, mexanizatorlardan partiya sıralarına qəbul edilməmişdir. İlk partiya təşkillatlarında ictimai təşkilatların işinə yaxından köməklik edilmir, ictimai təşkilatların işi yalnız üzvlük haqqı toplamaqla bitmiş olur. Mincivan Qovşağında

komsomol təşkilatının işi kifayət qədər təşkil olunmayıb və buna rayon komsomol Komitəsi fikir verməmişdir.

İlk partiya təşkilatları xüsusən də «Lenin», «Telman», «Kommuna» kolxozları, Tədarük idarəsi ilk partiya təşkilatı katibləri çox iclaslar keçirtmələrinə baxmayaraq qəbul etdikləri qərarların icrasını yoxlamayıblar. Yazdıqları protokollar məzmunsuz və səliqəsizdir.

13. Rayon prokuroru **Yusifov** yoldaş göstərir ki, Sov. İKP-nın sentyabr, Fevral və Mart plenumlarının qərarlarından sonra ölkəmizdə cinayət işləri xeyli azalmışdır. Bununla bərabər rayonumuzda da keçən illərə nisbətən cinayət işlərinin baş vermə halları azalmışdır. Kolxozlarda bəzi hallarda kənd təsərrüfatı arteli nizamnaməsinin pozulması halları baş verir ki, biz belə hallara qarşı pis mübarizə aparırıq. Bu vəziyyət rayonun «Molotov», «Lenin» və «Kommuna» kolxoz idarə heyətlərinə aiddir. Zəhmətkeşlərin şikayətlərinə idarələrdə yaxşı baxılmır. Bu iş xüsusən RİK-də, MTS-də daha çoxdur. Qeyd etməliyəm ki, «Andreyev» adına kolxozun idarə heyəti haqqında qaldırılmış cinayət işinə Qaryagin prokurorluğu tərəfindən yoxlanılmış və sübut edilmədiyi üçün xətm edilmişdir. Hazırda Xocahan-Şərifan su kanalının çəkiliməsi bir sıra kolxozların iqtisadiyyatını kökündən yaxşılaşdırılmasına səbəb olacaqdır.

14. «Andreyev» adına kolxozün sədri **Nəcəfqulu Nəcəfquliyev** yoldaş göstərir ki, MTS bizim kolxozda 80 hektar şüm və 15 hektar karsovka aparmalı olduğu halda ancaq 15 hektar şum aparmışdır. MTS-in partiya təşkilatı katibi bizim işi yarımçıq qoyaraq traktorların marşrutunu başqa kolxoza vermişdir. Şayıflı məktəbi rayonun ən ucqar kəndlərini əhatə etdiyi halda hələ də orada orta məktəb açılmayıb. Mən xahiş edirəm, həmin kənddə 1955-1956- cı dərs ilində orta məktəb açılması nəzərdə tutulsun. Bizim kolxozdan 30 nəfərə qədər ailə dəmiryoluna işə girmişdir. Xahiş edirəm, həmin kolxozçuların kolxoza qaytarılması üçün tədbir görülsün.

15. Voroşilov adına kolxozun sədri **Məhərrəmov Məhərrəm** yoldaş göstərir ki, 1955-1960–cı illərdə kolxozlarda əkin sahələrini daha da genişləndirmək lazımdır. Bizdə torpaq sahəsi çoxdur. Lakin bu sahəni abadlaşdırmaq üçün mexaniki qüvvələr çatmır. Bu il kolxozçularımızın hər bir əmək gününə 15-16 manat pul və 2-3 kiloqram taxıl veriləcəkdir. Kolxozda pambıq sahələrini aqrotexniki qaydada becərmək üçün planirovka maşını yoxdur. MTS isə bu işdə bizə kifayət qədər kömək etmir. Mən söz verirəm ki, 1955–ci təsərrüfat ilində kolxozda əkiləcək pambıq sahəsinin hər hektarından 35 sentner məhsul götürüləcək və başqa tapşırıqları da layiqincə yerinə yetirəcəyik.

16. Rayon İcraiyyə Komitəsinin sədri **Mehtiyev (**Şəfaət-Ə.S) yoldaş göstərir ki, Zəngilan rayonunun 1954-cü ildə ancaq pambıq planı ödənilmişdir. Qalan planlar hələ də kəsir içərisindədir. 1955-ci ildə planların yerinə yetirilməsində bəzi səhvlərə yol verilir. Belə ki, MTS səpinin dağ kolxozunda başlamaq əvəzinə aran kolxozlarda başlamışdır. Bizdə pambığın əkilməsi 10-12 il əvvəlki qaydada aparılır. Yeni kvadrat yuva üsulu tətbiq edilmir, pambıq şumu gecikir ki, bu da pambıq məhsuldarlığının aşağı düşməsinə səbəb olur. Bizdə mexanizatorlar indiki tələblərlə ayaqlaşa bilmirlər. Traktor briqadaları ən azı orta təhsilli mexanizatorlar olmalıdır. Bizdə heyvandarlıq işinə fikir verilmir. Kolxozlarda hələ də bir inək belə tövlə şəraitində bağlanıb saxlanılmır. Baş zootexnik Camalov bu işdə yarıtmaz işləyir. Rayonun yerli Sənaye kombinatı və yerli Sənaye Arteli də yarıtmaz işləyir. Rayona heç birköməklik göstərə bilmirlər.

17. Canbar 7 illik məktəbinin ilk partiya təşkilatı katibi **Əli Ağalarov** yoldaş göstərir ki, məktəb binası tam mənası ilə deyə bilərəm ki, yarıtmaz vəziyyətdədir. Belə ki, bina xüsusi məktəb binası olmayıb şəxsi evdir və yağış yağanda otağa damlayır, binanın otaqları siniflər üçün çatmır. Müəllimlər tənəffüs zamanı bayırda qalır, müəllimlərin təminatı işi olduqca yarıtmazdır,

müəllimlərə dövlət imtiyazı vaxtlı–vaxtında verilmir. Mən xahiş edirəm, bir məktəb binası tikilməsi nəzərdə tutulsun.

18. Lenin adına kolxozun sədri **Bəhlul Məmmədov** yoldaş göstərir ki, zorla kolxoza işçi gətirmək kolxozun adına ləkə vurur. Gərək kolxozda elə şərait yaradılsın ki, kolxozçu kolxozdan qaçmasın. Bu il bizim kolxozda pambıq planının kəsirdə qalmasının səbəbi pambığın becərilməsini aqrotexniki qaydada apara bilməməmizin nəticəsidir. Bir də ondadır ki, Kafandan (Ermənistan Respublikasının Qafan şəhəri, qədim türk yurdu -Ə.S) gələn su pisdir. Belə olanda onun gətirdiyi lil pambıq kollarının dibinə süzülüb onu bərkidir. Kolxozlarda qəflətən yoxlamalar keçirilmir. Bir ildə ən azı 4 dəfə yoxlama keçirilməli olduğu halda il boyu yoxlama keçirilməmişdir. Yoxlamalar ancaq material veriləndə aparılır. Bu işə də MTS pis rəhbərlik edir.

19. Partiya komitəsinin katibi **Nəriman Ağayev** yoldaş göstərir ki, işimizdə nöqsanlar çoxdur. Qeyd etmək lazımdır ki, rayonumuzda bəzi dövlət planlarının yerinə yetirilməməsinin səbəbi rayonumuzun fəal işçilərinin kütlə qarşısında siyasi məruzələrlə çıxış etməməsindədir. Bu işdə biz də az iş görmüşük. Rayonda məktəblərin vəziyyəti barədə rayon Maarif şöbəsinin müdiri Əhmədov yoldaş danışdı. Lakin Əhmədov yoldaş öz nöqsanını başqasının üstünə yıxdı. Məktəblərin təmir olunması və uşaqların məktəbə tam cəlb olunması sovet işidir. Təəssüflər olsun ki, istər RİK-si, istərsə də sovetlər bu işə yaxından fikir vermirlər.

Rayonda kadrların yerləşldirilməsi kolxozlarda pisdir. Belə ki, kadrlar təhsilinə, bacarığına və ixtisasına görə yerləşdirilməmişdir. Bu vəziyyət rayon Səhiyyə şöbəsində, MTS-də, İpək idarəsində, Su Təsərrüfatı idarəsində və s. idarələrdə vardır. Qeyd etmək lazımdır ki, rayon Səhiyyə şöbəsində ailəlikçiliyə yol verilmişdir.

Bəzi hallarda rayon Partiya komitəsinin qəbul etdiyi qərarlar yersiz qalır. Belə ki, 2 nəfər kommunist partiyadan xaric edilmiş

və təsdiq üçün Azərbaycan KP MK-nə göndərilmişdir. Lakin bir ildən artıqdır ki, heç bir cavab alınmamışdır. Buna görə də bəzi dar düşüncəli kommunistlər rayon Partiya komitəsinin qərarını yerinə yetirmir. Buna görə də iki nəfər kommunist Savalan Süleymanov və Sona Kərimova partiya üzvlüyündən namizədliyə keçirilmişdir.

Mən əminəm ki, rayonunuzun zəhmətkeşləri Daşkənd müşavirəsinin çağırışına qoşularaq 1955-ci təsərrüfat ilində qarşıda duran bütün vəzifələri layiqincə yerinə yetirəcəklər.

20. Karl Marks adına kolxozun sədri **Bürcalı Əhmədov** yoldaş göstərdi ki, biz bu il pambıq planını yerinə yetirmədik və kəsirdə qoyduq. Bunun səbəbi odur ki, bizdə briqadirlər düzgün seçilib yerləşdirilməyib. Habelə bizdə qabaqkı illərə nisbətən pambıq sahəsi və məhsuldarlıq xeyli artmışdır. Buna görə də onu becərməyin öhdəsindən gələ bilmirik. Rayon Partiya və İK-si kolxozda olan geriliyin qarşısını vaxtında almır. Kolxozda mal-qaranın yemlə təmin edilməsi işi yaxşı deyildir. Ona görə ki, bizim kolxozda torpaq sahəsi çatmadığına görə yonca və başqa şirəli yemlər əkilmir. Dəmir yolunun kolxozlara köməyi pisdir. Belə ki, bizə lazım olan şeyləri bir yerdən gətirmək üçün əsassız süründürməçiliyə yol verilir.

21. Stalin adına kolxozun sədri **Cümşüd Abdullayev** yoldaş göstərir ki, bizim kolxozda olan 210 hektar pambıq sahəsində və fermalarda işləmək üçün işçi qüvvəmiz çatmır. Kolxozda növbəli əkinə keçmək üçün sahə çatmır. Kolxozdan Sovet Ordusu sıralarına xidmətə gedənlər qayıdandan sonra kolxoza yox, dəmiryolunda işə girərək öz ailələrini də kolxozdan çəkindirirlər. Söz verirəm ki, 1955- ci ildə hər kektardan 35 sentner pambıq alaq. Xahiş edirəm ki, Hacallı 7 illik məktəbinin 1955-1956-cı dərs ilində 10 illik məktəbə çevrilməsi indidən nəzərdə tutulsun.

22. 2057 N-li hərbi hissənin siyasi işlər üzrə rəis müavini **Minaev** yoldaş göstərir ki, kənd təsərrüfatını gələcəkdə daha

inkişaf etdirmək sahəsində Sovet xalqı ciddi müfəvvəqiyyətlərə nail olmuşdur. O cümlədən, bizim rayonda kənd təsərrüfatının inkişafında irəliləmə vardır. Ayrı–ayrı kolxozlarda bizim ziyalılar içərisində hələ də keçmişin qalığı olan dini mövhumata inanmaq, seyidə itaət etmək kimi hallara da rast gəlinir. Bu ondan irəli gəlir ki, hələ də partiya siyasi işi kifayət qədər aparılmayır. Rayonun sərhəd kəndlərinin əhalisi sərhədçilərə kömək etmək əvəzinə bəzən sərhədçiləri içirib sərxoş edirlər. Bəzi hallarda sərhəd qaydalarını pozurlar. Bəzi kolxozların rəhbər işçiləri siyasi izahat işlərinə az fikir verilər.

23. Azərbaycan KP MK-nın nümayəndəsi **Əbilov** yoldaş göstərir ki, rayon Partiya komitəsinin katibi Nağıyev yoldaşın məruzəsi geniş olmaqla bərabər xırda şeylərə yol verilmişdir. Halbuki bu məruzədə Sentyabr plenumunun qərarlarının yerinə yetirilməsi barədə məlumat olmalı idi. Məruzə tənqidi olmadı. Rayon Partiya komitəsinin büro üzvləri tənqid olmadı. Məruzə və çıxışlardan bəlli oldu ki, bəzi ilk partiya təşkilatları xeyli iclas keçirib qərarlar çıxarmış, lakin bu qərarların icrası yoxlanılmayıb. Buna görə də təsərrüfat və heyvandarlıq sahəsində hələ də gerilik vardır. Bəzi iriləşdirilmiş kolxozların iqtisadiyyatının zəifliyi nəticəsidir ki, hələ də həmin kolxozların nə bir maşını nə də bir arabası yoxdur. Aydın oldu ki, bəzi kolxozlarda pul bölgüsü olmayıb. Bu da kolxozçuların yaşayışına təsir etməyə bilməz. Rayonun kəndləri mədəniyyət sahəsi üzrə geridir. Rayonda qadınlar arasında aparılan iş kifayət qədər deyildir. Qadınların istər irəli çəkilməsi, istərsə də partiya sıralarına qəbulu zəifdir. Hesabat ilində partiyaya 33 nəfər qəbul edilib ki, bunların da 22 nəfəri qulluqçudur. Halbuku qəbul edilənlərin əksəriyyəti qabaqcıl kolxozçu, fəhlə və mexanizatorlardan yetişdirilib keçirilməlidir.

Yoldaşlar, istər məruzədə, istərsə də çıxışlarda xususən maarif, səhiyyə və başqa nazirliklər haqqında danışılan kəsir cəhətləri biz borcluyuq ki, Azərbaycan KP MK və Azərbaycan SSR NS

vasitəsi ilə onlara lazımi göstərişlər verək və əmin olduğumuzu bildiririk ki, Zəngilan rayon Partiya təşkilatı 1955-ci ildə qarşıda duran bütün vəzifələri müvəffəqiyyətlə yerinə yetirəcəkdir.

Azərbaycan KP Zəngilan rayon Partiya komitəsi katibi:

**M.Nağıyev.** **Imza və möhür.**

## Pirçivan kəndi

Pirçivan Oxçuçayın sağ sahilində düzənlikdə yerləşir. Onun qərb tərəfində alçaq təpəlilkər, Şərq tərəfini isə Oxçuçayı əhatə edir. Kəndin həm cənub, həm də ki, şimal hissələrində olan təpəliklər ərazini sanki hər iki tərəfdən qapayır.

İnqilabdan əvvəlki Pirçivan o qədər də böyük olmayıb. Kənd təzə və köhnə Pirçivan olmaqla iki hissədən ibarət idi Onları bir-birindən az suyu olan bir dərə ayırırdı. Pirçivanın hər iki hissəsində əsasən yerli əhali yaşayır və Təzə Pirçivanda olan bəylərin mükəlləfiyyətlərini yerinə yetirərdilər. Köhnə hissədə elə bir gözəgəlimli bina olmayıb. Burada kəndin qədim qəbiristanlığı var idi. Təzə hissədə isə bəylərin mülkləri və yardımçı binaları və bir də Orta əsrlərə aid bir Məscid var.

Pirçivan sözünün mənşəyi barədə onu deyə bilərik ki, bu pir sözü ilə əlaqədar yaranıb. Dilçilərin yazdığına görə van şəkilçisi şəhər və yer anlamına gəlir. Buna əsasən deyə bilərik ki, Pirçivan pirlər olan yer deməkdir. Pirçivanda olan Pir də bunu təsdiq edər. Sovet hakimiyyəti illərində Zəngilan rayon kimi təsdiq olunandan sonra bu kənd rayon mərkəzi kimi təsdiq olunur və Zəngilan adlandırılır.

Mövcud qanuna görə rayon mərkəzi ilə rayonun adı eyni olmalı idi. Bu səbəbdən də Pirçivan kəndi Zəngilan adlanrdırılmış və ona 1957-ci ildə qəsəbə statusu verilmişdir.

# PİRÇİVAN KƏNDİNİN ƏSAS BİNALARI

**a. Məscid.** Pirçivan kəndində əsas binalardan biri Orta əsrlərə aid Məsciddir. Bu dini mərkəzin Səfəvilər zamanı inşa edildiyi bildirilir. Sovet hakimiyyəti illərinə kimi Məscid kimi istifadə edilsə də 1920-ci ildən sonra o öz funksiyasını dəyişmiş və müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Əvvəllər M.C.Bağırov adına kolxozun istifadəsində olan bina son illərdə RİC-nin balansına verilmiş və ondan anbar kimi istifadə olunmuşdur.

**b.** Sovet hakimiyətindən əvvəlki Pirçivanın əsas binaları bəylərin evlərindən və bir də Məsciddən ibarət olub. Bu bəy evləri sovetlər gələndə ilk olaraq inzibati binalar kimi isitifadə olundu. Dövlət qurumlarının yerləşməsi üçün başqa bina da yox idi, yenisini də tikmək üçün zaman lazımdı. Odur ki, Sovetlər bu binalarda ən mühüm dövlət orqanlarını yerləşdirdilər.

Bu binaların biri **Gəray** adlı bəyə məxsus idi. Orada ilk dövrlərdə Rayon Partiya komitəsi yerləşdi. Burada rayon Partiya komitəsi ilə bərabər, rayon komsomol komitəsi də yerləşirdi. Bina ikimərtəbəli olub üzü günçıxana baxırdı. Sonrakı illərdə tələbata görə əsas binaya yardımçı otaqlar da əlavə olundu.

**c**. İkinci belə bir binada son illərə kimi Rayon Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi yerləşirdi. Bu bina isə **Ağa** adlı bəyə məxsus idi. O da ikmərtəbəli idi və onun da üzü gündoğana baxırdı. Bu binaya da əlavə yardımçı otaqlar tiklimişdir. Burada rayon XDS İcraiyyə Komitəsi ilə yanaşı, Arxiv idarəsi, Vətəndaşlıq Vəziyyətləri Aktlarının Qeydiyyatının (VVAQ, rusca ona ZAQS idarəsi deyirdilər) Zəngilan rayon şöbəsi də yerləşirdi. Müxtəlif dövrlərdə burada başqa qurumlar da olub.

Bu binada işlədiyimdən onu bir qədər geniş təsvir edəcəyəm. Bina qeyd etdiyim kimi ikimərtəbəli idi. İkinci mərtəbədə son illərdə bu otaqlar mövcud idi. Sol tərəfdən eni 2 metr, eni 4 metr, eni 2 metr, eni 4 metr və eni 3 metr olan 5 otaq və qarşısında da eni 2 metr olan dəhliz var idi. Dəhlizin baş tərəfində isə ölçüsü 3x3-metrlik daha bir otaq vardı. Ola bilər ki, bu otaqlar sonradan

bölünüb və iş otaqları üçün uyğunlaşdırılıb. Bu, əsas bina idi. Binanın həm sol, həm sağ, həm də ki, ön tərəflərində əlavə otaqlar tikilmişdi. Binanın sol tərəfində eni 5, uzunluğu 8 metr olan bir otaq və qarşısında da katibə üçün bir otaq tikilmişdi. Bu əlavə otaqda RİK-nin sədri otururdu. Koridorun sağ tərəfində isə eni 4, boyu 5 metr olan bir otaq da inşa edilmişdi ki, burada da sədrin müavini otururardı. Binanın sağ tərəfində, yəni şimal tərəfdə də əlavə aynabənd tikilmişdi. Binanın ikinci mərtəbəsinə qalxmaq üçün əsas pilləkan günçıxan tərəfdə idi. İkinci bir pilləkan isə cənub tərəfdə yerləşirdi.

Binada son illərə kimi rayon İK-si, Arxiv İdarəsi, VVAQ-nın rayon şöbəsi, Əmək müvəkkilliyi, rayon Bədən tərbiyəsi və İdman komitəsi yerləşirdi.

ç. Sayca üçüncü bina **Nəzər** adlı bəyin idi ki, orada da rayon Daxili İşlər Şöbəsi və Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) rayon şöbəsi yerləşirdi. Sonralar DTK Rayon şöbəsi üçün yeni bina tikildi və bura tamam Milis şöbəsinin ixtiyarına verildi.

**d.** Dördüncü bina da ikimərtəbəli idi və orada son illərə kimi rayon Hərbi komissarlığı fəaliyyət göstərirdi. Bina **Humay** adlı bəyə məxsus olub.

Bu binaların hamısınnın ikinci qatında bəy və onun ailəsi, alt qatda isə qulluqçular və atlar saxlanılırdı. Bunlardan əlavə onların bir qədər aralıda yardımçı binaları da var idi. Evlərin hamısının önündə geniş bağ salınmışdı. Bağlarda dövrünə görə yaxşı meyvə ağacları əkilib.

## Zəngilan şəhərinin küçələri

**1 May** küçəsi rayon Partiya Komitəsinin köhnə binasından qərbə, eyni zamanda RİK-nin binasından şimala doğru Dağüstü parkın ətəyində olan küçədir. Küçənin sakinlərindən Babayev Aslan, Bayramov A, Əliyev Əliş, Əliyev Əliyar, Əliyev İxtiyar, Əsədov Rəsul, Həsənov Muxtar, İbişov Heydər, İsmayılov Sabir, Kərimov İsmayıl, Kərimov Mirzəxan, Qurbanov Allahqulu,

Mehtiyev Şəmil, Mehtiyev Təhmasib, Məmmədov Abas, Məmmədov Yusif, Namazov Bəxtiyar, Nəbiyev Behbud, Nəbiyev Həsən, Paşayev Ağalar, Rüstəmov Müzəffər, Rzayev Rzaxan, Sadıqova Bəyim, Səfərov Əli, Səfərov Əsgər,Yarışov Allahverdi, Yarışov Alməmməd, və s. yaşayırdı.

**28 May** küçəsi şəhərimizdəki köhnə milis idarəsinin və mərkəzi kitab mağazasının yanından şərqə tərəf başlanır, 1 saylı orta məktəbin qarşısından və arxasından keçərək ilk orta məktəb binasının qarşısında qurtarırdı. Küçənin sakinlərindən Qarayev Əzizi, Quliyev İsmayılı, Həsənov Allahverəni, Heydərov Məhəmmədi, Vəliyev Əlişi, Məmmədov Bəbiri, Həsənov Bəyləri, Qocayev Əlini, Şərifov Fehruzu, Cəfərov Səfiyarı, Kərimov Heydərqulunu, Bədirov Sefini (əsil adı Seyfulla), Həsənov Mürvəti, Vəliyev Qasımı, Əliyev Həmidi, Cəfərov Aydını qeyd edərdim.

**Cəfər Cabbarlı küçəsi** şəhərimizin köhnə Pirçivan adlanan hissəsində, Dilnavaz xanımın mağazasının yanından həm şərq tərəfə Oxçuçay istiqamətinə, həm də ki, qərbə, qəbiristanlığa tərəf uzanan küçədir. Küçənin sakinlərindən Abdullayev Ş, Allahverdiyev Firudin, Ataxanov Müzəffər, Babayev Məmməd, Bağırov İbad, Bədəlov Qənbər, Bəxtiyarov Məhəmmədəli, Əsgərov Eldar, Fərəcov Atlıxan, Hacıyev Cəfər, Həsənov N, Həsənova Gülsüm, Hətəmov Camal, Hətəmov Yaqub, Hüseynov Ələmşah, Hüseynov Şükür, İskəndərov Xuduş, Kərimov Atakişi, Quliyev Camal, Quliyev Nəriman, Quliyev Şirin, Quliyev Müslüm, Qurbanov Gülüş, Qurbanov Kamil, Mehrəliyev Nəcəf, Məhərrəmov A, Məmmədov Muxtar, Məmmədov Səfəralı, Məmmədov İzzət, Miriyeva Məstan, Mirzəyev Fəxrəddin, Nəcəfov Yusif, Orucov Oruc, Rzayev Məhərrəm, Səfərov Bəndalı, Şəfiyev Atakişini qeyd edərdim.

**Hüsü Hacıyev küçəsi** 144 saylı TPM-dən (sonralar rayon Mərkəzi Xəstəxanası ərazisindən) Yusifov Rəşidin evinə qədər uzanan küçə idi. Bu küçənin sakinlərindən tanıdıqlarımı, bildiklərimi qeyd edirəm.

Abasov Hüseyn, Abbasov Nurəddin, Bağırov Qubad, Bağırov Məhəmməd, Bağırov Süleyman, Bağırov Urman, Eyvazov Soltan, Əhmədov Abdulla, Əliyev Əli, Əliyev Əli, Əliyev Xürrəm, Əliyev Mədət, Əliyev Vəli, Həsənov Niftalı, Həşimov Ələsgər, Hüseynov Qaçay, Hüseynov Yusif, İmanov Şahsuvar, İsmayılov Cəlal, Qarayev Qara, Qasımov Cəlal, Qəribov Rafiq, Quliyev Alıqulu, Quliyev Əli, Quliyev Məhərrəm, Mehtiyev Nəsib, Məhərrəmov Nizami, Məmmədov A, Məmmədov Ələsgər, Məmmədov Əli, Nəcəfov Əliağa, Nəcəfov İmran, Nəsirov Çərkəz, Niftalıyev Niftalı, Orucov Tapdıq, Paşayev Tariyel, Rüstəmov Qəzənfər, Rzayev Mirhəsən, Şərifova Asya, Şükürov Şükür, Yusifov Rəşid, Yusifov Surxay və s.

İsmayıl Sailov adına küçə isə müasir İcra hakimiyyətinin qarşısındakı küçə idi. Burada park salınandan sonra küçə demək olar ki, yox oldu.

**Karl Marksın** adını daşıyan küçə isə şəhərimizin baş küçəsi idi. Bu küçə İpək İdarəsinin yanından başlar, Məscid düzündən keçərək Çeşmə gözünə qədər gedib çıxırdı**.** Bu küçədə rayon milis şöbəsi, prokurorluq, DTK-nın rayon şöbəsi, Mərkəzi Aptek, kitab mağazası, şəhərimizin ilk çörək zavodu yerləşirdi.

Sakinlərdən Məmmədov Piri (sağda), Əvəz (sağda), Ağayev Möhübbət (sağda), Talıbov Şükür (sağda), Bəşirov Arif (sağda), Abışov Çingiz (sağda), Əliyev Əli (sağda), Fərəcov Akif (solda), Şükürov Tofiq (solda), İskəndərov Əyyub (solda), Əliyev Nəriman (solda), Hüseynov Əli (solda), Orucov Zalı (sağda), Salahov Malik (sağda), Nəbiyev Vaqif (solda), İctimai yaşayış binalarından bir neçəsi (sağda), Paşayev Əziz (solda), Paşayev Nüsrət (sağda), Əliyev Mirəliağa (sağda), Paşayev Seyfəddin (sağda), Qocayev Səməd (solda), Qocayev Telman (solda), Məmmədov Məmməd (sağda), Quliyev Vəli (həkim solda), Hüsüyev Namaz (sağda) və s. evləri dəqiq qeyd edərdim.

Bunlardan əlavə, bu küçənin dəqiq yerini bilmədiyim sakinlərinin evləri bunlardır.

Abbasov Rəfael, Ağayev Siyavuş, Ağakişiyev Söhbət, Əzimov

Muxtar, Əzimova Səmayə, Əkbərov Ələsgər, Ələkbərov İsa, Ələkbərov Fərrux, Əliyev Arif, Əsədov Çingiz, Əsədov Şəmil, Əsgərov İmran, Əsgərov Eyvaz, Alməmmədov Oruc, Almuradov Xanqulu, Alıyev Alı, Alışov Sərməs, Alişov Dadaş, Alışova Sadat, Allahverdiyev Bahadur, Allahverdiyeva Rəna, Allahverdiyev Əli, Allahverdiyev İ, Atakişiyev Məmi, Ataxanov Müzəffər, Əhmədov Bürcalı, Əhmədova Bahar, Əhmədov Məmməd, Bayramov İbrahim, Balakişiyev İsmayıl, Bəxtiyarov Nəriman, Vəliyev Abdulla, Hacıyev Ramazan, Hacıyev Qurban, Həmzəliyev İslam, Qəribov Camal, Hətəmov Fərəməz, Həşimov Həsən, Gözəlov İsfəndiyar, Qocayev Yusif, Hüseynov Salam, Hüsüyev Hüsu, Hümbətov Məhəmməd, Cabbarov Qarakişi, Cavadov Salam, Cəfərov Şirzad, Cəfərov Bəxtiyar, Cəfərov Əli, Cəfərov Bəhram, Cəfərov Ələkbər, Dünyamalıyev Əkbər, Zeynalov İsmayıl, İmamverdiyev Cabbar, İmanov Əvəz, İskəndərov Qürbət, İsmayılov Əli, Qarayev Yavər, Qarayev Dilavər, Qasımov Əziz, Qasımov Əbil, Qasımov Teymur, Kərimov Namaz, Quliyev Allahverdi, Quliyeva Əfşan, Quliyev Mehman, Quliyev Məmməd, Quliyev Müseyib, Qurbanov Ağamalı, Qurbanova Himayət, Məmmədov Məmməd, Məmmədova Güşara, Məmmədov Qərib, Qurbanov V, Məmmədova Xanpəri, Məmmədov Məhəmməd, Məmmədov Heydər, Məmmədyarov Əli, Məhərrəmov Telman, Mehtiyev Bəhram, Mehtiyev Gürşad, Mirzəyev Adil, Miriyeva Sevil, Müzəffərov Hüseyn, Muradov Mürvət, Müsayev Məmməd, Muxtarov Səfər, Nəcəfov Əmir, Niftəliyeva Zeynəb, Niftəliyeva Lala, Niftəliyev Qüdrət, Orucov Gülməmməd, Rzayev Nəriman, Rüstəmov Şahsuvar, Səfərov Gülməmməd, Səfərov İsmayıl, Sultanov Camal, Fərəcova Fatma, Fərzəliyev Balay, Fərəcov Rasif və s.

**Kommunist küçəsi** köhnə Pirçivan adlanan yaşayış məntəqəsindən Beşdəli kəndinə gedən yolun şərq tərəfindəki təpələrin arxasından Çeşmə gözünə tərəf uzanan küçə idi.

Küçənin sakinlərindən bəziləri bunlardır. Abbasov Qurban, Ağayev Oruc, Adıgözəlov Aşur, Əliyeva Həcər, Əmiraslanov

Çapay, Aslanov Əliş, Əhmədov Əhməd, Əhmədov Məhiyəddin, Bağırov Yusif, Balacayev Zakir, Bədəlov Şahsuvar, Hacıyev Yadulla, Həsənov Məmmədəli, Həsənov Zülfüqar, Həşimov İzzət, Quliyev Şahbaz, Quliyeva Şəfiqə, Hüseynov Şəmil, Hüseynov Ağaverdi, Hüsiyev Aslan, Hümbətov Hümbət, Cavadov Hidayət, Cəfərov Z, Zeynalov Zeynal, İsmayılov İsmayıl, Qasımov Pəhlivan, Kərimov Nəriman, Quliyev Qurban, Quliyev Cümşüd, Quliyev Şahbaz, Quliyev İskəndər, Quliyeva Xanım, Quliyev Fərman, Quliyev Soltan, Quliyev Famil, Quliyev Hümbət, Məmmədov Ədil, Məmmədov Musa, Məmmədov İbrahim, Məmmədov Musa, Məmmədov Səfəralı, Məmmədyarov Rəhim, Mehrəliyev Zöhrab, Mehtiyev Ərşad, Mirzəyev Ələsgər, Mustafayev Musa, Nəbiyev Məhəmməd, Nəbiyev İsa, Nəzəralıyev İbiş, Niftalıyev Niftalı, Niftalıyev Fikrət, Rüstəmov Baxış, Səfərov Məmməd, Süleymanov İsmayıl, Tağıyev Tağı, Tağıyeva Dilarə, Fərmanov Aftandil, Şıxəliyev Arif

**Lenin küçəsi.** Lenin küçəsi Texniki peşə məktəbinin yanından başlayaraq şərqə doğru, köhnə xəstəxanaya kimi, yəni Oktyabr küçəsinə kimi uzanırdı.

Bu küçədə ictimai binalar Texniki peşə məktəbi, Rayon İcra hakimiyyətininn yeni binası (solda), rayon partiya komitəsinin köhnə binası (sağda), rayon qəzeti redaksiyası (sağda), Rabitə qovşağı (sağda), rayonun yeni mərkəzi parkı (solda), rayonun ilk qonaq evi (sağda), Rayon hərbi komissdarlığı (solda), RİC-nin köhnə binası (sağda), Ovçular cəmiyyəti (sağda), Qaz idarəsi (sağda), rayon Maliyyə şöbəsi (solda), Əmanət bankının köhnə binası (solda), uşaq aləmi mağazası (solda), ərzaq mağazası (solda), rayonun ilk ictimai binalarından biri (hansı ki, burada rayon partiya komitəsinin I katibləri yaşayırdı) yerləşirdi. .

Bu küçənin hər iki tərəfindəki küçəyə birbaşa çıxışı olan evlər bunlardır.

Sağ tərəfdəkilərdən Əhmədov Bürcalı, Nəbiyev Şirin, Quliyev Süleyman, Hümbət, İbadov Baloğlan, Rüstəmov Oktyabr, Səfərov İskəndər, Nazbəyim, Zamanov Qara, Babayev Aslan,

Əbdül İbiş oğlu, Səttarov Əli, bir nəfər, Babayev Nəriman, Hüseynov Mansur, bir nəfər, daha bir nəfər, Quliyev Allahverdi (Ovçular cəmiyyətinin arxasında), Vəliyev Mürsəl, Kazımov Loğman, Cabbarov Cəfər, Cəfərov Alı, Kərimov Nəzir.

Sol tərəfdəkilərdən Nəbiyev Vaqif, Məmmədov Rza, Məmmədov Nüsrət, Mahmudov Mehtiqulu, Sayılov İltimas, Kərimov Hüseyn, Ağayev Nəriman, Əhmədov Zülfü.

**Küçənin arxa hissəsində olan evlər.**

Abbasov Abbas, Ağəmmədova Sona, Baxışov Calal, Bayramov Firudin, Cavadov Hidayət, Cəfərov İbrahim, Eyvazov Eldar, Ələsgərov Əkbər, Əliyev Ənvər, Əsədov Əsəd, Əsgərov Gülağa, Əsgərova Hürzad, Hüseynov Süleyman, İsmayılov Əziz, Kazımov Hümbət, Quliyev Adil, Quliyev Xürrəm, Mahmudov M, Məmmədov Xasay, Məmmədov Əbülfəz, Məmmədov İbrahim, Məmmədov Yavər, Mustafayev Vəli, Nuriyev Haqverdi, Ramazan (sürücü), Səfərov Soltan

**Məşədi Əzizbəyov** küçəsi şəhərimizdəki suvarma (GES arxı) kanalının qərb tərəfində olan küçədir. Bu küçə həm kanalın şərq tərəfindəki evləri, həm də ki, şəhər stadionunun ətrafında olan evləri əhatə edir. Bu küçənin tanıdığım sakinlərindən.

Cənubdan şimala doğru suvarma kanalının sağında və solundakı evlər.

İbrahimov Vahid (sağda), Nəbiyeva Güllər (sağda), Bağırov Şamı (bir az aşağıda sağda), Haqverdiyev İsa (sağda), Kərimov Heydərqulu (solda), Qurbanov Şamxal (sağda), Qurbanov Muradxan (bir az aşağıda sağda), Qurbanov Kərim (solda), Qurbanov Soltan (bir az aşağıda sağda), Cümşüdlü Əli (sağda), Məmmədov Zakir (sağda), Məmmədov Əli (sağda), Məmmədov Cümşüd (bir az aşağıda sağda), Məmmədov Yaqub (bir az aşağıda sağda), Şərifov Niftalı (sağda), Musayeva Qəmər (sağda), Allahverdiyev İslam (sağda), Nəniş xala (solda), Əliyev Qurban (sağda), Aslanov Yusif (sağda).

Stadionun ətrafındakı evlərdən.

Abasov Rafiq, Abdullayev Mədət, Ağalarov Ağalar, Ağayev

Zöhrab, Bağırov Şəhriyar, Camalov Sabir, Camalov Qərib, Cəfərov Bəxtiyar, Dünyamalıyev Qüdrət, Əhmədov Məhiş, Əhmədov Əhməd, Cahangirov Nurəddin, Həsənov Həsən, Həsənov Xansuvar, Həsənov Kərim, Hüseynov Fərrux, Kazımov Eldar, Kərimov İsa, Kərimov Şahsuvar, Kərimov Vilayət, Qurbanov Xanlar, Qurbanov Nəsir, Mehtiyev Yavər, Məmmədov Heydər, Muradova Fatma, Nəsirova Durna, Nuriyev Arif, Rəhimov Umud, Səkinə xala, Tarverdiyev X

**Mir Bəşir** küçəsi isə dəmiryolu stansiyasından bir qədər Məscidə tərəf olan yerdən başlayaraq cənuba, Həsənova Sənəm Allahverən qızının mağazası və Baytar müalicəxanasına kimi uzanırdı. Burada rayon Baytarlıq müalicəxanası və Sənəm Həsənovanın işlədiyi (əvvəllər Suqurət Mustafayev işləyib) ərzaq və sənaye malları mağazası yerləşirdi. Bu ərazidə olan evlərdən bəziləri bunlardır.

Abbasov Fərman, Abbasov İdris, Abbasov Mürvət, Abdullayev Famil, Abışov Ağahüseyn, Ağalarov Şirin, Ağayev Nəriman, Azadov Əsgərxan, Babaşov Məmməd, Babayev Əbdül, Babayev Şükür, Cabbarov C, Camalov Cümşüd, Cəfərov Musa, Davudov Sabir, Dünyamalıyev İsrafil, Əhmədov Famil, Əhmədov Hüsü, Əhmədov Qabil, Əhmədov Məmməd, Əliyev Musa, Əliyeva Əsli, Əliyeva Gülbahar, Firudinov Musa, Firudinov Hüseyn, Hacıyev Qurban, Hacıyev Tofiq, Heydərli Soltan, Heydərov Yaşar, Həsənova Dilşad, Həsənov Səlim, Həsənov Sərxan, Həziyev Məmməd, Hüseynov Həsən, Hüseynov Q, Hüseynov Murtuza, Hüseynov Mustafa, Hüseynov Sahib, Hüseynov Zeyqəm, Ismayılov Qabil, İsmayılov M, Kərimov Mürvət, Kərimov Ramazan, Quliyev Aydın, Quliyev Ruslan, Quliyeva Əsli, Mahmudov Yəhya, Mehtiyev Bəhlul, Məhərrəmov A, Məmmədov Qurban, Məmmədov Bəykişi, Məmmədov Dağbəyi, Məmmədov Əmir, Məmmədov Xasay, Məmmədov Səttar, Nağıyev Nadir, Nağıyev Nadirxan, Nəcəfov H, Nəsibov Əbil, Nəsibov F, Niftəliyev İsa, Paşayev Şirin, Rəsulov Abdun, Rzayev

Əvəz, Rzayev, Kərimxan, Şıxəliyev İdris, Təhməzov Azad, Təhməzov Ziyad

**Molla Pənah Vaqif küçəsinin yerini dəqiqləşdirə bilmədim**

**N.Nərimanov küçəsi.** Nəriman Nərimanovun adını daşıyan küçə tunel adlanan yaşayış sahəsindən Milis idarəsinin qarşısına kimi, ortadan bir qədər sola, sonra da sağa dönərək Suvarma kanalına kimi uzanan küçədir. Burada Əhaliyə Məişət Xidməti Kombinatının inzibati binası, bir qədər aşağıda Lenin küçəsi ilə kəsişən yerdə sağ tərəfdə Hərbi Komissarlıq, küçənin sonunda düz qarşıda Milis idarəsi, yanında Əmanət kassası yerləşirdi. Küçənin sakinlərindən Abbasov Ərşad, Ağalarov Şirin, Əsədov Qanvoy, Əsgərov Allahverdi, Gülməmmədov A, Həşimov İbadulla, Həsənov Xanlar, Məmmədov Mərdan, Məmmədov Rəşid, Nağıyev Bəşir, Rüstəmov Rüstəmin evləri yerləşirdi.

**Natəvan k**üçəsi yeni yaşayış massivlərindən biri olan və Rəzdərə kəndinə gedən yolun sol tərəfindəki ərazidə idi. Burada evlər yeni və çox olduğundan çox güman ki, hamısının yerini dəqiq bilmədiyimdən və tanımadığımdan tam qeyd edə bilməyəcəyəm. Küçənin sakinlərindən tanıdıqlarım bunlardır. Abdullayev Cəbi, Əliyev Akif, Aslanov Süleyman, Aslanov Eldar, Əhmədov Məmməd, Baxşəliyev Cəmil, Vəliyev Ramazan, Davudov Davud, Cəbiyev Əvəz, Camalov Fikrət, Cəfərov Salman, Həşimov, Zeynalov Şükür, İsbəndiyarov Ş, Quliyev Sabir, Quliyev İsfəndiyar, Məmmədov Fərrux, Mehrəliyeva Hürü, Namazov Sahib, Xəlilov Xəlil.

**Nizami küçəsi O**ktyabr küçəsindən Həsənov Davudun evinin arxasından cənuba doğru rayonun əsas kino klubuna qədər olan ərazini əhatə edir və K.Marks küçəsi ilə birləşir. Buranın sakinlərindən əlifba sırası ilə bunları qeyd edərdim. Ağayev Əsgər, Əhmədov Aqil, Əhmədov Əfrayıl, Əkbərov İsa, Əsədov Rafiq, Əsgərov Əsgər, Əsgərova Tərlan, Hacıyev Tofiq, Həsənov Xankişi, Həsənov Şahsuvar, Həziyeva Nubar, Hüseynov Qurban,

Xəlilov Qüdrət, İmaməliyev Rəhim, İsmayılov Qanvoy, Kazımov Telman, Qasımov Allahverdi, Quliyeva Zeynəb, Məmmədov Bəhlul, Məmmədov Heydər, Məmmədov Qurban, Mustafayev Qurban, Mustafayev Mansur, Vəliyev Şəmil, Yaqubov Həsən, Zeynalov Xudu,

**Oktyabr küçəsi.** Oktyabr küçəsi Şəhərimizdən Rəzdərə kəndi istiqamətinə gedən yolun yanından, yəni Yol idarəsinin, RİK-nın sağ tərəfindən başlayaraq Məscid düzündən keçərək Dəmiryolu vağzalının yanındakı qovşaqdan sağ tərəfə dönüb Mincivan yolu istiqamətində davam edər və şəhərin çıxışında bitərdi. Küçənin sağ və solunda yerləşən ictimai binalar bunlardır. Yol idarəsi (solda), Uşaq bağçası (solda), RİK (solda), Köhnə xəstəxana (sağda), ərzaq mağazası (solda), Universam (sağda), Məscid (sağda), RİK-nin sənaye anbarı (sağda), RİK-nin qarajı (sağda)

Şəxsi evlər. Ağayeva Sucəhət, Cümşüdov Cümşüd (sağda), Mustafayev Mustafa (sağda), Nəcəfov Bəhram, Əhmədov Məmməd (sağda), Əsədov Şəhriyar (sağda), İskəndərov İskəndər (sağda), Fərhadov Əli (sağda), Nağıyev Əhməd (sağda), Vəliyev Sultan (solda), Quliyev Xəlil (solda), İbrahimov Xəlil (solda), İbrahimov Qasım (solda), Bağırov Asif (solda), Hüseynov Abbas (sağda), Cahangirov Fəxrəddin (solda), Kazımova Məhliqa (solda), Allahverdiyev Bəhmən (sağda), Həsənov Davud (solda), Səfərov Həmzə (solda), Şahbəyim (sağda), Həsənov Əbil (sağda), Qədimalı (solda), Ağayev Səhiyəddin (solda), Rzayev Nurəddin (solda), Məmmədov Musa (solda), Məmmədov İzzət (solda), Qüdrət (solda), Məmmədov Məmməd (solda).

Küçənin evlərinin yerini dəqiq bilmədiyim sakinləri. Abbasov Yusif, Abasov Vahid, Ağayev M, Camalov Məşi, Əliyev Əli, Əliyev Xəzri, Əliyev Əvəz, Əsgərov İsmayıl, Aslanov Şəmil, Haqverdiyev İsa, Bayramova Z, Hacıyev Rüstəm, Həsənov Şahsuvar, Həsənov Şəfaət, Həsənov Hüseyn, Göycəyev Xanməmməd, Hüseynov Hüsü, Hüseynova Lala, Hüseynova Şahbəyim, Hüseynov Mafura, Hüseynov Bəndalı, Camalov Məşi, Cəfərov Zümurxan, Gülü, İbrahimov Hüseyn,

Kərimov Almәmmәd, Kәrimov Kәrim, Kәrimov Adil, Quliyev Cümşüd, Quliyev Nәcәfqulu, Quliyev Novruz, Kazımova Mәlәk, Kazımova Tamilla, Mәmmәdov Cәlal, Mәmmәdov Zülfüqar, Mәmmәdquliyev Gülmәmmәd, Mәhәrrәmov Tofiq, Mönsümov İsa, Muxtarov Nәriman, Nәcәfov Z, Namazov A, Nәsibov Әdil, Niyazov İbrahim, Rәsulov Qulu, Rüstәmov Әmrah, Sәmәdov Qüdrәt, Sәfәrov Nüsrәt, Süsәn xala

**Sәmәd Vurğun küçәsi** Tarix Diyarşünaslıq müzeyinin qarşısından başlayan 2 saylı orta mәktәbin qarşısından sağa dönәrәk dәmiryoluna kimi davam edir. Bu әrazidә olan ictimai binalarda yaşayanlar da qeydә alınıb. Eyni zamanda, son illәrdә inşa edilәn Aptek binasının yanıdan da bir küçә başlayar vә günçıxan istiqamәtindә davam edәrәk dәmiryolu xәttinә kimi uzanırdı. Bu әrazidә yaşayanların bir qismi bu küçәyә, bir qismi dә S.Vurğun küçәsinә aid edilib. Bu әrazidә yaşayanlar, Әlәkbәrov Allahverdi, Әlәkbәrova Leyli, Әliyev Qara, Әliyev Zakir, Haqverdiyev Bәhram, Әhmәdov Mәmmәd, Әhmәdov Bәhmәn, Bayramov Mahmud, Bәşirov Şәrif, Hacıyev İmran, Hәsәnov Әnvәr, Qocayev Mәsud, Qocayev Mürsәl, Hüseynova Suvara, Hüseynov Akif, Hüsiyev Hüsü, Davudov Әfqan, Cәfәrova Pәri, İbadov Xanoğlan, İmanov Allahverdi, İsmayılova Dilara, Qarayev Qüdrәt, Kәrimov İsmayıl, Quliyev Şәmil, Quliyev Qәşәm, Quliyev Qulu, Qurbanov Şirin, Mәmmәdov Fәsi, Mәmmәdov Almas, Mәmmәdov Aftandil, Mәmmәdov Rәhim, Mәmmәdov İbrahim, Mәmmәdov İbiş, Mustafayev Nüsrәt, Nәbiyev Әli, Nәsibov Ziyad, Rüstәmov Mikayıl, Salahov Zülfüqar, Şükürov Әşrәf vә s.

Şıxәli Qurbanov küçәsi Yeni Aptek vә Mirzәxanın dükanı olan yerdәn başlayır vә dәmiryoluna (Yusifov Rәşidin evinә kimi) kimi davam edir. Bu küçәnin sakinlәrindәn Hüseynov Gülmәmmәdi, Haqverdiyev Bәhramı, Salahov Zülfüqarı, Mәmmәdov Әsәdi, Mәmmәdov Fәsini, Quliyev Qulunu qeyd edә bilәrik.

## Bir daha Zəngilan toponimi barədə

Zəngilan sözünün mənasını bir çox araşdırmaçılar öz düşüncələrinə və tədqiqatlarına uyğun izah edirlər. Bir çoxları onu zəngi tayfası ilə, bəziləri onu Ordubadın Gilan şəhərindən bura köçüb gələnlərlə (Əli Sobulu), bir qismi də buranın çox münbit torpağı olması səbəbindən zəngin ərazi kimi qeyd edirlər (Salam Cavadlı). Tədqiqatçı alim Məhəmməd Cabbarova görə isə Zəngilan sözünün mənası «daşlıq-qayalıq» mənasını verir. Bunların hamısı ağlabatandır və kimin haqlı olduğunu kollektiv tədqiqatçıların yekun rəyi təsdiq edə bilər.

Mənim ikinci bir fikrim də var. Qeyd edildiyi kimi Zəngilan ərazisi tarixən karvan yollarının keçdiyi bir məkandır. Karvan yolları isə əsasən çay vadilərindən keçər. Zəngilan ərazisində də 4 böyük çay olduğundan bu daha rahat və münasib olurdu. Orta əsr karvanlarının əsas nəqliyyatı isə dəvələrdir. Karvanlar müəyyən məsafədən bir dayanar, dincələr və sonra yollarına davam edərdilər.

Zəngilan ərazisində olan Şükürataz yüksəkliyi, Bartaz qız qalası, Əsgülüm və Süsən dağlarının zirvələri və eləcədə bu Pir müşahidə məntəqələri kimi istifadə olunub. Karvanların bir yerdən digər yerə hərəkət etməsi müəyyən qaydalarla tənzimlənirdi. Onların mənzil başına çatdıqları bu yüksəkliklərdə olan, müşahidə məntəqələri vasitəsi ilə xəbər verilirdi.

Orta əsrlərdə karvanlar gecələr məşəllələrlə yola salınırdı. Gündüzlər isə ola bilsin ki, müəyyən siqnallar verməklə (məsələn daşla dəmirlə müəyyən səslər, siqnallar verilməklə) ola bilərdi.

Deməli, zəng və yola düşmək, yola salmaq ifadələri bir birini bağlayır. Buna əsaslanaraq deyə bilərik ki, Zəngilan sözünün bir mənası da zənglə yola salma, zənglə yola salınan, zəng çalan, anlamını verir. Sonralar Zəng çalanın Zəngilan olması ehtimalı da ağlabatandır.

## Tarixdən vərəqlər

**1724**-cü ildə İstanbul müqaviləsi ərazimizi iki yerə bölür.

**1724-1735**-Zəngilan Osmanlı İmperiyası tərkibində

**1735-1747**-Zəngilan Nadir şahın imperiyası tərkibində

**1747-1806** Qarabağ Xanlığı tərkibində

**1828**- bu ilə kimi Bəsitçaydan qərbdə olan ərazi Naxçıvan, şərqdə olan ərazi isə Qarabağ xanlığı tərkibində olub.

**1840-1846-**Zəngilan Xəzər vilayətinin Şuşa qəzası tərkibində.

**1868-1918**-Zəngilan Yelizavetpol quberniyası tərkibində. Bu dövrdə rayonun ərazisi gah Zəngəzur, gah da Cəbrayıl qəzaları tərkibində olub. Həkəri çayından qərbdə olan ərazi bir qəzanın, şərqdə olan ərazi isə digər qəzanın tərkibinə daxil olub.

**1918-1920** Azərbaycan Xalq Cümhuriyyətinin Zəngəzur qəzası tərkibində.

**1923-1929** Azərbaycan SSR-nin Kürdüstan qəzası tərkibində.

**1925.** Zəngilan Cəbrayıl qəzası ərazisində göstərilir və dövrün xəritəsində Genlik, Aladin, Dəlləkli kəndləri qeyd olunur.

**1927.** Ermənistan MİK (Mərkəzi İcraiyyə Komitəsi) Azərbaycan MİK-dən xahiş edir ki, Qafan mis mədənlərindən Mincivana şose yolu çəkilməsinə icazə versin. O zaman hələ Mincivan-Qafan dəmiryoli xətti yox idi. İcazə verilir ki, şose yolu çəkilsin.

**1929.** Pirçivanda məktəb mövcud idi.

**1930-**cu ilin 08 avqustundan müstəqil rayon oldu

**1930.** Kənd Zəngilanda malyariya xəstəliyi yayıldığından mərkəz Pirçivan kəndinə köçürülür.

**1930. 10 avqust,** Pirçivan kəndi Zəngilan adlandırılır.

**1930.** Əhali ilə bərabər idarə və müəssisələr də yaylağa köçürülür.

**1930-**Mişiyev İsaq Zəngilan rayonunun ilk Raykom katibi seçilir.

**1930-1933-**Zəngilan-Qubadlı bir rayon halında olub.

Bakı-Culfa dəmiryolu xəttinin çəkilməsinə 1915- ci ildə başlanılsa da I dünya müharibəsi səbəbindən iş dayandırılıb. 1920- ci ildə isə tikinti işlərinə yenidən başlanılıb. Bu səbəbdən də 22.13.1928 -ci ildə Həkəri çayı üzərində dəmiryolu körpüsü tikilməsinə qərar verilib. Ələt-Culfa xətti 1 may 1930-cu ildə Mincivan stansiyasına çatdırıldı. Yolun uzunluğu 283 km idi.

Eyni zamanda Mincivandan Ermənistan SSR-nin Qafan şəhərinə uzunluğu 39 km olan bir qanad çəkildi.

07 noyabr 1932 ci ildə Mincivan-Qafan xətti tikintisi başa çatdırıldı və 1936- ci ildə tam istifadəyə verildi.

07 noyabr 1932- ci ildə Mincivandan Qafana ilk yük qatarı yola salındı.

**s 76-78. Alı Rəhimoğlu Oqtay Zəngilanlı.. Mincivan: sirki-soraqlı dünyamız. Bakı. Elm və təhsil.152 s.**

**1933.** Rayon rəhbərliyi Sobu kəndinin Qolubnitski, Canbar kəndinin isə Şahnəzaryan adlandırılması barədə Qərar qəbul edib, mərkəzdən onun təsdiqini xahiş edir. Xöşbəxtlikdən mərkəzdəki bəzi vətənpərvərlərin hesabına bu qərar qəbul edilmir.

**1933**. Pirçivanda dəmiryolu stansiyası tikilməsi və burada qatarların 1-2 dəqiqə dayanması üçün Culfa dəmiryolu stansiyası rəisindən icazə istənilir.

**1934.** Pirçivan, Keçikli və Məmmədbəylidə məktəb binaları tikilir.

**1936.** Ələt-Mincivan-Qafan dəmiryolu xətti tam istismara verildi.

**1938**- Pirçivanda orta, Sobuda isə 4 sinifli məktəb açıldı.

**1941-** Culfa-Mincivan dəmiryolu xətti istismara verilir.

**1941-** Böyük Vətən müharibəsi başlanır**.**

**1947**. Rayon dövlətə 4.707 ton pambıq satdığına görə 9 nəfərə Sosialist Əməyi Qəhrəmanı, 31 nəfərə Lenin, 36 nəfərə Qırmızı Əmək Bayrağı Ordenləri verilir.

**1948.** Rayon mərkəzi xəstəxanasında rentgen kabineti açılır.

**1950-ci ildə.** Çörək zavodu, 8 otaqlı yaşayış evi, Su idarəsi

üçün 8 otaqlı, Maliyyə şöbəsi üçün 15 otaqlı, Meşə idarəsi üçün 4 otaqlı inzibati binalar tikilmiş, Lenin bağında Leninə heykəl qoyulmuşdur.

**1952.** Rayon mərkəzinə hələ də dəmiryolu vağzalı tikiliməyib.

**1955.** Rayonda hələ də Təcili-tibb xidmət maşını yoxdur.

**1956.** 1952-ci ildə rayon mərkəzinə çəkilişinə başlanılan su xəttinin II hissəsi başa çatmayıb.

Dəmiryolu idarəsindən dəfələrlə xahiş olunsa da hələ də şəhərdə Dəmiryolu vağzalı tikilməyib.

**1959**. Hələ də rayonun Qazançı, Ağkənd, Günqışlaq, Pirveyis, Gəyəli, Vejnəli, Şatarız, Seyidlər, Sobu, Ağakişilər və Fərəcbəyli kəndlərində bir dəfə də olsa kino göstərilməyib.

**1956.** Rayonun baş planı yoxdur.

**1957.** Zəngilana qəsəbə statusu verilir.

**1959.** Alıbəyli kənd xəstəxanası açılıb.

**1937-1956**-cı illər arası bir dənə də məktəb binası tikilməyib.

**1960.** Dəmiryolu vağzalı tikilib.

**1960**. 32 çarpayılıq mehmanxana da tikilib

**1960**. Rayon İstehlak Cəmiyyətinin anbar binası tikilib

**1960.** Zəngilan qəsəbə və Məmmədbəyli kənd orta məktəbləri 11 illk olur.

**1963.** Zəngilan-Qubadlı ilə birləşdirilir və yenidən ayrılır.

**1964.** Zəngilan 1 saylı qəsəbə orta məktəbinin yeni binasının təməli qoyulur**.**

**1964. Qəsəbədə** yeni stadionun inşasına başlanıldı.

**1967.** Yeni ikimərtəbəli məktəbin açılışı oldu.

**1967.** Rayonda Sanitar Epidemioloji həkim yoxdur.

**1967-** Zəngilana şəhər statusu verilir.

**1968.** Nəzir Kərimov I katib seçilir.

**1985.** Rayonda güclü zəlzələ baş verdi.

**1990.** Məhəmməd Əsədova general mayor rütbəsi verilir.

**1993. 27 Oktyabr.** Rayon işğal olunur.

**2020 20 Oktyabr.** Müzəffər Azərbaycan ordusu Zəngilan

şəhərini işğaldan azad etdi. 27 ilin tamamına bir həftə qalmış murdarlar şəhərimizdən qovuldular.

Ancaq mərkəzin köçürülməsinin əsas səbəblərindən biri və əsası o idi ki, 1929-cu ildə kənd Zəngilanda malyariya xəstəliyi başlanır və bu səbəbdən də mərkəz Pirçivana köçürülür.

1930-cu ildə Azərbaycanda rayonlaşma başlananda Pirçivan mərkəz seçillir və Zəngilan adlandırılır. Mərkəz olandan sonra Pirçivan kəndi (indiki Zəngilan) günü-gündən böyüyür. Ora içməli su çəkilir, elektrik stansiyası tikilir, dəmiryolu vağzalı və s. inşa edilir. On il ərzində mərkəzdə xeyli iş görülür. Demək olar ki, sıfırdan başlayaraq bir rayon mərkəzi tikilir. Dörd bəy evi nəzərə alınmazsa demək olar ki, bu ərazidə normal fərdi bir yaşayış evi yox idi. Bu illər ərzində mərkəzdə ilk ictimai yaşayış binası, tunel deyilən bina, 1990-ci ilə kimi son illərdə inşa olunan parkın yerindəki binalar, və s. tikildi. 1941-ci ildə başlanan müharibə 15-20 il qəsəbəni geri saldı və demək olar ki, tikinti aparılmadı. 50-60-cı illərdə geniş abadlıq və tikinti işlərinə başlanıldı. 1962-ci ildə Oxçuçayı üzərində ilk mükəmməl körpü salındı. 1964-1965-ci illərdə yeni stadionun inşasına başlanıldı və deyərdim ki, kənd rayonları arasında ən böyük stadion inşa edildi və ətrafına 2 metr hündürlüyündə mişar daşından (el arasında bu daşa kubik deyərdilər) hasar çəkildi.

1957-ci ildə Zəngilana qəsəbə statusu verilir. Əsası 1932-ci ildə qoyulan, 1961-ci ildə daimi fəaliyyətə başlayan rayon qəzeti və mətbəəsi işə başladı. 1964-cü ildə qəsəbə stadionunun yerində ikimərtəbəli məktəb binasının inşasına başlanıldı və məktəb 1968-69-ci dərs ilində ilk şağirdlərini qəbul elədi. 1964-1965-ci illərdə qəsəbənin qəbiristanlığı hasara alınır və bunun ardınca qəsəbənin qərb tərəfində olan təpələrin üstündə park salınmağa başlandı. İlk parka sovet hökumətinin qurucusu V.İ. Leninin adı verildi. Sonrakı illərdə həmin parkın cənub tərəfində yeni bir park da salındı və bu da kommunizmin ideya müəllifi K.Marksın adına verildi. Burada çox sayda bəzək və meyvə ağacları əkildi.

İlk parkın Şimal tərəfində bir qədər aşağıda qəsəbənin su anbarı yerləşirdi. Çeşmə gözü deyilən yerdən qəsəbəyə çəkilən içməli su əvvəl bura doldurulur, sonra isə qəsəbəyə paylaşdırılırdı.

1967-ci ildə şəhər statusu alan Zəngilanın baş planı hazırlanır gələcəkdə inşa ediləcək obyektlər və müəssisələr qeyd olunmuşdu. 1950-1960-cı illərdə qəsəbənin Maşın Traktor Stansiyası (MTS) deyilən yerdən şərqə tərəf olan ərazidə ikimərtəbəli xeyli ictimai yaşayış binası inşa olunur.

80-ci illərdə bir çox müəssisələr şəhərdən kənara çıxarılır. Bunlardan RTC, rayonlararası su idarəsi, yol təmiri idarəsi, 33 saylı tikinti idarəsi və s.qeyd etmək olar.

1985-ci ildə baş verən zəlzələdən sonra Zəngilana xeyli tikinti materialı ayrıldı və böyük tikinti işlərinə başlanıldı. Bu dövrdə Rayon partiya komitəsi, RİK üçün inzibati binalar, mədəniyyət sarayının, uşaq bağçaları, yeni məktəb, aptek binası, xəstəxana kompleksi, milis şöbəsi üçün inzibati bina, böyük iki mərtəbəli ticarət mərkəzi inşa edilir. Şərab zavodları, konserv zavodu, tikiş fabriki, toxuculuq sexləri v. s qeyd eləmək olar.

Bakı-Naxçıvan-İrəvan şose yolunun çəkilməsi ilə əlaqədar Cahangirbəyli kəndi yaxınlığında Oxçuçayın sağ sahilində bir hotel də inşa edilmişdi. Əgər bu nankorlar torpaq iddiasına qalxmasaydılar bizlər qatarla olduğu kimi avtobuslarla da rahatca Bakıya və Naxçıvana gedəcəkdik.

## Lenin bağı

Pirçivan kəndinin, sonra qəsəbəsinin, sonra da Zəngilan şəhərinin mərkəzi bağı olan Lenin adına bağ şəhərimizin, eləcə də kəndlərdən iş üçün rayon mərkəzinə gələnlərin istirahət, yeyib, içmək məkanı idi. Burada, demək olar ki, sanki bir təbiilik var idi. Ağaclar, güllər, çiçəklər insana bir rahatlıq gətirir, insanın ruhu dincəlirdi. Təbii ki, bu bağ öz-özünə əmələ gəlməmişdi. İlk illərdə rayonun yerli hökuməti bağa zərər verənlərə qarşı sərt tədbirlər görmüş, cəzalar müəyyən etmişdi. Bağ ona baxanların ağaclara,

güllərə su verib onlara qulluq eləmələri sayəsində ərsəyə gəlmişdi. Bağ Pirçivanın  rayon mərkəzi kimi seçilməsindən sonra salınmış və Sovet hökumətinin tarix səhnəsindən getməsi ilə öz varlığına son vermişdir.

Lap əvvəlki dövr barədə bir söz deyə bilmərəm. Amma, bağa baxanlardan, yəni bağbanlardan bir neçəsini xatırlamaq yerinə düşərdü. Düzdür, bu insanları gənclər sevməzdilər, çünkü onlar bağı qoruyurdu, gənclər isə bağda istədiyini eləmək, vurub dağıtmaq, qırmaq istəyirdi.

Bu bağa baxanlardan İsmayıl kişini, Şükür Sayad oğlunu və Kərim Məmmədbağır oğlu Quliyevi (1889-1980) xatırlamaq yerinə düşərdi. Mən son ikisini gördüm. Onlar, bəlkə də öz şəxsi həyətlərinə belə qayğı göstərməzdilər ki, bu bağa göstərərdilər, axı o, dahi rəhbərin adını daşıyırdı. Bağda istənilən sayda oturacaqlar, heykəllər, ictimai iaşə obyektləri var idi.

1950-ci ildə bağda sovet hökumətinin qurucusu V.İ.Leninə heykəl qoyulmuşdu.

Burada şəhərin əsas yeməkxanası və çayxanası yerləşirdi. Mənim yadıma gələn burada Xəlil İbrahimov aşpaz, Şükür Talıbov bufetçi, Əkbər Fərəcov anbardar, Nadirxan, Hüseyin, İsmayıl çayçı idilər. Bağın qərb girişində çəkməçi Əli Fərhadov ayaqqabı tikər, təmir edərdi. Onunla üzbəüz bir ticarət köşkü var idi. Burada Salman Ağayev, Mirzəxan, Rəfiqə, Mariya vaxtı ilə işləmişdir.  Bağda tir (atış), bilyard yeri və s var idi.

Adamlar görmüşdüm ki, saat 17-də işdən çıxandan sonra bura gələr, yeyib içər,  stolüstü oyunlardan nərd, domino oynayar, axşam saat 22-23 –də evlərinə gedərdilər.

Sözün qısası ye, iç, istirahət elə. Kaş o günlərə dönə bilsəydik.

## ŞƏHƏRİN MƏHƏLLƏLƏRİ.

**1. Məsçid düzü.** Qeyd etdiyim kimi bu hissə şəhərin mərkəzi hesab olunurdu. Tarixdən də məlumdur ki, Məscid əhalinin sıx yaşadığı yerdə tikilərdi ki,  onlar ora rahat və qısa müddətdə gəlib

ibadətlərini yerinə yetirə bilsinlər. Məscidlərin ətrafı həmişə qələbəlik olub. Burada sovet hökumətindən əvvəlki dövrlərdə bəylərin evləri və əkin sahələri yerləşirdi. Əhali əsasən burada və Köhnə Pirçivan deyilən yerdə məskun idi.

Burada ən mühüm və önəmli bina Məscid idi ki, bu ərazi də onun adı ilə Məscid düzü adlanırdı. Bu ərazidə eyni zamanda rayon Mərkəzi Xəstəxanası, ilk kolxoz binası var idi. Rayon ərazisində ilk ümumu yaşayış binası da məhz bu ərazidə tikilmişdi. Sonrakı illərdə bu ərazi yaxınlığında bir mağaza, univermaq, sonralar böyük bir ticarət mərkəzi, kolxoz klubu və s. inşa edilmişdir.

Bu məhəllədə mənim unutmadığım insanlardan Piri Məmmədov, Şükür Talıbov, Abbas Hüseynov, Mələk xala, Sona xala, Xəlil Quliyev, daha bir Xəlil İbrahimov, Bəhmən Allahverdiyev, Əmiraslan Cahangirov, Mansur və Qurban Mustafayevlər, Kərim kişi, Qasım, Qurban, Həsənov Davud, Həsənov Şahsuvar, və.s insanların şəxsi evləri var idi. (Adlarını çəkə bilmədiklərimin övladları məni üzrlü saysınlar).

**2.MTS məhəlləsi.** Bu məhəllə sovet hakimiyyətinin əsas təşkilatlarından biri olan Maşın Traktor Stansiyasının adı ilə bağlıdır. Şəhərin lap mərkəz hissələrindən birində yerləşdiyindən bu zonaya belə ad verilmişdi. Burada 1988-ci ilə kimi MTS yerləşirdi. Bura eyni zamanda dörd yol ayrıcı idi. MTS-in şimal hissəsində bir dərə var idi ki, oradan da yaz aylarında su gələr, yayda isə suvarmada istifadə edildiyindən bəzən quruyardı. Sonra MTS-ə məxsus ağır maşınların şəhərə girib onun küçələrini korlamasının qarşısını almaq məqsədi ilə bu təşkilata başqa yerdə inzibati bina tikdilər və onu başqa yerə köçürəndən sonra onun yerində böyük bir bazar kompleksi inşa elədilər. Amma ad öz əhəmiyyətini saxladı. Bu ərazidə MTS-dən başqa bir neçə ümumi yaşayış binası, həmin yerin cənub-qərb hissəsində hündür bir təpədə şəhərin su anbarı, ondan da bir qədər hündür bir yerdə şəhər Dağüstü parkı yerləşirdi. Bu ərazinin ön tərəfində bir ərzaq mağazası, çörək dükanı və rayonun ilk çörək zavodu var idi. Sonralar burada yeni bir aptek binası da inşa edildi.

Dəmirçi Gülməmməd, Salahov Malik, Haqverditev Bəhram, Mürsəl (çörəkçi), Əliyev Nəriman, İrzəvan, Şahsuvar, Orucov Tapdıq, Seyid Ələsgər, Quliyev Süleyman, Nəbiyev Şirin və s.bu ərazidə yaşayırdı. (Çoxunu unutmuşam, adlarını çəkə bilmədiyim həmyerlilərim məni bağışlasınlar).

**3.Kirdəzir.** Bu ərazi şəhərin şimal hissəsində Beşdəli kəndinə gedən yolun sol tərəfində geniş bir dərə idi. Ətrafı çox da hündür olmayan təpələrdən, kiçik palıd və qaratikan kollarından (Kiçik ağaclar olan yerə pöhrə deyilir) ibarət idi. Ərazinin şərqində köhnə Pirçivan yaşayış məhəlləsi, bir az cənubunda isə şəhər qəbiristanlığlı yerləşirdi. Bu ərazi əvvəllər əkin yeri kimi və eyni zamanda yerli əhalinin mal-qarası və qoyunları üçün otlaq kimi istifadə olunurdu. Son illərdə şəhərin böyüdüyünü nəzərə alan rayon rəhbərliyi buranı yaşayış evləri inşa etmək üçün əhaliyə payladı. Son illərdə əhali burada özünə yaxşı evlər tikmişdi. Allah düşmənə lənət eləşin. Onsuz da kasıb olan əhali dişindən, balalarının boğazından kəsərək tapdığının çoxunu daşa, quma, sementə verib bir yuva düzəltmək istədi ki, ona da imkan vermədilər. Çoxları (əksəriyyəti) heç evinə belə köçmədi

**4.Şaftalı dərəsi.** Xalq arasında Şəftəli dərəsi adı ilə tanınan yer Məsçid düzü məhəlləsi ilə Rayşelk (İpər İdarəsi) məhəlləsi arasında bir qədər qərb tərəfdə, təpəliklər arasındadır. Ərazidə Şəftəli ağacları yoxdu. Məsələ belədi ki, əvvəllər gənclər Pirçivan bağlarından meyvə oğurlayıb gətirib burada yeyərmişlər. Şəftəli də yaxşı, dadlı meyvə idi və çəyirdəyi də gözəgəlimli olduğu üçün dərədə uzun müddət qalar, bəzən də bitərmiş. Bu səbəbdən bura el arasında belə adlanıb. Bura da son zamanlara kimi otlaq sahəsi kimi istifadə olunurdu. 80-ci illərdə bu ərazini də əhalinin istifadəsinə verdilər və burada surətlə yeni fərdi yaşayış evləri tikildi. Onu da qeyd edim ki, əhali burada da evlərini tam tikib qurtara bilmədi. Səbəb isə nankor qonşularımızın qəfil hücumları və rayonun işğal edilməsi idi.

Burada Rəsul İmaməliyev, Cavad Cavadov. Eldar Həsənov (baytar həkimi), Aşur Adıgözəlov, Ağaverdi (ticarətçi),

Səmiyəddin Abbasov **və s.** özlərinə fərdi yaşayış evi tikmişdi.

**5.Köhnə Pirçivan.**

Pirçivan iki-təzə və köhnə hissədən ibarət idi Onları bir-birindən kombinat dərəsi adlanan bir dərə ayırırdı Bu dərə köhnə MTS-dən şimal tərəfdə idi. Həmin dərədən su də axırdı. MTS-in yanından həmin dərənin üstündə bir körpü salınmışdı. Körpünün sağ tərəfində İmanov Şahsuvarın, sol tərəfində isə Rzayev Məhərrəmin evləri var idi. Bura şəhərin demək olar ki, ən qədim yaşayış məskənidir. Burada kəndin tarixi bilinməyən ilk qəbiristanlığı yerləşirdi. Son illərdə burada artıq dəfn aparılmırdı, çünkü, oradan bir qədər aralıda yeni qəbiristanlıq salınmış və ətrafı mişar daşı (kubuklə) ilə hörülmüşdü. (bax səh.424). Əvvəllər burada bir sex mövcud idi ki, burada evlərin damı üçün kirəmid bişirərdilər. Hələ o zamanlar şifer yox idi.

Bu ərazi yuxarıda qeyd etdiyim MTS yanındakı dərədən şimala «Çeşmə gözü» tərəfə doğru uzanırdı. Buradakı əhalidən Paşayev Teymur, Allahverdi, sürücü Məmmədi, Mehrəliyev Hüseyni, Hacıyey Yadulla, Paşayev Əziz, Paşayev Nüsrət, Qocayev Səməd, Qocayev Telman, Vəli həkim, Abdulla (Sobulu), Allahverdiyev Bahadur, Məmmədyarov Rəhim, və s. qeyd edə bilərəm.

Həmin ərazidə iki mağaza, rayon Elektrik şəbəkəsi, bağça, səkkizillik məktəb və s. var idi.

**6. Stansiya məhəlləsi.** Bildiyiniz kimi rayonumuzun ərazisindən dəmiryolu xətti keçirdi. Şəhərin Oxçuçayı sahilinə yaxın bir yerdə 1960-cı ildə Dəmiryolu vağzalı tikilib. Bununla bağlı bu əraziyə də stansiya məhəlləsi deyilirdi. Bu adların əksəriyyəti rəsmi olaraq qeyd olunmasa da xalq arasında tez-tez işlənirdi. «Məscid Düzü» dediyimiz ərazidən baxanda vağzal görünürdü. Stansiya qeyd etdiyim kimi Oxçuçayın sağ sahilində nisbətən çökəklikdə idi. «Məscid Düzü» isə nisbərtən hündür bir ərazidə yerləşirdi. (Sxem səhifə 441-də.)

Qnu da qeyd edim ki, rayonumuzun ərazisinə dəmiryolu xəttinin XIX əsrin sonlarında çəkilməsi nəzərdə tutulmuşdu. Arxivlərdən əldə etdiyim məlumatlara görə Çar Rusiyası Qacarlar

Dövlərini (o illərdə İran termini yox idi, Cənubi Azərbaycan) və Osmanlı imperiyasını daimi nəzarətdə saxlamaq və gələcəkdə müharibə təqdirində həmin ölkələrin ərazilərinə yaxın yerlərə tez bir zamanda ordu yeritmək məqsədi ilə Araz çayı boyu hərbi məqsədlər üçün dəmir yolu inşasına başlamışdı. Bu yol ilk növbədə hərbi məqsədlər üçün inşa olunurdu. Əhalinin qeydinə qalmaq üçün yox. Stansiya məhəlləsi yaxınlığında şəhərin yeni konserv, üzüm emalı zavodları, çörək zavodu, şəhər stadionu, polis idarəsinin yeni inzibati binası, yağ-süd emalı zavodu, univermaq, məişət-xidməti kombinatının binası, çayxana, mağaza, dəmiryolu yeməkxanası, mağazası, bir neçə inzibati bina (tikinti təmir idarəsi, 13 saylı tikinti idarəsi, Rayon İstehlak Cəmiyyətinin anbarları və s, yerləşirdi.)

60-70-ci illərdə burada mərkəzi şəhər bazarı var idi. Sonralar onu söküb başqa yerdə inşa elədilər.

Ərazidə olan şəxsi yaşayış evlərindən. Aslanov Şəmil, Qəbil, Əbil Həsənov, Ziyad və Azad Təhməzovlar, Heydərli Soltan, Abdullayev Məhəmmədəli, Abdullayev Famil, Azadov Əsgərxan, Ağayev Səhiyəddin, sürücü Qüdrət, Qədimalı, Nurəddin, milis Məmmədov Musa, taksi Məmməd, Bəxtiyarov Nəriman, Məmmədov İzzət, Səmədov Qüdrət, Musa Cəfərov, Həsənov Həsən, Kərimov Şahsuvar, Balaca, Durna, Mehtiyev Yavər, satıcı Çimnaz, Qəşəm, Əvəz, və s. qeyd etmək olar. Vağzalın yaxınlığında isə bir neçə dəmiryolçu ailəsi yaşayırdı. Onlardan Məhiş və Əhməd qardaşlarını, Əliyev Əvəzi (1941-1945-ci illər müharibəsi əlili) Alməmmədov Rzanı, Tutu xalanı, Sənəmi qeyd edərdim.

«Məscid Düzü»ndən gələn yol stansiyada olan dörd yola qovuşur və buradan müxtəlif istiqamətlərə getmək olurdu. Sola gedib sonra isə sağa dönəndən sonra Bakı istiqamətində, sağa döndükdə isə Mincivana getmək olurdu. Burada bir dairə yol ayrıcı var idi (bax səh 427)

**7. Rayon Partiya Komitəsinin yerləşdiyi (Raykom) məhəllə.**

Şəhərin bu hissəsi də nisbətən qədim yaşayış yerlərindəndir. Bu «Məsçid Düzü»ndən sonra ikinci bir mərkəzi hissə idi. Son illərdə rayonun bir çox mühün idarə və müəssisələri burada inşa olunmuşdu. Belə ki, rayon Partiya Komitəsi üçün burada yeni bina inşa ediləndən sonra həmin ərazidə daha bir neçə inzibati bina inşa edildi. Burada da rayon Vergilər, Sığorta idarələri, Məşğulluq Mərkəzi, DSMF-Zəngilan rayon şöbəsi, Sosial Təminat Şöbəsi, rayon Arxiv idarəsi və s bu binada yerləşdirildi. Eyni zamanda rayon Rabitə Şöbəsi, köhnə mehmanxana da bu ərazidə idi. Son illərdə isə burada yeni Mədəniyyət Sarayı inşa edilməkdə idi.

Burada yaşayan sakinlərdən Bayramov Firudun, Məmmədov Əbülfəzin, Mustafayev Vəlinin, Gülağanın, İsrafilin, Əsədin, Fərəcov Akifin, Babayev Nərimanın, Muxtarın, Yarışov Allahverdi və Alməmməd qardaşlarının, Babayev Nərimanın, Nəbiyev Behbudun, Hüseynov Ramazanın, Guşarat xalanın evlərini qeyd edə bilərəm.

**8. Məktəb məhəlləsi (Şəhər orta məktəbinin yerləşdiyi ərazi).**

Zəngilanın ilk inşa olunan məktəbi burada idi. Eşitdiyimə görə, ilk məktəb Məscid olub. Sonralar məktəb müxtəlif binalarda yerləşdirilib. İlk məktəb binası bu küçədə inşa olunub. O vaxtlar məktəbin yerləşdiyi küçə 28 Aprel adlanırdı. Bura bir çoxları kimi mənə də əzizdir. Mən də bir çoxları kimi ilk dəfə bu məktəbə qədəm qoymuşam. 1961-ci ildə rəhmətlik bacım məni I sinifə apardı. Ona qədər bu binanı çox görsəm də nə olduğunun fərqində deyildim. Məktəbin sovet hökumətinin ilk illərində açıldığı qeyd olunub. 1967-ci ilə kimi olan məktəb bir mərtəbəli idi. Məktəbin arxasında gözəl bir meyvə bağı var idi ki, burada olan meyvələri görəndə adamın ağzı sulanırdı. Sonra 1964-1966-cı illərdə iki mərtəbəli geniş sinif otaqları, idman zalı olan yaraşıqlı məktəb tikildi. Məktəb 1967-1968-ci dərs ilində qapılarını bizim üzümüzə açdı. Yeni məktəb binası qəsəbə stadionunun yerində inşa olundu. Əvvəllər qəsəbənin stadionu burada yerləşirdi. Sonra şəhər stadionu üçün əvvəllər pambıq əkilən yerdən geniş bir sahə

ayrıldı və orada yeni bir stadion inşa olundu və ətrafına da iki metr hündürlükdə divar hörüldü.

Bu məhəllənin sakinlərindən əksəriyyətini əgər qeyd eləməli olsam oxucular məni qınamasın. Çünki mən də burada yaşadığımdan sakinlərin hamısını yaxşı tanıyıram və unutmadım.

Kərimov Heydərqulu Qibləli oğlu (Müəllim, əvvələr məktəbin direktoru olub, yoldaşı Zeynəb müəllimə), Kərimov Nəzir Qibləli oğlu (Keçmiş I katib), Vəliyev Əliş (Bankda kassir, yoldaşı Məleykə tibb bacısı), Heydərov Məhəmməd Heydər oğlu (Keçmiş RİK sədri, yoldaşı Fatimə xala evdar qadın), Quliyev İsmayıl (mühəndis, yoldaşı Mirvari), Həsənov Allahverən Gülmalı oğlu (Sosialist Əməyi Qəhrəmanı), Qarayev Əziz Oruc oğlu (fəhlə, yoldaşı Gümüş), Axundov Həsən Məhəmməd oğlu, (RİK mühasibi, yoldaşı Talıbova Məhrux, Qəhrəman ana), Həsənov Bəylər Təhməz oğlu (keçmiş RİC sədri, yoldaşı Qocayeva Zəhra tibb bacısı), Qocayev Əli Eyvaz oğlu (Tikinti mühəndisi, yoldaşı Bənövşə müəllimə), Cəfərov Səfiyar Cəfər oğlu (usta, yoldaşı Püstə xala), Tacəddin kişi (təqaüdçü, yoldaşı Əliyeva Mədinə evdaq qadın, oğlu Fehruz,), Əliyev Həmid Hadı oğlu (aqronom, yoldaşı Diliş xala), Vəliyev Qasım Eyvaz oğlu (RİK-nin ilk katibi Eyvaz Vəliyevin oğlu, mühasib, yoldaşı Ruqiyyə müəllimə), Cəfərov Məhəmməd Qədir oğlu (yoldaşı Gülcahan, oğlu Cəfərov Aydın), Həsənov Hüseyn (gözətçi, yoldaşı Telli xala , oğlu Mürvət), Bağırov Hidayət (keçmiş kolxoz sədri, aqronom, yoldaşı Əzət xala, tibb bacısı), Qurbanov Kərim İsmixan oğlu (sürücü, yoldaşı Mələk xala) və mənim atam Bədirxanov Seyfulla Cümü oğlu (Sefi kimi tanıyırdılar-fəhlə, yoldaşı Bədirxanova Şüşə Kamal qızı). Bu adamlar bizim məhəllənin sakinləri idilər.

Burada qonşu rayonların, eləcə də Mincivanın yığma futbol komandalarının iştirakı ilə tez-tez yoldaşlıq oyunları keçirilərdi.

Mən 7-8 yaşımdan bu oyunlara baxardım, çünki stadion evimizin yanında idi. Məndə buna marağı Hidayət yaratmışldı. Hidayət mənim anamın dayısı oğlu idi. O, Mincivan yığmasında oynayırdı. Fasilə zamanı bütün komanda ilə bizə su uçməyə gələrdilər. Anam onlara əlindən gələni edərdi. Mən Əli Quliyevi,

Əmiri, İdrisi və s oyunçuları o zaman gördüm. Zəngilan komandasından isə yadımda Rəsulov Əlibayram, Şahmar Bayramov, Arif Bəşirov, Bəhmən Allahverdiyev, Alağöz (İlyas Göyüşov) qalıb. Sonra mən qalanlarını Asif Bağırov vasitəsi ilə öyrənib bu komandanı dəqiqləşdirdim. Bunlar aşağıdakılardır:

Şahmar Həsənqulu oğlu Bayramov (jurnalist), dayı Allahverdi (çayçı), Arif Bəşirov (kinomexanik), Voroşil Loğman oğlu Kazımov (hücumçu, memar) Ərşad Mütəllim oğlu Əzimzadə (qapıçı, jurnalist) Əli Bayram (mühasib), Cabbar Məhəmməd oğlu İmamverdiyev (şəhər sovetinidə katib), Qüdrət Səmədov (ASB direktoru), Zülfüqar Gülüş oğlu Məmmədov (RİC sədri), Məhəmməd Gülməmməd oğlu Şükürov (elmlər namizədi), Aydın Kazımov (Cahangirov Əmiraslanın qaynı) Məmmədov, Nəriman Ağayev (montyor), Rafiq Şahsuvar oğlu Rüstəmov (sürücü), Rasif Əkbər oğlu Fərəcov (Aptek müdiri) və s.

**9. Rayşelk məhəlləsi. (Rayon İpək İdarəsi).** Bu məhəllə şəhərin cənubunda yerləşirdi. Burada rayon Barama qurutma məntəqəsi yerləşirdi və onun adı ilə əlaqədar olaraq oraya rusca «Rayşelk» (rusca rayon ipək idarəsi deməkdir) deyirdilər. Bu ərazi demək olar ki, şəhərin cənub qapısı idi. Burada bir qaya qövs kimi sankı şəhərin cənubunu qapayırdı. Belə bir qayanın biri də «Çeşməgözü» deyilən ərazidə idi. Şəhərin həm şimalında, həm də cənubunda belə bir-birinə bənzəyən iki qaya şəhəri sanki qucağına almışdı. (Sxemə bax). Bu ərazidə əvvəllər fərdi yaşayış evləri çox az idi. Son illərdə xeyli şəxsi evlər inşa olunmuşdu.

Onlardan Dükançı Şəmil, SES-də işləyən Bayram yadımda qalıb.

**10. Çeşmə Gözü məhəlləsi.** «Çeşmə Gözü» deyilən yer şəhərin şimalında yerləşirdi. Buradan başlayaraq şimala doğru nisbətən uca dağlar və meşələr başlanır. Bu ərazinin yerləşdiyi yerin şimal tərəfində, Oxçuçayın hər iki sahilində dağlar sanki qarşı-qarşıya gələrək bir dar keçid əmələ gətirir. Bura dar adı ilə məşhurdur. Rayonun buradan şimalda olan hissəsinə «dardan yuxarı» deyirlər. Zəngilan rayonu təşkil olunandan sonra ilk dəfə məhz buradan «Çeşmə Gözü» deyilən yerdən şəhərə içməli su xətti çəkilib.

Burada dağın dibindən təmiz şəffaf su çıxır. Həmin su sonralar 40-ci illərdə rayon mərkəzinə çəkilib. «Çeşmə gözü»nün qarşı tərəfində Oxçuçayın sol sahilində Genlik kəndi yerləşir.

Şəhərin bu yaşayış məhəlləsi də son illərdə xeyli genişlənmişdi. Burada son illərdə ən çox yeni fərdi yaşayış evləri tikildi. Qeyd etdiyim kimi şəhərimizin həm cənub, həm də ki, şimal istiqamətində böyüməsi üçün əlverişli yer mövcud idi. Oxçuçayın vadisi oduqca geniş və düzənlikdir. Bu ərazidən bir qədər şimalda şəhərə bağlı Sarıqışlaq adlı kiçik bir yaşayış məntəqəsi də vardır.

Son illərdə burada olduqca çox fərdi yaşayış evləri inşa edilmişdi ki, adlarını xatırlaya bilmirəm. Onların çoxu evini tam tikib qurtara bilmədilər. Çəkdikləri xərc havayı oldu. Onlardan tanıdıqlarımdan milis Əliheydəri, traktorçu Cəmşidi, milis Hüseynov Rövşəni və s. qeyd edə bilərəim.

**11.Texniki Peşə məktəbi zonası.** Bura şəhərin şimal-qərb hissəsində idi. 60-ci illərə kimi bu ərazidə kolxozlar taxıl əkərdilər. Sonralar bura da tikinti altına verildi və həmin ərazidə Texniki Peşə məktəbi və ətrafında da şəxsi evlər inşa edildi. Buradan bir qədər qərbə tərəf yenə böyük bir dərə uzanırdı ki, orada da son illərdə yeni yaşayış massivi və müasir tələblərə cavab verən rayon Mərkəzi Xəstəxana kompleksi tikildi. Zənnim məni aldatmırsa, bu dərənin adı deyəsən xalq arasında «Muncuqlu dərə» adlanırdı.

Son 20 ildə şəhərimiz günbəgün desəm səhv edərəm, saatbasaat böyüyür, əhali isə özünə şərait düzəldərək yaxşı yaşamağa başlamışdı. Bildiyiniz kimi, 50-60 cı illərdə əhali ancaq 1941-1945-ci illər müharibəsinin yaralarını müalicə etməklə məşğul idi. Əhali indi- indi yaxşı gün görəcəkdi ki, onu da bizə çox gördü bizi Yaradan. Buradakı fərdi evlərdən Qubad həkimi, Abdulla və Cəlal müəllimi, Qəmsiyyə Şahverdi qızını, Şapı Şahverdi qızını, Nəbiyev Şirini, Əhmədov Bürcalını, Yavər həkimi, Əsədova Əminəni, Məmmədyarov Ənvəri, Şükür kişini, və s. qeyd etmək olar.

**12.Bağırsaq dərəsi.** Rayon mərkəzindən Bəsitçay, yəni qərb istiqamətinə gedən yolun üstündə yerləşən bu ərazi belə adlanırdı.

Adın mənşəyi barədə onu deyə bilərəm ki, Asif Bağırovun dediyinə görə (o da atası Kərim kişidən eşidib) əvvəllər buradan əsasən piyadalar və eyni zamanda ulaqla gedənlər istifadə edərdilər. Yol bitməz, elə hey bağırsaq kimi uzanardı. Bu səbəbdən də ona bağırsaq dərəsi deyilib. Bura da çox geniş bir dərə idi. Dərənin əsasən sol tərəfi məskunlaşmaq üçün daha əlverişli idi. Bu ərazidə də son illərdə xeyl fərdi yaşayış evləri tikilmişdi. Bu məhəllədə RİC-nin sənaye anbarları, qarajı, şəhərin Tikinti Təmir idarəsi yerləşirdi. 70-ci illərdə şəhərin böyüməsi ilə əlaqədar ikinci su kəmərinə ehtiyac duyuldu. Məhz Bəsit çaydan çəkilən su xətti bu dərədən keçməklə şəhərə daxil oldu. Dərənin sağ tərəfi güney, yəni daşlıq, sol tərəfi isə quzey, yəni torpaq və nisbətən yaşıllıq idi. Sağ tərəfdə yamaclarda şam ağacları əkilərək terraslarda süni meşəliklər yaradılmışdı. Bu məhəllənin sakinlərindən bir neçəsini qeyd etmək istərdim.

Taksı Cəbi, Mehrəliyeva Hürü (keçmiş RİK sədri), Cəfərov Salman (Sürücü), Baxşəliyev Cəmil, Cümşüd kişi (oğlu Sabir müəllim), Namazov Sahib (Yoldaşı Nina xanım, rus dili müəlliməsi), Kərimov Alməmməd (RK-nın keçmiş II katibi), Əhmədov Məmməd (RXMŞ-nin keçmiş müdiri), Mustafayev Mustafa (keçmiş bank müdiri), kitabxanaçı Bəhrəm, Bədirova Nıgar, Akif və s.

## ZƏNGİLAN KƏND, QƏSƏBƏ VƏ ŞƏHƏR XDS İK-NİN SƏDRLƏRİ.

Zəngilanda sovet hakimiyyəti 1920-ci ildə qurulsa da əsas dövlət qurumları 1930-cu ildə, rayonlar yaradılandan sonra təşkil olundu. İlk illərdə rayon ərazisində partiya xəttini Zəngilan dairə firqə komitəsi və onun Nağdalı Ocaqverdiyevdən. Xanməmməd Xanməmmədovdan, Əkil Allahverdiyevdən və Niftalı Niftaliyevdən ibarət olan Rəyasət Heyəti, RİK-nin funksiyasını isə Zəngilan Dairə İcraiyyə Komitəsi həyata keçirirdi. **Fond 50. Opis 1.delo 3.səh 53.**

1929-cu ilə olan məlumata görə Zəngilan Dairə İcraiyyə Komitəsinin sədri Əkil Allahverdiyev olub.

Biz burada Zəngilan şəhərinin (Pirçivan kənd, Zəngilan qəsəbə (şəhər) ZDS (1977-ci ildən XDS) İcraiyyə Komitələrinin sədrləri barədə qısa məlumat verməyi borc bildik.

Şəhərimizin qurulmasında, abablaşdırılmasında onların rəhbərlik etdiyi təşkilatın az əməyi olmayıb. Allah ölənlərə rəhmət, qalanlara can sağlığı versin.

## Quliyev Kiçikxan Əzim oğlu.

(1900-1964)

*Zəngilan (Pirçivan) kənd ZDS İK-nin sədrlərindən*



Qiliyev Kiçikxan Əzim oğlu 1900-cü ildə Bakıda anadan olmuşdur. Sovet hökumətinin ilk illərində oxumuş savadlı kadrlar olduqca az idi. Belə olanda yerlərdə sovet hökumətini qurmaq və onu idarə etmək bir çox çətinliklər törədirdi. Oxumuş, savadlı kadrlar olmadan dövləti idarə etmək çox çətin idi. Məhz buna görə, Mərkəzi hökümət, nisbətən, savadlı kadrlarını kəndlərə göndərərək, orada, sovet sistemini həyata keçirtmək, onun siyasətini əhaliyə anlatmaq məqsədi ilə kəndə kömək şüarını irəli sürür. Bu məqsədlə də 1929-cu ildə «İyirmibeşminçilər» hərəkatı adı almış bir siyasət həyata keçirilir. 25 min oxumuş, nisbətən təhsilli kadr kəndlərə göndərildi.

Kiçikxan Quliyev də bunlardan biri idi. Partiya onu, əvvəlcə Ağdam rayonuna göndərdi. Burada bir qədər siyasi iş aparandan sonra Qubadlı rayonuna ezam olunur. O, burada RK katibi, rayon XDS İK sədri olub.

1936-ci ildə isə o, Zəngilan rayonuna gəlmiş və ömrünün axırına kimi burada ışləmişdir. Əvvəlcə Torpaq Şöbəsi müdiri

olan Kiçikxan Quliyev, 1941-1945-ci illər müharibəsinə getmişdir. Müharibə qurtarandan sonra, bir müddət başqa yerdə işləmiş, yenidən Zəngilana qayıtmışdır. Rayonda partiya və sovet orqanlarında çalışmış, uzun müddət Zəngilan qəsəbə ZDS İK sədri olmuşdur.

Quliyev Kiçikxan Əzim oğlu 1964-cü ildə vəfat etmiş və Zəngilan şəhər qəbiristanlığında dəfn olunmuşdur**. 301**.

**P.S.** Rayondakı diş həkimi Quliyev Allahverdinin (Alışın) babasıdır.

**Sayılov İsfəndiyar Cəbrayıl oğlu**

(1898 Bartaz- 1973 Zəngilan)

*Zəngilan (Pirçivan) kənd ZDS İK-nin sədrlərindən*



İsfəndiyar Məşədi Cəbrayıl oğlu Sayılov 1898-ci ildə Bartaz kəndində anadan olub. İlk təhsilini Bartaz kənd məktəbində almışdır. Sovet hakimiyyəti qurulandan sonra kənddə işləmiş, sonra kolxoz təşkil olunanda onu kolxoza sədr seçmişlər. Sonralar rayon mərkəzində onu müxtəlif vəzifələrə təyin etmişlər. O, İpək idarəsinin, Rayon İstehlak Cəmiyyətinin, Kommunal müəssisələri kombinatının müdiri olmuşdur. Sonra onu daha da irəli çəkmiş və Zəngilan (Pirçivan) kənd Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinə sədr seçmişlər. O, 1951-1952 illərdə bu vəzifədə işləmişdir. Sonralar pambıqtəmizləmə məntəqəsində müdir olub. O dəfələrlə rayon və Pirçivan kənd ZDS-nin deputatı seçilmişdir.

Uzun illər partiya və sovet orqanlarında işləmiş İsfəndiyar Cəbrayıl oğlu Sayılov 1973-cü ilin 26 noyabrında Zəngilan şəhərində vəfat etmiş və şəhər qəbiristanlığında dəfn olunmuşdur. İki oğlu (Cəmil (elmlər namizədidir, İltimas), dörd qızı (Şura, Əntiqə, İstifa və Fanya) var.

**Bayramov Həsənqulu Camal oğlu (1896-1993)**
*Zəngilan (Pirçivan) kənd ZDS İK-nin sədrlərindən*



Bayramov Həsənqulu Camal oğlu 1896-cı ildə Zəngəzur qəzasının Üdgün kəndində anadan olub. Sovet hakimiyyətinin ilk illərindən milisə daxil olan Həsənqulu Bayramov 30–cu illərdə Zəngilan rayon milis idarəsinin rəisi işləmişdir. Uzun illər partiya və sovet orqanlarında çalışan Həsənqulu Bayramov ötən əsin 50-ci illlərində, təxminən 1952-1955-ci illərdə Pirçivan kənd ZDS İK –nin sədri işləmişdir.

O dəfələrlə müxtəlif mükafatlar, «Fəxri fərman» və pul ilə mükafatlandırılıb. Həsənqulu Camal oğlu Bayramov bir neçə çağırış Pirçivan kənd ZDS-nin deputatı seçilib. .

Həsənqulu Bayramovun oğlu Şahmar rayonumuzun ilk futbol komandasının qapıçısı olmuşdur. Sonralar partiya və sovet orqanlarında işləmiş, işğaldan sonra Bakı şəhərində vəfat etmişdir.

Həsənqulu Camal oğlu Bayranov işğaldan əvvəl 1993-cü ildə Zəngilan şəhərində vəfat etmişdir.

**Quliyev Qurban Musa oğlu (1923-1986)**
*Zəngilan qəsəbə ZDS İK-nin sədrlərindən*



Quliyev Qurban Musa oğlu 1923-cü ildə Zəngilan rayonunun ən qədim kəndlərindən olan Pirçivanda anadan olmuşdur. Ilk təhsilini Pirçivan kənd məktəbində alan Qurban Quliyev 1940-ci ildə Zəngilan rayon Xalq Maarif Şöbəsində əmək fəaliyyətinə başlamışdır.

Bütün həmyaşıdları kimi müharibə başlananda orduya səfərbər olunmuş, müharibənin ağır günlərini yaşamışdır. Müharibədən

sonra rayona qayıtmış, əvvəl rayon Partiya Komitəsində texniki katib, DTK-nın rayon şöbəsində inspektor, Pirçivan kənd Sovetinin sədri, rayon Bankında müfəttiş və rayon Partiya Komitəsində təlimatçı vəzifələrində işləmişdir.

Qurban Quliyev 1955-ci ildə Bakı Ali Partiya Məktəbinə göndərilmiş və 1959-cu ilə kimi həmin məktəbin dinləyicisi olmuşdur. Məktəbi bitirəndən sonra rayona göndərilən Qurban Quliyev 1959-1963-cü illərdə rayon PK-də təlimatçı olmuş, 1963-ci ildə isə onu Xalq Nəzarəti Komitəsinə sədr seçmişlər. 1968-ci ildə rayonda partiya rəhbərliyi dəyişdirildi. Belə olanda bir çox vəzifələrə yeni kardlar cəlb olunurdu. Bu bir növ qayda idi. Yeni katib özünə münasib kadrlar seçirdi. Əslində bu təbii ibi. Belə olmasa o işləyə bilməzdi. Məhz bu səbəbdən yeni katib Qurban Quliyevi rayonda ən yüksək vəzifələrdən birinə, rayon ZDS İK-nin sədri vəzifəsinə məsləhət bilir. Qurban Quliyev düz on bir il (1968-1979) bu vəzifədə çalışdı. 1979-cu ildə təqaüdə çıxan Qurban Quliyev kənarda seyrçi kimi qalmayıb, əmək fəaliyyətini davam etdirmiş, rayonun ictimai həyatında yaxından iştirak etmişdir. Qurban Musa oğlu Quliyev 25 mart 1986-ci ildə dünyasını dəyişmişdir.

## Həsənov Sahsuvar Xankişi oğlu (1909-1994)

*Zəngilan qəsəbə ZDS İK-nin sədrlərindən*



Həsənov Şahsuvar Xankişi oğlu 1909-cu ildə Pirçivan kəndində anadan olub. İlk təhsilini Pirçivan kənd 7 illik məktəbində alan Ş.Həsənov oxumağa davam eləmək istəsə də başlanan dəhşətli müharibə onu bu arzudan məhrum etdi. O, artilleriya üzrə xususi təlim keçdikdən sonra Stalinqrad cəbhəsinə döyüşə göndərilib. İlk döyüşlərin birində yaralanmış, müalicə olunandan sonra«Kalinin» cəbhəsində xidmətini davam etdirmişdir. Smolensk və Duxovna uğrunda gedən döyüşlərdə «Qırmızı Ulduz Ordeni» ilə təltif

olunub. Sonrakı döyüşlərdə o «İgidliyə görə» və «1941-1945-ci illər müharibəsində Almaniya üzərində qələbəyə görə» medalları ilə təltif olunub

Müharibədən qayıtdıqdan sonra Ş.Həsənov Bakı Ali Partiya məktəbində oxumuşdur. Məktəbi bitirdikdən sonra rayon Partiya Komitəsində təlimatçı, Zəngilan qəsəbə sovetinin sədri, RİK-də şöbə müdiri vəzifələrində işləmişdir. Dinc quruculuq illərindəki xidmətlərinə görə Ş.Həsənov «Qırmızı Bayraq Ordeni» ilə təltif olunub.

Ş.Həsənovun iki oğlu (Xürrəm*, Xəyyam) və iki qızı (Dilşad və Gülxar) var. Hamısı ali təhsillidir.

Həsənov Şahsuvar Xankişi oğlu 1994-cü ildə Sumqayıt şəhərində vəfat etmişdir.

**Quliyev İskəndər Paşa oğlu (1919-1993)**

*Zəngilan qəsəbə ZDS İK-nin sədrlərindən*



Quliyev İskəndər Paşa oğlu 1919–cu ildə Zəngəzur qəzasının Qazançı kəndində anadan olub. İlk təhslini Zəngəzur qəzasının Qafan bölgəsinin Gödəkli kənd məktəbində alıb. Əmək fəaliyyətinə 1940-cı ildə «Əzizbəyov» adına kolxozda briqadir olaraq başlayıb. 1942-ci ildə 1941-1945-ci illər Vətən müharibəsinə səfərbər edilərək cəbhəyə göndərilib. 1944-cü ildə aldığı yaralar səbəbindən ordudan tərxis olunub. 1944-cü ildə yenidən «Əzizbəyov» adına kolxozda briqadir kimi işinə davam etmişdir. 1951-ci ildə M.C.Bağırov adına kolxoza pambıqçılıq briqadiri təyin edilib.

Qiliyev İskəndər Paşa oğluna 1965- ci ildə böyük etimad göstərilərək onu Zəngilan qəsəbə ZDS İK-nə sədr seçirlər. O bu vəzifədə 1970 ci ilə kimi işlədi. 1970–ci ildə isə Rayon DİŞ yanında Mühafizə bölməsində briqadir işləyib. 1980-1993- cü

illərdə Kommunal Müəssisələri kombinatında yaşıllaşdırma üzrə briqadir olub.

İskəndər Quliyev göstərdiyi qəhrəmanlığa görə I dərəcəli Vətən Müharibəsi Ordeni və eyni zamanda «Əmək veteranı» medalı ilə təltif olunub.

Quliyev İskəndər Paşa oğlu 08 avqust 1993-cü ildə Zəngilan şəhərində vəfat etmişdir.

### Zamanov Qara Məmmədqulu oğlu (1913-1976)
*Zəngilan şəhər XDS İK-nin sədrlərindən*



Zamanov Qara Məmmədqulu oğlu 1913-cü ildə Zəngilan rayonunun Bartaz kəndində anadan olub. Kənd məktəbində ilk təhsil almış, sonra kənd təsərrüfatı işlərində çalışmışdır. Sonra kənddən rayon mərkəzinə köçən Qara Zamanov burada orta təhsil almış, Zaqafqaziya Kənd Təsərrüfatı İststitutuna daxil olmuşdur. Ali məktəbi bitirəndən sonra rayonda müxtəlif sahələrdə çalışan Qara Zamanov sonrakı illərdə on ilə yaxın Zəngilan rayon Partiya Komitəsinin ikinci katibi işləmişdir. .

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1947-ci il 29 mart tarixli fərmanına uyğun olaraq, 1947-ci ildə kolxozun və məcburi təhvil planlarını yerinə yetirməsi, MTS-lərin gördüyü işlərin haqqını məhsulla ödəməsi və 1948-ci ilin yaz əkininin dənli bitkilər toxumu ilə təmin etməsi şəraitində yüksək pambıq və buğda məhsulu götürdüklərinə görə SSRİ Ali Soveti RH-nin 10 mart 1948-ci il fərmanı ilə Qara Məmmədqulu oğlu Zamanov Payon Komitəsinin kadr üzrə katibi işlədiyi vaxt «**Qırmıızı Bayraq**» **ordeni** ilə təltif olunub. Sonralar o, Zəngilan şəhər XDS İK-nin sədri, Kino birliyinin müdiri işləyib..

Qara Məmmədqulu oğlu Zamanov 1976-cı ilin avqustunda vəfat etmiş və Zəngilan şəhər qəbiristanlığıda dəfn olunmuşdur.

Onun Akif adlı oğlu, Həqiqət adlı qızı var.

**Mənbə. s.93. Məşədi Məhəmməd Cabbarov, Hacı Həmdulla Şıxəliyev.**

**Təhməzov Azad Murad oğlu**

*Zəngilan şəhər XDS İK-nin sədrlərindən*



Təhməzov Azad Murad oğlu 1932- ci ildə Zəngilan rayonunun Sarıl kəndində anadan olub. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. Azad Təhməzov mühüm vəzifələrdə işləmişdir. O, Statistika idarəsinin ilk rəislərindən olmuşdur. İdarə təşkil olunanda ora «Moskviç 412» markalı xidməti avtomobili də verilmişdi. Sonralar Azad Təhməzova daha məsul bir vəzifə Zəngilan şəhər XDS İK -nin sədr vəzifəsi etibar edilmişdir. O, ömrünün son illərində Bakı-Naxçıvan şose yolu üzərində olan hotelin direktoru idi.

Təhməzov Azad Murad oğlu işğaldan sonra Bakı şəhərində vəfat etmişdir.

**Yusifov Rəşid İsmayıl oğlu (1923-1979)**

*Zəngilan şəhər XDS İK-nin sədrlərindən*



Yusifov Rəşid İsmayıl oğlu 1923- cü ildə Yuxarı Genlik kəndində anadan olub. 1942-1949-cu illərdə hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra Bakı Ali Partiya məktəbini bitirən Rəşid Yusifov rayonda uzun illər RİK-nin plan komissiyasının sədri, RİK-nin katibi, RİK sədrinin müavini, Yol idarəsinin müdiri, Yenikənddə kolxoz sədri və nəhayət, Zəngilan şəhər XDS İK-nin sədri vəzifələrində işləyib.

Rəşid İsmayıl oğlu Yusifov 26 avqust 1979–cu ildə vəfat etmişdir. Allah rəhmət eləsin. Onun 4 oğlu, dörd qızı var.

**Məmmədyarov Tofiq Əhməd oğlu.**
*Zəngilan şəhər XDS İK-nin sədrlərindən*

Məmmədyarov Tofiq Əhməd oğlu rayonun Genlik kəndində anadan olub. Əvvəllər Mincivan dəmiryolu xəstəxanasında feldşer işləyən Tofiq Məmmədyarov sonralar uzun illər Malatkeşin kənd orta məktəbində müəllim, sonra isə direktor işləmişdir.

Sonra ona böyük etimad göstərilərək Zəngilan şəhər XDS İK-nin sədri seçiblər.

Sovet işindən getdikdən sonra Tofiq Məmmədyarov 1988-ci ildə rayon Xalq Təhsil Şöbəsinə müdir göndərilmişdir. O bu vəzifədə 1992- ci ilə kimi işlədi. Bundan sonra o yenidən Malatkeşin kənd orta məktəbinə direktor təyin edilmişdir.

Tofiq Əhməd oğlu Məmmədyarov işğaldan sonra Bakı şəhərində vəfat etmişdir. (Çalışdım, amma şəkil və əlavə məlumat əldə edə bilmədim.)

**Rüstəmov Oktyabr Arif oğlu (1931-1991)**
*Zəngilan şəhər XDS İK-nin sədrlərindən*



Oktyabr Arif oğlu Rüstəmov 07 noyabr 1931-ci ildə Bartaz kəndində anadan olub. 1938-ci ildə kənd yeddilllik məktəbinə getmiş, 1946-cı ildə yeddinci sinfi bitirmişdir.

1947-1951-ci illərdə Naxçıvan şəhərindəki Pedaqoji Texnikumda oxumuş və ibtidai sinif müəllimi ixtisasına yiyələnmişdir. Təyinatla rayona göndərilən Oktyabr Rüstəmov Pirçivan kənd orta məktəbində bir müddət müəllim işləmiş, sonra rayon Komsomol Komitəsinin II katibi seçilmiş, 1954-

1956-cı illərdə bu vəzifədə çalışmışdır. 1956-1958-ci illərdə Zəngilan rayon PK-də təlimatçı işləmiş, 1958-ci ildə isə Bakı Ali Partiya məktəbinə göndərilmişdir. Məktəbi bitirdikdən sonra rayona gəlmiş 1962-1968-ci illərdə Rayon PK-də təlimatçı olmuşdur. 1968-ci ildə onu rayon Xalq Nəzarəti Komitəsinə sədr təyin edirlər. O bu vəzfədə 1979-cu ilə kimi işlədi. Sonrakı illərdə o, Rayon İstehlak Cəmiyyətində sədr (1980-1984), Rayon Avtonəqliyyat müəssisəsində müdir olmuşdur. 1987-1991-ci illərdə isə o, Zəngilan şəhər XDS İK-nin sədri işləmişdir.

Rüstəmov Oktyabr Arif oğlu 1991-ci ilin 29 aprelində vəfat etmiş, şəhər qəbiristanlığında dəfn edilmişdir. Dörd oğlu, bir qızı var.

**Məcidov Yavər Məhəmmədəli oğlu (1951-2021)**
*Zəngilan şəhər XDS İK-nin sədrlərindən*



Məcidov Yavər Məhəmmədəli oğlu 1951-ci ildə Zəngilan rayonunun Ağbis kəndində, qulluqçu ailəsində anadan olmuşdur. VIII sinfi bitirdikdən sonra Bakı şəhərində riyaziyyat təmayüllü məktəbə daxil olmuş, 1969-cu ildə Bakı şəhərində orta məktəbi bitirmiş və elə həmin il Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə qəbul olunmuşdur. 1973-74-cü illərdə təhsilini Leninqrad şəhərində davam etdirmiş, ali təhsil almışdır. Universiteti bitirdikdən sonra Azərbaycana qayıtmışdır. 1977-80-ci illərdə Zəngilan rayon kolxozlararası tikinti idarəsində mühəndis, 1980-1982-ci illərdə Kommunal müəssisələri kombinatında baş mühəndis, 1980-90-cı illərdə isə həmin idarənin rəisi olmuşdur. Sonra Yavər Məcidov sovet işinə keçmiş, 1990-1992-ci illərdə Zəngilan şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri işləyib. 1992-ci ildən Azərbaycan Respublikası Silahlı qüvvələrində hərbi xidmətə

başlayaraq, Zəngilan rayonunda olan hərbi hissədə, hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət göstərmişdir. Sonralar xidmətini Goranboy rayonu ərazisində, Murovdağ zonasında davam etdirmişdir. 1991-96-cı illərdə Bakı şəhərində yerləşən hərbi hissədə komandirin müavini, 1995-cı ildən Müdaifə Nazirliyinin tərbiyəvi işlər idarəsində hərbi qulluqçuların sosial hüquq müdafiəsi və hərbi intizamın təhlili şöbəsində, 1999- cu ilədək şöbə rəsinin müavini, 1999-cu ilin may ayından isə həmin şöbənin rəisi vəzifəsində xidmətini davam etdirmişdir.

Yavər Məcidova 2003-cü ildə polkovnik rütbəsi verilmişdir. 2004-cü ildə ordudan tərxis olunandan sonra, Respublika Hərbi Komissarlığında şöbə rəisinin köməkçisi, 2005-ci ilin iyunundan Müdafiə Nazirliyi hərbi Elmi tədqiqat idarəsində elmi işçi olub. 2009-cu ildə idarədə struktur dəyişiklikləri ilə əlaqədar olaraq həmin idarənin bazasında təhsil, tədris və elmi-tədqiqat idarəsi yaradılır. O, mülki olaraq burada işini davam etdirir.

Məcidov Yavər 2021- ci ildə dünyasını dəyişib.

**Məmmədov İbiş Əziz oğlu (1940-2016)**

*Zəngilan şəhər Icra Nümayəndəsi*



Məmmədov İbiş Əziz oğlu 1940–cı ildə rayonun Muğanlı (Gilətağ Muğanlısı) kəndində anadan olub.

1958- ci ildə Gilətağ kənd orta məktəbini bitirdikdən sonra Sovet Ordusunda xidmət etmişdir. Hərbi xidmətdən sonra rayon Xalq Məhkəməsində katib kimi əmək fəaliyyətinə başlayan İbiş Əziz oğlu sonra komsomol işinə keçmişdir. Burada o əvvəl qeydiyyat şöbəsinin, sonra isə təşkilat şöbəsinin müdiri olmuşdur. 1967-ci ildə o, Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan bölməsinin tarix fakültəsinin qiyabi şöbəsinə daxil olub. 1972-ci ildə ali

məktəbi bitirdikdən sonra Rayon Komsomol komitəsinə II katib seçilib.

Sonra o, 1976-1978- ci illərdə Bakı Ali Partiya məktəbində oxuyub. Ali partiya məktəbini bitirdikdən sonra onu Rayon Xalq Nəzarəti komitəsinə sədr təyin ediblər. İbiş Məmmədov bu vəzifədə 1990-ci ilə kimi yəni, sovetlərin tarix səhnəsindən getməsinə kimi işlədi. Sonra onu Zəngilan şəhər İcra Nümayəndəsi təyin etdilər. Rayonun işğalından sonra Ibiş Məmmədov 1993-2011-ci illərdə Şərikan kənd İcra nümayəndəsi olmuşdir.

İbiş Məmmədov «**Lenin yubiley**» medalı, Azərbaycan LKGİ MK- nın «Fəxri Fərmanı», Respublika Xalq Nəzarəti Komitəsinin «**Fəxri Fərman**»**ları** ilə təltif olunub.

İbiş Əziz oğlu Məmmədov 19 iyun 2016–ci ildə Bakı şəhərində vəfat etmişdir.

Həyat yoldaşı Ələkbərova Gülarə İsfəndiyar qızı vaxtı ilə rayon Komsomol Komitəsinin I katibi, məktəb direktoru işləmişdir.

**Şükürov Əşrəf Həzi oğlu**

*Zəngilan şəhər XDS İK-nin sədrlərindən*



Şükürov Əşrəf Həzi oğlu 1947- ci ildə rayonun Vənətli kəndində anadan olub. 1965-ci ildə Zəngilan qəsəbə orta məktəbini bitirib. Orta məktəbi bitirdikdən sonra H.B.Zərdabi adına Kirovabad (indiki Gəncə) şəhərindəki Pedaqoji İnstitutun tarix fakültəsinə daxil olmuş və oranı bitirmişdir. Ali məktəbi bitirdikdən sonra rayona gələn Əşrəf Şükürov rayon Komsomol komitəsində əmək fəaliyyətinə başlamışdır. Sonra hərbi xidmətə getmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra onu Komsomol Komitəsinin III katibi seçmişlər. Ali Partiya məktəbini bitirdikdən sonra o, Partiya Komitəsində əvvəl təlimatçı, sonra isə təşkilat şöbə müdiri işləmişdir. Sonrakı illərdə o, RİK-nin sədr müavini,

RİC-nin sədri əvəzi vəzifəsində də işləyib. 1992-ci ildən 2015-ci ilə kimi o, Zəngilan şəhər icra nümayəndəsi olmuşdur. Hal-hazırda təqaüddədir.

## ZƏNGİLAN ŞƏHƏRİNİN ZİYALILARINDAN

### Bəşirova Teyyubə Yəhya qızı

*Respublikanın əməkdar müəllimi*



Bəşirova Teyyubə Yəhya qızı 16 iyun 1959-cu ildə Zəngilan qəsəbəsində anadan olub. 1965-ci ildə ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçmüşlər. Burada orta məktəbi bitirən Teyyubə Bəşirova 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin axşam şöbəsinə daxil olmuş və 1983- cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Universiteti bitirdikdən sonra o, əvvəl Sumqayıt şəhər Təhsil şöbəsində müfəttiş, 11 saylı orta məktəbdə müəllim işləyib. Hal-hazırda Abşeron rayonunun Saray qəsəbəsindəki 3 saylı orta məktəbin direktorudur.

### Nərimanov Vidadi Əvəz oğlu

*tibb elmləri namizədi*



Nərimanov Vidadi Əvəz oğlu 1955-ci ilin oktyabrında Pirçivan kəndində anadan olub. 1963-1973-cü illərdə şəhər orta məktəbində oxuyub. Məktəbi bitirdikdən sonra bir neçə il istehsalatda çalışmış və 1977-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. 1983-cü ildə oranı bitirən Vidadi Əvəz oğlu 1984-1986-cı illərdə

Səhiyyə Nazirliyinin göndərişi ilə Əli Bayramlı şəhərinə işə göndərilib. Orada iki il işlədikdən sonra Bakıya gələrək, həmin İnstitutun Mikrobiologiya ixtisası üzrə əyani aspiranturasına daxil olmuş, 1989-cu ildə oranı bitirmişdir. 1992-ci ildə müsabiqə yolu ilə həmin ali məktəbin Mikpocərrahiyyə Kafedrasına assistent vəzifəsinə seçilib.

1992-ci ildə «**Bakı şəhəri şəraitində infeksion-allergik bronxial astmanın etioloji strukturu**» mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi adı almışdır. 1993, 1995 və 2003-cü illərdə həmin instituta baş müəllim seçilib.

2005-ci ildə Almaniyanın Münxen şəhərində Ümumdünya Allerqoloqlar Cəmiyyətinin XIX və Avropa Allerqoloqlar, Klinik İmmunoloqlar Akademiyasının XXIV konqresinin iştirakçısı olmuşdur.

Vidadi Nərimanov onlarla elmi məqalənin, metodik vəsaitlərin müəllifidir. Səh. 244-245. S.Cavadlı. Son gümanım Zəngilan

**Nəsirov Tofiq Cümşüd oğlu (1952-2015)**

*Respublikanın əməkdar müəllimi.*



Nəsirov Tofiq Cümşüd oğlu 22 may 1952-ci ildə Zəngilan rayonunun Beşdəli kəndində anadan olub. 1969- cu ildə orta məktəbi bitirdikdən sonra o vaxtkı V.I.Lenin adına APİ nun filologiya fakültəsinə daxil olmuşdur. 1973- cü ildə ali məktəbi əla qiymətlərlə başa vuran Tofiq Cümşüd oğlu Zəngilan şəhər orta məktəbində əmək fəaliyyətinə başlamışdır.

Sonra o, 1974-1975-ci illərdə Uzaq Şərqdə Sovet Ordusu sıralarında hərbi xidmət keçmişdir. Hərbi xidmətdən sonra 1975- 1985- ci illərdə 1 saylı Zəngilan şəhər, 1986- 1987- ci illərdə isə 3 saylı şəhər orta məktəbində ana dili və ədəbiyyatdan dərs demişdir. 1988-1993 cü illərdə rayon Təhsil

şöbəsində medodist vəzifəsində işləyib.

Tofiq müəllim rayonun işğalından sonra 1994-2012- ci illərdə Zəngilan rayon 24 saylı, 2015- ci ildən isə 33 saylı orta məktəblərdə pedaqoji fəaliyyətini davam etdirmişdir.

Tofiq müəllimin əməyinə yüksək qiymət verilmişdir. Belə ki, o, 1986- cı ildə SSRİ maarif əlaçısı, 2009- cu ildə isə «Azərbaycan respublikasının əməkdar müəllimi» fəxri adlarına layiq görülüb.

Tofiq Cümşüd oğlu Nəsirov 03 noyabr 2015- ci ildə 63 yaşında dünyasını dəyişmişdir

**Məlikova Leyli Rəşid qızı**

*Biologiya üzrə fəslsəfə doktoru*



Məlikova Leyli Rəşid qızı 1975-ci ildə Malatkeşin kəndində anadan olub. 1982-1992- ci illərdə orta məktəbdə oxuyub, 1992-ci ildə isə şəhər 3 saylı orta məktəbini bitirib. Orta məktəbi bitirəndən sonra elə həmin il Bakı Dövlət Universitetinin biologiya fakültəsinə daxil olub. 1997-ci ildə Universiteti bitirdikdən sonra Azərbaycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunda laborant kimi əmək fəaliyyətinə başlamışdır. Sonrakı illərdə o, baş laborant, kiçik elmi işçi, böyük elmi işçi vəzifələrinə yüksəlmişdir. 2009-cu ildə «**Turyançay-Göyçay hövzə torpaqlarının ekoloji qiymətləndirilməsi və monitorinqi**» mövzusunda dissertasiya müdafiə edərək biologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi adı almışdır.

Leyli Məlikova bir neçə elmi məqalənin müəllifidir. Hal-hazırda elə həmin İnstitutda baş elmi işçi vəzifəsində işləyir.

Mənbə: səh. 287-288. S.Cavadlı. «Son gümanım Zəngilan»

## Quliyev Mikayıl Nəriman oğlu

*Respublikanın əməkdar jurnalisti*



Quliyev Mikayıl Nəriman oğlu 1965-ci ildə Zəngilan qəsəbəsində anadan olub. 1972-1982-ci illərdə Zəngilan şəhər orta məktəbində oxuyub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. «Azərbaycan gəncləri», «Bakı», «Sovet kəndi», «Zavod həyatı», «7 gün», «İki sahil», «Sərhəd», «Aydınlıq», «Qarabağ», «Olimpiya dünyası», «525-ci qəzet», «Səs», «Yeni Azərbaycan», «Azərbaycan», «Respublika», «Xalq qəzeti», və digər mətbuat orqanlarında, lent.az, publika.az, 1news.az, sportnews.az saytlarında və UEFAdirect, «Neft və Qaz» jurnallarında müxtəlif səpkili yazıları dərc olunub. 1988-ci ildən mətbuatda çalışır. İlk öncə «Zavod həyatı» qəzetində, 1991-ci ildən 2005-ci ilə qədər isə bu qəzetin bazasında təsis olunan «İki sahil», qəzetində müxbir və şöbə müdiri vəzifələrində işləyib. 2005-ci ildə AFFA-nın İnformasiya və İctimaiyyətlə Əlaqələr departamentinin rəisi və eyni zamanda 2006-cı ildə AFFA-nın təsis etdiyi «Futbol dünyası» qəzetinin baş redaktoru vəzifəsində işləyib. «Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq onun rəhbərliyi altında AFFA-nın rəsmi saytı ( www.affa.az) 3 dildə (Azərbaycan, ingilis və rus dillərində) operativ fəaliyyət göstərir. Ölkəmizin idman həyatında ilk dəfə olaraq idman video portalı (www.affavideo.az) və internet TV (www.affatv.az) yaradıb. Bu layihə UEFA tərəfindən həmin ilin ən yaxşı media layihələrindən biri kimi yüksək qiymətləndirilib və mükafatlandırılıb. Azərbaycan futbolunun 100 illik tarixinin foto və video materiallarını araşdıraraq ictimaiyyətə çatdırılmasında müstəsna xidməti olub. Milli komandamızla bağlı çəkilən bir neçə televiziya filminin ssenari müəllifidir. 1989-cu ildən SSRİ,

respublikamız müstəqillik qazandıqdan sonra isə Azərbaycan Jurnalistlər birliyinin üzvüdür. 1983-85-ci illərdə Sovet ordusunda hərbi xidmətdə olub və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda erməni qəsbkarlarına qarşı döyüşlər vaxtı (1993-94 illər) hərbi müxbir kimi Milli Orduda xidmət edib. Müharibə veteranıdır. «Zəngilanın süqutu» kitabının müəllifidir. 2015-2017-ci illərdə «Kəpəz», Peşəkar futbol klubunun idarə heyətinin sədr müavini olub. Ailəlidir, 3 övladı var.

**https://az.wikipedia.org/wiki/Mikayıl_Nərimanoğlu**

**Gəray Qara oğlu Qarayev**

*«Azərbaycan Respublikasının əməkdar məşqçisi»,*
*«Fəxri Bədən Tərbiyəsi və İdman xadimi»*



Qarayev Gəray Qara oğlu 15 yanvar 1954-cü ildə Zəngilan rayonunun Çöpədərə kəndəndə anadan olub. 1970- ci ildə Zəngilan şəhər orta məktəbini bitirmişdir. Hələ orta məktəb illərindən futbolla maraqlanmış, müxtəlif miqyaslı turnirlərdə iştirak etmişdir. 1971-1972-ci illərdə Bakı Avtomobil Ehtiyat hissələri zavodunda fəhlə işlərkən Bakı şəhəri üzrə keçirilən müxtəlif yarışlarda iştirak edərək qalib olmuşdur. 1972-1974-cü illərdə Sovet Ordusu sıralarında xidmət keçən Gəray Qarayev 1974-1979-cu illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda oxumuşdur. Institutu fərqlənmə diplomu ilə bitirən Gəray Qarayev İnstitutun futbol komandası tərkibində şəhər çempionu olmuşdur. O burada Tofiq Bəhramovun müdir olduğu futbol kadedrasında Azərbaycan futbolunun tanınmış simalarından olan Kazbek Tuayev, Valeri Hacıyev, R.Cəlilov, Ə.Əbilzadə, ilə birlikdə işləmiş, «Neftçi» futbol klubunda isə Ə.Ələsgərov. K.Tuayev, İ.Netto, A.Sevidov, G.Bondarenko, R.Abdullayev və s. ilə birlikdə çalışmışdır.

Gəray Qarayev burada elmi mövzu götürmüş və Y.V.Verxoşanskinin rəhbərliyi alıtnda «**17-18 yaşlı gənc futbolçuların surət-güc keyfiyyətinin fərdi tipoloji xüsusiyyətləri»** mövzusunda dissertasiya müdafiə edərək idman nəzəriyyəsi və metodikası üzrə elmlər namizədi alimlik dərəcəsi adı almışdır. Bu mövzuda kitabı da nəşr olunub. 1974-1986-cı ilə kimi həvəskar klublarda futbol oynamışdır.

1979-cu ildə Bakı Şəhər Xalq Maarif Şöbəsinin futbol Uşaq Gənclər İdman Məktəbində məşqçi-müəllim işləmişdir. 1983-cü ildən futbol kaferdasında baş müəllim işləyir. 1985-1990- cı illərdə BTİİK-3 futbol komandasına məşqçilik etmiş və komanda onun rəhbərliyi altında şəhər çempionu olmuşdur. 1981-1986- cı illərdə Kompleks Elmi qrupu tərkibində fəaliyyət göstərərək «**Neftçi**» futbol komandasına elmi-metodiki köməklik göstərmişdur. 1987-1991-ci illərdə Moskva Mərkəzi Dövlət Bədən Tərbiyəsi İnstitutunda futbol kaferdasının dissertantı olmuşdur. O, 42 elmi-metodiki məqalə və tövsiyələr yazmaqla Frunze, Tbilisi, İrəvan, Xarkov, Moskva və s, şəhərlərdə keçirilən elmi-təcrübi konfranslarda çıxış etmişdir. 1993-1994-cü illərdə «Xəzər», futbol klubunda baş məşqçi, 1977-ci ildə «Qarabağ» futbol klubunda, 1988-ci ildə isə «Şəmkir» də məşqçi məsləhətçi olmuşdur. 1977-ci ildə «Qarabağ» ölkə çempionu olub, UEFA Kubokunda iştirak etmişdir. 1998-ci ildə «Şəmkir» klubunda məşqçi məsləhətçi olub. 1996-cı ildə Budapeştdə, 1997-ci ildə Praqada, 1998-ci ildə Tbilisidə və Bakıda keçirilən UEFA məşqçilik kursunu bitirərək UEFA məşqçilik lisenziyasını almışdır. Peşəkar klubların futbol məşqçiləri üçün 2 seminar və kurslar təşkil etməklə AFFA-nın məşqçilik kursunun direktoru, inspektorlar komissiyasının sədri və elmi metodiki komissiyasının sədr müavini kimi fəaliyyət göstərmişdir. 1993-cü ildə ölkənin milli yığma komandasında, 1998 ci ildə isə Olimpiya yığma komandasında məşqçi olmuşdur.

1999-2009-cu illərdə Türkiyə Respublikasında məşqçi kimi fəaliyyət göstərmiş, «Çaykur Rizəspor», «Adanaspor»**da**

koordinator məşqçi işləmişdir. 2004-2005-ci illərdə «Bakı» Peşəkar Futbol Klubunda məşqçi işləmiş, Azərbaycan çempionu və kubokunu almış, klubla birlikdə UEFA-nın turnirində iştirak etmişdir. 2009-2011-ci illərdə AFFA-nın Hakimlər Komitəsində Fiziki hazırlıq üzrə məşqçi 2011-2013-cü illərdə «AZAL» PFK-da məşqçi kimi 4- cü yeri tutmuş və UEFA turnirində iştirak etmişdir.

Gəray Qarayev 2013-cü ildə Bakıda keçirilən Hərbçilərin futbol üzrə dünya kubokunda Milli komandanın məşqçisi kimi iştirak etmiş və yarışın bürünc medalını qazanmışdır.

2013-cü ildən hal-hazıra kimi Azərbaycan DBTİ-nın İON kafedrasında Futbol üzrə dosent vəzifəsində çalışır. İşlədiyi 1974-2021-ci illər ərzində 25-dən çox mağistr hazırlamış, «Azərbaycan Respublikasının əməkdar məşqçisi», «Fəxri Bədən Tərbiyəsi və İdman xadimi» adlarını almışdır. 50-dən çox dərslik və dərs vəsaitinin müəllifidir.

**Əliyev Aqil Nəriman oğlu**

*Tibb elmləri namizədi*



Aqil Nəriman oğlu Əliyev 7 fevral 1965-ci ildə Zəngilan qəsəbəsində anadan olmuşdur. 1982-ci ildə şəhər 1 saylı orta məktəbini bitirdikdən sonra əmək fəaliyyətinə başlayıb.

Bir il sonra 1983-cü ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun stomatologiya fakultəsinə daxil olmuş, 1988-ci ildə təhsilini başa vurmuşdur. 1988-1992-ci illərdə Ağcabədi şəhərində işlədikdən sonra Sumqayıt şəhərinə qayıtmış, burada həkim stomatoloq vəzifəsində işinə davam etmişdir..

1993-cü ildə Azərbaycan Tibb Universitetində işə düzələn Aqil həkim elmi işlə maraqlanmış tədqiqatlar aparmışdır.

2004-cu ildə o, «**Azərbaycan ərazisində flüororun ya-**

**yılması və müalicə-profilaktik tədbirlərin xüsusiyyətləri»** mövzusunda disservasiya müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi adı almışdır. Mənbə.səh. 276-277. S.Cavadlı. Son gümanım Zəngilan

**Balaqadaşova Yaqut Seyfulla qızı**

*Bakı musiqi akademiyasınnı məzunu*



Balaqadaşova Yaqut Seyfulla qızı 30 dekabr 1971-ci ildə Zəngilan şəhərində doğulub. 1978-1988-ci illərdə Zəngilan şəhərindəki orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirdikidən sonra Sumqayıt şəhəridə Soltan Hacıbəyov adına orta ixtisas musiqi məktəbinə daxil olmuşdur. Həmin məktəbi fərqlənmə diplomu ilə bitirdikdən sonra işləmək həvəsində olsa da müəllimlərinin təkidi ilə sənədlərini Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına təqdim etmiş imtahanları müvəffəqiyyətlə verərək həmin məktəbə qəbul edilmişdir.




Konservatoriyanı bitirdikdən sonra musiqi məktəblərində musiqi müəllimi kimi əmək fəaliyyətinə başlamışdır.

Hal-hazırda Bakı şəhərindəki musiqi məktəblərindən birində işləyir. Zaur və Ziya adlı iki oğlu var.

**Əliyeva Şükufə Qara qızı**

*Jurnalist*



Əliyeva Şükufə Qara qızı 1950-ci ildə Pirçivan kəndində anadan olub. 1967-ci ildə Zəngilan qəsəbə orta məktəbini bitirdikdən sonra rayonda yenicə nəşr olunan «Kənd Həyatı» qəzeti redaksiyasında əmək fəaliyyətinə başlayıb. Burada işləyə-işləyə rayon və qəzet rəhbərliyinin təqdimatı əsasında Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə oxumağa göndərilmişdir. Bildiyiniz kimi bu illərdə rayon qəzetində peşəkar jurnalistlərə olduqca çox tələbat var idi. Məhz bu səbəbdən istedadlı gəncləri seçib ali təhsil almaları üçün Universitetə göndərirdilər. Belə istedadlı gənclərdən biri də Şükufə xanım Əliyeva idi.

Universiteti qiyabi bitirdikdən sonra Şükufə xanım uzun illər rayon qəzetində işləmişdir.

Rayonumuzun işğalından sonra Bakı şəhərində öz sevimli peşəsini davam etdirmişdir.

**Mehrəliyev Nəcəf Hüseyn oğlu**

*Metodist müəllim*



Mehrəliyev Nəcəf Hüseyn oğlu 1949-cu ildə Zəngilan rayonunun Bürünlü kəndində anadan olub. 1956-cı ildə Pirçivan kənd orta məktəbinin I sinfinə getmiş, 1966-cı ildə Zəngilan qəsəbə orta məktəbini bitirmişdir.. Orta məktəbi bitirdikdən sonra elə həmin il Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil olub. Ali təhsilini 1970-ci ildə başa vuran Mehrəliyev Nəcəf

Hüseyn oğlu 1970-1973-cü illərdə Sovet Ordusu sıralarında Leninqrad vilayətində həqiqi hərbi xidmətdə olub Hərbi xidmətdən tərxis olunandan sonra 1973-cü ildən rayonun işğalına kimi 1 saylı Zəngilan şəhər orta məktəbində riyaziyyat fənnindən dərs deyib.

Mehrəliyev Nəcəf Hüseyn oğlu 1975-ci ildə ailə həyatı qurub. Onların 4 övladı, 10 nəvəsi var.

Mehrəliyev Nəcəf Hüseyn oğlu rayonun işğalından sonra Bakı şəhərində məskunlaşmışdır. O, 11 may 2020-ci ildə dünyasını dəyişmişdir.

-qızı Mehrəliyeva Flora Nəcəf qızı 23 fevral 1978-ci ildə Zəngilan şəhərində anadan olub. Kooperativ Texnikumunun Əmtəəşünaslıq fakültəsini bitirib, 2 övladı var.

-qızı Mehrəliyeva Ellada Nəcəf qızı 01 yanvar 1980-cı ildə Zəngilan şəhərində anadan olub. Kooperativ Texnikumunun Hüquqşünaslıq fakültəsini bitirib, 2 övladı var.

-oğlu Mehrəliyev Hüseyn Nəcəf oğlu 1976-cı ildə anadan olub. Təfəkkür Universitetini bitirib. İki oğlu, iki qızı var.

-qızı Mehrəliyeva Elnarə Nəcəf qızı 25 fevral 1981-ci ildə Zəngilan şəhərində anadan olub. Orta təhsillidir. Evlidir 2 övladı var. Nəcəf müəllim sözünü, işini bilən bir ziyalı idi. Allah rəhmət eləsin.

## İNZİBATİ ORQAN İŞÇİLƏRİNDƏN

### Həsənov Ənvər Muxtar oğlu

*Polis polkovniki.*

Həsənov Ənvər Muxtar oğlu 04 aprel 1971-ci ildə Zəngilan şəhərində anadan olub.

1978-1988-ci illərdə Zəngilan şəhər 1 saylı orta məktəbində oxumuş, sonra 1989-1991-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmət keçmişdir. Hərbi xidmətini başa vurduqdan sonra

1991-ci ildə Zəngilan rayon poliş şöbəsində milis nəfəri kimi xidmətə başlayan Ənvər Həsənov 1992-1996-cı illərdə Bakı şəhərindəki polis akademiyasında oxumuşdur. Akademiyanı bitirəndən sonra onu Gəncə şəhər polis idarəsinə əməliyyat müvəkkili təyin etmişlər. Sonrakı illərdə o, Ağdaş poliş şöbəsində bölmə rəisi, Masallı rayon polis şöbəsində təhqiqat bölməsinin rəisi işləmişdir. 2013-cü ildən isə Lənkəran şəhər polis idarəsində bölmə rəisi vəzifəsində çalışıb.

2015-ci ildən Zəngilan, 2019-cu ildən isə Ağcabədi rayon polis şöbəsinin rəisidir. Daxili İşlər Nazirinin əmri ilə 2021-ci ildə yaxşı işinə görə «Fəxri Fərman» la təltif olunub.

**Abdullayev Sucəddin Yəhya oğlu**

*MTN Polkovniki*



Abdullayev Sucəddin Yəhya oğlu 02 fevral 1952-ci ildə Zəngilan rayonunun Pirçivan kəndində anadan olub. 1959- cu ildə Pirçivan qəsəbə orta məktəbinin birinci sinfinə qəbul olunub. 1965-ci ildə ailəsi Sumqayıt şəhərinə köçdüyündən orta təhsilini Sumqayıt şəhərində tamamlamışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Politexnik İnstitutuna daxil olmuş və 1980-ci ildə oranı bitirmişdir. Sumqayıt şəhərində əmək fəaliyyətinə başlayan Sücəddin Yəhya oğlu hələ ali məktəbdə oxuduğu zamandan Azərbaycan Lenin KGİ Sumqayıt şəhər Komitəsində təlimatçı işləyib. 1980-1991-ci illərdə isə Azərbaycan Sənaye Tikinti Nazirliyində 12 saylı tikinti idarəsində baş mühəndis, idarənin rəisi, 1 saylı tikinti trestinin baş mexaniki, 17 saylı tikinti idarəsinin rəisi və s vəzifələrdə çalışıb.

Sücəddin Abdullayev 1985 və 1990-ci illərdə iki dəfə Sumqayıt şəhər XDS-nin deputatı seçilib.

1991-ci ildən taleyini müstəqil dövlətimizin ordu quruculuğu ilə bağlayan Sucəddin Abdullayev kapitan rütbəsindən polkovnik rütbəsinə kimi yüksəlmişdir. O, Dövlət sərhədinin mühafizəsi Komitəsində fəaliyyətini davam etdirmiş, şöbə rəisi vəzifəsindən Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları komandirinin müavini vəzifəsinə kimi yüksəlmişdir.

Hal-hazırda təqaüddə olan Sücəddin Abdullayev Bakı şəhərində yaşayır. Üç övladı var.

**Şıxəliyev Arif İdris oğlu (1947-2016)**

*Polis mayoru*

*SSRİ Daxili İşlər Nazirliyinin mükafatçısı*



Şıxəliyev Arif İdris oğlu 1947-ci ildə Zəngilan rayonunun Pirçivan kəndində anadan olub. Arif Şıxəliyev barədə danışmazdan əvvəl onun atası barədə bir neçə kəlmə demək istərdim. Mən onun haqqında 2001-ci ildə nəşr olunan kitabımda geniş yazmışam. Sadəcə onu qeyd edəcəyəm ki, İdris Şıxəliyev 1941-1945-ci illər müharibəsindən iki dərəcəli «Şöhrət Ordeni» ilə qayıdıb. Beş il cəbhədə olan və «əliboş» qayıdan o qədər əsgər və zabit var ki. Müharibədən sonra rayonumuzda rəhbər vəzifələrdə çalışmış, nə az, nə çox, düz 26 il Rayon ZDS (XDS) İcraiyyə Komitəsinin katibi işləmişdir. Mən də onunla 6 il bir yerdə işlədim və onu ləyaqətli bir işçi kimi tanıdım.

Arif İdris oğlu Şıxəliyev 1966-cı ildə Zəngilan qəsəbə orta məktəbini bitirmişdir. Hələ orta məktəb illərində o həm yaxşı futbolçu, həm də ki, yaxşı nağara ifaçısı kimi tanınırdı. Orta məktəbi bitirəndən sonra onu Mədəniyyət şöbəsinə işə qəbul etdilər. Bu barədə onun yaxın dostu Asif Bağırov belə deyir:

-Yayda tətil günlərini biz Dərəli kəndində keçirərdik. O, nənəsi Maral xalagildə, mən isə kirvəmiz İskəndər Cəfərov gildə

qalardıq. Orta məktəbi bitirəndən sonra onu rayon Mədəniyyət şöbəsinə mədəni yaylaq Çadırına, məni isə avtokluba müdir qəbul elədilər. Hərbi xidmətini Qazaxıstanın Şevçenko şəhərində keçirib. Ordudan tərxis olunduqdan sonra Zəngilan milis şöbəsinə işə qəbul olundu. Bir neçə il işlədikdən sonra onu zəmanətlə Bakı Xüsusi Milis məktəbinə göndərdilər. 1971-1973-cü illərdəki uğurlu təhsildən sonra məktəbi bitirən Arif İdris oğlu Şıxəliyevi leytenant rütbəsində Naxçıvan Muxtar Respublikasına işə göndərdilər. Sonrakı illərdə o, Qubadlı rayonunda işlədi. Bundan sonra o, Zəngilana döndü. İllər ötür, onun rütbəsi də, işi də böyüyürdü. O, Zəngilan Polis şöbəsində ictimai təhlükəsizlik bölməsinin rəisinə qədər yüksəldi.

1974- cü ildə ailə quran Arif İdris oğlu Şıxəliyevin Cəvahir, Ramil və Rahib adlı üç övladı var.

Arif İdris oğlu Şıxəliyev öz işinə vicdanla yanaşan bir vətən oğlu, yurdsevər idi. Onun fəaliyyəti dövründə aldığı mükafatları sadalamağa gərək yoxdur. Mən onlardan sadəcə bir neçəsini qeyd edəcəyəm. Bilirsiniz ki, o dövrdə biz Moskvaya tabe idik. Müttəfiq Respublikaların öz xidmət orqanları ilə yanaşı onların tabe olduğu daha yüksək idarələr var idi. Arif İdris oğlu Şıxəliyev SSRİ Daxili İşlər Nazirliyinin 11 oktyabr 1975- ci il tarixli 497-L 5 əmri ilə 2- ci dərəcəli «Qüsursuz xidmətə görə» medalı ilə təltif olunub. Sonra isə o yenə də SSRİ Daxili İşlər Nazirliyinin əmri ilə 1- ci dərəcəli «Qüsursuz xidmətə görə» medalı ilə təltif olunub.

Onun Rayon Partiya komitəsindən, Rayon İcraiyyə komitəsindən aldığı mükafatları və «Fəxri fərman»ları vardır. O eyni zamanda Azərbaycan SSR Daxili işlər Nazirliyinin 27 noyabr 1989 –cu il tarixli əmri ilə «Fəxri fərman»la da təltif olunub.

Sovetlərin çöküşündən sonra başımıza gələn bəla hayların torpaqlarımıza xaincəsinə basqını- Arifin də həyatında mühüm rol oynadı. Artıq yaşı 40-ı keçmiş bir polis işçisinin bu yaşda dağa-daşa düşüb mənfur düşmənə qarşı vuruşması asan deyildi. Arif bu

işdə lap öndə gedənlərdən oldu. Axı vətəni, ananı qorumaq önə çıxanda bu yaşa, cinsə baxmır.

Yenə də Asif Bağırovun yazısına müraciət edək:

-1989 -cu ilin avqust ayının biri idi. Gecədən xeyli keçmişdi. Arif iki polis işçisi ilə Seyidlər kəndində gecələyirdi. Gecə saat üç olardı. Güllə səslərinə özünü bayıra atdı. Yoldaşları da onun dalınca. Kəndin arası ilə irəliləyən maşından ətrafa od püskürürdü. Arif birbaşa maşının qabağına yüyürdü. Maşın dayanan kimi tapançanı onlara tuşladı :

-Silahları yerə qoyun və maşından düşün.

Onları tərksilah edib rayon mərkəzinə gətirdi.

Arif İdris oğlu Şıxəliyev 1990- cı ildə Qarabağa ezam edildi. O, ən çətin mövqelərdə təhlükəli yerlərdə oldu.

1996-cı ildən isə Qaradağ rayon polis idarəsinin 2- ci polis bölməsinə xidməti işinə davam etdi.

Yazımı yenə də Asif Bağırovun sözü ilə bitirirəm:

Arif abırlı adam idi. Hörmətli nazirimiz (sabiq-Ə.S) Ramil Usubovla bir yerdə oxumuşdu. Bildiyimə görə, nazirin ona hörməti var idi. Amma Arif bu yaxınlıqdan istifadə etməyi sevməzdi, qürurlu insan idi. Atası İdris Şixəliyev kimi.

Arif İdris oğlu Şıxəliyev 2016-ci il fevral ayının 28-də dünyasın dəyişmişdir. Allah rəhmət eləsin.

**Abbasov İdris Şəmil oğlu (1931-1994)**



Abbasov İdris Şəmil oğlu 1931-ci ildə Zəngilan rayonunun Gəyəli kəndində anadan olub. Erkən yaşlarından kənddə təsərrüfatda işləyib. 1952-1956-cı illərdə Sovet Ordusu sıralarında Macarıstan Respublikasında xidmət etmişdir. 1956-cı ildə Macar xalqı SSRİ-yə qarşı qiyama qalxmışdı.

Hərbi xidmətini başa vurduqdan sonra

rayona qayıdan İdris Abbasov DTK orqanlarında işə qəbul olunmuşdur. Görünüşcə sürücü olsa da onun praporşik rütbəsi də var idi. Onun işi tək sürücülüklə bitmirdi.

O, 1986-ci ilə kimi bu orqanda işləmişdir. Bu orqanda işləmək elə də asan və rahat deyildir. Bu sistemin veteranı ehtiyatda olan polkovnik-leytenant Bəxtiyar Süleymanlı onun haqqında xoş sözlər demişdir. Onun dediyinə görə işinə diqqət yetirən biri olan İdris Abbasov söz aparıb gətirən olmayıb. Kimsənin zərərinə bir məlumat verməyib. Rayonun işğalından sonra oğlunun yanına Naxçıvana getmiş və 23 sentyabr 1994-cü ildə orada vəfat etmiş, elə orada da dəfn edilmişdir.

Üç oğlu, iki qızı var. Böyük oğlu Səfərdir. Sərdar Abbasov «Azərbaycanın Fəxri Dəmiryolçusu» olub. Rəhmətə gedib. Oğlanlarının hər üçü dəmiryolu maşinisti idi. Sonbeşik Sərvərin idarə etdiyi qatarı təxminən 1990-cı ildə o vaxt Mehri stansiyasında hay (erməni) quldur dəstələri saxlamış və ona işgəncə vermişdilər.

Qızları Səidə Aqrar Sənaye Bankında, Zərnişan isə Təhsil şöbəsində işləyirdi.

Abbasov İdris Şəmil oğlu yaxşı tikinti ustası, eyni zamanda da yaxşı bağban idi. Allah rəhmət eləsin

**Hüseynov Rövşən Gülməmməd oğlu.**

*Polis mayoru.*



Hüseynov Rövşən Gülməmməd oğlu 10 aprel 1962-ci ildə Zəngilan qəsəbəsində anadan olmuşdur. Atası Gülməmməd uzun müddət rayon MTS-da dəmirçi işləmişdir. Sənətinə görə onu rayonda hamı tanıyırdı.

Rövşən sobulular arasıında polisdə işləyən və mayor rütbəsi alan ilk adamdır. 1979-cu ildə Zəngilan şəhər 1 saylı orta

məktəbini bitirdikdən sonra 1980-1982-ci illərdə Uzaq Şərqdə Sovet Ordusu sıralarında hərbi xidmət keçmişdir. 1983-cü ildə İrkutsk Politexnik İnstitutuna daxil olmuş və oranı 1990-cı ildə bitirmişdir.

Məktəbi bitirəndən sonra rayona qayıdan Rövşən bir il MTS-də mühəndis işləmiş, 1991-ci ilin oktyabrından isə Zəngilan rayon DİŞ yanındakı Mühafizə bölməsində işə keçmiş və vzvod komandiri təyin edilmişdir. Rayonun işğalından sonra o da torpaqlarımızın qorunmasında yaxından iştirak etmişdir. Füzuli rayonu ərazisində yerləşən Babı kəndində müdafiə mövqeyində dayanmışdır.

1996-cı ildə onu Laçın rayon mühafizə bölməsinə rəis təyin etmişlər. Burada on ilə yaxın xidmət etmişdir. Sonra onu Sumqayıt şəhərində mühafizə rotasına komandir göndərmişlər.

2009-cu ildən ehtiyata buraxılan Rövşən Hüseynov yaxşı işinə görə təşəkkürlər almışdır. Hal-hazırda Bakı şəhəri Səbail rayonunda yaşayır. Həyat yoldaşı Ulduz Alməmməd qızıdır.

Oğlu Kərəm, qızları Xoşnişin, Əfsanə. Oğlu Kərəm Aviasiya Akademiyasını bitirib.

### Cavadov Cahangir Hidayət oğlu

*Polis podpolkovniki*



Cavadov Cahangir Hidayət oğlu 1953- cü ildə İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub. O, 1970-ci ildə Zəngilan şəhər orta məktbini bitirib. Orta məktəbi bitirdikdən sonra 1971- ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutuna daxil olmuş, 1976-cı ildə oranı bitirmişdir. 1975-1976-cı illərdə Qubadlı rayonunun Xocahan kəndində öz ixtisası üzrə müəllim işləmişdir.

Cavadov Cahangir Hidayət oğlu 1976-1977-ci illərdə Amur vilayətinin Rayçixinsk şəhərində hərbi xidmətdə olmuşdur. Hərbi

xidmətini bitirdikdən sonra Rayçixinsk rayon DİŞ-də işə girib. 1978-1981-ci illərdə burada sahə inspektoru, 1981-89-cu illərdə isə cinayət axtarış bölməsində baş əməliyyat müvəkkili işləmişdir.

Cahangir Cavadov 1984-cü ildə Ümumittifaq Hüquq Institutunun Xabarovsk filialını qiyabi bitirib.

1989-cu ildə xidmətini Azərbaycana dəyişmiş və DİN-nin tədris mərkəzində baş müəllim işləmişdir. Sonra onu Zəngilan rayon DİŞ-nə rəis müavini təyin edirlər. O, 1991-93-cü illərdə burada xidmət etmiş, sonra 1993-2000-ci illərdə Bakı şəhəri, Səbail rayon DİŞ–də qərargah rəisi işləmişdir.

Cavadov Cahangir Hidayət oğlu 2000- ci ilin aprelində öz raportuna əsasən təqaüdə çıxşmışdır.

O, qüsursuz xidmətə görə I, II və III dərəcəli medallarla və «Əlaçı milis əməkdaşı» döş nişanı ilə təltif olunub.

**Atlıxanov Əşrəf Ismayıl oğlu**
**(1938-2010)**
*polis mayoru*



Atlıxanov Əşrəf Ismayıl oğlu 1938-ci ilin avqust ayında rayonun Yusiflər kəndində anadan olub. O, 1947-ci ildə Sayıflı kənd 7 illik məktəbinin I sinfinə daxil olmuş, 1954-cü ildə həmin məktəbi bitirmişdir. Sonra o, Pirçivan kənd orta məktəbində oxumuş, 1957-ci ildə orta təhsilini başa vurmuşdur.

Atlıxanov Əşrəf 1957-1959-cu illərdə Sover Ordusu sıralarında hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonra rayona qayıdan Əşrəf İsmayıl oğlu 1960-cı ildə rayon DIŞ-də pasport masa bölməsində katib kimi əmək fəaliyyətinə başlamışdır. Istehsalatdan aryılmadan 1966-cı ildə M.K Rizayev adına Bakı milis məktəbinə daxil olan

Əşrəf 1969-cu ildə oranı hüquqşünas ixtisası üzrə bitirmişdir.

1970-ci ildə Atlıxanov Əşrəf Ismayıl oğlunu Naxçıvan MR-nın Sahbuz rayonuna SƏDM (Sosialist Əmlakını Dağıdanlarla Mübarizə) üzrə inspektor təyin edirlər. Iki ili orada işlədikdən sonra onu Naxçıvan şəhərinə eyni işə dəyişirlər.

Sonra o, 1975-1983-cü illərdə Naxçivan MR- nın keçmiş Noraşen (indiki Sədərək) rayonunda pasport masa rəisi işləmişdir. Rəhmətliyin dediyinə görə, onun heç bir günahı olmadan işdən azad etmişlər. Milis oqranlarından azad edildikdən sonra rayona qayıdan Atlıxanov Əşrəf Ismayıl oğlu 1985-2010–cu illərdə əvvəlcə Zəngilan rayon XDS IK-də, sonra isə Icra Hakimiyyətində Mülki Müdafiə Qərargahının rəisi işləmişdir.

Atlıxanov Əşrəf Ismayıl oğlunun üç oğlu var. Gözəl insan, yaxşı yoldaş olan Atlıxanov Əşrəf Ismayıl oğlu 18 iyul 2010-cu ildə Bakı şəhərində vəfat etmişdir. Allah rəhmət eləsin.

## İsmixanov Sərdar Şamxal oğlu (1955-2015)

*Tibb xidmət podpolkovniki*



İsmixanov Sərdar Şamxal oğlu 1955-ci ildə rayonun Fərəcbəyli kəndində anadan olub. Sonra ailəsi Zəngilan şəhərinə köçmüşdür. O, 1962-1972-ci illərdə şəhər orta məktəbində oxuyub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə getmişdir. Ordudan tərxis olunandan sonra Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. Ali məktəbi bitirəndən sonra şəhərimizdə həkim kimi əmək fəaliyyətinə başlayan Sərdar İsmixanov sonralar Milli Orduda fəaliyyətini davam etdirmişdir. Tibb xidmət podpolkovniki idi. Həyat yoldaşı Qiymət İsmayıl qızıdır. Onların Nilufər, Bəyim və Rüfət adında üç övladı var. İsmixanov Sərdar Şamxal oğlu 2015- ci ildə Bakı şəhərində vəfat etmişdir

**Təhməzova Maya Bəylər qızı**

*Polis podpolkovniki*



Təhməzova Maya Bəylər qızı 24 aprel 1953-cü ildə Pirçivan kəndində anadan olub. Orta məktəbin VII sinfini bitirdikdən sonra Bakı şəhərinə getmiş və orada o vaxtkı Razin (indiki Bakıxanov) qəsəbəsindəki orta məktəbdə oxumuşdur. Hal-hazırda həmin məktəb Maya xanımın xalası oğlu şəhid Nazim Ağakişi oğlu İsmayılovun adını daşıyır. Orta məktəbi bitirdikdən sonda ADU-nun Kitabxanaçılıq fakültəsinə daxil olub və oranı bitirib. Sonraki illərdə o, inzibati orqanlarda işə qəbul olunmuş və Binəqədi rayon polis şöbəsində əvvəl uşaqlarla iş üzrə inspektor sonra isə pasport masa rəisi olub. O, Bakı Polis Akademiyasını da bitirib. Hal-hazırda podpolkovnik rürbəsində istefadadır. Yoldaşı Əzizov Muxtar Haqverdi oğlu da zəngilanlıdır və ali təhsilli həkimdir. Onların Emil (Tibb Universitetini bitirib) və Elvin (BDU-nun hüquq fakültəsini bitirib) adlı iki övladı var.

## İLK MİLİSLƏR VƏ ONLARIN İŞİNİ DAVAM ETDİRƏN ÖVLADLARI

Sovet hökümətinin ilk qurumlarından biri də, milisdir. Eşitdiyimə görə ilk milis maşınını Hətəmov Yaqub işlədib. Sonra o, dornadzor (yol nizamlayıcısı) olub. İlk milis işçilərindən Məmmədquliyev Gülməmməd Şükür oğlunu, Kərimi, Ədili, usta Fərruxun atası İldırımı, Kərimov Ədili, Allahveridiyev Bəyləri qeyd edə bilərik.

İlk illərdə rayon milis şöbəsinin xüsusi atları var idi. Bu atlara baxanlardan birincisi Cəlilov Muxtar olub. Sonra Pirveyisli Fərman, Pirçivandan İsrafil də bu işə cəlb olunub.

**Kərimov Ədil Hətəmxan oğlu(1924-2010)**

*1941-1945-ci illər müharibəsinin iştirakçılarından*
*Zəngilanın milis starşinası*



Kərimov Ədil Hətəmxan oğlu 1924-cü ildə indiki Zəngilan rayonunun Çuxuryurd kəndində anadan olub. Onlar üç qardaş, iki bacı olmuşlar. Ədil Kərimov ibtidai təhsilini Qaragöl kəndində almış, sonra isə Keçikli kənd məktəbinin VII sinfini bitirmişdir.

Kərimov Ədil Hətəmxan oğlu 1941-1945-ci illər müharibəsində döyüşən orduda iştirak etmişdir. Onun döyüş yolu Qudurmes, Voronej və digər şəhərlərdən keçmişdir. Müharibədə döyüşlərin birində ağır yaralanan Ədil Kərimovu müalicə almaq üçün hərbi hospitala göndərmişlər. Müalicə olunduqdan sonra həkimlər onun orduya yararsız olduğu qənaətinə gəlmiş və onu ordudan tərxis etmişlər. Rayona qayıdan Ədil Kərimov bir müddət kolxoz təsərrüfatında işlədikdən sonra 1945-ci ildə milis sisteminə işə qəbul olunur. Ədil Kərimov bu sistemdə düz 40 il xidmət edib. 1985- ci ildə təqaüdə çıxandan sonra da əmək fəaliyyətini davam etdirmişdir. O, rayon İstehlak Cəmiyyətinin veteranlara məxsus mağazasında əmək fəaliyyətini davam etdirmişdir. Ədil Kərimov Zəngilanda starşina kimi də tanınırdı.

Ədil Hətəmxan oğlu Kərimov işlədiyi müddət ərzində bir çox medal və fəxri fərmanlarla təltif olunub.

Rayonun işğalından sonra Bakı şəhərinin Abşeron rayonunun Məmmədli kəndində məskunlaşmış, 2010-cu ilin 10 martında dünyasını dəyişmişdir. Allah rəhmət eləsin.

Ədil Kərimovun 7 övladı, 18 nəvəsi, 26 nəticəsi var.

Onun haqqında mən də həmişə xoş sözlər eşitdim. Sanki heç sistem işçisi deyildi. Bu onun əhaliyə olan diqqət və qayğısının, onları bəd ayaqda ötüşdürməsinin nəticəsi idi.

**Kərimov Sabir Ədil oğlu**

*Istefada olan Polis mayoru*



Kərimov Sabir Ədil oğlu 1947-ci ilin fevral ayında Zəngilan rayonunda anadan olub. 1965-ci ildə Zəngilan qəsəbə onbirillik məktəbinin 11-ci sinfini bitirən Sabir Kərimov Azərbaycan Dövlət Universitetinin tarix-filologiya fakültəsinə daxil olub. 1969-cu ildə Universiteti əla qiymətlərlə birtirən Sabir Kərimov bir il rayonda çıxan «Kənd Həyatı» qəzetində əməkdaş kimi çalışmışdır. 1970-1971-ci illərdə Sovet Ordusu sıralarında hərbi- xidmətdə olub. Xidmətini başa vurduqdan sonra rayona qayıdan Sabir Kərimov Rayon Komsomol komitəsində şöbə müdiri kimi əmək fəaliyyətini davam etdirmişdir. Sonra rayon Komsomol Komitəsinin (katib Gülarə Ələkbərova) təqdimatı ilə Daxili İşlər Orqanlarna işə göndərilmişdir. O, DİN–nin nəqliyyatda milis şöbəsində xidmətə başlamışdır.

Sabir Kərimov 1972-1999-cu illərdə bu sistemdə işləmişdir. O bu sahədə baş müvəkkil, yeniyetmələrin işi üzrə bölmənin rəisi işləmişdir. 1999-cu ildə 35 illik xidmətdən sonra təqaüdə çıxmışdır.

Qüsursuz işinə görə o, Azərbaycan SSR DİN-nin, həm də SSRİ Daxili İşlər Nazirliyinin «Fəxri Fərman»ı və medalı ilə təltif olunub. 1980-cı ildə Moskvada keçirilən Yay Olimpiya oyunlarında ictimai asayişin qorunması üçün 3 ay Moskva şəhərinə ezam edilən Sabir Kərimov yaxşı işinə görə SSRİ Daxili İşlər Naziri N.A.Şelokovun (1966-1982-ci illərdə nazir, ordu generalı) imzası ilə «Fəxri Fərman»la təltif olunub. O eyni zamanda 1988-1993-cü illərdə yurdumuza xaincəsinə təcavüz etmiş Ermənistan Respublikasının Silahlı qüvvələrinə qarşı da vuruşmuş, müəyyən dərəcəli bədən xəsarəti almışdır. Qarabağ müharibəsi veteranıdır. Ailəlidir, iki övladı, 4 nəvəsi var.

## Kərimov Əbdüləzim Ədil oğlu

*Istefada olan Polis kapitanı*



Kərimov Əbdüləzim Ədil oğlu 1970-ci ildə Zəngilan şəhərində anadan olub. 1977-1987-ci illərdə Zəngilan şəhər orta məktəbində oxuyub. Orta məktəbi bitirdikdən sonra Sovet Ordusu sıralarında xidmət edib. Xidmətini başa vurduqdan sonra Milis sisteminə işə qəbul olunmuş və atasının və qardaşının yolunu davam etdirmişdir. Torpaqlarımızın müdafiəsində iştirak edən Əbdüləzim Kərimov bədən xəsarəti almışdır. Qarabağ müharibəsi veteranı və əlilidir.

## Paşayev Əziz Şükür oğlu (1931-2017)

*Polis mayoru şəhid atası*



Paşayev Əziz Şükür oğlu 14 yanvar 1931-ci ildə Qubadlı rayonunun Tatar kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Xalq Daxili İşlər Komissarlığının Zəngilan rayon şöbəsində katib kimi əmək fəaliyyətinə başlayıb. Əziz Paşayev 1955- ci ildə Azərbaycan DİN-nin Xüsusi orta milis məktəbinə göndərilir. 1958-ci ildə oranı bitirdikdən sonra onu təyinatla Cəbrayıl rayon DİŞ-nə işə göndərirlər. 1962-ci ildə isə Qubadlı rayon DİŞ-nə dəyişdirilir.  Əziz Paşayev xidmətinin çox hissəsini Zəngilan rayonunda etmiş, 1969- cu ildə rayon DİŞ-yanında Mühafizə bölməsi yaradılanda bölməyə rəis təyin edilmiş və təqaüdə çıxana kimi bu vəzifədə çalışmışdır.

Paşayev Əziz işlədiyi müddətdə bir çox təltiflərə layiq görülmüş 1995-ci ildə isə Qələbənin 50 illiyi yubiley medalı ilə təltif olunmuşdur. Əziz Paşayev eyni zamanda şəhid atasıdır.

Paşayev Əziz Şükür oğlu 15 iyun 2017 –ci ildə vəfat etmişdir.

**Paşayev Sabir Əziz oğlu (1969-1993)**

*Polis leytenantı şəhid*



Paşayev Sabir Əziz oğlu 1969- cu ildə Zəngilan şəhərində anadan ollub. 1976-86-cı illərdə 1 saylı şəhər orta məktəbində təhsil alıb. 1987-ci ildə İnşaat Mühəndisləri İnstitutunun qiyabi şöbəsinə qəbul olunub. Elə həmin il orduya xidmətə çağırılıb. Əsgəri borcunu respublikamızda yerinə yetirərək Zəngilana serjant rütbəsində qayıdıb. 1990-cı ilin avqust ayında Zəngilan Rayon Milis Şöbəsinə xidmətə qəbul edilib. Nümunəvi qulluğu, bacarığı ilə seçilən Sabir həmin ilin sonunda milis leytenantı rütbəsi verilməklə Məmmədbəyli kəndini və Həkəri stansiyasını əhatə edən mürəkkəb əraziyə sahə müvəkkili təyin edilib. Gənc sahə müvəkkili nəinki nəzarətindəki ərazidə asayişin təmin edilməsinə nail olub, eləcə də haylara qarşı döyüşlərdə həmişə aparıcı mövqedə dayanıb. 1993-cü il oktyabr ayının 25-də Cəbrayıl rayonu istiqamətindən hücum edən düşmənə qarşı ağır müdafiə döyüşü aparılarkən itkin düşüb. 1995-ci ilin martında şəhidlik statusu verilib.

**Məmmədquliyev Gülməmməd Şükür oğlu (1906-1991)**

*İlk milislərdən*



Məmmədquliyev Gülməmməd Şükür oğlu 1906-cı ildə Zəngəzur qəzasının Pirçivan kəndində anadan olub. Uşaqlıq dövrü I Dünya müharibəsi illərinə təsadüf edib. Gənclik illərində bir çox işlərdə çalışmışdır. Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra kasıb əhali bu quruluşa

inanmış və ona xidmət etmişlər. Zəngilan rayonunun təşkilindən sonra yerli sovet orqanları yaradılmışdır. Bu orqanlardan biri də asayişin qorunması ilə məşğul olan milis idarəsi idi. Gülməmməd Şükür oğlu 1937-ci ildə bu sistemə daxil olmuş və orada 40 ilə yaxın xidmət etmişdir. O, 1974-cü ildə baş serjant rütbəsində təqaüdə çıxmışdır.

Məmmədquliyev Gülməmməd işlədiyi müddətdə bir çox medal və təşəkkür məktubu ilə mükafatlandırılıb. Onun 12 övladı var. Bunlar barədə kitabda məlumat verilir. Gülməmməd Şükür oğlu 1991-ci ildə Bakı şəhərində vəfat etmiş və orada da dəfn olunmuşdur.

**Şükürov Əhməd Gülməmməd oğlu**

*II qrup Qarabağ əlili*



Şükürov Əhməd Gülməmməd oğlu 17 aprel 1966-cı ildə Zəngilan qəsəbəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra Sovet Ordusu sıralarında xidmət edib. Ermənistan Respublikası Silahlı qüvvələri Rus ordusunun köməyi ilə torpaqlarımıza təcavüz edən dövrdə polis orqanlarına daxil olmuş və vətənin qorunması üçün azğın düşmənə qarşı vuruşmuşdur. 1993- cü ildə düşmən hücumunu dəf etmək məqsədi ilə Milli Ordu ilə bərabər polislər də torpaqlarımızın müdafiəsində yaxından iştirak etmişlər. Bu döyüşdə Əhməd qarın nahiyəsindən iki güllə yarası almış və hospitala göndərilmişdir. İki aylıq müalicədən sonra yenidən xidməti yerinə qayıtmışdır.

2000-ci ilə kimi ölkənin müxtəlif bölgələrində xidmətini davam etdirən Əhməd Gülməmməd oğlu Şükürov 2000-ci ildə aldığı yaralar səbəbindən polis sistemindən tərxis olunub. Hal-hazırda II qrup Qarabağ müharibəsi əlili kimi təqaüddədir.

# ZƏNGİLAN ŞƏHƏR ORTA MƏKTƏBİ

Pirçivanda 1927-ci ildə ilk məktəb açıldı. Bu məktəb 7-illik idi. Məktəb təşkil olunanda onun ilk dərslərini Məsciddə keçmişlər. Sonrakı illərdə məktəb bir neçə dəfə yer dəyişdirib. 1934-cü ildə şəhərimizdə son illərə kimi istifadə olunan və 2 saylı şəhər orta məktəbinin olduğu məktəb binası tikilib. Pirçivan 7-illik məktəbin ilk müdiri Baxış Nəcəfquliyev olub.

I saylı şəhər orta məktəbinin. geniş sinif otaqları olan məktəb binası 1968-ci ildə istifadəyə verilib. Buna qədər Zəngilanın əsas məktəb binası bir mərtəbəli ilk məktəb binasıdır. Bu bina və məktəb Zəngilan təhsilinin flaqmanıdır desəm, yanılmaram. Bu məktəbi bitirən yüzlərlə oğlan və qız sonrakı illərdə rayonumuzu yüksək dairələrdə təmsil etdilər və yenə də edirlər.

## Pirçivan (Zəngilan) kənd (qəsəbə, şəhər) məktəbinin direktorları

**1.Nəcəfquliyev Baxış (1929),**

*Pirçivan kənd yeddillik məktəbin müdiri.*

Zəngilan rayon Dairə Firqə Komitəsinin Rəyasət Heyətinin 1929- cu il iclas protokolunda qeyd olunur ki, Zəngilan 7 illik məktəbin müdiri Baxış Nəcəfquliyevdir. Bu qısa məlumatdan başqa onun haqqında bir məlumat yoxdur.

**2. Məmmədov Vəli.**

*Zəngilan qəsəbə yeddillik məktəbinin direktorlarından*

Zəngilan rayon Dairə Firqə Komitəsinin Rəyasət Heyətinin 10 oktyabr 1930-cu il iclas protokolunda qeyd olunur ki, Zəngilan 7 illik məktəbin müdiri vəzifəsinə Məmmədov Vəli təyin olunur. Onun haqqında da başqa bir məlumat yoxdur.

Artıq bu tarixdən etibarən sənədlərdə Zəngilan rayon komitəsinin Rəyasət heyəti yazılır.

**Kərimov Həmzə Məmmədkərim oğlu.**
*Zəngilan (Pirçivan) kənd orta məktəbinin direktorlarından*



Kərimov Həmzə Məmmədkərim oğlu XX əsrin əvvəllində rayonun Keçikli kəndində anadan olub. 1918-ci ildə kənd məktəbini bitirdikdən sonra ictimai həyata atılmış və o illərdə surətlə fəallaşan bolşeviklərə qoşulub. 1920-ci ildə Azərbaycanda sovet hakmiyyəti qurulandan sonra Qubadlı rayonunun Dəmirçilər kəndində müəllimliyə başlayır. O, müxtəlif illərdə Qubadlı rayonunun Dəmirçilər, Xocahan, Laçın rayonunun Molla Əhmədli, Zabux kəndlərində işləyir. Sonra Şuşa Pedaqoji məktəbinə daxil olan Həmzə Kərimov 1930-cu ildə oranı əla qymətlərlə bitirir.

O hər an öz kəndini düşünür, kənddə məktəb açıb uşaqlara dərs demək həvəsi ilə yaşayırdı. Keçiklidə açılan ilk məktəbin direktoru da, müəllimi də o özü idi.

Sonra onu Şamaxı rayonuna məktəb direktoru göndərirlər. Yayda rayona istirahət etməyə gələn zaman rayon partiya komitəsi onunla maraqlanır və ona rayon təhsil şöbəsinə rəhbərlik etmək təklif olunur. Birinci katibin işə qarışmasından sonra nazirlik onu rayona həmin vəzifəyə təyin edir. Həmzə Kərimovun təklifi ilə Pirçivan məktəbinin orta məktəbə çevrilməsi yuxarı təşkilatlar qarşısında qaldırılır və buna nail olunur. Kənd Zəngilan məktəbinin yuxarı sinif şagirdlərindən isə müəllim kimi istifadə olunur.

1939-cu ildə o, Lenin ordeni ilə təlfif olunub. 1941-1945- ci illərdə o, DQMV-İcraiyyə Komitəsi sədrinin müavini işləyib.

Sonrakı illərdə o, Bakı şəhərində müxtəlif məktəblərdə dərs demişdir.

**İbrahimov Cavanşir Yusif oğlu (1910-1970)**

*Zəngilan (Pirçivan) kənd orta məktəbinin direktorlarından*



İbrahimov Cavanşir Yusif oğlu 1910-cu ildə rayonun Üdgün kəndində anadan olub. O, Pirçivan kənd yeddiillik məktəbin ilk direktorlarından olub. 1949-1952-ci illərdə həmin məktəbin direktoru işləmişdir. Sonra 1953- cü ildə o, işdən getmiş və yerinə Kərimov Heydərqulu Qibləli oğlu təyin edilmişdir.

İbrahimov Cavanşir Yusif oğlu 1970–ci ilin mayında Bakı şəhərində dünyasını dəyişmişdir. Allah rəhmət eləsin.

**Kərimov Heydərqulu Qibləli oğlu. (1913-1995)**

*1952-1955-ci və 1961-1963-cü illərdə Zəngilan qəsəbə orta məktəbinin direktoru*



Heydərqulu Qibləli oğlu Kərimov 1913-cü ildə rayonun Yusiflər kəndində anadan olub. Gec də olsa o, rayonda olan 5 sinifli Kəndli-Gənclər məktəbinə daxil olur. Digərlərinə baxanda yaşının çox olmasına baxmır və yaxşı oxuyur. Sonra Füzuli (keçmiş Qaryagin) şəhərindəki müəllimlər hazırlayan pedaqoji məktəbə daxil olur və oranı müvəffəqiyyətlə bitirir. Məktəbi bitirdikdən sonra onu Dilicana (indiki Ermənistan SSR) göndərirlər. Orada bir müddət işlədikdən sonra rayona dönən Kərimov Şayıflı məktəbində müəllimlik etmiş, sonra isə direktor təyin edilmişdir.

Sonralar Zəngilan qəsəbəsinə köçmüş, rayon PK-də işləmişdir. 1938-ci ildə onu Bartaz kənd yeddillik məktəbinə müəllim

göndərmişlər. Bir müddət sonra onu direktor təyin edirlər. 1942-ci ilə kimi burada işləyən Heydərqulu Kərimov yenidən rayon mərkəzinə qayıdır və RPK-də təlimatçılıq işini davam etdirir. 1948-1950-ci illərdə o, Bakı Ali Partiya məktəbində oxumuş, sonra rayona qayıtmış və RPK-də şöbə müdiri olmuşdur. Heydərqulu Kərimov 1952-ci ildə Zəngilan qəsəbə orta məktəbinə direktor təyin olunmuş, eyni zamanda qiyabi olaraq Azərbaycan DPİ-nun tarix-coğrafiya fakültəsini bitirmişdir. Sonrakı illərdə müxtəlif sahələrdə çalışan Heydərqulu Kərimov 1961-ci ilədək Zəngilan rayon istehlak Cəmiyyətinin sədri olmuş, 1961-ci ildə yenidən Zəngilan qəsəbə orta məktəbinə direktor təyin edilmişdir. Son illərdə o, məktəbdə müəllimlik etmiş, Zəngilan rayon RXMŞ-də inspektor işləmiş, 1980-ci ildən axşam qiyabi orta məktəbin direktori olmuş, bu vəzifədən də təaqüdə çıxmışdır.

Heydərqulu Qibləli oğlu Kərimov 1995-ci ilin 09 oktyabrında Bakı şəhərində vəfat etmişdir. Üç qızı, iki oğlu olmuşdur. **s.132-134. Tarverdi Abbasov.Zəngilanın Bartaz kəndi və onun 100 yaşlı məktəbi. Bakı, Əkizlər nəşriyyatı 2012. 376 s.**

**Ağayev Nəriman Abbas oğlu**

*Zəngilan qəsəbə orta məktəbinin direktorlarından*
*(1958-1961-ci illərdə)*



Ağayev Nəriman Abbas oğlu 1921-ci ildə Hacallı kəndində anadan olmuşdur. 1930-1940-cı illərdə Pirçivan kənd orta məktəbində oxumuşdur. Orta məktəbi bitirəndən sonra Bakı şəhərində 6 aylıq müəllimlik kursu keçmiş, sonra bir neçə ay Zəngilan kəndində müəllimlik etmişdir. 1941-ci ildə müharibə başlananda Nəriman müəllim də səfərbərliyə alınaraq Azərbaycan diviziyaları tərkibində Mozdokdan Praqaya kimi döyüş yolu

keçmişdir. Müharibədə göstərdiyi qəhrəmanlığa görə Nəriman Ağayev II və III-cü dərəcəli «Şöhrət», «Böyük Vətən Müharibəsi» Ordenləri və bir çox medallarla təltif olunmuşdur.

Müharibədən sonra, daha doğrusu, 1945-ci ilin 27 sentyabrında ordudan buraxılandan sonra rayona qayıdan Nəriman müəllim Hacallı kənd yeddiillik məktəbində əvvəl müəllim, sonra isə dərs hissə müdiri kimi əmək fəaliyyətini davam etdirir.

1946-1950-ci illərdə keçmiş V.İ.Lenin adına Azərbaycan Pİ-nun fizika-riyaziyyat fakültəsində oxumuş və ali təhsilli müəllim diplomu almışdır.

Məktəbi bitirəndən sonra onu indiki Qubadlı rayonunun Xanlıq kənd orta məktəbinə göndərdilər. 1951-ci ilin 15 martında Zəngilan rayon PK-nin bürosu onu rayon Xalq Maarif Şöbəsinə müdir təyin edir. 1952-ci ilin 28 oktyabrında isə Nəriman Ağayevə böyük etimad göstrilir və o, rayon partiya komitəsinin II katibi seçilir.

Burada 4 il işləyir. Nəriman müəllim 1955-ci ilin noyabrında rayon Komitəsinin Plenimunda raykomun I katibi seçilir. Bu artıq çox böyük bir etimad idi. Rayonun taleyi Nəriman Ağayevə tapşırılır. Bu həm də ilk yerli I katib idi. Bu dövrə qədər Zəngilanda işləmiş I katiblərin hamısı başqa rayonlardan idilər. Bu vəzifədə o, bir seçki müddətində işlədi.

1958-ci ilin yanvarında Azərbaycan KP MK-nın Bürosu onu I katib vəzifəsindən azad elədi. Partiya işindən uzaqlaşan Nəriman Ağayev uzun müddət Zəngilan şəhər orta məktəbində direktor və müəllim işləmişdir. Ağayev Nəriman Abbas oğlu 2004-cü ildə Bakı şəhərində vəfat etmişdir.

**Təhməzov Ziyad Murad oğlu (1925-1986).**
*1963-1972-ci illərdə Zəngilan qəsəbə-şəhər orta məktəbinin direktoru*
*Məktəb 1965-ci ildə 11 –illik məktəbə çevrilib.*



Təhməzov Ziyad Murad oğlu 15 may 1925-ci ildə rayonun Sarıl kəndində anadan olub. 1932-ci ildə Sarıl kənd ibtidai məktəbinə daxil olan Ziyad Təhməzov 1939-cu ildə Alıbəyli kənd 7 illik məktəbini bitirir. Sonra Füzuli rayonundakı pedaqoji məktəbə daxil olmuş və oranı vaxtından əvvəl bitirmiş və rayona qayıdaraq Ağalı kənd məktəbində əmək fəaliyyətinə başlamışdır. Ziyad müəllim 1945-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna qəbul olunmuş və 1950-ci ildə oranı bitirmişdir.

1951-ci ildə onu iki illik ali partiya məktəbinə oxumağa göndərirlər. Məktəbi bitirəndən sonra onu Zəngilan payon PK-nə kənd təsərrüfatı üzrə katib seçirlər.

Moskva Ali Partiya məktəbini bitirdikdən sonra 1960-cı ildə Ziyad Təhəmzova böyük etimad göstərilir və onu Zəngilan rayon ZDS İK-nə sədr seçirlər. 1963-cü ildə Zəngilan və Qubadlı rayonlarının birləşməsi səbəbindən hər iki rayonun sədri vəzifələrindən azad edilir və birləşmiş rayona Nəzir Kərimov sədr seçilir. Ziyad Təhməzovu isə Zəngilan qəsəbə 10 illik məktəbinə direktor təyin edirlər. Ziyad müəllim burada düz 9 il işləyir, elmi işini müdafiə etdikdən sonra Naxçıvan Pedaqoji İnstitutuna müəllim göndərilir.

Bir çoxlarımızın müəllimi olan Ziyad Murad oğlu Təhməzov 25 may 1986-cı ildə vəfat edir və Zəngilan şəhər qəbiristanlığında dəfn olunur.

## Əliyev Nəriman Salman oğlu (1925-2007)

*Zəngilan* şəhər *orta məktəbinin direktorlarından*



Nəriman Salman oğlu Əliyev 1925-ci ilin 15 mayında Zəngilan rayonunun Tiri kəndində anadan olub. 1942-ci ildə Zəngilan kənd orta məktəbini bitirmiş, müəllim olmaq həvəsi ilə yaşasa da 1941-ci ildə başlanan müharibə onun bu arzusunu həyata keçirtməyə imkan verməmişdir.

Müharibədən sonra ADU-nun filologiya fakültəsinə daxil olmuş və 1950-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Ali təhsilli müəllim kimi doğma rayona qayıtmış, uzun illər gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Nəriman müəllim 1 saylı Zəngilan şəhər orta məktəbində uzun illər müəllimlik etmiş, direktor vəzifəsinə kimi yüksəlmişdir. Nəriman müəllim eyni zamanda insanı düşündürən dərin məzmunlu şeirləri ilə də bir çoxlarının qəlbini ələ almışdır. 1988-ci ildə «Azərbaycan sovet poemalarında ənənə və novatorluq» mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi adı almışdır.

Nəriman müəllim bir neçə şeirlər kitabının müəllifidir. Beş övlad atası olan Nəriman müəllimin 3 oğlu, iki qızı var.

Nəriman Salman oğlu Əliyev 2007-ci ildə Bakı şəhərində vəfat etmişdir.

## Asif Bağırovun Nəriman müəllim barədəki düşüncələri.

*Gecikmiş etiraf*

Son illərdə ən yaxınlarımdan birinə çevrilən, özümə qardaş bildiyim, tarixçi, yazıçı- publisist Hacı Əli Sobulunun (Əli Seyfulla oğlu Cümşüdlü) «**Pirçivan kəndindən Zəngilan şəhərinə gedən yol**» kitabını vərəqləyərkən vaxtılə müəllimimiz

olmuş Nəriman Salman oğlu Əliyev haqqındakı məlumatlar məni keçən əsrin əllinci illərinin birinci yarısına apardı. Sonralar mənə dərs deyən müəllimlər Ziyad Təhməzov, Tofiq Hacıyev haqqında kitablarda böyük yazılarım getsə də, həyatda formalaşmağımda, ali təhsil almağımda böyük zəhməti olan Nəriman Əliyev barədə heç bir yazım getməyib. Əli müəllimin icazəsi ilə yazdıqlarımı müəllifin yazısına əlavə edirəm.

Onu hamımız ürəkdən sevsək də  müəyyən dərəcədə ehtiyat edir, daha doğrusu,  qorxurduq. Biz I sinfə gedəndə Heydərqulu Kərimov Pirçivan kənd orta məktəbinin direktoru idi. Nəriman Əliyev dərs hissə müdiri, Əbdül Babayev isə tərbiyə işləri üzrə direktor müavini kimi yadımda qalıb.

Məktəbin çöl qapısından içəri keçən hər kəs Nəriman müəllimin yaradıb ərsəyə gətirdiyi, yüksək zövqlü rəsm əsərlərinin Nizami Gəncəvi, Nəsimi, Füzuli, M.F.Axundov, M.Ə.Sabir, Mikayıl Müşfüq, S.Vurğunun portretləri, Rüstəmxan yaylağı, Daşkəsən, Şükürataz yaylaq mənzərələri məktəb divar qəzetinin başlığında Lenin və Stalinin peşəkarcasına akvarellə işlənmiş şəkillərini, məktəbin göstəriciləri yazılmış lövhəni, satirik guşəni, şagirdlərin gündəlik aldığı qiymətləri əks etdirən məlumatları görərdik. Bununla da hər bir adam heç kimdən, heç nə soruşmadan məktəb barədə müəyyən məlumatları əldə edə bilərdi.

Nəriman Əliyev bacarıqlı pedaqoq olmaqla yanaşı, istedadlı rəssam, qələmi və fırçası daşdan keçən  böyük bir satirik idi. O zaman məktəbin «İti göz»  adlı satirik divar qəzetini Nəriman müəllim özü çıxarırdı. Bu səbəbdən çoxumuz ondan çəkinər, heç kəs ağrımaz başına dəsmal çalmaq istəməzdi. Biz dərslərimizə və davranışımıza daha çox fikir verərdik. Nəriman müəllimin satirik şeirləri və karikaturaları o qədər dəqiq olurdu ki, biz sinifdə bəzən divarın yuxarı hissəsində elektrik naqillərinin birləşdiyi dairəvi yuvaya gözümüz sataşanda  yəqin «İti göz» oradan bizi görür-deyə fikirləşirdik. Bu qərara gəlməyimiz bir dəfə Nəriman müəllimin sinfimizdə olarkən həmin yuvanı göstərərək:

-Bax «İti göz»  müntəzəm olaraq  oradan sizi izləyir- deməsi

ilə bağlıdır.

Onun satirik şerlərinə tuş gələnlər arasında Sarıqışlaqlı Hümbətalı kişinin oğlu Valehlə yanaşı (o əl dirnaqlarını vaxtlı-vaxtında tutmurdu), qaynı İltimas və bacısı oğlu Məzahir də vardı. Belə olan vəziyyətdə heç kəs Nəriman müəllimin yazdıqlarına etiraz edə bilməzdi

Yuxarıda sadaladıqlarımıza məntiqlə yanaşsaq Nəriman müəllimin fəaliyyəti şagirdlərin məktəbdə və ya ondan kənarda özlərini intizamlı aparmasına, sağlamlıq üçün vacib olan sanitar-gigiyena qaydalarına əməl etməsinə, dərslərinə hazırlıqlı gəlməsinə, başlıca isə Azərbaycan üçün gələcəkdə layiqli övlad kimi yetişməsinə xidmət edirdi. Biz birinci sinfə gedəndə hələ alman faşizmi üzərində qələbənin doqquzuncu ildönümü təzəcə tamam olmuşdu. Azərbaycandan II Dünya müharibəsinə altı yüzmindən çox adam yola salınmış, onlardan yarıdan çoxu geri qayıtmayıb. Doğma torpağa qayıdanlardan da bəlkə də, yarısı bu savaşda qəhrəmancasına vuruşsalar da vətənə müxtəlif əlillik dərəcəsi ilə qədəm basmışlar. Onlardan biri də Nəriman Əliyev idi. Onunla birlikdə Bəhmən Əhmədov, Əbdül Babayev (Əbdül Babayevin ömür gün yoldaşı Gözəl xanım da müharibə iştirakçısı idi), əslən Qazaxdan olan Rəhim Məmmədov, «Respublikanın əməkdar müəllimi» Əsəd Məmmədov, sonralar bizə dərs deyən Nəriman Ağayev, Məhəmmədəli İsmayılov və s. var idi.

Onların hər birinin dərsdən əlavə maraqlı söhbətləri bizi yurdumuzu daha da ürəkdən sevməyə ruhlandırırdı. Nəriman Əliyev hələ orta məktəbdə X sinifdə oxuyarkən Zəngilanın «Stalinçi» qəzetində çap etdirdiyi «Pirçivan» şeirində faşızmə qarşı qəzəbini qələmə alsa da, bununla kifayətlənməmiş, səfərbərliyə alınaraq qələmini odlu silahla əvəz edib, ölüm -dirim savaşına yollanmışdı.

Hələ aşağı siniflərdə oxuyarkən məktəbimizdə əlamətdar və tarixi günlərdə, bayramlarla bağlı tədbirlər keçirilərkən orada mütləq Nəriman müəllimin dəsti-xəttini, məsləhətlərini görməyə adət etmişdik. O vaxtlar beynəlmiləlçilik sovet ideologiyasının,

siyasətinin tərkib hissəsi sayılırdı. Məktəbimiz ənənəvi olaraq Ermənistanın Qafan şəhərindəki 2 saylı orta məktəblə Pirçivan kənd orta məktəbinin şagirdlərinin 1954-55-ci tədris ilindən 1988- ci ilədək davam edən dostluq əlaqələri yaratmışdıq. Bizim müəllim və şagird kollektivinin üzvləri 29 noyabrda, yəni Ermənistanda sovet hakimiyyəti qurulması günü münasibəti ilə Qafana gedər, 28 apreldə Azərbaycanda sovet hakimiyyəti qurulması ilə bağlı bayram şənliklərində də onlar bizim məktəbimizin qonağı olardılar. Hər iki tədbirdə qonaqlar həm Qafanda, həm də Zəngilanda gecələməli olardılar. Hər iki halda müəllimlər və şagirdlər dostluq elədikləri adamların evlərinə gedir, orada gecələyirdilər.

Məktəbimizə direktorluq eləmiş Heydərqulu Kərimov, Nəriman Ağayev, Ziyad Təhməzov və Nəriman Əliyevin vaxtında hayları nisbətən imkanlı uşaqların ailələri ilə dostlaşdırırdılar. Buna səbəb onların (yəni hayların) dolanışıq səviyyəsinin bizdən xeyli üstün olması idi. Bizimkilər bu xalqlar dostluğunun siyasi xarakterini yaxşı bilir, kasıb ailələrə, onların uşaqlarına hayları qoşmaq istəmirdilər. Belə dostluq əlaqələri sonradan rayonumuzun əksər məktəblərində Ermənistanın nisbətən yaxın məktəbləri ilə əlaqə yaratmaqla davam etdirildi.

Məktəbimizdə yeni il şənlikləri bir qayda olaraq müəllimlər otağına bitişik olan ən böyük sinifdə keçirilirdi.

Bütün tərtibatlar və proqram Nəriman müəllimin ssenarisi əsasında hazırlanırdı. Sinif otağının tən ortasında küknar ağacı bəzədilərdi. Şənlikdə vətənə, anaya, məktəbə, Yeni ilə aid şeirlər və mahnılar səslənirdi. Bütün bayram şənliklərində musiqi hissəsini tarçı Məmməd Qəniyev ifa edərdi. O, əslən Ordubaddan idi. Uzun illər təqaüdə çıxanadək Zəngilanda yaşamış, ömrü boyu Zəngilan rayon pionet və məktəblilər evində kütləvi işçi və Pirçivan kənd (sonralar qəsəbə, şəhər) orta məktəbində nəğmə dərslərini tədris etmişdi. Onun musiqi sahəsindəki uzun müddətli fəaliyyəti əvəzsizdir. Çox təəssüf ki, ondan öyrənən, bəhrələnən insanların əksəriyyiəti onu yada salmağı belə öz mənliklərinə

sığışdırmadılar. Mən Məmməd Qəniyevi lap uşaq vaxtlarımdan tanıyırdım.

O, məhəlləmizdəki Məscidin 25-30 metrliyindəki Qurban Hacıyevin evində kirayədə qalırdı. Onun hansı ildə Zəngilana köçdüyünü heç kim xatırlamır. Bəlkə də, onun bütün əmək fəaliyyəti 1970 ci ildə təqaüdə çıxdığı Zəngilan rayonu ilə bağlıdır. Təqaüdə çıxdıqdan sonra Zəngilandan köçən Məmməd Qəniyev qısa müddətdə ömrünü başa vurdu. Uzun müddət Zəngilanda muğam, xalq və bəstəkar mahnılarının keçirildiyi müsabiqələrdə onun gərgin əməyi olmuşdu. O, bu müsabiqələrin hazırlanmasında aparıcı qüvvə idi. Əgər sonradan az çox-tar çalmağı bacaran pirçivanlı tarçı Mizan, Şəmil Əsədov, Mincivanlı diş həkimi Cəbrayıl, musiqi müəllimi Aqili nəzərə almasaq Məmməd müəllimin bu sahədəki yeganə fəaliyyəti bir qərinəlik dövrü əhatə edir.

Keçən əsrin əllinci illərindən respublika mahnı, muğam müsabiqələrinin laureatları Həcər Hüseynova, Fatma Hüseynova, Xeybər Quliyev, Seyranə Quliyeva, Səmayə Bədəlova qalib adlarına Məmməd Quliyevin tarda müşayiəti ilə nail olmuşdular. O zamanlar onların ifaları Azərbaycan radiosunun qızıl fonduna yazılmış, dəfələrlə səsləndirilmişdi. Bu qocaman ifaçı vaxtılə Ü.Hacıbəylidən dərs almışdı. Notu və Azərbaycan bəstəkarları Ü.Hacıbəylinin, M.Maqomayevin əsərlərini mükəmməl bilir və ifa edirdi. Onun yadda qalan ən böyük işlərindən biri də altmışıncı illərin əvvəllərində Naxçıvandan olan musiqi müəllimi (Zəngilan uşaq musiqii məktəbinin ilk direktoru) Tapdıq Bağırovun həmyerlimiz Nəriman Əliyevin «Sənin Zəngilan» şeirinin sözlərinə bəstələdiyi şən və oynaq mahnını (yeri gəlmişkən N.Əliyev sözlərinə mahnı qoşulan ilk şair idi) Zəngilan qəsəbə orta məktəbinin əlaçı şagirdlərindən biri Məleykə Həsənxan qızı Azadova ilə birlikdə ilk dəfə olaraq ifa etməsi idi.

Məktəbdə ifa olunan və yadda qalan bu mahnı sonralar rayon mərkəzindəki kiçik klubda və digər məkanlarda dəfələrlə səsləndirilmişdir. Həmin mahnını kiçik klubda bacım kimi

çox istədiyim Məleykə xanımla mən də (həm qarmonda, həm də akordeonda) bir neçə dəfə ifa etmişdim. Məleykə xanımla o zaman çox dəbdə olan, dillər əzbərinə çevrilmiş «Sənin Zəngilan» və Məmməd Rahimin sözlərinə Ələkbər Tağıyevin bəstələdiyi «Bülbül» mahnısın da bir neçə dəfə ifa etmişdik. Nə Məleykə xanımın, nə də mənim müsiqi təhsilimiz yox idi. «Sənin Zəngilan» mahnısının sözləri və musiqisi yağla-bal kimi bir-birilərini tamamlayan, yadda qalan idi. Çox təəssüf edirəm ki, nə rayon rəhbəyliyi, nə təhsil, nə də mədəniyyət şöbələri tərəfindən vaxtında qiymətləndirilib lentə köçürülmədi, radioda, televiziyada qeydə alınmadı. Vaxtı ilə Zülfü Adıgözəlovun ifa etdiyi «Ay ana, ana, günləri sana, mən gedirəm Zəngilana, gedirəm axı....» mahnısında bir nigarançılıq, bir həzinlik hiss olunurdusa «Sənin Zəngilan» mahnısında həm qürur, həm əzəmət, həm fərəh, həm də sevinc hissləri harmoniya təşkil edirdi. Bu mahnını «Zabul segah» muğamı üstündə də ifa etmək olurdu. Xalq şairimiz S.Vurğunun «Azərbaycan» şeiri və ona ilk bəstələnmiş mahnı kimi Nəriman müəllimin bu şeri ona bəstələnmiş mahnı da mənim heç zaman yaddaşımdan silinməz. Bu mahnını əbədiləşdirmək arzusunda olan ifaçılara kömək etməyə həmişə hazıram. Musiqi tam yadımdadır. Məmməd Qəniyev barədə fikirlərimi də belə tamamlayıram. O, Zəngilanın Bəhram Mansurovu idi.......

Nəriman Əliyevin yaradıcılığı yüksək tempdə davam edirdi. Onun vətənə, doğma yurda, o dövrün siyasi tələblərindən birinə çevrilmiş partiyaya aid şeirləri ilə bərabər rayonun «Stalinçi», sonralar «Zəngilan kommunisti» adlanan 4 səhifəlik qəzetində də müntəzəm olaraq satirik şeirləri çap edilirdi.

Nəriman Əliyevin satirik şeirləri qəzetin «Bala kirpi» guşəsində yer alır, böyük rezonansa səbəb olurdu.

Biz yuxarı siniflərdə oxuyanda Nəriman müəllim bizə ədəbiyyat fənnini tədris edirdi. Mən, ipə sapa yatmayan, olduqca nadinc bir şagird idim. Bunu nəzərə alan sinif rəhbərimiz məni məktəbimizin ən intizamlı və bütün fənlərdən əla qiymət alan sinif yoldaşım Məleykə Azadova ilə birinci sıradakı partada

oturtdu. Bununla da elə bil ki, mənim əlimi qolumu bağladılar. Artıq getdikcə mülayimləşir, dərslərimə hazırlıqlı gəlirdim. Orta məktəbi qurtaranda attestatdakı qiymətlərimin hamısı əla və yaxşıdan ibarət idi. İntizamlı şagirdə çevrilməyimdə Ziyad Təhməzovun, xəttimin yaxşı olmağında Tofiq Hacıyevin, ədəbiyyat fənnini sevməyimdə isə Nəriman Əliyevin xeyli zəhmətləri olmuşdu. Nəriman müəllim məndə inam yaratmışdı ki, ədəbiyyat fənnini məktəbdə ən yaxşı bilənlərdən biriyəm. Bu inamı doğrultmaq üçün isə daha da çox çalışmaq lazım idi. Bir dəfə doqquzda oxuyanda bizdən yuxarı şinifdə təhsil alan Rəşid Məmmədovgilin sinfindən bir nəfər gəlib müəllimdən icazə alaraq:

-Asif Bağırovu Nəriman müəllim çağırır-dedi.

Sinfə girəndə Nəriman müəllim məndən soruşdu:

-Asif, «Gələcək gün»ü kim yazıb?

Cavab verdim ki, «Gələcək gün» romanını Mirzə İbrahimov yazıb. Burada Cənubi Azərbaycanda baş verən inqilabi hadisələrdən bəhs edir.

Doğrusu, o kitabı rayon kitabxanasında görmüş, elə belə səhifələrinə baxmış, heç əməlli başlı oxumağa vaxtım olmayıb. Nəriman müəllimin sifəti açıldı, əlini kürəyimə qoyub mənə sağ ol deyərək sinifdəkilərə baxdı, deyəsən, onun ümidlərini doğrultmuşdum. O, on birinci sinifdə ədəbiyyatdan yazılı imtahanda mənə 5/5 verdi. Attestatdakı qiymətlərim əla və yaxşı idi. İlk ili ali məktəbə qəbul ola bilmədim. Sonrası il isə APİ-nin (indiki Azərbaycan Dövlər Pedaqoji Universiteti) tarix fakültəsində müsabiqədən keçə bilmədim. O zaman APİ-nin Naxçıvan filialı açılmışdı. Balı az olanları ora qəbul edirdilər. Bunun üçün ancaq rektorun adına ərizə yazmaq bəs edirdi. Orta məktəb yoldaşlarımın hamısı Bakıda təhsil aldığından Naxçıvana getmədim. Növbəti ildə yüksək balla ali məktəb tələbəsi oldum. İlk imtahan ədəbiyyat yazılı idi. Mücərrəd mövzu seçdim. «Ən çox sevdiyim ədəbi qəhrəmanlar» Maksim Qorkinin «Ana» romanında Pavel Vlasov və Süleyman Rəhimovun «Mehman»

povestində Mehman obrazlarından yazdım, Azərbaycan dili və ədəbiyyat, SSRİ tarixi fənnindən yaxşı qiymət aldım. Bu özümün çalışqanlığımla bərabər Ziyad Təhməzovun, Nəriman Əliyevin və Tofiq Hacıyevin zəhmətlərinin bəhrəsi idi. Əmək fəaliyyətimə 1967- ci ildə Zəngilan rayon Mədəniyyət şöbəsində işə başlasam da 1970-ci ildən 1989-cu ilin oktyabr ayınadək Zəngilan rayon Pioner və Məktəblilər evində direktor vəzifəsində işlədim. Zəngilan şəhər 1 saylı orta məktəbində müəllim və direktor vəzifələrində çalışan Nəriman Əliyevlə demək olar ki, hər gün rastlaşırdım. Bir dəfə o, məndən orta məktəbi yenicə bitirib ali məktəbdə müsabiqədən keçməyən qızı Tərlan xanım üçün pedaqoji staja görə bir dərnək verilməsini xahiş etdi. Azərbaycanlılar üçün uğurlu rəqəm sayılan 44 il əvvəl Tərlan xanım bizimlə bir kollektivdə işlədi. İlk iş ilində ali məktəbə qəbul olundu. Kollektivdən gedəndə böyük hörmət qazanmış Tərlan xanımı üzun müddət heç kim unuda bilmədi. Bu onun işinə məsuliyyəti, yüksək əxlaqi keyfiyyətləri ilə bağlı idi.

Mən Nəriman Əliyevi ailəcanlı, mehriban, həm də tələbkar bir ailə başçısı kimi tanıyıram. O, övladlarına qibtə ediləcək dərəcədə yüksək tərbiyə vermiş, onların hamısının mükəmməl ali təhsil almağında məsul olmuşdur. Əlbətdə, bu işdə Nəriman müəllimin ömür gün yoldaşı Əntiqə xanımın böyük rolu olmuşdur. Sakit, təmkinli, həm utancaq, həm də istiqanlı bir Azərbaycan qadını idi. Nəriman müəllim isti yay günlərində məzuniyyət vaxtını həmişə ailəsi ilə birlikdə əvvəllər Azərbaycan ərazisi olmuş, sonralar Ermənistan ərazisinə çevrilmiş «Molla bulağı», «Müşlan düzü», «Yağlı dərə», «Boğaz yurd», «Hüseyn bəy çiməni» və s. yaylaqlarda keçirərdi. Bunu hər bir ailə başçısı etmirdi. Nəriman müəllimin atası Salman baba da hər il yay aylarını (quyruq doğana qədər) müxtəlif yaylaqlarda keçirərdi. Onun saysız hesabsız qoyun-quzu sürüsü, mal- qarası, (beş yüzdən yuxarı) var-dövləti və qızılları vardı. Bu səbəbdən onu «Qızıllı Salman» adlandırardılar. Nəriman müəllimin on yaşı olarkən atası Salmanı, elə qızıllarına görə özünə dost bildiyi adamlar yatdığı yerdə qətlə yetirmişdilər. Milyonçu oğlu olan gözlənilmədən yetimə çevrilən

balaca Nəriman öz çalışqanlığı ilə orta məktəbi bitirmiş, bütün uğurlara əmisiz-dayısız imza atmışdır.

O, dəfələrlə həm partiya, həm də sovet orqanlarına üzv seçilmiş, qəsəbə və şəhər sovetinin deputatı olmuşdur. Həm Böyük Vətən müharibəsinin iştirakçısı kimi, eyni zamanda əmək fəaliyyəti dövründə ictimai-siyasi həyatdakı qazandığı uğurlara görə Respublika və rayon təşkilatlarının «Fəxri Fərman» ları ilə təltif edilmiş, sinəsini bir neçə orden və medallar bəzəmişdir. O, heç zaman vəzifə hərisi olmayıb. Dəfələrlə ona RXMŞ-nin müdiri vəzifəsini təklif etsələr də o, bundan imtina etmişdir. Ona görə hamı onu sevmiş və hörmət etmişdir. Övladları Solmaz xanım və Tərlan xanım valideynləri kimi müəllim peşəsini seçsələr də böyük oğlu Salman Sankt Peterburqda rəssamlıq məktəbini bitirib. Ermitajda bərpaçı rəssam işləyib. İkinci oğlu Zakir Kiyev İnşaat mühəndisləri İnstitutunu əla qiymətlərlə bitirib, hətta ona İnstitutda qalıb işləməsini təklif etsələr də, o, öz vətənində işləməyə üstünlük verib və Bakıda Azərdövlətlayihə, Dövlət Baş layihə institutunda işlə təmin olunmuş, sonra isə taxıl məhsulları Dövlət Şirkətinin Layihə-smeta bürosunun rəisi vəzifəsində çalışmışdır. Onun axırıncı iş yeri Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsində baş məsləhətçi vəzifəsi olmuşdur. Doğma yurdu Zəngilan azad oluunanda sevincinin həddi-hüdudu yerə göyə sığmırdı. Onun Zəngilan şəhərsalma və arxitektura sahəsində xeyli planları vardı. Təəssüf ki, arzuları da ömrü kimi yarımçıq qaldı, 04 dekabr 2020-ci ildə gözlənilmədən dünyasını dəyişdi. Allah rəhmət eləsin!

Zakir ömründə bircə dəfə şeir yazıb. Anası Əntiqə xanıma həsr etdiyi bu şeiri olduğu kimi oxuculara təqdim edirik.

Anamı itirdim, qəflətən Allah!
Söndü çırağımın, sönməz işığı!
Anamı itirdim, həmin gün Vallah,
Getdi evimizin, yar-yaraşığı!

Anam da qovuşdu əbədiyyətə,
Ömrümü anasız sürəcəyəm mən,
Yalnız inanıram bir həqiqətə,
Nə vaxtsa anamı görəcəyəm mən.

Qəlbimi göynətdi son dəfə səsi,
Titrək danışığı qulağımdadır
Başımın üstündə ılıq nəfəsi,
Ruhu daim mənim ocağımdadır.

Bəlkə də, atam da darıxıb deyə,
Atam seçən yolu, seçdi anam da,
Təsəllim odur ki, ancaq bir şeyə,
Atamın yanına köçdü anam da.

Bu şeiri oxuyandan sonra özünü hönkürtüdən necə saxlasın! Nəriman müəllimin kiçik qızı Tərlan xanımın isə bir sıra maraqlı yazıları, hekayələri, ədəbi miniatürləri, xatirə povestləri ədəbi-bədii jurnallarda nəşr olunaraq geniş oxucu kütləsinin rəğbətini qazanmlşdır.

Nəriman müəllim haqqında daha dolğun və hərtərəfli məlumatları «Qəlbimizdə əbədi yaşar ata, seçilən şəxsiyyət» adlı sənədlərlə, faktlarla zəngin geniş həcmli xatirə povestdə verilmişdir. Tərlan xanımın qələmə aldığı bu xatirə-povest bizim Nəriman müəllimin həyatı və fəaliyyəti barədə yazılan, çoxumuza məlum olmayan tarixi hadisələrlə daha ətraflı tanış etməkdə, övladın ata borcunu ləyaqətlə ödəməsinə doğru istiqamətlənən ülvi arzulardan biridir. Bu xatirə povesti oxuyanda mən həm Nəriman müəllimi, həm də Tərlan xanımı sanki təzədən tanıdım, təzədən kəşf etdim. Halal olsun, belə övlada.

Vaxtı ilə Nəriman müəllim Zəngilanın məşhur adamları İsmayıl Sayılovun, Sosialist Əməyi Qəhrəmanı Əmir Məmmədovun «Ordenli Əmir Məmmədov tarlada», sinəsi orden medallarla dolu, əmək qabaqcılı Oruc Quliyevin və s. yağlı boya ilə portretlərini

yaratmışdı, hamısı da təmənnasız. Nəriman müəllimin bacısının qayınatası Kərbəlayi İsmayılın da yağlı boya ilə portretini çox gözəl işləyib ərsəyə gətirmişdi. O, eyni zamanda bir çox tanış və dostlarının da şəkillərini akvarel və karandaşla çəkərək onlara hədiyyə etmişdi. Şəkilləri çəkilib evlərindəki divarlarına vurulanlar arasında böyük bacım Firəngiz xanımın ömür gün yoldaşı, ömrü boyu yüksək vəzifələrdə çalışmış, uzun illər Nəriman müəllimlə dostluq etmiş Hüsü Həsən oğlu Hüsüyevin və ortancıl bacım Səlbi xanımın həyat yoldaçı Qurban Mustafayevin də portretləri var idi.

Onun sonralar yazdığı «General eloğlu» Məhəmməd Əsədova, «Alqış bu hünərə» Adil Rüstəmova, Milli Qəhrəmanlarımız Elnur Nuriyev, Əsəd Əsədov, eləcə də ilk şəhid Firdovsi Məmmədov, Qırmızı Bayraq Ordenli Emin Rüstəmov, rayonun ilk şəhidlərindən biri Tiri kənd sakini İsmayıl Allahverdiyev, onun iş yoldaşı Elxan Məmmədov, polis zabiti Faiq Rzayev və başqalarına həsr etdiyi şeirləri şəhidlərimizin vətən sevgisini, qəhrəmanlıqlarını əks etdirmişdir.

Tərlan Əliyeva atasının bahara, dağlara, gülə, çiçəyə, çinarlarımıza yazdığı bir çox şeirlərini özü məharətlə səsləndirmişdir. Sosial şəbəkələrdə onu dinləyənlər Tərlan xanımın aydın, yatımlı diksiyasına, eyni zamanda görkəmli şairin bu əsərlərinə yüksək qiymət vermişdir. Tərlan xanımın yaddaşlara hakim kəsilən tələffüzünü Sona Cabbarovanın, Məhluqə Sadıqovanın, Əminə Yusif qızının, Ofeliya Sənaninin ifalarına bənzətmişdir.

Nəriman müəllimin «Dağlar» şeirini isə Cənubu Azərbaycanda yaşayan şair Həsən Mahmudi qiraətlə, aşıq Səid Novruzi avazla sazda çox gözəl səsləndirmişlər.

Məcburi köçkünlük dövründə Sumqayıtda yaşasa da şair-rəssamın ruhu həmişə Zəngilanda olub. Dostlarının xahişi ilə dayım qızı Diləfruzun yağlı boya ilə çəkdiyi «Əməksevər qadın, gözəl ana» səhlövhəli şəklini sərgiyə verən Nəriman Əliyev Dövlət tərəfindən 500 manat mükafat almışdır. O zaman

Nəriman müəllim 75 yaşında idi. Onun 1995-ci ilin iyul ayında nəşr etdirdiyi «A dağlar» şeiri Zəngilan nisgili, Zəngilan həsrətilə yazılmış əsərlərdən biridi. Həmin şeirdən iki bəndi oxuculara təqdim edirəm.

Yaylağım «Şükrataz», «Müşülan düzü»,
«Rüstəmxan yaylağı», «anam kəhrizi»,
«Yağlı dərə», «Daşkəsən» gözləsin bizi.
Qoymarıq yollarda göz, a dağlar.

Gəzdiyim o yerlər düşdükcə yada,
Qəlbim ayrılıqdan qalanır oda,
Tezliklə Haqq qənim olar cəllada,
Çökər erməninin dizi, a dağlar.

Nəriman müəllim haqqın cəllada qənim olduğunu arzu edib görməsə də, onun peyğəmbərcəsinə söylədikləri öz yerini tutdu. Azərbaycan xalqı möhtəşəm qələbə çaldı, ermənin (hayın) dizi çökdü. Nəriman müəllim ailəsinin sonbeşiyi Azərbaycan Dövlət Tibb Universitetinin Stomotologiya fakültəsini bitirmiş, 2004-cü ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi adı almış Aqil Əliyevdir. Nəriman müəllim haqqında xatirələrimi yekunlaşdırmaq istərkən onu üzbəsurət tanıdığım 1954-cü ildən bu yana olan acılı-şirinli illər gözüm önündə canlandı və ikinci belə bir şəxsiyyət yada sala bilmədim ki, onun tək həm lirik, həm satirik seirləri, yüksək səviyyəli rəsm əsərlərini yazıb-yarada bilsin. Vətəninə, ailəsinə, peşəsinə onun qədər bağlı olsun. El arasında böyük nüfuza malik, dövlət tərəfindən layiqli qiymət alan, eyni zamanda ona təklif olunan yüksək vəzifələrdən imtina etmiş olsun. Qəbrin nurla dolsun, əziz müəllimim! Sizin barənizdə gecikmiş də olsa bir-iki kəlmə yazmaqla özümü xöşbəxt saydım. **Asif Bağırov, yazıçı, publisist**

**Hüseynov Abbas Həşim oğlu,**
*Zəngilan şəhər orta məktəbin direktorlarından*



Hüseynov Abbas Həşim oğlu 1950-ci ildə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutuna daxil olmuş, 1954-cü ildə oranı orta məktəblərdə ingilis dili müəllimi ixtisası üzrə birirmişdir. Uzun illər 1 saylı şəhər orta məktəbində ingilis dilindən dərs verən Abbas müəllim eyni zamanda 1983-cü ildə (12.09 1983-04.11.1983) V.İ.Lenin adına APİ-nin orta məktəb direktoplarının ixtisasartırma fakültəsinin iki aylıq kursunu bitirib.

Abbas Həşim oğlu Hüseynov 1983-1987-ci illərdə 1 saylı şəhər orta məktəbinin direktoru işləyib. Rayonun işğalından sonra Bakı şəhərində vəfat etmişdir.

**Paşayev Nüsrət Şükür oğlu**
**(1940-1994)**
*Zəngilan şəhər orta məktəbin direktorlarından*



Paşayev Nüsrət Şükür oğlu 1940-cı ildə Zəngilan (indiki Qubadlı) rayonunun Tatar kəndində anadan olub. 1957-ci cü ildə orta məktəbi bitirən Nüsrət Şükür oğlu həmin il o vaxtkı V.I.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil oub. Təhsil aldığı illərdə Sumqayıt şəhərindəki Kimya zavodunda işləyib. 1965-ci ildə Zəngilan qəsəbəsinə köçən Nüsrət Paşayev həmin ildə açılan şəhər 8 illik məktəbində müəlllim kimi əmək fəaliyyətinə başlayıb. Sonra Mincivan qəsəbə 36 saylı orta məktəbin direktoru işləyib. 1982-1986-cı illərdə isə rayon Təhsil

şöbəsində baş inspektor işləmişdir. Nüsrət Şükür oğlu Paşayev 1986- cı ildə şəhər 1 saylı orta məktəbinə direktor təyin olunub. Onun son iş yeri isə yeni açılan şəhər 3 saylı orta məktəbi oldu.

Rayonun işğalından sonra Sumqayıt şəhərində məskunlaşmışdır. İki övladı var.

Paşayev Nüsrət Şükür oğlu 22.02.1994-cü ildə Sumqayıt şəhərində vəfat etmişdir.

**Əhmədov Arif Abdulla oğlu.**

*Zəngilan şəhər orta məktəbin direktorlarından*



Əhmədov Arif Abdulla oğlu 1951-ci ildə Pirçivan kəndində anadan olub. 1969-cu ildə Zəngilan şəhər orta məktəbini bitirəndən sonra Azərbaycan Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Ali məktəbi bitirəndən sonra rayona gələn Arif Əhmədov şəhər orta məktəbində əmək fəaliyyətinə başlamışdır. O müəllimlikdən həmin məktəbin direktoru vəzifəsinə kimi yüksəlmişdir. Arif müəllim bir neçə çağırış Zəngilan şəhər XDS-nin deputatı olub. Rayonun işğalından sonra Bakı şləhərində məskunlaşmışdır.

Əhmədov Arif Abdulla oğlu şəhər 1 saylı orta məktəbinin son direktoru oldu. Onun direktorluğu zamanında rayonumuz Ermənistan Respublikasının Silahlı Qüvvələri (Rus Ordusunun yardımı ilə) tərəfindən işğal olundu. Qaçqınlıq dövründə isə bu məktəb fəaliyyətini davam etdirmədi. Arif müəllimin atası da uzun illər bu məktəbdə riyaziyyat fənnindən dərs demişdir. A.Əhmədov Bakı şəhərində Zəngilan rayon 13 saylı orta məktəbdə direktor işləmiş və təqaüdə çıxmışdır.

## Orta məktəbin qızıl medallı məzunları

### Mustafayeva Rima Mustafa qızı

*Zəngilan şəhər orta məktəbini qızıl medalla bitirənlərdən*



Mustafayeva Rima Mustafa qızı 1947-ci ildə Zəngilan rayonunun Pirçivan kəndində anadan olub. 1954-cü ildə Pirçivan kənd məktəbinin I sinfinə getmiş, 1965-ci ildə isə Zəngilan qəsəbə onbirillik məktəbini qızıl medalla bitirmişdir.

Orta məktəbi bitirdikdən sonra 1966-ci ildə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsinə daxil olmuş, 1971-ci ildə oranı bitirmişdir.

Mustafayeva Rima Mustafa qızı ali məktəbi bitirdikdən sonra uzun illər Bakı Baş tikinti idarəsində rəhbər vəzifələrdə işləmişdir.

Iki oğlu var. Hal hazırda təqaüddədir və Bakı şəhərində yaşayır

### Həsənova Dilavuz Davud qızı

*fizika riyaziyyat elmləri namizədi*



Həsənova Dilavuz Davud qızı 1955-ci ildə Priçivan kəndində anadan olub. 1961-1971-ci illərdə Zəngilan şəhər orta məktəbində oxuyub. Orta məktəbii əla qiymətlərlə bitirən Dilavuz Davud qızı 1971-ci ildə o vaxtkı S.M.Kirov adına ADU –nun Fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1976-cı ildə Universiteti fərqlənmə diplomu ilə bitirən Dilavuz xanım 1976-1979- cu illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Riyaziyyat və Mexanika Institutunun aspiranturasında təhsilini davam etdirmişdir.

1982-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adı almışdır. 1994- cü ilə kimi bu İnstitutda çalışan Dilavuz xanım 1994-1996-cı illərdə Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasında işləyib.

1996-cı ildən isə Azərbaycan Respublikası Milli Məclisinin aparatında işləyir. Dilavuz Həsənova onlarla elmi məqalənin müəllifidir. Bir sıra məqalələri xarici ölkələrdə çap olunub.

Ailəlidir, iki övladı, bir nəvəsi var.

səh. 213-214. S.Cavadlı. «Son gümanım Zəngilan»

## Zəngilan qəsəbə orta məktəbinin özfəaliyyət dərnəyi

Sovet hakimiyyəti zamanında ictimai təşkilatların həyatımızda xüsusi yeri var idi. Bir çox tanınmış əmək qəhrəmanları, ədəbiyyat və incəsənət xadimləri ilk addımlarını məhz özfəaliyyət dərnəklərində, qruplarda atmışlar. Bu sahədə məktəblərin rolu xüsusi qeyd edilməlidir. İlk dövrlərdə peşəkar mütəxəssislərin çatışmadığı illərdə bu rolu məktəblərdə şagirdlər oynayırdılar.

Zəngilan rayonunda da əsas aparıcı məktəb 1 saylı orta məktəb idi. Rayonumuzun bir çox tanınmış əmək qəhrəmanları, elm adamları və incəsənət xadimləri məhz bu məktəbin yetirmələridir.

Bu dövrdə (1963-1974- cü illərdə) məktəbə Ziyad Murad oğlu Təhməzov rəhbərlik edirdi. O, xalqını və millətini sevən bir şəxsiyyət idi. Məhz bu işlər onun bu məktəbə rəhbərlik etdiyi dövrdə yaradılmışdı.

Bu dövrdə eyni zamanda Zəngilan şəhərində suvarma kanalının şərq hissəsində şagird istehsalat briqadası üçün bir neçə hektar torpaq sahəsi ayrılmışdı ki, burada şagirdlərə əmək vərdişləri, peşə öyrədilirdi.

60–cı illərdə hələ də rayonumuzda mədəniyyət şöbəsində ixtisaslı kadrlar çatışmırdı, amma məktəblərdə yuxarı sinif şagirdləri məhz bu sahədə demək olar ki, əsas ifaçılar hesab olunurdular.

Zəngilan qəsəbə orta məktəbində 60–cı illərdə məktəbin

ədəbiyyat müəllimi Məhərrəm Mahinin (Alıyev) rəhbərliyi ilə Mirzə İbrahimovun «Kən**d**çi qızı»**,** Səməd Vurğunun «Fərhad və Şirin» və s.  dram əsərlərindən və pyeslərdən müəyyən parçalar hazırlanıb göstərilirdi. Zəngilan musiqi məktəbinin müəllimi Məcnun Kərimovun rəhbərliyi ilə şagirdlərdən ibarət Azərbaycan xalq çalğı alətləri ansamblının  konsertləri və musiqili komediya parçalarından səhnəciklər də hazırlanıb göstərilirdi.

Bu illərdə məktəbin bədii özfəaliyyət kollektivinin üzvləri Asif Kərim oğlu Bağırov, Xürrəm Şahsuvar oğlu Həsənov*, Zülfüqar İsa oğlu Məmmədov*, Sonya Heydərqulu qızı Kərimova, İsmət Cümşüd qızı Nəcəfova, Əli Surxay oğlu Məmmədyarov*, Şükufə Qara qızı Əliyeva, Sürəyya İsa qızı Məmmədova*, Məleykə Həsənxan qızı Azadova, Sona Qəribova, Kamil Ədil oğlu Əsədov bu tamaşaların və səhnəciklərin əsas ifaçıları  olmuşlar.  Bu illərdə oynanılan Ü.Hacıbəylinin **«O olmasın, bu olsun»** musiqili komediya tamaşasında əsas rollarda Asif Bağırov (Rüstəm bəy), Zülfüqar Məmmədov (Məşədi İbad), Xürrəm Həsənov (Sərvər), Şükufə Əliyeva (Gülçöhrə), Sonya Kərimova (Sənəm) rollarını ifa etmişlər. «Kənçi qızı» tamaşasında Rəsul İmaməliyev də iştirak etmiş, o, prokiuror Alışov rolunu ifa etmişdir. .

Bu tamaşalara və səhnəciklərə rayonun əsas klubunda bayram günləri və rayon əhəmiyyətli tədbirlərdə xeyli tamaşaçı baxırdı. O vaxt rayon rəhbərliyində olanlardan Vahid Aslan oğlu İsmayılov (rayon Partiya komitəsinin I katibi), Nəzir Qibləli oğlu Kərimov (Zəngilan rayon ZDS İK-nin sədri), Qurban Musa oğlu Quliyev (Xalq Nəzarəti  Komitəsinin sədri) və digər məsul şəxslər və rayon ictimayyəti də baxmışdır.

Bu gün onların çoxu həyatda olmasa da, onları xatırlayanlar minlərlədir. **Yazı Asif Kərim oğlu Bağırovun məlumatı əsasında yazılıb**.

## Şəhər orta məktəbinə əlavələrdən.

Eldar Nəriman oğlu Babayev, Rəsul Məmmədalı oğlu İmaməliyev bir sinifdə, Armo Əhməd oğlu, Əfruz Davud qızı Həsənova, Bəyim Hüseyn qızı Mehrəliyeva isə başqa sinifdə oxuyublar

Seyran Alməmməd oğlu Yarışov, Allahverdi Qənbər oğlu Əliyev, Kamıl Zülfü oğlu Əhmədov, Həsənov Hüseyn Həsən oğlu (ictimai iaşə birliyində bugetçi) bir sinifdə oxuyublar

Natəvan Allahverdi qızı Yarışova, Mənzər Allahverən qızı Həsənova, Alməmməd Gülməmməd oğlu Şükürov, İsmayıl Soltan oğlu Cəbrayılov, Vənətli Orucov Əmrahın qızı Şükufə ilə (həm də ona Xuraman deyirdilər) bir sinifdə oxuyublar.

Yavər Həsən oğlu Məmmədov, Səmayə Həsən qızı Məmmədova, Çingiz Cəlal oğlu Nəsirov bir sinifdə oxuyublar.

## Zəngilan qəsəbə orta məktəbinin ilk musiqi ansamblı

Respublikamızda sovet hakimiyyəti 1920-ci ildə qurulduqdan sonra on il respublika dairələr üzrə idarə edildi. 1930–cu ildə isə rayonlaşmaya keçildi. Əvvəlki dairələr əvəzinə rayonlar təşkil edildi. Rayonlar dairələrə baxanda kiçik idi və onları idarə etmək daha asan idi.

Zəngilan bir rayon kimi 1930-cu ildə təşkil olunandan sonra mərkəz olaraq Pirçivan kəndi seçildi və o, Zəngilan adlandırıldı. Qanuna görə rayon ilə onun mərkəzi eyni adı daşımalı idi.

Sovet hökuməti ilk illərdən savadsızlığı ləğv etmək siyasətini ortaya atdı və demək olar ki, qısa bir zaman kəsiyində buna nail oldu. Məktəblərlə yanaşı rayon mərkəzlərində klublar, mədəniyyət evləri, müsiqi məktəbləri də açılırdı.

Sovet hakimiyyətindən əvvəl ərazimizdə xalq musiqiçiləri hər zaman olmuş və onlar bizim el şənliklərini, toylarımızı idarə etmişlər. Düzdü, onların musiqi təhsili olmasa da, notu

bilməsələr də və ola bilsin ki, kifayət qədər musiqi qaydalarına uyğun ifa etməsələr də, dövrünün sənətkarları idilər. Musiqinin nota salınmasından sonra bu iş daha keyfiyyətli və qayda-qanuna uyğun ifa edilməyə başladı.

XIII əsrdə yaşayıb yaradan dahi Azərbaycan musiqişunası Səfiəddin Əbdül-Mömün Urməvi Azərbaycanda ilk not yazısı icad edib, musiqi parçalarının melodiyasını (havasını) kağız uzərində qeydə almışdır. Onun yazmış olduğu «Kitab-ül-ədvar» adlı musiqi nəzəriyyəsi kitabında (iki əl yazmasının bir nüsxəsi hazırda Londonda saxlanılır. İstanbulda, Türkiyə Dövlət kitabxanasında olan o biri nüsxəsinin foto surəti isə Azərbaycan SSR Elmlər Akademiyasının kitabxanasındadır) ilk Azərbaycan not yazısının olduqca maraqlı və orijinal nümunəsinə təsadüf edilir. **Elm və həyat jurnalı, N-1. 1964**

İllər keçdi və Zəngilanda da musiqi məktəbi açıldı. Bu hadisə 1961ci ildə oldu. Məktəbin ilk direktoru Tapdıq müəllim (kitabımızda onun haqqında da yazı var) Zəngilan qəsəbə orta məktəbinin ədəbiyyat müəllimi Nəriman Salman oğlu Əliyevin sözlərinə bir «**Sənin Zəngilan**» mahnısı bəstələmişdi. Mahnının ilk ifaçısı qəsəbə orta məktəbinin şagirdi Məleykə Həsənxan qızı Azadova olmuşdur. Bu zamana qədər də rayonumuzda musiqi alətlərində ifa edənlər var idi. Amma bu andan etibarən bu, kütləvi hal aldı. 1963-ci ildə Zəngilan qəsəbə orta məktəbinin ilk musiqi ansamblı təşkil olundu. Ansambla nəzarət və rəhbərlik müsiqi məktəbindən olsa da əsas ağırlıq qəsəbə orta məktəbinin üzərinə düşürdü.

Bu işdə musiqi məktəbinin müəllimi Məcnun Təbriz oğlu Kərimovun (1945-2013, sonralar xalq artisti) əməyi böyükdür.

Ansamblın ilk çıxışı 1963-cü ildə qəsəbənin ilk klubunda (köhnə klub) oldu. İlk ifa «**Heyratı**» zərb muğamı ilə olub. İlk ansamblda Məcnun Təbriz oğlu Kərimov konsertmeyster idi. Soloda isə Kazımov Daşdəmir və Asif Bağırov ifa etmişlər.

Məcnun müəllim eyni zamanda özü də ansamblda ifa edərdi. Ondan sonra ansamblın komsertmeysteri Asif Kərim oğlu Bağırov oldu. İlk ansamblın üzvləri bunlardır:

-Quliyev Ruslan Vəli oğlu-tar (sonralar həkim)

-Heydərli Rəşid Soltan oğlu-tar, (sonralar mühəndis, hərbi komissar)

-Niftəliyev Elman İbrahim oğlu-tar, (sonralar həkim)

-Kazımov Daşdəmir –tar, (sonralar məmur )

-Cəfərov Davud Abbas oğlu-tar, (sonralar musiqi müəllimi)

-Bağırov Asif Kərim oğlu-akkordeon, (sonralar müəllim və qarmon ifaçısı)

-Bağırov İzzət Məhəmməd oğlu-kamança, (sonralar aqronom)

-Qocayev Məzahir Mürsəl oğlu- tar, sonralar həkim

-Həsənov Xürrəm Şahsuvar oğlu-nağara, (sonralar mühəndis)

-Əliyeva Şükufə Qara qızı –solist, (sonralar jurnalist)

-Bayramova Diləfsə Ağa qızı –solist, (sonralar satıcı)

-Xudaverdi Sadıqov (Çöpədərə)-solist, (sonralar aqronom)

Sonra 1965-ci ildə qəsəbənin yeni klubu tikilib istifadəyə veriləndə də bu ansambl orada da açılışda çıxış elədi. Ilk ifa «**Mahur**» rəngi ilə açıldı. Burada da Məcnun Kərimov tarda, Asif Bağırov qarmonda, İzzər Bağırov kamançada və Arif Şıxəliyev isə nağarada ifa etmişlər. Bu açılışda rayon rəhbərliyi səviyyəsində rayon aqrar istehsalat idarəsinin rəisi (o vaxt I katib vəzifəsi belə adlanırdı.)Vahid Aslan oğlu İsmayılov və digər məsul şəxslər də iştirak eləyib. Sonrakı illərdə bir çox ifaçılar orta məktəbi bitirəndən sonra ansambldan getdilər. Asif Bağırov, İzzət Bağırov və Arif Şixəliyev isə demək olar ki, uzun illər bu ansamblda çıxış etdilər. Bu gün geriyə bir nəzər salanda onları həmişə yad etmək borcumuzdur. Axı onlar bizə mənəvi qida verir, zövqümüzü oxşayırdılar. İndi onların çoxu həyatda yoxdur. Ölənlərə rəhmət, qalanlara Allah can sağlığı versin.

# RAYON QƏZETİ BARƏDƏ




«**Qızıl Zəngilan»** . **1932-1937.** Zəngilanda ilk mətbu orqan olan yerli qəzet 1932-ci ilin sonlarında «Qızıl Zəngilan» adı ilə nəşrə başlamışdır. Qəzetin ilk redaktoru Bakıdan ezam edilmiş fəhlə Əhməd Bədəlzadə olmuşdur. Emblem yerində traktor təsviri verilən rayon qəzeti Maşın Traktor Stansiyası Siyasi Şöbəsinin orqanı olmaqla kollektivləşmədə, xüsusən rayonumuzun kolxozlarında maşın-traktor parklarının yaradılmasında öz tarixi rolunu yerinə yetirmişdir. Sosializmin qələbəsi yeni Konstitusiya ilə təsbit olunduqdan sonra SSRİ-nin rəhbəri Stalin öz şöhrətini artırmaq üçün geniş kampaniya başlayarkən, MTS-lər yanında yaradılan yerli qəzetlər rayon partiya və icraiyyə komitələrinin orqanına çevrilmişdir. Bununla əlaqədar 1937-ci ildə rayon qəzetinin adı dəyişdirilərək «Stalinçi» qoyulmuşdur.


Бүтүн өлкәләрин пролетарлары, бирләшин!
1932-чи илдән чыхыр.
СТАЛИНЧИ
Чәршәнбә
1
август
1956-чы ил
№ 61 (1208)
Азәрбайҹан КП Зәнкилан РК вә РЗДС ичраййә комитәсинин органы
Гийм. 10 гәпик.

**«Stalinçi» 1937-1956.** 1937-50-ci illər arasında rayon qəzetinə əvvəlcə həmyerlimiz Məhəmməd Heydər oğlu Heydərov, sonra isə Əli Quliyev redaktorluq etmişlər. 1951-1952-ci illərdə isə bu məsul vəzifədə həmyerlimiz Məhəmmədəli İsmayılov çalışmışdır. Sonrakı illərdə Məhəmmədəli İsmayılov uzun müddət gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuş, rayon məktəblərinin flaqmanı hesab olunan, hamımızın fəxr etdiyi 1 saylı Zəngilan şəhər orta məktəbində tarix fənnindən dərs demişdir.


Бүтүн өлкәләрин пролетарлары, бирләшин!
1932-чи илдән чыхыр.
ЗӘНКИЛАН КОММУНИСТИ
Азәрбайҹан КП Зәнкилан РК вә РЗДС ичраййә комитәсинин органы
Базар ертәси 17 сентябр 1956-чы ил № 73 (1220)
Гиймәти 10 гәпик.

«**Zəngilan Kommunisti» 1956-1961.** Sovet İttifaqı KP XX qurultayının şəxsiyyətə pərəstiş haqqında qərarı ilə əlaqədar 1956-cı ildən rayon qəzetinin adı dəyişdirilərək «**Zəngilan kommunisti**» adı ilə nəşr edilmişdir. Qəzet bu adla 5 il fəaliyyət göstərmişdir. Həmin dövrdə qəzetə redaktorluğu Murtuza Şəmil oğlu Hüseynov və müharibə veteranı Vəli Mustafa oğlu Mustafayev etmişlər. 60-cı illərdə ölkədə yeni islahatlar vüsət alarkən ərazi istehsalat birlikləri yaradılmağa başlanmışdır. Həmin istehsalat birliklərində Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin rayonlararası qəzetləri fəaliyyətə başlamışdır.

## «Kolxozçu» 1961-1963

1961-ci ildə Cəbrayıl rayon istehsalat idarəsi üzrə yaradılan «**Kolxozçu**» qəzeti üç rayonu- Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının mətbu orqanı kimi fəaliyyət göstərmişdir.



БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ БИРЛӘШИН!

КӘНД ҺӘЈАТЫ

АЗӘРБАЈҸАН КОММУНИСТ ПАРТИЈАСЫ
ЗӘНКИЛАН РАЈОН КОМИТӘСИ ВӘ
ЗӘНКИЛАН РАЈОН ХАЛГ ДЕПУТАТ
ЛАРЫ СОВЕТИНИН ОРГАНЫ

«КЕНД ХАЯТЫ» ОРГАН
ЗАНГЕЛАНСКОГО РАЙОННОГО КОМИ
ТЕТА КП АЗЕРБАЙДЖАНА И РАЙОННОГО
СОВЕТА НАРОДНЫХ ДЕПУТАТОВ

№49 (5639).

ҸҮМӘ АХШАМЫ
27 декабр 1990-чы ил.

## «Kənd həyatı» 1963-1992

1963-cü il may ayının 1-dən Zəngilan rayon istehsalat idarəsinin orqanı olmaqla «**Kənd həyatı**» qəzeti Qubadlı, Zəngilan və Laçın rayonlarına xidmət göstərmişdir. Qəzet 30 ilə yaxın bu ad altında nəşr olunmuş, həmin dövrün 26 ilini təcrübəli jurnalist Mürsəl Qocayev redaksiya kollektivinə rəhbərlik etmişdir. Məhz peşəsini ürəkdən sevən Mürsəl müəllimin başçılığı ilə redaksiyada yüksək potensiala malik yaradıcı jurnalist kollektivi formalaşmış, rayon qəzeti daha əhatəli nəşr olunmuşdur. 1963-64-cü ildə rayonlar ayrılıb yenidən müstəqil fəaliyyət göstərməyə başlamış və hər birinin öz müstəqil qəzeti olmuşdur. «**Kənd həyatı**» qəzeti həmin vaxtdan Zəngilan RPK və XDS İK-nın orqanı kimi nəşrini davam etdirmişdir. 1989-1992-ci illərdə qəzetin redaktoru jurnalist Əvəz

Rzayev olmuşdur. Sov. IKP rəhbərliyinin təhriki ilə 1990-cı ilin 20 yanvarında Azərbaycanda törədilmiş faciəyə və sonrakı dövrdə xalqımıza qarşı ayrıseçkilik, xəyanətkarlıq siyasətinə görə Kommunist Partiyasının himayəsindən imtina edilmiş, 1991-ci ilin 10 sentyabr tarixli 104 (5744) sayından etibarən «**Kənd həyatı**» rayon qəzeti «Zəngilan Rayon Xalq Deputatları Sovetinin orqanı» olaraq işıq üzü görmüşdür.




«**Zəngilanın səsi» 1992-dən.** 1992-ci ildə rayon qəzeti öz tarixi ərzində 5-ci dəfə ad dəyişikliyinə məruz qalmışdır. Həmin ilin ikinci yarısından «**Zəngilanın səsi**» adlandırılan rayon qəzetinin redaktoru Xanoğlan Talıbov təyin olunmuşdur. Mənəvi sarsıntılarla yadda qalan yurd itkisindən sonrakı iki ildə rayon qəzetinin nəşrini bərpa etmək mümkün olmadı. Yalnız 1996-cı il də Zəngilan tarixinin yaddaş daşıyıcısı olan rayon qəzetinin fəaliyyətinin bərpası reallaşdı.

Ayda bir dəfə buraxılması nəzərdə tutulan «**Zəngilanın səsi**» 2-3 aydan bir maliyyələşdirilə bilirdi. Aylıq qəzet olaraq 15 ildən artıqdır ki, Zəngilanın varlığının, elimizin yekdilliyinin nişanəsi, simvolu kimi işıq üzü görür. Təskinlik, təsəlli yerinə çevrilərək əhalimizi bir məqsəd ətrafında birləşdirir. Məcburi köçkünlük illəri də daxil olmaqla indiyədək qəzetin 5944 sayı nəşr edilmişdir.

«**Zəngilanın səsi**» qəzetinə 1996-cı ildən Salam Cavadlı rəhbərlik edir. Redaktor olaraq Salam Cavadlı son 15 ildə qəzet yazılarının çapa hazırlanması proseslərini, eləcə də nəşrlə bağlı digər qayğıları öz üzərinə götürmüş və bu işi layiqincə icra etməkdədir. **http://www.zengilan.info/content_41_az.html**



*Hörmətli* ______________________

______________________

***Zəngilan rayon icra hakimiyyəti***

*Sizi* ***«Zəngilanın səsi»*** *qəzetinin 65 illik yubileyinə də`vət edir.*

*Yubiley məclisi 26 dekabr 1997-ci il tarixdə saat 14⁰⁰-da keçiriləcəkdir.*

*Ünvan: Bakı şəhəri*
*Azadlıq prospekti 181*

***Təşkilat komitəsi***

«Zəngilanın səsi» qəzeti aşağıdakı adlarla nəşr olunmuşdur:

1932 - 1937 - «Qızıl Zəngilan»
1937 - 1956 - «Stalinçi»
1956 - 1963 - «Zəngilan kommunisti»
1963 - 1992 - «Kənd həyatı»
1992 - h.h. - «Zəngilanın səsi»

Qəzetin bu günə qədərki fəaliyyəti dövründə 5880 sayı çap edilmişdir.

**Qəzetin 65 illik yubileyi münasibəti ələ bağlı buraxılan dəvətnamə**

**Rayon qəzetinin redaktorları**

*(Rayonun işğalına qədər)*

1. Bədəlov (1933),
2. Əliyev Yəhya (1934),
3. Təhməzov (1935), (Bunu Ziyad Təhməzovla qarışdırırlar)
4. Əhmədov A.M, -1937
5. Əliyev Qəhrəman, (1938)
6. Quliyev Əli Cəfər oğlu (1944-1945),
7. Heydərov Məhəmməd Heydər oğlu ,

8. İsmayılov Məhəmmədəli, 1951-1952, (arada Partiya məktəbində oxuyub) 1954-1956.
9. Hüseynov Murtuza Şəmil oğlu (1953-1956)
10. İ.İbişov (redaktor əvəzi) -1956-cı il.
11. Mustafayev Vəli Mustafa oğlu (1956-1961),
12. Qocayev Mürsəl Eyvaz oğlu (1961-1988),
13. Rzayev Əvəz Allahyar oğlu (1988-1992),
14. Talıblı Xanoğlan Şükür oğlu (1992-dən.

**Qəzetin redaktorları (Rayonun işğalına kimi)**

Zəngilanda ilк mətbu orqan olan yerli qəzet 1932-ci ilin sonlarında «Qızıl Zəngilan» adı ilə fəaliyyətə başlamışdır. Qəzetin ilк redaкtoru Baкıdan ezam edilmiş Əhməd Bədəlzadə olmuşdur. Emblem kimi traкtor təsviri verilən rayon qəzeti Maşın Traкtor Stansiyası Siyasi Şöbəsinin orqanı olmaqla кollekтivləşmədə, xüsusən rayonumuzun кolxozlarında maşın-traкtor parкlarının yaradılmasında öz tarixi rolunu yerinə yetirmişdir.

**Yerli mətbuat. «Zəngilanın səsi» - ZƏNGİLAN RAYON Icra Hakimiyyəti (zengilan-ih.gov.az)**

**Əliyev Yəhya (1934-cü ildən),**
*Rayon qəzetinin redaktorlarından*

Zəngilan rayon Komitəsinin 01 noyabr 1935- ci il tarixli İclasında belə bir qərar var.

1.Yəhya Əliyev rayon qəzeti «**Qızıl Zəngilan**»ın redaktoru vəzifəsindən azad edilməsi barədə.

2. Bu iş müvəqqəti olaraq Təhməzova həvalə edilsin. **Rusiya** İşğalları və Zəngilan**.s.265**

Bu adam qəzetin ilk redaktorlarından hesab olunur. Arxiv materiallarında qeyd olunur ki «Qızıl Zəngilan» qəzetinin redaktoru vəzifəsindən azad edilir və redaktorluq müvəqqəti olaraq Təhməzova həvalə olunur. **F.50.Opis 1,delo 105, səh 211**

**Təhməzov 1935-ci ildən**

*Rayon qəzetinin redaktorlarından (müvəqqəti)*

Arxiv materiallarında qeyd olunur ki, redaktorluq 1935-ci ildə müvəqqəti olaraq **Təhməzova (1935)** tapşırılır. Bu adamı bəzən Ziyad Təhməzovla dəyişik salırlar. Bu tamam başqa biridir.

**Quliyev Əli Cəfər oğlu (1905-1975)**

*Rayon qəzetinin redaktorlarından*



Quliyev Əli Cəfər oglu 1905-ci ildə rayonun Ağalı kəndində anadan olub. Uşaqlıq illəri sovet hökumətinin ilk illərinə təsadüf edib.

Quliyev Əli Cəfər oğlu Bakıda Lenin adına Azərbaycan Pedaqoji Institutunun kimya-biologiya fakültəsini bitirib. 1941-1945-ci illər müharibəsində Quliyev Əli Cəfər oglu iştirak etmiş və 1943-cu ildə yaralanmışdır. Müharibədən tərxis olunandan sonra rayona qayıdan Əli Cəfər oğlu müxtəlif vəzifələrdə işləmişdir. O, 1944-1945-ci illərdə rayon qəzetinin redaktoru olub.

Sonraki illərdə o, Sərifanda kolxos sədri, rayon torpaq şöbəsində aqronom, Ağalı kənd məktəbində direktor müavini işləyib.

Quliyev Əli Cəfər oğlu bir müddət rayon Partiya Komitəsində də işləyib. Buradan onu MTS-ə direktor göndərmək istəyəndə etiraz edir. Belə olanda Quliyev Əli Cəfər oğlu Rayon Partiya Komitəsindən getməli olur.

Quliyev Əli Cəfər oğlu 1975-ci ilin may ayında dünyasını dəyişmişdir. Allah rəhmət eləsin.

**Mustafayev Vəli Mustafa oğlu (1921-1992)**
*Rayon qəzetinin redaktorlarından*



Vəli Mustafa oğlu Mustafayev 1921-ci ildə rayonun Yuxarı Yeməzli kəndində anadan olub. Bir çoxları kimi o da ilk təhsilini kənd məktəbində almış, amma amansız müharibə ona təhsilini davam etdirməyə imkan verməmişdir. O, Tula, Pskov, Narva ətrafında gedən ağır döyüşlərdə iştirak etmiş, sonra Kiyevin, Riqanın, Orlovun, Volxovun azad olunmasında fərqlənmişdir. Cəbhədəki fəaliyyətinə görə ona III dərəcəli «Şöhrət Ordeni» verilsə də, onu ala bilməmişdir. Onun bu mükafatını, 1970-ci ildə özünə təqdim elədilər. Müharibədən sonra Vəli Mustafayev uzun müddət partiya, sovet orqanlarında məsul vəzifələrdə çalışmış, 1956-1961-ci illərdə Rayon qəzetinin redaktoru işləmişdir. Vəli Mustafayevin əsas xüsusiyyətlərindən biri sözü üzə şax deməsi kimsədən çəkinməməsi idi. Rayonumuzda saflığı, təmizliyi ilə sayılıb seçilən kişilərdən biri idi.

Mustafayev Vəli Mustafa oğlu 1992-ci ildə vəfat etmiş və Zəngilan şəhərində dəfn olunmuşdur.

**Hüseynov Murtuza Şəmil oğlu**
*Rayon qəzetinin redaktorlarından*



Hüseynov Murtuza Şəmil oğlu 1922-ci ilin 03 sentyabrında Zəngilan rayonunun Qıraq Müşlan kəndində anadan olub. Orta təhsilini Kənd Zəngilan məktəbində alıb.

Gənc yaşlarında II Dünya müharibəsinə yollanıb. Belqorod və Kursk uğrunda döyüşlərdə iştirak edib. 2 dəfə ağır yaralandıqdan sonra ordudan tərxis olunub. Müharibədən sonra Bakı Ali partiya məktəbini bitirib. Kənd

Zəngilan məktəbində tarix müəllimi işləyib. 1953-1956-cı illərdə «**Zəngilan kommunisti**» qəzetinin redaktoru, Rayon Mədəniyyət şöbəsinin müdiri, İcraiyyə komitəsində şöbə müdiri, Rayon İstehlak Cəmiyyətində Tikinti Materialları və Mebel Anbarının müdiri vəzifələrində çalışıb. Sonra təqaüdə çıxıb.

Hüseynov Murtuza Şəmil oğlu II qrup 1941-1945- ci illər Müharibəsi əlili idi. O, 30 sentyabr 1990-cı il tarixində Zəngilan şəhərində vəfat edib. Dörd oğlu, iki qızı var.

Murtuza Hüseynov ilə mən bir neçə il bir yerdə işləmişəm. O vaxtlar mən orta məktəbi təzəcə bitirmişdim. Ali məktəbə daxil ola bilmədim və atam məni də özü işlədiyi yerdə RİC-də fəhləliyə düzəltdi. Mən orada üç il işlədim. Biz rayona gələn həm ərzaq mallarını, həm də ki, tikinti materiallarını vaqonlardan boşaldardıq. Ayın 20-25 gününü başqa anbarda çalışar, ayda 4-5 gün də Murtuza Hüseynovun müdir olduğu anbarda işlərdik. Onun yanına işləməyə gedəndə fəhlələr sevinər və həvəslə orada işləməyə gedərdilər. Bu adam fəhləyə qiymət verərdi.

Əslində bu bizim vəzifəmiz idi və bunun müqabilində bizə əmək haqqı verirdilər. Onun yerinə kim olsaydı başqa cür hərəkət edərdi. Satdığı tikinti materiallarını imkanı olmayanlara ya borc verər, ya da ki, hissə-hissə ödəməsinə şərait yaradardı. Allah rəhmət eləsin.

### İsmayılov Məhəmmədəli

*Rayon qəzetinin redaktorlarından*



İsmayılov Məhəmmədəli 1920–ci ildə rayonun Məmmədbəyli kəndində anadan olub. İlk təhsilini kənd məktəbində almışdır. Müharibənin başlanması səbəbindən təhsilini yarımçıq qoymuşdur. O, səfərbərliyə alınaraq 1941-1945-ci illər müharibəsinə göndərilmişdir. Müharibənin odlu-alovlu yollarından keçərək bir çox döyüşlərin iştirakçısı olmuş, dəfələrlə yaralanmışdır.

Müharibədən sonra rayona qayıdan Məhəmmədəli İsmayılov pedaqoji təhsil almış və rayon məktəblərində gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Sonra onu rayonda nəşr olunuan yerli qəzetə redaktor təyin etmişlər. Bir neçə il işlədikdən sonra onu Bakı Ali Partiya məktəbinə göndərmişlər. Məktəbi bitirdikdən sonra yenidən öz işinə davam etmişdir. Sonrakı illərdə o, rayon Partiya komitəsinə işə dəvət edilmiş, rayon Partiya Komitəsinin III katibi seçilmişdir. Rartiya işindən getdikdən sonra o, rayonun işğalına kimi şəhər 1 saylı orta məktəbində tarix fənnindən dərs demişdir.

Məhəmmədəli İsmayılov rayonun işğalından sonra 2014- cü ildə Bakı şəhərində vəfat etmişdir.

**Heydərov Məhəmməd Heydər oğlu (1908-1992)**

*Rayon qəzetinin redaktorlarından*



Sovet tarixşünaslığında Böyük Vətən Müharibəsi adlandırılan 1941-1945-ci illərdə olmuş dəhşətli müharibədə 647.000 nəfər soydaşımız istirak etmişdi ki, onlardan da 275 000 ya həlak olmuş, ya da ki, itkin düşmüşdür. Həmin döyüşlərdə axıra kimi vuruşan, qələbəni Berlin şəhərində qeyd edənlərdən biri də əks kəşfiyyat kapitanı, həmyerlimiz Heydərov Məhəmməd Heydər oğludur.

XX əsrin əvvəllərində 1908-ci ildə Zəngəzur qəzasının Malatkeşin kəndində anadan olmuş, Məhəmməd Heydər oğlu erkən yaşlarında atasını itirmiş, anasının himayəsində qalmışdır. 1927-ci ildə kənd məktəbini bitirdikdən sonra kənddə təsərrüfatla məşğul olmuşdur.

1930-cu ildə ətraf kəndlərdən və qonşu rayonlardan olan Sovet hökümətinin siyasətindən və kolxoz quruluşundan narazı varlılar qaçaqçılıq yoluna düşərək Sobu kəndinin ətrafındakı meşələrdə

gizlənmişdilər. Həmin dövrdə rayon milis idarəsinin rəsi olan Bayramov Həsənqulu Camal oğlunun Məhəmməd Heydərova verdiyi zəmanətdən.

«1928- 1930 cu illərdə mən rayonda Milis rəisi vəzifəsində işləyirdim. O zaman yerli kulaklar, qolçomaqlar banditlik edərək sərhədi İran tərəfdən keçirdilər və özləri kimilərini də başlarına toplayıb Zəngilan rayonunun ərazisini keçib kəndləri talan edirdilər. İrandan keçmiş böyük bir banda Sobu meşəsində toplaşıb kəndi ələ keçirmişdilər. Digər bir dəstə isə Leşkər adlı yerdə məskən salaraq oradakı əhaliyə əziyyət edirdilər. Onlara qarşı mübarizədə Heydərov Məhəmməd Heydər oğlu bizimlə birlikdə iştirak etmişdi» Bundan bir qədər sonra onu orduya çağırdılar. 1930-1932-ci illərdə Bakıdakı Azərbaycan diviziyasının tərkibində xidmət elədi. 1932-ci ildə partiya məktəbinə daxil olan Heydərov məktəbi bitirəndən sonra Ağdam rayon Komsomol Komitəsinə işə göndərilir.

1934-cü ildə Zəngilana qayıdan M.Heydərov rayon Komsomol Komitəsinə I Katib seçilir. 1935-ci ilin sonunda onu Azərbaycan KP MK- nın nəzdindəki məktəbə göndərirlər. Məktəbi bitirdikdən sonra yenidən rayona dönən Heydərov Torpaq Şöbəsinə müdir təyin olunur. 1938-42 ci illərdə rayonda çıxan «Stalinçi» qəzetinin redaktoru olmuş, 1942-ci ildə müharibənin başlaması ilə əlaqədar orduya səfərbər olunan Heydərov bu işdən azad olunur. Onun Qafqazdan başlanan döyüş yolu Berlində sona çatir.

Ordudan tərxis olduqdan sonra rayona gələn Məhəmməd Heydərov rayon Partiya komitəsinin III katibi, rayon XDS İcraiyyə Komitəsinin sədri kimi mühüm vəzifələrdə çalışmışdır. 1954-cü ildə onu Bakı Ali partiya məktəbinə göndərirlər. 1958-ci ildə Ali Partiya məktəbini bitirəndən sonra rayon Kənd Təsərrüfatı Müfəttişliyinə rəis təyin olunmuşdur. Sonrakı illərdə müxtəlif vəzifələrdə çalışan Məhəmməd Heydər oğlu Heydərov 1992-ci ildə dünyasını dəyişmişdir. Allah rəhmət eləsin**. 317.**

## Qocayev Mürsəl Eyvaz oğlu (1926-2006)

*Rayon qəzetinin redaktorlarından*



Qocayev Mürsəl Eyvaz oğlu 1926-cı ildə indiki Zəngilan rayonunun Saralı Xəçtab kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan DPİ-nun dil-ədəbiyyat fakültəsinə daxil olmuş və oranı bitirmişdir. Ali məktəbi bitirdikdən sonra bir müddət müxtəlif yerlərdə çalışmış, 1961-ci ildən isə həyatını Zəngilanda çıxan «Kənd həyatı» qəzeti ilə bağlamışdır. O düz 35 il bu qəzetin baş redaktoru olmuşdur. 1988-ci ildə könüllü baş redaktorluqdan getmişdir. Bundan sonra da qəzetlə əlaqəsini kəsməmiş və qəzetdə müntəzəm çıxış etmişdir.

1997-ci ildə qəzetin 65, 2002-ci ildə isə 70 illik yubileyləri keçirilmişdir. Respublika Jurnalistlır birliyi tərəfindən ona Həsən Bəy Zərdabi adına «Ustad» ali jurnalist mükafatı verilib.

Qocayev Mürsəl Eyvaz oğlu 2006-cı ildə Bakı şəhərində vəfat etmişdir. M.Qocayev Zəngilanda olan bütün qəzet işçilərinin mənəvi atasıdır desəm yanılmaram. Allah ona rəhmət eləsin.

## Rzayev Əvəz Allahyar oğlu (1938-1999)

*Rayon qəzetinin redaktorlarından*



Əvəz Allahyar oğlu Rzayev 1938-ci ildə indiki Zəngilan rayonunun Orta Yeməzli kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakı şəhərinə gedərək «Qızıl Şərq» mətbəəsində işə düzəlmişdir. İşləyə-işləyə 1964-cü ildə Azərbaycan Dövlət Unuversitetinin jurnalistika fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur.

Sonrakı illərdə Əvəz müəllim rayon qəzetinin adi əməkdaşından redaktor vəzifəsinə qədər mənalı bir yol keçmişdir. Rayonun işğalından sonra Bakı şəhərində məşkunlaşan Əvəz müəllim respublikanın bir çox qəzetlərində çalışmış, sonra isə özünün təsis etdiyi «Təzə Həyat» qəzetində həm işləmiş, həm də ki, öz yaradıcılığını davam etdirmişdir.

Əvəz Rzayev qələmə aldığı və nəşr etdirdiyi əsərlərinə görə «Qızıl Qələm» və Həsən bəy Zərdabi adına mükafatlara layiq görülüb.

Rzayev Əvəz Allahyar oğlu 1999-cu ildə dünyasını dəyişmişdir.

**Talıblı Xanoğlan Şükür oğlu**

*Rayon qəzetinin redaktorlarından*



Talıblı Xanoğlan Şükür oğlu 1955- ci ildə Pirçivan kəndində anadan olmuşdur. 1962-1972-ci illərdə 1 saylı Zəngilan şəhər orta məktəbində oxumuşdur. Orta məktəbi bitirdikdən sonra bir müddət istehsalatda çalışmış, eyni zamanda qiyabi olaraq Azərbaycan DU-nin jurnalistika fakültəsində oxumuş və 1988-ci ildə oranı bitirmişdir. Onun da həyatının müəyyən dövrü rayon qəzeti ilə bağlıdır. 1985-1989-cu illərdə Zəngilan RİK-də təlimatçı, 1989-1990–cı illərdə Zəngilan RİK-də ümumi şöbə müdiri, 1990-1992-ci illərdə Zəngilan rayon «Kənd həyatı» qəzetində məsul katib, redaktor müavini, 1992-ci ildən ömrünün son gününədək «Zəngilanın Səsi» qəzetinin baş radaktoru olmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin üzvü idi. Xanoğlan Talıbov Azərbaycan Qarabağ Müharibəsi veteranı idi. 1988-1991-ci illərdə məsul vəzifədə çalışmasına baxmayaraq həm də Zəngilanın Seyidlər, Qazançı,

Kollu, Rəzdərə kəndləri uğrunda gedən döyüşlərdə iştirak etmişdi Milli mətbuatın inkişafında xidmətinə görə dəfələrlə Respublika Mətbuat Fondunun «Fəxri Fərman»ına, «Diplom» və pul mükafatlarına layiq görülüb.

O, «Zəngilanın Səsi» qəzetində çap olunmuş və Zəngilan rayonu haqqında ensiklopedik bilik verən və yaddaşlara əbədi həkk olunmağa layiq olan «Yaşadığımız Rayon» məgaləsinin və yüzlərlə digər məqalələrin müəllifidir. Redaktoru olduğu «Zəngilanın Səsi» qəzeti Vətənimizin dar günlərində hay, qarı düşmənlərimizin üstümüzə ayaq aldığı vaxtlar Zəngilan camaatına ümid, inam çırağı oldu.

90-cı illərin əvvəlləri idi. Xalq hər gün ümidlə Zəngilan Radio Qovşağından Xanoğlan Talıblının əzəmətli, hökmlü səsini dinləmək üçün radionun səsini artırırdı: «Əziz zəngilanlılar, bildiyiniz kimi rusların köməyi ilə bir neçə rayonumuzu işğal etmiş rəzil düşmənlərimiz bu gün barlı-bərəkətli torpağımıza, Avropada birinci, dünyada ikinci yeri tutan Çinar meşəmizə (dünyada birincidir. Kanadadakı meşə çinar yox, ağcaqayın meşəsidir-Ə.S.), Xustup, Leşkər, Boğazyurd, Daşkəsən, Altıağac yaylaqlarımıza, şəfalı bulaqlarımıza göz dikib. Ərlər-ərənlər, bu gün dözüm və dəyanət vaxtıdır. Nəyin bahasına olursa olsun Zəngilanımızın bir qarışını da yağılara verməməliyik»

Zəngilanlılar deyirdilər ki, onun çıxışları o qədər inamlı idi ki, evimizi nə vaxtsa tərk edəcəyimiz heç ağlımıza belə gəlməzdi. Evimizdən bir şey çıxarıb hardasa daldalamaq fikri belə bizə dəhşətli gəlirdi. O müdhiş günə qədər hamı inanırdı ki, Zəngilana kömək gələcək. O da hamı kimi ümidli və inamlı idi.

Talıblı Xanoğlan Şükür oğlu işğaldan sonra Bakı şəhərində vəfat etmişdir.

## Əliyev Zakif Hüseyn oğlu

*Rayon qəzetinin fotomuxbiri*



Əliyev Zakif Hüseyn oğlu 22 sentyabr 1940-cı ildə rayonun Seyidlər kəndində anadan olub. Zakif Əliyev əvvəl ticarət texnikumunu bitirib. Buna baxmayaraq redaksiyada işə girib və orada 5 il korrektor işləyib. Sonra isə foto müxbir keçib. O, uzun illər 1993-cü ildən rayonun işğalına kimi Zəngilan rayonunda nəşr olunan «Kənd Həyatı» qəzeti redaksiyasında foto muxbir işləyib.

Redaksiyada 10 il işlədikdən sonra onu göndərişlə Jurnalistlər İttifaqının nəzdində təşkil olunan ikiillik qiyabi kursa yollayıblar. Kursu bitirdikdən sonra da işinə davam edən Zakif Əliyevi SSRİ və Azərbaycan SSR Jurnalitlər İttifaqına üzv qəbul ediblər.

Həyat yoldaşı Hadıyeva Xatın tibb bacısıdır. Onların Elman, Vüqar adlı iki oğlu, Vüsalə adlı qızları var.

### Işğal ərəfəsində redaksiyada işləyənlərin siyahısı

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Talıblı Xanoğlan Şükür oğlu | redaktor | |
| 2 | Cavadlı Salam Allahverdi iğlu | Məsul katib | |
| 3 | Ağayev Adif Abiş o | Redaktor müavini | |
| 4 | Əliyeva Şükufə Qara qızı | əməkdaş | |
| 5 | Bayramova Mailə | əməkdaş | |
| 6 | Babayev Lətif Şükür oğlu | əməkdaş | |
| 7 | Məmmədova Şəfiqə Əli qızı | əməkdaş | |
| 8 | Ibadov Xanoğlan Bəylər oğlu | Baş linotipçi | |
| 9 | Kərimova Şəfiqə Kərim q | | |
| 10 | Əliyev Zakif | fotomüxbir | |
| 11 | Dünyamalıyev (İsrafil oğlu) | sürücü | |
| | | | |

## Rayon qəzetinin səhifələrində

**Eni çayxana.** (O dövrün yazısıdır) Zəhmətkeşlərə mədəni xidmət məqsədi ilə rayon istehlak cəmiyyəti Pirçivan dəmir yol razesində (vağzal ərazisi nəzərdə tutulur) yeni bir çayxana təşkil edib, lazımı avadanlıqla təmin etmişdir. Çayxanada müxtəlif içkilər, konserv, papiros və sairə şeylər də vardır. Hər gün burada onlarla müxtəlif erlərə gedən sərnişin və başqa vətəndaşlar əylənir və istirahət edirlər.

*M.Quliyev.* «Stalinçi» **06.06.1950.N-22.**

**Məktəb yeni il qarşısında.** Kommunizm ruhunda tərbiyə edilməkdə olan xöşbəxt uşaqlarımızın qış tətilini və yolka bayramını nümunəvi keçirmək məqsədilə rayonumuzun məktəblərində ciddi hazırlıq işi aparıldığı kimi rayon mərkəzindəki Pirçivan orta məktəbi də yolka bayramına böyük ruh yüksəkliyi ilə hazırlaşmışdır. Məktəbin salonunda bəzədilmiş yolka ağacının ətrafında hər gün məktəblilər toplanaraq tamaşa edirlər. Burada uşaqlar üçün maraqlı oyunlar təşkil edilir, nəğmələr və şeirlər oxunur.

Pioner dəstə rəhbəri Zənfirə (Gülüş qızı-Ə.S) Məmmədova, müəllimlərdən Nəriman Əliyev, Cəmil Sayılov, Şirvan Nəbiyev və başqaları məktəblilər üçün maraqlı elmi və siyasi söhbətlər aparırlar.

A.Təhməzov. Pirçivan orta məktəbinin ilk komsomol təşkilatının katibi. «Stalinçi» **01.01.1951. N-1.**

## Rayon radio verilişləri redaksiyası .

Rayonda qəzet nəşri ilə bərabər yerli radio verilişləri də yayımlanırdı. Bu, təxminən altmışıncı illərin axırı, yetmişinci illərin əvvəllərinə təsadüf edir. Radio verilişləri redaksiyasının ilk aparıcısı Cəfərov Aydın Məhəmməd oğlu olub. Ondan sonra

hərdən Sürəyya Məmmədova da bu aparıcılıqda iştirak edirdi. Sonralar az zamanda bu vəzifədə Nüsrət Mustafayev də işləyib. Son aparıcı isə Həsənalı Bayramov olub. O, rayonun işğalına kimi bu vəzifədə işlədi. Onun bu sahədəki xidmətləri əvəzsizdir. Yadımdadır ki, hər zaman o veriliş yayımlananda hamı onu səssiz dinlər və qəzet ala bilməyən və oxumaq imkanı olmayanlar onun vasitəsi ilə informasiya əldə edərdiləər. Müəyyən dövrlərdə Həsənalı Bayramovla bərabər bir neçə xanım aparıcıların da səsi eşidilirdi. Onlar hazırlanmış məlumatları oxuyardılar. Bu sahədəki işin əsas ağırlığı Həsənalı Bayramovun çiyinlərində idi.

**Cəfərov Aydın Məhəmməd oğlu**

*Yerli radio verilişləri redaksiyasının aparıcısı*



Cəfərov Aydın Məhəmməd oğlu 1941-ci ildə Bürünlü kəndində anadan olub. 1960-cı ildə Zəngilan qəsəbə orta məktəbini bitirmiş və bir il həmin məktəbdə kargüzar işləmişdir. 1961-1964- cü illərdə Bakı şəhərində DİN-nin hərbi hissələrindən birində hərbi xidmət keçmişdir. Ordudan tərxis olunandan sonra 1965-ci ilin yanvarından avqust ayına kimi rayonda nəşr olunan «**Kənd həyatı**» qəzeti redaksiyasında yerli radio verilişlərinin aparıcısı olub.

Sonra Aydın Cəfərov 1965-1970-ci illərdə Azərbaycan Xarici Dillər İnstitutunnun rus dili və ədəbiyyatı fakültəsində oxumuşdur. Ali məktəbi bitirdikdən sonra rayona gəlmiş və Malatkeşin kənd 8 illik məktəbdə rus dili və ədəbiyyatı müəllimi işləmişdir. 1972-ci ildə isə rayon Təhsil şöbəsində metodist işləmiş və eyni zamanda da şəhər 1 saylı orta məktəbində ixtisası üzrə dərs demişdir. Ailəlidir, bir oğlu, iki qızı var

# ZƏNGİLAN ŞƏHƏRİNİN BİNALARI

**Məscid.** Məscid müsəlmanların kütləvi və tək-tək ibadət etmələri üçün tikilən memarlıq abidəsidir. Onlar günbəzli və minarəli olur. Məscidlərdə 1-dən 9-a qədər münarə ola bilər. İçərisi bəzəksiz olmalıdır. Ancaq Quran ayələrini yazmaq olar. Məscidlər Məkkə istiqamətində tikilməli və qibləni bildirən Mehrab olmalıdır. Mehrabdan bir qədər sağda, bir qədər yüksək olmaqla minbər də olur ki, oradan da dini rəhbərlər, molla və xocalar Xütbə və vaiz oxuyurlar.

Türkiyədə Məscidlər ancaq gündəlik namaz qılınan yerlərə deyilir. Cümə namazı qılınıan yerlərə isə Cami deyirlər.

Məscid «Quran»da Sucur (Səcdə etmək) sözündən olub baş əymək, başı yerə qoymaq mənaların verir. Quranda deyilir:

**Həqiqətən, insanlar üçün ilk bina olunan ev (məbəd) Məkkədəki evdir ki. O, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır. s. 150**. Qurani Kərim. Surə Ali İmran. Ayə 96.

**İslam Peyğəmbəri Mühəmməd (saas) bildirdiyinə** görə isə ikincisi Mədinədir.

Şəhərimizdəki Məscid minarəsiz və sadə idi. İçərisində mehrab var idi. Çox güman ki, zamanında minbəri də olmuşdur.

Günümüzəki Məscidlərə o qədər bəzək vururlar ki, bilmirsən bura ibadət yeridir, yoxsa muzey. Kilsələr bunlardan da təmtəraqlı və bəzəklidir. Onlar sanki özlərinin gücünü dünyaya göstərmək istəyirlər.

**Zəngilan şəhər Məscidi.**

2020-ci iln dekabr ayının 24-də Zəngilan rayonuna səfər edən Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyev** orada Məscidi bu halda görərkən belə demişdir:

- Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq,

beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost



ölkə deyirlər. Bu «dost ölkəyə» 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, Məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan «beynəlxalq məmurlar» öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq. **Azərbaycan qəzeti 24 dekabr 2020**

Zəngilan şəhərinin demək olar ki, lap mərkəzi hesab olunan Məscid düzü adlanan yer əhalinin ən çox toplandığı yer idi. Ən yeni məlumatlar buradan öyrənilirdi. Rayonun qərb tərəfindən, daha doğrusu,Rəzdərə kəndi tərəfdən gələn şose yolu şəhəri ikiyə bölərək dəmiryolu vağzalına enir, oradan da əgər istəsən düz Bakı istiqamətinə gedər, istərsən də vağzaldan sağa dönüb cənuba doğru Mincivan qəsəbəsinə girərsən. Şəhərin əsas və baş küçəsi sovet zamanında Karl Marksın adını daşıyırdı. Sonralar bu küçə Azadlıq prospekti adlandırıldı. Bu iki yol şəhərin mərkəzində yəni, Məscid düzündə kəsişirdi. Bura eyni zamanda da dörd yol ayrıcı idi. Məhz bu dörd yolun cənub-şərq hissəsində hamının Məscid adı ilə tanıdığı bir bina var idi. Hamı Məscid deyirdi ancaq, onun nə olduğunu çoxumuz bilməz, heç əhəmiyyət də verməzdik. Çünki bura adi bir bina, daha doğrusu, rayon İstehlak Cəmiyyətinin anbarı idi. 1971-1974-cü illərdə mən bu Məscidə 3 il yük yığdım və boşaltdım. O zaman mənim hələ 18 yaşım tamam deyildi və bu müqəddəs binanın nə olduğunu da bilmirdim. Onun içinə çox diqqətlə baxardım. Amma heç nə anlamazdım. Qapı üzərində olan mənə əyri-əyri xətlərdən başqa bir şey deməyən o müqəddəs yazının (kitabənin) da nə olduğunu bilməzdim. Indi anlayıram ki, o zaman mənim bəsirət gözüm bağlı idi. O kitabədə nə yazıldığını da biz bilmirik. Mən çox axtarsam da onun barəsində bir məlumat tapa bilmədim. Məscidin orta əsrlərdə, Səfəvilər zamanında tikildiyi güman edillir. Məscidin uzunluğu 20, eni isə 12 metr olardı. Hündürlüyü isə bir otaqlı evlər hündürlüyündə, daha dəqiq desək 2.5-3 metr idi. İçərisində Mehrab və taxça var idi. Tikintidə, əsasən yerli əhəng daşından istifadə olunmuşdur. Məscidin cənub-şərq tərəfində bir neçə pəncərə var idi ki, onların da hamısı daşla hörülüb qapadılmışdı. Içəridən divarlar üzlənməmişdir. Məscidin qapısı günçıxana açılırdı. Tağbənd formada olan qapının üst tərəfində Kitabəsi var idi. Qeyd etdiyim kimi bu binadan məktəb və uzun müddət ticarət obyekti kimi istifadə olunmuşdur. Sovet hökumətinin süqutundan sonra Məscidə əl gəzdirilmiş, 70 ildən sonra ilk dəfə buradan azan

səci eşidilmişdir. Bayır hissədə  Minarə rolunu oynayan bir yapı inşa edilmişdir. Təəssüf ki, Məscid abadlaşdırılıb müsəlmanların istifadəsinə verilsə də, ondan istifadə etmək mümkün olmadı. Belə ki, Ermənistan Silahlı qüvvələrinin rayonu işğal etməsi ilə Məscid yenidən sükünətə qərq oldu.

**Fərzəliyev Hacı Müşfiq Əlisa oğlu**
*Zəngilan şəhər Məscidinin axundu.*



Fərzəliyev Müşfiq Əlisa oğlu rayonun Alıbəyli kəndində anadan olub. Zəngilanın ilk təhsilli din adamlarından hesab olunur. Sovet hakimiyyətinin tarix səhnəsindən getməsindən sonra şəhərimizdəki Məscid açıldı və təmirdən sonra əhalinin istifadəsinə verildi. Bu dövrdə o Məscidin axundu Fərzəliyev Müşfiq idi.

## ZƏNGİLANIN İDARƏ VƏ MÜƏSSİSƏLƏRİ

### Yerli hökumət-kənd, qəsəbə, şəhər İcraiyyə Komitələri.

Zəngilan şəhərinin problemləri ilə rayon PK-si ilə bərabər şəhər İcra Nümayəndəliyi də məşğul olurdu. Məlumat üçün bildirim ki, sovet hökuməti zamanında şəhər və kəndlərin problemləri ilə Zəhmətkeş Deputatları Sovetlərinin İcraiyyə Komitələri, 1977-ci ildən sonra isə Xalq Deputatları Sovetlərinin İK-ri, 1991- ci ildən sonra isə İcra nümayəndələri məşğul olurdular. Əvvəlki illərdə bu işlə Pirçivan kənd ZDS İK, sonralar Zəngilan qəsəbə, 1967-ci ildən 1991-ci ilə kimi isə Zəngilan  şəhər XDS İK-ri məşğul idi. Hal- hazırda isə bu qurum Zəngilan şəhər ərazi inzibati vahidi

adlanır. Rayon işğal olunan ərəfədə bu quruma Əşrəf Həzi oğlu Şükürov rəhbərlik edirdi.

Sovet zamanında kənd ZDS-nin 25, şəhər ZDS-nin 50, rayon ZDS (XDS)-nin isə 75 deputatı olurdu. Sovet hökümətinin tarix səhnəsindən getməsi ilə onun idarəetmə orqanları da öz funksiyalarını dayandırdılar.

## Elektrik stansiyası

Sovet quruluşu ilk növbədə ölkənin sənayeləşməsinə fikir verirdi. Bununla bağlı V.İ.Leninin müəyyən etdiyi ölkənin elektrikləşdirilməsi planına uyğun olaraq hər bir şəhər və qəsəbələrdə elektrik stansiyaları və sənaye kombinatları tikilirdi. Lenin çox düşünülmüş bir şəkildə bildirirdi ki, elektrikləşdirmə olmadan ölkəni dirçəltmək, idarə etmək olmaz. Onun bu planı, həqiqətən, təqdirə layiqdir.

Pirçivanın da rayon mərkəzi kimi təsdiqindən sonra kəndin ortasında münasib bir yerdə Elektrik stansiya tikildi. Stansiyanı elə yerdə tikmək lazım idi ki, orada ya təbİi çay olsun, ya da ki, oraya süni yolla kanal qazıb su gətirmək mümkün olsun. Bu məqsədlə də Pirçivanın Milis idarəsinin şərq tərəfindəki nisbətən çala yer seçildi. Elektrik stansiyası ilə bərabər onun şimal tərəfində dəyirman, onun da şimal tərəfində şəhərimizin ilk hamamı tikildi.

Elektrik stansiyasını rəhmətlik Məmmədov Gülüş Dərgah oğlu işlədirdi. (Şamı Bağırovun qayınatası)

Mənim atamla anam da uzun müddət burada işləmişlər.

**Məmmədov Gülüş Dərgah oğlu**

*Elektrik stansiyasının müdiri*



Məmmədov Gülüş Dərgah oğlu 1886-cı ildə Zəngəzur qəzasının Nüvədi kəndində anadan olub. XX əsin əvvəllərində Pirçivan kəndinə köçmüşdür. Burada sovet hakimiyətinin qələbəsindən sonra kolxoz təsərrüfatında işləmişdir. Sovet hökuməti ilk dövrlərdə bütün rayon mərkəzlərini elektrik enerjisi ilə təmin etmək məqsədi ilə kiçik su elektrik stansiyaları inşa etməyə başladı. Pirçivan kəndi də rayon mərkəzi kimi təsdiq olunandan sonra burada da elektrik stansiyası inşa edildi.

Gülüş Məmmədov burada uzun illər işləmiş, Elektrik stansiyasının müdiri vəzifəsinə kimi yüksəlmişdir.

Gülüş Dərgah oğlu Məmmədov 1984-cü ildə 98 yaşında Zəngilan şəhərində vəfat etmişdir.

Burada Gülüş kişinin rəhbərliyi altında SES-də Hüseynov Mustafa Şəmil oğlu, Həsənov Hüseyn Həsən oğlu və məniim atam Bədirxanov Seyfulla Cümü oğlu da Mingəçevirdən rayonumuza elektrik enerjisi verilənə kimi işləmişdir.

**GES (Gidro elektrik stansiyası) arxı**

Şəhərimizdə bu adla adlanan bir arx (kanal mövcud idi.) Bu kanalla həm Elektrik Stansiyası, həm də ki, dəyirman işlədilirdi.

Bu arx «Çeşmə gözü» yaxınlığından şəhərə gələr və ES və dəyirmanı işlədərdi. ES və dəyirmandan çıxan su isə şəhərin aşağı hissəsindəki əkin sahələrinin suvarılmasına yönəldilirdi.

O zamanlar traktor və ekskavatorların olmadığı bir zamanda bu kanal əllə qazılmışdı. Kanal bizim evin şərq tərəfindən keçirdi. Lap uşaqlıqdan bu kanalla təmasda olmuşam O vaxtlar kanalın suyu son illərdə olduğu kimi o qədər də bulanıq deyildi. Kanal

əvvəllər həm enli, həm də ki, gur sulu idi. Orada ES-nı işlədə biləcək qədər su olmalı idi. Hər il də olmasa müəyyən dövrdən bir kanalın suyu kəsilər və onun içini işçilər bellə (kürəklə) təmizlərdilər. Məsələ onda idi ki, çayın gətirdiyi lil çökər və kanalı doldurardı. Belə olan halda isə onun həm axını zəiflər həm də ki, su tutumu azalardı ki, nəticədə də ES-nı işlətməyə gücü yetməzdi.

O zamanlar «Çeşmə gözü»nün yanında Oxçuçayın qarşısını kəsər suyu kanala döndərərdilər. Çayın qarşısını kəsmək o qədər də asan olmazdı. Texnika yox idi. Əhali söyüd budaqlarını kəsər, bağlayar və çayın qabağına atardılar. Bunlara civir deyilirdi. Demək olar ki, çay hər il daşanda onu dağıdar və yazıq işçilər onu yenidən təzələyərdilər.

Kanalın keçdiyi yerdə olan evlərdən yadımda qalanlarını qeyd etmək istəyirəm. Lap başda kanal qalayçı Abdulla kişinin evinin yanından başlardı. Sonra o bir qədər aşağıda Hüseynin (çörək maşını sürücüsü), Quliyev Nərimanın, RİK-nin o vaxtı ümümi şöbə müdiri Bəxtiyarov Məhəmmədəlinin, Quliyev Şirinin, Qurbanov Şirinin evinin arxasından, Atakişinin (oğlu Oruc) evinin şərq tərəfindən keçərdi. Bundan sonra buradan keçən yolda bir kiçik körpü salınmışdı Bu da Pirçivanın ilk körpülərindən hesab olunur. Ümumiyətlə, kanalın keçdiyi yerlərdə üç kiçik körpü var idi ki, bunlara da o vaxtlar «sement körpü» deyərdilər.

Kanal sonra Əliyev Əlinin, Şahmuradın, Qəşəmin, Aslanov Yusufin, Allahverdiyev İslamın, Əliyev Qurbanın, Niftalı Şərifovun, Əli Məmmədovun, Məhəmməd Məmmədovun, mənim, Qurbanov Şamxalın, İsa Haqverdiyevin, Mehti kişinin və Vahidin evlərinin arxa tərəfindən keçərdi. Sürücü İbrahimov Vahidin evindən sonra burada yenə kiçik bir «sement körpü» var idi. Buradan yol stansiyaya gedirdi. Sonra kanal köhnə hamamın (sonralar yeni hamam tikiləndən sonra bu yeri Xansuvar Həsənov aldı və özünə ev tikdi) və bərbər Fərruxun evinin arxasından keçərək dəyirmana, sonra da GES-ə (Su Elektrik Stansiyası) daxil olurdu.

Kanalın keçdiyi yerə (küçəyə) sonralar 26 Bakı komissarlarından olan Məşədi Əzizbəyovun adı verildi. Küçənin və kanalın üst tərəfində isə birinci körpüdən sonra bir ev, ondan sonra, deyəsən, yenə bir ev var idi. Bu arada yenə bir yol Aslanov Yusifin evi olan yerdən şəhərə çıxırdı. Burada da bir körpü salınmışdı. Sonra kanal ilk orta məktəbin bağının şərq tərəfindən davam edər və Nəniş arvadın, Aydın müəllimin, Vəliyev Qasımın, Əliyev Həmidin, Şərifov Fehruzun, Cəfərov Səfiyarın, Bədirxanov Sefinin, Qurbanov Kərimin, Kərimov Heydərqulunun, Həsənov Allahverənin, Quliyev İsmayılın, Əzizin və Musanın (oğlu Hümbət) evlərinin şərq, tərəfindən keçərək növbəti körpüyə çatardı. Bundan sonra o, Məmmədov Rəşidin (Xalq hakimi) evinin və Milisin bağının alt hissəsindən keçməklə dəyirmana və GES daxil olardı.

Əlavə onu da qeyd edim ki, Zəngilanın əsas idman qurğusu S.Vurğun adına stadionu olan ərazidə əvvəllər çəltik, sonralar isə pambıq əkilirdi. Həmin ərazini suvarmaq məqsədilə əsas kanaldan bir qol ayrılmışdı. Bu qol İslam kişinin evi ilə Qəmər Musayevanın evinin arasından şərqə tərəf enər və sonra doxsan dərəcə sağa dönərək indiki stadionun divarının kənarı ilə axaraq GES dən 200 metr şərq tərəfdə yenə əsas kanala birləşərdi. Stadion tikilən zaman bu əlavə kanal ləğv edildi. (sxemə bax 442-də.)

## Yerli sənaye kombinatı
(Əhaliyə Məişət Xidməti Kombinatı)

Rayonumuzun ən uzun ömürlü müəssisələrindən biri hesab olunan bu sənaye obyekti rayon yarandığı ilk günlərdən son günə kimi öz fəaliyyətini davam etdirmişdi. Rayonda elə bir ailə tapılmazdı ki, onun xidmətindən yararlanmasın.

Pirçivanın rayon mərkəzi kimi təsdiqindən sonra kənddə ilk sənaye müəssisəsi yerli sənaye kombinatı idi. Bu müəssisə Pirçivanla köhnə Pirçivanı bir-birindən ayıran dərənin cənub tərəfində idi.

Sovet hökumətindən əvvəl bildiyiniz kimi evlərin dam örtüyü torpaqdan ibarət idi Sovetlərdən əvvəl Pirçivanda olan 4 bəy evindən və Məsciddən başqa normal dam örtüyü olan bina yox idi.

Kombinat ilk növbədə binaların damı üçün kirəmid istehsal edəcəkdi. Yeni tikiləcək SES-in və digər dövlət obyektlərinin üstünü örtmək lazım idi. Bu məqsədlə həmin dərənin o tayında əsası qoyulan kombinat kirəmid istehsal edirdi. 60-ci illərə kimi Pirçivandakı evlərin üstü kirəmiddən idi. Sovet rəhbərləri fikirləşdilər ki, kirəmidlə yeni tikiləcək binaların üstünü örtmək çətinlik törədir. Sonra zərərli olsa da şifer istehsalına keçdlər. İlk dövrlərdəki şiferlər təxminən 1 metr boyu, 60 sm enində idi. 60-cı illərin sonu 70-ci illərin əvvəllərində yeni ölçülü şiferlər istehlal olundu. Bunların ölçüləri 90x175 sm idi.

Pirçivandakı Elektrik stansiyasının, dəyirmanın və digər binaların dam örtüyü kirəmiddən idi. Sonrakı illərdə şifer istehsalına başlanandan sonra kirəmidlər yığışdırldı və kombinat da bunun istehsalını dayandırdı

Mənim atam da 1947-ci ildə Sobudan Pirçivana gələndə bu kombinatda əmək fəaliyyətinə başlamışdır.

**Paşayev Seyfəddin Teymur oğlu**

*Əhaliyə Məişət Xidməti Kombinatının direktoru*



Paşayev Seyfəddin Teymur oğlu 1952- ci ilin iyununda indiki Qubadlı rayonun Tatar kəndində anadan olub. 1959-1969-cu illərdə əvvəl qəsəbə, sonra isə şəhər orta məktəbində oxuyub. Sonra Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini bitirib. Ali məktəbi bitirdikdən sonra Zəngilan kənd orta məktəbində müəllim kimi əmək fəaliyyətinə başlayıb. Sonrakı illərdə partiya işinə keçən Seyfəddin Paşayev Rayon Partiya Komitəsində təlimatçı işləmişdir. Rayonun işğalı ərəfəsində Əhaliyə Məişət Xidməti

Kombinatının direktoru idi. Rayonun işğalından sonra 20 ilə yaxın rayon İcra Hakimiyyəti başçısının müavini olmuşdur. Hal-hazırda Dövlət qulluğu təqaüdündədir.

## Işğal ərəfəsində ƏMXK- da işləyənlərin siyahısı

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Paşayev Seyfəddin Teymur oğlu | **direktor** | |
| 2 | Rzayev Məhərrəm | mühasib | |
| 3 | Bəndalı | bərbər | |
| 4 | Vəliyev Mürsəl Müstafa o | dərzi | |
| 5 | Vəliyeva Nazilə | dərzi | |
| 6 | Yarışov Oqtay | fotoqraf | |
| 7 | Hüsü | bərbər | |
| 8 | Fərhadov Əli | ayaqqabı təmirçisi | |
| 9 | Əliyev Famil | fotoqraf | |
| 10 | Səttərov Zakir Nüsrət oğlu | | |
| 11 | Əhmədov Məhəmməd | | |
| 12 | Cəfərov İslam | | |
| | | | |

## Vergilər idarəsi.

Vergilərə əvvəlki illərdə Maliyyə şöbələri baxırdı. 1990-cı ildə Rayon maliyyə şöbəsinin tərkibində vergi müfəttişliyi yaradıldı və müstəqil təşkilata çevrildi. Sovet zamanında iqtisadiyyat başqa formada idarə olunurdu. Kapitalizm dünyasında isə Vergi sistemi olmadan yaşamaq qeyri-mümkündür. Bu səbəbdən də yeni yaranan dövlətlər, o cümlədən Azərbaycan da yeni vergi sistemi və orqanları yaratdı. Onun ilk müdiri Almuradov Ağaqulu olmuşdur. 1992-ci ildə isə yeni təyin olunan rayon rəhbərliyi bir çox idarə və müəssisə rəhbərliyini dəyişdirdi. Bu vaxt Vergi idarəsinə Əhmədova Vəzifə Əli qızı təyin edildi. Vəzifə xanım 25 ildən artıq bu idarəyə rəhbərlik elədi.

**Əhmədova Vəzifə Əli qızı**

*Vergilər idarəsinin rəisi*

*Baş Dövlət Vergi xidməti müşaviri*



Rayonumuzda rəhbər vəzifələrdə çalışmış qadınlar çoxdur. Biz Hürü Mehrəliyeva, Gülarə Ələkbərova və başqaları haqqında yazmışıq. Bu yazımızda isə onlardan daha biri Vəzifə Əhmədova haqqında danışacağıq. Əhmədova Vəzifə Əli qızı 1947-ci ilin may ayında qədim türk torpağı olan, indi isə hayların məmləkəti sayılan Ermənistan Respublikasının Mehri rayonunun Əli Dərəsi (Əldərə) kəndində anadan olmuşdur.

1965-ci ildə Əli Dərəsi kənd orta məktəbini bitirəndən sonra o vaxtkı S.M.Kirov adına ADU-nun İqtisad fakültəsinə daxil olmuşdur. 1965-ci ildə isə Azərbaycan XT İnstitutu təsis edilir. Bu zaman Universitetin bu fakültəsinin tələbələri buraya köçürülür. 1969-cu ildə İnstitutu bitirəndən sonra o, SSRİ Dövlət Bankının Azərbaycan kontorunun şəhər idarəsində iqtisadçı kimi əmək fəaliyyətinə başlayır. 1970-ci ildə ailə vəziyyəti ilə əlaqədar Zəngilan şəhərinə köçən Vəzifə Əhmədova Dövlət Bankının Rayon şöbəsində iqtisadçı kimi işini davam etdirir. 1978-1991-ci illərdə isə Rayon Bankına rəhbərlik etmişdir.

Sonrakı illərdə o, Zəngilan Rayon XDS İK-də sədrin müavini, İcra Hakimiyyətində baş iqtisadçı vəzifələrində çalışmışdır. 1992-ci ildən isə o, Vergilər idarəsinin rəisi olmuşdur. İki övladı var. (2006). V. Əhmədova hazırda təqaüddədir.

**Işğal ərəfəsində Vergi idarəsində işləyənlərin siyahısı**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Əhmədova Vəzifə Əli qızı | **Müdir** | |
| 2 | Kərimov Hüseyn Bəhlul oğlu | müavin | |
| 3 | Həsənova Aygün Həsən qızı | mühasib | |
| 4 | Cəfərov İbrahim Əli oğlu | | |
| 5 | Rəhimov Nəcəf Əvəz | | |
| 6 | Alməmmədov İsmayıl Allahverdi | | |
| 7 | Həsənov Mürsəl Şirin o | | |
| 8 | Nəzərəliyev Soltan Allahverdi | | |
| 9 | Qasımov Mikayıl Əliş | | |
| 10 | İskəndərov Şahin İskəndər | | |
| 11 | Orucov Füzuli Gülməmməd | | |
| 12 | İsmayılov Mehman Abdulla | | |
| 13 | Məmmədov Ziyad Zeynal | | |

**Əhalinin Sosial Müdafiə Mərkəzi.**

Bu təşkilat da Sovetlərin ilk idarələrindən hesab olunur. Xalq arasında ona «sobes» deyərdilər, yəni sosial təminat şöbəsi. Bu idarə əhalinin sosial təminatı ilə daha dəqiq desək pensiya, uşaq müavinətləri və digər sosial yardımlar təyin edərdi. Bu idarə mənim tanıdığım illərdə tunel deyilən binada fəaliyyət göstərirdi. Bu təşkilata uzun illər Ədil Məhərrəmov rəhbərlik etmişdir. Sonrakı illərdə Vəli Mustafa oğlu Mustafayev, Rzaxan Alı oğlu Rzayev, Şərif Cəbrayıl oğlu Bəşirov bu təşkilata rəhbərlik etmişlər. Özünün mövcud olduğu illərdə təşkilatın adı dəfələrlə dəyişdirilsə də fünksiyası sabit qalmışdır. İdarənin işğal dövründə müdiri Telman Məmməd oğlu Quliyev idi.

**Quliyev Telman Məmməd oğlu.**
***Əhalinin Sosial Müdafiə Mərkəzinin direktoru***

Quliyev Telman Məmməd oğlu 1960-cı ildə rayonun 30-cu kilometr (indiki Şərikan) kəndində anadan olub. Şayıflı kənd orta məktəbini bitirib. Sonralar Azərbaycan Xalq Təsərrüfatı Institutunu bitirən Telman Quliyev rayon İcraiyyə komitəsində iqtisadçı işləyib. 1993-cü ildə onu Əhalinin Sosial Müdafiə Mərkəzinə direktor təyin elədilər. 1996- cı ildə o, vəzifəsindən azad edildi və Nazirlikdə müvafiq işlə təmin olundu.

**Işğal ərəfəsində ƏSMM-də işləyənlərin siyahısı**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Quliyev Telman Məmməd oğlu | müdir | |
| 2 | Bəşirov Şərif Cəbrayıl oğlu | müavin | |
| 3 | Hacıyev Cəfər | mühasib | |
| 4 | Əziz | | |
| 5 | Münəvvər | | |
| 6 | Əsədova Zərqələm Rəsul qızı | | |
| 7 | Ramilə | | |
| 8 | Güllü | | |

**Zəngilan rayon tarix-diyarşünaslıq muzeyi**

Azərbaycanın səfalı güşələrindən olan, həm dağlı, həm də ki, aranlı, özünəməxsus təbiəti, iqlimi, xeyli təbii sərvətləri və tarixi memarlıq abidələri ilə yadda qalan Zəngilan rayonu 27 oktyabr 1993-cü ildə Ermənistan Respublikasının Silahlı Qüvvələri (ERSQ) tərəfindən işğal olundu. Tarixi boyu nəyi var idisə, darmadağın edildi.

İşğaldan əvvəl rayonda bir çox kənd təsərrüfatı və sənaye obyetktləri ilə yanaşı tarixi abidələri və xalqın keçmişini əks

etdirən muzeyləri də var idi. Bunlar rayon Tarix Diyarşünaslıq, Xalqlar Dostluğu və Daş Heykəllər Muzeyləri idi.

80-ci illərdə Azərbaycanın demək olar ki, bütün kənd rayonlarında tarix diyarşünaslıq muzeyləri yaradılması qərara alındı. Zəngilanda Tarix Diyarşünaslıq Muzeyi Azərbaycan KP MK Bürosunun 4 yanvar 1980-ci il tarixli qərarına uyğun olaraq yaradılmışdı. Muzeyin üç bölməsi var idi. Bunlardan 1-cisi bölgənin təbii sərvətlərini, flora və faunasını, 2-cisi tarixi keçmişimizi, 3-cü bölmə isə Sovet dövrünü əks etdirirdi.

Muzeydə tarixi keçmişimizi əks etdirən 5000-dən yuxarı eksponat toplanmışdı. Eksponatlar siyahısına müxtəlif etnoqrafiya, məişət əşyaları və sikkələr daxil idi. Rayondakı digər iki muzey bu muzeyin filialları idi. Onlardan biri Yuxarı Yeməzli (keçmiş Qarababa) kəndində olan qədim alban kilisəsində yaradılmış Xalqlar dostluğu muzeyi və yazı düzündə Bakıya gedən şose yolunun üstündə olan daş heykəllər muzeyi idi.

Muzeydə o dövrdə dəbdə olan xalqlar dostluğunu əks etdirən fotolar, məişət əşyaları, bəzək şeyləri və xəncərlər nümayiş olunurdu. Sayca 3-cü muzey 1989-cu ildə yaradıldı. Burada rayon ərazisində tapılmış və tariximizin qədimliyini əks etdirən qoç, qoyun, at, şir, heykəlləri, digər daş abidələr sərgilənirdi. Muzeyin həyətində isə açıq səma altında 20-dən çox eksponat-daş heykəllər sərgilənirdi. Muzeyin ilk direktoru Kərimov Alməmməd Məhəmməd oğlu olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il tarixli 298 saylı Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il tarixli Sərəncamları ilə təsdiq edilən əlavələrin müvafiq bəndlərinə uyğun olaraq Masazır qəsəbəsində əsasən Zəngilan rayonundan olan məcburi köçkün ailələri üçün yeni salınmış qəsəbədə Zəngilan rayon Tarix Diyarşünaslıq Muzeyinin fəaliyyəti bərpa olunmuşdur. Azərbaycan Respubliksının Prezidenti cənab İlham Əliyev 1 aprel 2013-cü ildə

muzeyin açılışında şəxsən iştirak etmişdir.

Hazırda Muzeydə rayon əhalisinin əvvəlki dövrlərdə həyat tərzini, məişət və mədəniyyətini əks etdirən əsas fonda daxil olan 287 ədəd eksponat vardır.

Zəngilan Tarix Diyarşünaslıq Muzeyi ilk olaraq rayon məktəbində bir otaqda yenidən öz fəaliyyətinə başlasa da, 1 sentyabr 2014-cü il tarixdə Zəngilan rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənovun köməkliyi ilə Muzey üçün 33 saylı Zəngilan rayon məktəbinin 1-ci mərtəbəsində xüsusi yer ayrılmışdır.

**Kərimov Alməmməd Məhəmməd oğlu.**

*Rayon tarix diyarşünaslıq muzeyinin ilk direktoru.*



Kərimov Alməmməd Məhəmməd oğlu 1928-ci ildə indiki Zəngilan rayonunun İçəri Müşlan kəndində anadan olub. İlk təhsilini Zəngilan kənd məktəbində alıb. Sonralar Bakı Ali Partiya məktəbini bitirən A.Kərimov uzun illər rayonda müxtəlif vəzifələrdə işləyib. O, müəllim, Rayon Partiya komitəsinin II katibi, Rayon Maarif şöbəsinin müdiri, rayon tarix diyarşünaslıq muzeyinin müdiri işləmişdir. Bir qızı, iki oğlu var.

Alməmməd Məhəmməd oğlu Kərimov rayonun işğalından əvvəl Zəngilan şəhərində vəfat etmişdir.

**Baytar müalicəxanası**

Baytar müalicəxanası da rayonumuzun ilk idarələrindən biridir. Bildiyiniz kimi Sovet hökuməti kənd təsərrüfatına xüsusu diqqət edirdi. Heyvandarlıq isə əsas sahələrdən hesab olunurdu. Heyvanların yoluxucu xəstəlliklərdən qorunmasına xususi diqqət verilirdi.

Bundan əlavə yerlərdə olan kolxoz və sovxozların da özünün baytar həkimləri və ya o sahəyə baxan mütəxəssisləri olurdu. Bu işə ümumi nəzarəti isə baytar müalicəxanası yerinə yetirirdi. Burada uzun müddət Bağırov Qubad baş həkim olub. Sonralar Allahverdi Ələkbərov işləyib.

**Ələkbərov Allahverdi İsfəndiyar oğlu**

*Rayon baytarlıq idarəsinin rəisi*



Ələkbərov Allahverdi İsfəndiyar oğlu 1936-cı ildə Zəngilan rayonunun Genlik kəndində anadan olub. 1945-1955-ci ildə Pirçivan kənd orta məktəbində oxuyub. Orta məktəbi bitirəndən sonra 1957-ci ildə Kirovabad (indiki Gəncə) şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Baytarlıq fakültəsinə daxil olub. 1962-ci ildə həmin İnstitutu baytarlıq ixtisası üzrə bitirib.

Institutu bitirəndən sonra rayona qayıtmış və 1962-ci ildə rayon Baytar müalicəxanasında əmək fəaliyyətinə başlamışdır. 1963-cü ildə epizodik həkim, 1963-cü ilin iyun ayında isə baş epizodik həkim təyin edilib.

1964-cü ildə Qubadlı kolxoz-sovxoz birliyinin yaranması ilə əlaqədar Allahverdi Ələkbərov böyük terapevt həkim ixtisası olduğu üçün stansiyaya böyük epizodik həkim təyin edilir.

1974-cü ildə onu Sovxoz İstehsalat birilyinə baş baytar həkimi, 1970-ci ildə isə böyük baytar həkimi təyin edirlər.

1980-ci ildə Allahverdi Ələkbərova böyük etimad göstərilir, onu rayon Baytar müalicəxanasına baş həkim təyin edirlər.

1977- ci ildə SSRİ Ali Soverti RH-nin 27 dekabr 1976-cı il tarixli fərmanı ilə «Əmək əlaçısı» medalı, 1978-ci ildə «Kommunist əməyi zərbəçisi», 1985-ci ildə isə XII beşilliyin zərbəçisi nişanları ilə təltif olunub.

Ələkbərov Allahverdi İsfəndiyar oğlu 1994-cü ilin fevralında Bakı şəhərində vəfat etmişdir. Ailəlidir, üç qızı, bir oğlu var.

Allah rəhmət eləsin.

**Əlifov Elbəyi Mehti oğlu**

*Rayon baytarlıq idarəsinin rəisi*



Əlifov Elbəyi Mehti oğlu 28 sentyabr 1955-ci ildə rayonun Məmmədbəyli kəndində anadan olub. 1962-1972- ci illərdə Məmmədbəyli kənd orta məktəbində oxuyub. 1972- ci ildə M.B.Vəzirov adına Şuşa Kənd Təsərrüfatı Texnikumuna daxil olub. 1975-1977-ci illərdə Sovet Ordusunda xidmətdə keçib. 1977- ci ildən Zəngilan rayon heyvan Xəstəlikləri ilə Mübarizə Stansiyasında etimoloq həkim, 1980-ci ildən 1988-ci ilə kimi Zəngilan rayon Heyvandarlıq Sənaye Birliyində baş baytar həkimi işləyib. 1986-1992-ci illərdə Gəncə şəhərindəki Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında oxuyub. 04 mart 1994- cü ildən Rayon Baytarlıq idarəsində rəis işləyir. Ailəlidir, üç övladı var.

**Işğal ərəfəsində Baytar müalicəxanasında işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Ələkbərov Allahverdi İsfəndiyar o | baş həkim | |
| 2 | Bağırov Şamı Kərim o | mühasib | |
| 3 | Yəhya | | |
| 4 | Şirin (Keçiklidən) | | |
| 5 | Rzayev Qanvoy | | |
| 6 | Əsgərov Bilal | | |
| 7 | Seyid Yəhya | | |
| 8 | | | |

## Dəmiryolu vağzalı.

Şəhərimizdə dəmiryolu müharibə illərində istismara verilsə də burada qatarlar dayanmadan keçərdi. O zaman bu məsələlərə Culfa Dəmiryolu stansiyası baxırdı. Zəngilan rayon İcraiyyə Komitəsi dəfələrlə burada bir dayanacaq açılmasına və eyni zamanda da stansiya tikilməsinə icazə verilməsi barədə müraciət etsə də iş uzanırdı. 50–ci illərdə burada indiki Vağzaldan bir qədər cənubda, kolxoz Tikinti idarəsinin qarşı tərəfində taxtadan bir dayanacaq tikildi və qatarlar 2 dəqiqə burada dayandı. Nəhayət, 1960-cı ildə şəhərimizdə indiki Vağzal binası tikilib istifadəyə verildi. Ötən illər ərzində vağzal binası öz əvvəlki görkəmini saxlamaqla bərabər ətrafında yardımçı binalar da inşa edilmişdir. Mənim xatırladığıma görə burada Sürəyya xanım, Əsgər əvvəllər stansiya rəisi olublar. İşğal zamanı Vağzalın rəisi Fərhad Bağırov idi.

## Dəmiryolu vağzalına əlavə.

Vağzal alman dilçisi Maks Fasmerin fikrinə görə ilk variantda «Fokzal» olub. O, «Voksxoll» sözündən yaranıb. Bu, London ətrafında XVIII əsrdə Ceyn Voksa məxsus malikanənin adındandır. Digər bir fərziyyəyə görə isə XIX əsrdə parklarda estradalar kurzal adlanırdı. Sonralar çox insan olan yerlərə vağzal deyiblər. Rusiyada ilk vağzal 1827-ci ildə Peterburqda, Azərbaycanda isə ilk vağzal 1880-1883 –ci illərdə tikilən Sabunçu vağzalıdır. Zəngilanda isə ilk vağzal 1960-cı ildə tikilib.

Tarixdən məlumdur ki, Rusiya imperiyası Osmanlı imperiyası ilə dəfələrlə müharibə etmiş və demək olar ki, hamısında qalib çıxmışdır. Amma Rusiya bununla yenə də kifayətlənmir və hər zaman Osmanlı və Səfəvilərlə müharibəyə hazırlaşırdı. Bu məqsədlə də XIX əsrin ikinci yarısında kapitalizmin sürətlə inkişafı nəticəsində ilk dəmiryolları salındı. İlk dəfə olaraq 1830-cu ildə İngiltərədə salınan dəmiryolu xətləri tezliklə dünyaya

yayıldı. Rusiyada isə dəmiryolu 1838- ci ildə çəkilir.

Qacar dövləti (o vaxtlar İran termini yox idi) və Osmanlılarla müharibə olacağı təqdirdə Rusiya cəld və çevik hərəkət etmək məqsədi ilə sərhəd boyu dəmiryolu xəttininin çəkilişinə başlayır. Bakıdan Tiflisə çəkilən bu xətt 1881-ci ildə istifadəyə verildi.

1880-ci ildə Uluxanlı Culfa xətti istismara verilir. Ələtdən Mincivana çəkilən xətt isə bir qədər rahat olduğundan tez istifadəyə verildi. 1936-cı ildə Ələt-Mincivan, 1941-ci ildə isə Culfa Mincivan xətləri istismara açıldı. Həm Ələtdən, həm də ki, Culfadan eyni vaxtda Mincivan istiqamətində iş gedirdi. Qısa olmasına baxmayaraq Culfa-Mincivan xətti 5 il gec istifadəyə verildi. Səbəbi o idi ki, bu ərazi xeyli dağlıq idi və iş olduqca ağır gedirdi. 1932-ci ildə eyni zamanda Mincivandan Qafana da bir xətt çəkilir. Bu xətti çəkməkdə hökumətin məqsədi Qafan və Qacaranda çıxan filizləri daşımaq üçün idi. İlk dövrlərdə bu yolda ancaq yük qatarları hərəkət edirdi. Sonralar əhalinin tələbi ilə burada iki sərnişin qatarının da xəttə buraxılması qərara alınır. İlk illərdə qatarlar Zəngilanda dayanmaz, birbaşa Qafana gedərdi. Zəngilan rayon rəhbərliyinin dəfələrlə Culfa lokomotiv deposuna yazdığı məktublardan sonra qatarların Zəngilanda dayanmasına icazə verilir.

Zəngilandaki vağzalın üzü günçıxana idi. Onun bir böyük gözləmə zalı və bir neçə xidməti otaqları var idu Həmin otaqlarda vağzalın növbətçi otağı, kassası və digər xidməti otaqlar movcud idi. Vağzalın şimal tərəfində isə dəmiryolu yeməkxanası yerləşirdi. Vağzalın həm ön, həm də ki, arxa tərəflərindən böyük giriş qapıları var idi. 1993-cü ildən vağzal fəaliyyətsiz qalmış və yararsız hala düşmüşdür.

Bəzən deyirlər ki, şəhərlərə giriş vağzaldan başlanır. Bizim rayonumuz sözün həqiqi mənasında əhəmiyyətli bir yerdə yerləşirdi. Qeyd edildiyi kimi rayon ərazisində suyu qurumayan 4 çay axır. Bunların vadisi tarixən karvan yolları olub. Eyni zamanda rayon ərazisindən çox mühüm dəmiryolu xətti keçirdi. Bu xətt paytaxtımız Bakını Naxçıvanla, qədim yurdumuz olan

İrəvanla birləşdirirdi. Rayon əhalisinin Bakıya və İrəvana gedib gəlməsi o qədər rahat idi ki, heç bir narahatlıq keçirmirdin. Axşam vaqona minib evindəki kimi yatıb tezdən Bakıya çatırdın. Bakıdan da axşam qatara minib yatar və tezdən evində olardın. İrəvana da eyni cür rahat gedib- gəlmək olardı.

Rayonumuzun qəsəbəsi və eyni zamanda Azərbaycan dəmiryolunun bu istiqamətdə ən böyük stansiyalarından hesab olunan Mincivandan Qafana bir xətt çəkiləndən sonra rayonumuzun ərazisində də dəmiryolu vağzalları inşa olundu.

Sonrakı illərdə əhalinin tələbləri nəticəsində Mincivandan Qafana həm əhalinin istifadə etməsi üçün iki ədəd sərnişin vaqonu ayırdılar və eyni zamanda da stansiya tikdilər. Sonrakı illərdə Şayıflıda da stansiya inşa edildi.

**Bağırov Fərhad Süleyman oğlu**

*Zəngilan dəmiryolu vağzalının rəisi*



Bağırov Fərhad Süleyman oğlu 25 sentyabr 1962- ci ildə rayonun Keçikli kəndində anadan olub. 1980- ci ildə 1 saylı şəhər orta məktəbini, 1983- cü ildə isə Bakı dəmiryolu texnikumunu bitirib. Sonra o, 1983-1985–ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmət keçib. 1983-cü ildə Azərbaycan dəmiryolunun Mehri stansiyasında əmək fəaliyyətinə başlayan Fərhad 1988-ci ildə Zəngilan şəhər dəmiryolu stansiyasına rəis təyin olunub. 1987-1992-ci illərdə Rostov şəhər dəmiryolu İnstitutunu qiyabi olaraq bitirib.

Rayonun işğalından sonra Bakı metropolitenində işləməyə başlayan Fərhad metronun «İnşaatçılar» stansiyasına rəis təyin olunub. Sonra o, 2000-2002-ci illərdə Mertopolitenin hərəkət xidmətinin rəisi, 2002-ci ildə isə metronun «İnşaatçılar» və «**Memar Əcəmi**» stansiyalarının rəisi işləyib. 2016-cı ildən «**28**

**May**» stansiyasının rəisidir. Ailəlidir, bir qızı, bir oğlu var.

**Işğal ərəfəsində dəmiryolu Vağzalında işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Bağırov Fərhad Süleyman oğlu | **Rəis** | |
| 2 | Məmmədov Surxay | kassir | |
| 3 | Qasım kişi (Qıraq Müşlandan) | | |
| 4 | İsmayıl (Alıbəylidən) | | |
| 5 | Qurban | | |
| 6 | Tuqay-Sarıqışlaqdan | | |
| 7 | | | |
| 8 | Cəbrayilov Seyfəl Xanlar | kassir | |

**13 saylı Tikinti idarəsi**

Bu tikinti təmir idarəsi «Azərittifaqın» tabeliyində idi və rayonlarda bu təşkilat mağazalar, pavilyonlar, restoranlar və s inşa edirdi. Bu təşkilatın ilk müdiri Kərimov Namaz olub. Sonra burada Məmmədov Yusif İsa oğlu, Qarayev Məhəmmədəli Qüdrət oğlu işləyib. İşğal zamanı idarənin müdiri Həsənov Mürvət Hüseyn oğlu idi.

**Həsənov Mürvət Hüseyn oğlu (1953-2016)**



Həsənov Mürvət Hüseyn oğlu 24 may 1953-cü ildə Pirçivan kəndində anadan olub, 1961-1971-ci illərdə şəhər 1 saylı orta məktəbində oxumuşdur. Sonra Bakı Politexnik Texnikumunu bitirmiş, rayonda SU-33, SU-65 və SU-13 adlı tikinti idarələrində iş icraçısı olmuşdur. 1991- ci ildən isə rayonun işğalına

kimi 13 saylı tikinti idarəsinin müdiri işləyib.

Yoldaşı Hüseynova Nərgiz Müzəffər qızı əslən Mincivan qəsəbəsindəndir. Onlar 1979–cu ildə evlənmişlər və Hüseyn (uşaqları Arda, Aysu), Elnarə (uşaqları-Nihad, Məhəmməd) və Elnur (uşaqları-Mürvət, Həsən) adında üç övladları var.

Həsənov Mürvət Hüseyn oğlu 2016-cı Bakı şəhərində vəfat etmişdir.

**Işğal ərəfəsində 13 saylı TTİ--də işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Həsənov Mürvət Hüseyn oğlu | müdir | |
| 2 | Qulu | | |
| 3 | Davudov Davud | mühasib | |
| 4 | Vaqif | anbardar | |
| 5 | Vaqif Nəbiyev | sürücü | |
| 6 | Əsədov Çingiz | buldozer | |
| 7 | Adışirin | | |
| 8 | | | |

## Rayon İcra Hakimiyyəti

Sovetlər dövründə hər şeyə partiya nəzarət edirdi. Partiyanın üzvü olmayan vəzifə sahibi ola bilməzdi. Hətta ən kiçik bir idarəyə belə partiya üzvü olmayan kimsəni müdür təyin etməzdilər. Sovetlərin tarix səhnəsindən getməsi ərəfəsində Partiya rəhbərliyindən imtina edildi. Bunu Qorbaçov elədi. Sonra isə partiya komitələri əvəzinə İcra strukturu yaradıldı. İndi yerlərdə hakimiyyət funksiyasını İcra Hakimiyyətləri həyata keçirir.

Bu bina Sovet hakimiyyəti illərində rayon Partiya Komitəsi üçün inşa edilən ikinci bina idi. Bu illərdə rayonumuzda zəlzələ baş verdiyindən mərkəzdən rayonumuza xeyli tikinti materialları ayrılmışdır. Bu səbəbdən də 80-ci illərdə şəhərimizdə xeyli tikinti və abadlıq işləri görüldü. Rayon Partiya Komitəsinin, ticarət mərkəzinin, Rayon İcraiyyə Komitəsinin binası, mədəniyyət

sarayı, mərkəzi xəstəxana kompleksi və s. inzibati binalar bu səbəbdən inşa olundu. Rayon Partiya Komitələrinin ləğvindən sonra burada RİH yerləşdi. Binada ilk dəfə Tofiq Mehtiyev I katib kimi işlədi. İşğal dövründə Rayon İcra Hakimiyətinin başçısı İlham Cabbar oğlu Hüseynov idi.

**İlham Cabbar oğlu Hüseynov**

*Rayon İcra Hakimiyyətinin başçısı*



Ilham Cabbar oğlu Hüseynov 12 iyun 1954-cü ildə Zəngilan rayonunun Canbar kəndində ziyalı ailsində anadan olmuşdur. 1969-cu ildə Şayıflı kənd məktəbinin 8-ci sinfini, 1971-ci ildə isə Zəngilan şəhər orta məktəbini bitirmişdir. Orta məktəbi bitirəndən sonra bir müddət istehsalatda çalışmış, 1973-1975-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur.

Hərbi xidmətini başa vurduqdan sonra 1976-cı ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş, 1983-cü ildə ali məktəbi bitirərək müalicə həkimi ixtisası üzrə diplom almışdır.

Ali məktəbdə oxuya-oxuya 1980-ci ildə Bakı şəhər Səhiyyə sistemində feldşer kimi işə başlamışdır. 1984-ci ildən isə Sumqayıt şəhər Səhiyyə şöbəsində həkim, terapiya şöbəsinin müdiri, baş həkimin müalicə işləri üzrə müavini işləmişdir. İlham Hüseynov eyni zamanda tibb məktəbində də dərs demişdir. 1992-ci ildə onu Bakı şəhəri Nəsimi rayon Səhiyyə şöbəsinə müdir təyin edirlər.

Ilham Hüseynova 1993-cü ildə daha böyük bir etimad göstərilir. Onu Ermənistan Silahlı qüvvələri ilə ölüm-dirim savaşına qoşulan Zəngilan rayonuna İcra Hakimiyyətinin başçısı təyin etdilər. Zəngilanla qonşu olan Qubadlı, Cəbrayıl rayonları işğal olunmuş Zəngilan rayonu demək olar ki, ölkənin qərbində mühasirə vəziyyətində qalmışdı. Bütün səylərə baxmayaraq

zəngilanlılar da rayondan çıxmalı oldular. Çünki Horadiz-Bakı şose yolunun oktyabrın 23-də bağlanmasından sonra Zəngilan mühasirəyə düşdü.

Rayonun 32.600 nəfər əhalisi qonşu İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan ərazisinə daxil oldu. İran ərazisindən keçib getmək Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin İran İslam Respublikasının prezidenti Rəfsəncani ilə danışıqları nəticəsində mümkün oldu. Eyni zananda Heydər Əliyev Araz çayının suyunun da azaldılmasına nail oldu ki, bunun da nəticəsində əhali çayı nisbətən rahat keçdi. Əks halda ölüm-itim çox olardı.

Ilham Hüseynov 1995-ci ilin may ayına kimi rayon İcra Hakimiyyətinin başçısı işlədi.

Vəzifəsindən azad olunduqdan sonra yenə öz ixtisası üzrə əmək fəaliyyətini davam etdirir. Ailəlidir, 3 övladı var.

**Işğal ərəfəsində rayon İH-də işləyənlərin siyahısı**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Hüseynov İlham Cabbar oğlu | | |
| 2 | Cəbrayıova Zoya Hüseyn qızı | | |
| 3 | Qəhrəmanov Məhiyəddin | | |
| 4 | Əsgərov Nizami | | |
| 5 | Məmmədov Ağamirzə | | |
| 6 | Əhmədov Əli | | |
| 7 | Abdullayev Ədalət | | |
| 8 | Əliyev Qənbər | | |
| 9 | Həmzəyeva Zərifə | | |
| 10 | Rzayev Ədalət | | |
| 11 | Atlıxanov Əşrəf | | |
| 12 | Fərmanov Aftandil | | |
| 13 | Əsədova Əminə | | |
| 14 | Məmmədova Nüşabə | | |

## Rabitə qovşağı

Qeyd etdiyim kimi Rabitə Qovşağı rayon qonaq evi ilə bir binada yerləşirdi. Yerləri həddən artıq darısqal idi. Bu səbəbdən də 70-ci illərdə rayon Rabitə Qovşağı üçün yeni üçmərtəbəli inzibati bina inşa edildi. Bu bina şəhərimizdə tikilən ilk üçmərtəbəli bina oldu. Buna qədər şəhərimizdə üçmərtəbəli bina yox idi. Rayonun işğalı ərəfəsində Rabitə Qovşağına Məmmədov Zakir Məhəmməd oğlu rəhbərlik edirdi.

**Məmmədov Zakir Məhəmməd oğlu**
*Rabitə Qovşağının müdiri*

Məmmədov Zakir Məhəmməd oğlu Zəngilan qəsəbəsində anadan olub. Zəngilan şəhər orta məktəbində oxuyub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və oranı bitirmişdir.

Ali məkrtəbi bitirdikdən sonra rayona gələn Z.Məmmədov rayon Rabitə Qovşağında əmək fəaliyyətinə başlayıb. 1988-ci ildən isə Rabitə Qovşağının müdiri vəzifəsində işləyir.

**Işğal ərəfəsində rayon RQ-da işləyənlərin siyahısı**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Məmmədov Zakir Məhəmməd oğlu | müdir | |
| 2 | Məmmədov Cəfər Əbülfəz oğlu | mühasib | |
| 3 | Əsgərov İsmayıl | Mühəndis | |
| 4 | Əhmədov Famil | montyor | |
| 5 | Qüdrət Xəlilov | | |
| 6 | Abbasov Fərman | teleqraf | |
| 7 | Sarabəyim Ağayeva | | |
| 8 | Nataşa Bağırova | poçtalyon | |
| 9 | Xəlilov Qüdrət | | |

| | | | |
|---|---|---|---|
| 10 | Fatan | | |
| 11 | Babaşov Məhəmməd | | |
| 12 | İsmayılov Yavər | | |
| 13 | Bahar Əhmədova | telefonçu | |
| 14 | Məmmədov Heydər | montyor | |
| 15 | Abbas Abbasov | | |
| 16 | Abdullayev Murtuza | | |
| 17 | Əliyev İxtiyar | kassir | |
| 18 | Qurban | | |

## Şəhərimizin ilk orta məktəbi

Biz zəngilanlilar üçün çox doğma olan bu məktəb 1929-cu ildə açılıb. Əvvəllər 7 illik məktəb kimi fəaliyyətə başlayan məktəb sonralar 10 və 11 illik məktəbə çevrilib. İlk illərdə məktəb yararsız binalarda fəaliyyət göstərmişdir. Bizim bir çoxumuzun oxuduğu o bir mərtəbəli orta məktəb 1935-ci ildə tikilib. Məktəbin girişində böyük bir heykəl var idi. 1961-ci ildə I sinfə gedəndə biz bu heykəlin yanından keçərək siniflərə daxil olardıq. Heykəlin hər iki təfəfindən keçid var idi. O zaman mən bunun kim olduğunu bilmirdim. İkinci sinfə gedəndə gördüm ki, heykəl yoxdur. Sonralar öyrəndim ki, Partiyanın XXII qurultayından sonra Stalinin bütün heykəlləri yığışdırldı, o cümlədən, bizim məktəbin girişindəki o azman heykəl də.

Düz 30 il bu binada fəaliyyət göstərən məktəb üçün 1964-cü ildə yeni bina tikməyə başladılar. Bu yeni binada da Zəngilan 1 saylı orta məktəbi təxminən 30 ilə yaxın -1993-cü ilə kimi fəaliyyət göstərdi. Köhnə məktəbin şərq tərəfində böyük bir bağ var idi. Burada demək olar ki, bütün meyvələr yetişdirilirdi. Həmin məktəbin cənub qərb tərəfində, yəni yeni məktəbin yerində isə qəsəbə stadionu yerləşirdi. Bu illər ərzində məktəbin bir çox direktoru və yüzlərlə müəllimi olmuşdur

Burada biz tanıdıqlarımız və adlarını öyrənə bildiklərimiz

barədə sizə məlumat veririk. İndi onların əksəriyyəti dünyasını dəyişmişdir. Onlara Allahdan rəhmət, qalanlara isə can sağlığı diləyirik Şəhərimizdəki məktəblərin flaqmanı olan 1 saylı orta məktəbin bu yeni binasının tikintisinə 1964-cü ildə başlanılmış və 1967-ci ildə istifadəyə verilmişdir. Mənə də bu məktəbdə iki il oxumaq nəsib olub.

Məktəbin məzunlarından polis polkovnikləri Faiq Kərimovu, Ənvər Həsənovu, polis podpolkovniki Maya Bəylər qızı Təhməzovanı, polis mayorları Əli Məmədyarovu, Rövşən Hüseynovu. tibb xidməti polkovniki Nəsir Hüseynovu, tibb xidməti podpolkovniki Sərdar İsmixanovu, ilk Zəngilanlı xalq hakimi Rəşid Hüseyn oğlun Məmmədovu, Ordubad rayonunda hərbi komissar işləmiş Rəşid Soltan oğlu Heydərlini, prokuror işləmiş Rəsul Məmmədalı oğlu İmaməliyevi, elmlər namizədləri Dilavuz Davud qızı Həsənovanı, Hüseynova Səadət Arif qızını, tibb elmləri namizədi Allahverdiyeva Liliana Bəhmən qızını, iqtisad elmləri namizədi Azadov Eldar Həsənxan oğlunu, və. s qeyd edə bilərik. İşğal zamanı məktəbin direktoru Arif Abdulla oğlu Əhmədov idi.

## Zəngilan şəhər qiyabi orta məktəbi

Şəhərimnizdəki əsas məktəblə yanaşı qiyabi axşam orta məktəb də var idi. Burada nisbətən yaşlı adamlar təhsil alırdılar. Bu məktəbin direktorlarından aşağıdakıları qeyd etmək olar. Məktəb 1992-ci ilə kimi fəaliyyətdə oldu

## Zəngilan qiyabi orta məktəbin direktorları

Kərimov Heydərqulu Qibləli oğlu
Alıyev Məhərrəm –Məhərrəm Mahi
Orucov Zalı Ələkbər oğlu
Hacıyev Tofiq Rzaqulu oğlu
Allahverdiyev Firudin Nuru oğlu

Rzayev Əmir Cəbrayıl oğlu -Hacallı
Süleymanov İsmayıl Süleyman oğlu
İsmayılov Sabir Əmirxan oğlu
Kərimov Heydərqulu Qibləli oğlu- ikinci dəfə
Fərmanov Aftandil Məmmədrza oğlu
Bağırov Asif Kərim oğlu-sonuncu

**Kərimov Heydərqulu Qibləli oğlu**

*Zəngilan rayon qiyabi axşam orta məktəbin direktorlarından*

(Heydərqulu müəllim barədə yuxarıda məlumat vermişik.)

**Alıyev Məhərrəm Mahi**

*Zəngilan rayon qiyabi axşam orta məktəbin direktorlarından*



Alıyev Məhərrəm Rzaqulu oğlu 1924-cü ildə indiki Zəngilan rayonunun Quyudərə Xəçtab kəndində anadan olub. 1952-ci ildə ali məktəbi bitirən Məhərrəm Rzaqulu oğlu Qubadlı və Zəngilan rayonlarında müəllimlik etmişdir. Müəllimliklə bərabər o, uzun illər ərzində Zəngilanda nəşr olunann «Kənd Həyatı» qəzetində əməkdaşlıq etmiş yüzlərlə şeiri çap olunmuşdur. Onun şeirlərini demək olar ki, çoxumuz əzbər bilirik. Onun bir neçə kitabı da nəşr olunub. Məhərrəm Alıyev bizlərə Məhərrəm Mahi kimi tanışdır.

O, rayonun işğalından sonra Bakı şəhərində məskunlaşmış və burada da dünyasını dəyişmişdir.

**Orucov Zalı Ələkbər oğlu**

*Zəngilan rayon qiyabi axşam orta məktəbin direktorlarından*

Orucov Zalı Ələkbər oğlu 1930-cu ildə Zəngilan rayonunun Tatar (Cahangirbəyli) kəndində anadan olub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirib. Uzun illər Zəngilan şəhər 1 saylı orta məktəbində ədəbiyyat fənnindən dərs demişdir.

Zalı Ələkbər oğlu Orucov bir neçə il Zəngilan şəhərində fəaliyyət göstərən qiyabi orta məktəbə rəhbərlik etmişdir.

Rayonun işğalından sonra Zalı müəllim məskunlaşdığı Bakı şəhərində vəfat etmişdir.

**Hacıyev Tofiq Rzaqulu oğlu**

*(T.Hacıyev barədə kitabımızda yazı var. )*

**Allahverdiyev Firudin Nuru oğlu (1921-2007)**

*Zəngilan rayon qiyabi axşam orta məktəbin direktorlarından*

*Üç Ordenli keçmiş döyüşçü*



Firudin Nuru oğlu Allahverdiyev 1921-ci ildə Zəngilan rayonunun Alıbəyli kəndində anadan olmuşdur.

Firudin müəllim uzun müddət Zəngilan şəhər 1 saylı orta məktəbində şagirdlərə hərbi hazırlıq dərsi demişdir. O öz hərbi biliyini gənc nəslə aşılamaq üçün əlindən gələni əsirgəmirdi.

Böyük Vətən Müharibəsi illərində uzun bir döyüş yolu keçmiş Firudin Allahverdiyev Novorossiysk şəhəri uğrunda gedən döyüşlərdə Qırmızı Ulduz, Kiyev şəhərinin

azad olunmasında göstərdiyi qəhrəmanlığa görə isə I dərəcəli, Praqanın azad olunmasında göstərdiyi qəhrəmanlığa görə isə II dərəcəli Böyük Vətən müharibəsi Ordeni ilə təltif olunmuşdur.

Firudin müəllim 2007-ci ildə dünyasını dəyişmidir.

**Rzayev Əmir Cəbrayıl oğlu (1932-2008)**

*Zəngilan rayon qiyabi axşam orta məktəbin direktorlarından*



Rzayev Əmir Cəbrayıl oğlu 25 oktyabr 1932-ci ildə Zəngilan rayonunun Hacallı kəndində anadan olub. Hacallı kənd orta məktəbini bitirən Əmir Cəbrayıl oğlu 1950-ci ildə o vaxtkı V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olub. 1954-cü ildə ali məktəbi bitirdikdən sonra rayona qayıtmışdır.

Rzayev Əmir Cəbrayıl oğlu müxtəlif məktəblərdə tarix fənnini tədris etmişdir. Sonrakı illərdə o, Zəngilan rayon Qiyabi axşam orta məktəbində direktor, rayon Maarif şöbəsində baş metodist işləmişdir. Bundan sonra o öz kəndinə qayıtmış və burada rayonun işğalına kimi kənd orta məktəbinin direktoru işləmişdir.

Rzayev Əmir Cəbrayıl oğlunun 6 qızı, bir oğlu var. O, 18 may 2008- ci ildə Bakı şəhərində vəfat etmişdir.

**Süleymanov İsmayıl Süleyman oğlu (1945-2002)**

*Zəngilan rayon qiyabi axşam orta məktəbin direktorlarından*



Süleymanov İsmayıl Süleyman oğlu 1945-ci ilin 20 dekabrında Zəngilan rayonunun Bartaz kəndində anadan olub. İlk təhsilini Zəngəzur mahalının Mehri rayonunun Əlidərəsi kəndində alıb. 1963-cü ildə o vaxtkı V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutuna daxil olub, 1970-ci ildə oranı bitirib. 1970-1976-cı illərdə Malatkeşin kənd 8 illik məktəbində biologiya müəllimi işləyib. Süleymanov İsmayıl Süleyman oğlu 1976-1978-ci illərdə Zəngilan rayon qiyabi axşam orta məktəbin direktoru işləyib. 1978-ci ildən isə Gənc təbiətçilər stansiyasının direktoru təyin edilib. O, ömrünün sonuna kimi bu vəzifədə işlədi.

Süleymanov İsmayıl Süleyman oğlu 2002-ci ilin 20 sentyabrında Bakı şəhərində vəfat etmişdir. Həyat yoldaşı Əhmədova Vəzifə Əli qızı rayonumuzun ziyalı qadınlarındandır. Onların bir oğlu, bir qızı var. Oğlu ali təhsilli həkim, qızı isə ali təhsilli müəllimədir.

**İsmayılov Sabir Əmirxan oğlu**

*Zəngilan rayon qiyabi axşam orta məktəbin direktorlarından*

İsmayılov Sabir Əmirxan oğlu 1952-ci ildə Zəngilan rayonunun Pirçivan kəndində doğulub. Zəngilan qəsəbə orta məktəbini, sonra isə Naxçıvan Dövlət Pedaqoji İnstitutunu bitirib. Ali məktəbi bitirdikdən sonra bir müddət müəllimlik edən Sabir İsmayılov sonra Bürünlü kənd 8 illik məktəbin direktoru, bir neçə çağırış Canbar kənd XDS İK-nin sədri işləmişdir. O eyni zamanda bir neçə il Zəngilan rayon Qiyabi otra məktəbinin direktoru olmuşdur.

**Fərmanov Aftandil Məmmədrza oğlu (1950-2007)**

*Zəngilan rayon qiyabi axşam orta məktəbin direktorlarından*



Fərmanov Aftandil Məmmədrza oğlu 05 fevral 1950-ci ildə Zəngilan rayonunun Ördəkli kəndində anadan olub. Ilk təhsilini kənd məktəbində alan Aftandil Fərmanov sonra Zəngilan şəhər orta məktəbini bitirib. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub. Ali məktəbi bitirdikdən sonra bir müddət Ağbənd kənd məktəbində işləyib. Sonra isə Zəngilan qiyabi orta məktəbinin direktoru olmuşdur.

1992-ci ildə isə Rayon İcra Hakimiyyətinə işə keçmişdir. Fərmanov Aftandil Məmmədrza oğlu işğaldan sonra 17 may 2007-ci ildə Bakı şəhərində vəfat etmişdir.

**Bağırov Asif Kərim oğlu**

*Zəngilan rayon qiyabi axşam orta məktəbin direktorlarından*
*Asif müəllim barədə kitabımızda məlumat verilib.*

**Prokurorluq**

Sovet dönəminin ən mühüm təşkilatları Rayon Partiya Komitələri, XDS-ri, Milis şöbəsi, Prokurorluq, Xalq məhkəmələri və s. idi. Bunların hörmətini və nüfuzunu kimsə inkar edə bilməzdi. Rayon İcraiyyə Komitələri yerli hökumət olsalar da əsas siyasi hakimiyyət Partiya Komitəsinin əlində idi Bu səbəbdən RİK-lərin o qədər də nüfüzu yox idi. Rayon prokurorluğu əvvəllər şəhərin lap mərkəzində köhnə milis şöbəsinin yanında yerləşirdi. 80-ci illərdə prokurorluq üçün də yeni inzibati bina inşa edildi. Köhə binanı isə rayon Əmanət kasasına verdilər. Yeni bina şəhərin cənub-qərb tərəfində, Rayon mərkəzi xəstəxanasına gedən yolun sağında idi. İşğal dövründə rayon prokuroru Səyyad Qubadov idi.

**Qubadov Səyyad**

*Rayon prokuroru*

İşğal ərəfəsində Zəngilan rayon prokuroru vəzifəsində Qubadov Səyyad işləyirdi.

## Kitab mağazaları.

Son dövrlərə kimi kitab mağazası kimi fəaliyyət göstərən bu bina əvvəllər mərkəzi univermaq olub. Burada paltarlar, ayaqqabılar, zərgərlik məmulatları və dişər geyimlər satılırdı. Univermaq üçün yeni bina tikiləndən sonra bura kitab mağazası oldu. 1988-ci ildə park tikintisi ilə əlaqədar bu bina da söküldü. Bu mağazada uzun müddət Nəcəfov Bəhram işləmişdir. Çoxları bunu Bəhramın kitab mağazası kimi tanıyır.

## İlk Mehmanxana binası

Sovet hökumətinin lap elə ilk illərindən yeni təşkil olunan rayon mərkəzlərində ilk növbədə qonaq evlərinin tikintisinə başlanıldı. Məsələ belə idi ki, yeni sistemin qayda–qanunlarını yerlərdə yaymaq, siyasi iş aparmaq üçün həmin yerlərə müntəzəm olaraq mərkəzdən siyasi rəhbərlər ezam olunurdu. Onların orada müəyyən müddət qalması və siyasi təbliğat aparması üçün yer lazım idi. Bu səbəbdən də ilk növbədə qonaq evlərinin tikintisinə başlanıldı.

Şəhərimizdə ilk mehmanxana və yaxud da qonaq evi son illərdəki Xalq məhkəməsinin inzibati binası olub.

Keçən əsrin altmışıncı illərində Lenin küçəsindəki bina tikilimişdi. Bu binanın bir hissəsi mehmanxana, bir hissəsi Rayon Rabitə Qovşağı, bir hissəsi isə yeməkxana kimi istifadə olunurdu. Kababçı Mehtiqulu uzun illər burada gələn qonaqlara yemək bişirmişdi. Yeni mehmanxanaya tələbat günü–gündən artırdı. Bu

səbəbdən də 80-ci illərdə yeni mehmanxana tikildi, əhalinin və qonaqların istifadəsinə verildi.  Mehmanxananın müdiri Qəribov Rafiq idi.

Sovet hakimiyyəti zamanında şəhərimizdə tikilən yaraşıqlı binalardan biri də Mehmanxana  idi. 1960-cı ildə tikilib. 32 yerlik olan bu bunanın bir hissəsi qonaq evi kimi istifadə olunurdu. Mərkəzdən gələn yüksək vəzifəli qonaqlar  xüsusi otaqlarda qalardılar. Binanın bir hissəsi isə yeməkxana kimi istifadə olunurdi. Müasir dillə desək Restoran kimi. Mehmanxanaya gələnlərə Mərcan xala iaşə xidməti göstərirdi. Binanın bir hissəsində isə Rayon Rabitə Qovşağı yerləşirdi.

70-ci illərdə Rabitə Qovşağı üçün, 80-ci illərdə isə yeni müasir tipli Mehmanxananın inşasından sonra bu bina Rayon VVAQ (Vətəndaşlıq Vəziyyətləri Aktı Qeydiyyatı) idarəsinə verildi və eyni zamanda «Səadət sarayı» kimi də istifadə olundu. Rayon VVAQ şöbəsinin müdüri Fərəcova Roza Soltan qızı idi.

**Fərəcova Roza Soltan qızı**

*Rayon VVAQ şöbəsinin müdüri*



Fərəcova Roza Soltan qızı 01 aprel 1950-ci ildə rayonun İçəri Müşlan kəndində anadan olub. 1956-cı ildə Pirçivan kənd orta məktəbinin I sinfinə getmiş, 1966- cı ildə isə Zəngilan qəsəbə orta məktəbini bitirmişdir. Roza xanım 1967-ci ildə Bakı Mədəni-Maarif texnikumunun xor dirijorluğu fakültəsinə daxil omuş, 1970-ci ildə oranı bitirmişdir.

Sonra o, 1970–ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan şöbəsinin tarix fakültəsinə daxil omuşdur. Burada iki il oxuduqdan sonra təhsilini qiyabi şöbəyə çevirərək rayonda əmək fəaliyyətinə başlamışdır.

O, 1971- ci ildən 1985- ci ilə kimi Zəngilan rayon 7 illik

musiqi məktəbində müəllimə işləmişdir.

Roza xanım bu arada yəni 1973-1976–cı illərdə Bakı şəhərindəki Zaqafqaziya komsomol məktəbində də oxumuşdur. 1976-cı ildə Naxçıvan Pedaqoji İnsititutunu bitirmişdir.

Roza Fərəcovaya 1985- ci ildə böyük etimad göstərilmiş və o, rayon Partiya Komitəsinə işə dəvət edilmişdir. O, 1985-1989- cu illərdə burada təbliğat-təşviqat şöbəsində təlimatçı vəzifəsində çalışmışdır.

1989 –cu ilin fevralinda isə onu Zəngilan rayon VVAQ şöbəsinə müdir təyin etmişlər. O bu vəzifədə düz 26 il işlədi. Roza xanım 2000-ci ildə eyni zamanda Təfəkkür Universitetinə daxil olmuş, 2004- cü ildə oranın Hüquq fakültəsini qiyabi olaraq bitirmişdir.

Fərəcova Roza Soltan qızı 2015- ci ilin 01 aprelində yaşa görə təqaüdə çıxmışdır.

Ailəlidir, üç övladı, dörd nəvəsi var. Həyat yoldaşı İmanov Allahverdi həkim idi 1999-cu ildə dünyasını dəyişmişdir.

**Işğal ərəfəsində Rayon VVAQ şöbəsində işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Fərəcova Roza Soltan qızı | | |
| 2 | Aidə Şövkət qızı | | |
| 3 | | | |

**Rayon mərkəzləşdirilmiş kitabxana sisteminin binası**

Əvvəllər şəhərimizin kitabxanaları yararsız binalarda yerləşirdi. 70-ci illərdə vaxtı ilə Su idarəsinin həyəti hesab olunan yerdə müasir tələblərə cavab verən yeni kitabxana binası inşa edilmiş və bundan sonra uşaq kitabxanası ondan ayrılaraq müstəqil fəaliyyət göstərmişdir. Kitabxanaya uzun illər Cərdar Firid oğlu Cəbrayılov, işğal dövründə isə Rəhman Mehti oğlu Həziyev rəhbərlik etmişdir.

**Həziyev Rəhman Mehti oğlu**
**(30.01.1957-2007)**

*20 Yanvar əlili. Mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru.*



Həziyev Rəhman Mehti oğlu 1957-ci ilin 30 yanvarında Zəngilan rayonunun Vənətli kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini bitirmişdir.

1988-ci ildə başlanan növbəti hay-türk (Azərbaycan) münaqişəsi nəticəsində soydaşlarımız öz tarixi yurdlarından növbəti dəfə qovuldular. Bu hadisələr getdikcə daha da gücləndi, düşmən daha da azğınlaşdı. Buna etiraz əlaməti olaraq Azərbaycanda mitinqlər, nümayişlər başlandı. Bu hadisələrə etiraz edənlərə qarşı Moskva sərt tədbirlər görməklə cavab verdi. Təhqir olunmuş, yerlərindən qovulmuş həmvətənlərimizi müdafiə etmək əvəzinə, onlara qarşı sərt tədbirlərə əl atanda, xalq buna dözmədi və ayağa qalxdı. Düşmənə qarşı öz etirazını bildirən bu xalqa qarşı Moskva qəti tədbirlər görmək, onun azadlıq mübarizəsini boğmaq üçün Bakı şəhərinə hərbi hissələr yeridərək yüzlərlə günahsız insanın qanını tökdü. Bakıdakı 20 yanvar qırğınından sonra rayonlarda da dinc əhaliyə divan tutuldu.

Bu hadisələr Zəngilandan da yan keçmədi. Azadlıq mübarizəsinə qalxan, Moskvanın bu siyasətinə etiraz səsini ucaldanlardan biri də Həziyev Rəhman Mehti oğlu idi. O zaman rayon mərkəzində keçirilən etiraz mitinqlərində Rəhmanın səsi tez-tez eşidilirdi. O, hay millətçilərini və onlara havadarlıq edənləri lənətləyirdi.

Yanvarın 21-də rayon Partiya Komitəsinin qarşısında keçirilən izdihamlı mitinqdə bu hadisələrə etiraz əlaməti olaraq o öz partiya biletindən imtina elədi.

Nəticədə onu və onunla bərabər daha bir neçə fəalı həbs edərək əvvəlcə Xankəndinə, sonra isə Tiflisə apardılar. Onları orada beş gün saxladıqdan sonra təyyarə ilə Novoçerkassk şəhərinə göndərdilər. 1990-cı ilin 11 martına kimi onları buradakı türmənin zirzəmisində saxladılar. Burada ona və yoldaşlarına işgəncələr vermiş, dəfələrlə qanlarını çəkmiş, onlara naməlum iynələr vurmuşdular. Sonralar bunun nəticəsi olararaq onun səhhətində ciddi dəyişikliklər baş vermiş, o, xəstəliyə düçar olmuşdür. Rayonun işğalından sonra o da hamımız kimi öz yurdundan didərgin düşmüş və Bakı şəhərində məcburi köçkünlük həyatı yaşamışdır. Həziyev Rəhman Mehti oğlu Bakı şəhərində vəfat etmişdir. Ailəlidir, üç övladı var.

**Işğal ərəfəsində Mərkəzi Kitabxanada** işləyən**lər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Həziyev Rəhman Mehti oğlu | direktor | |
| 2 | Quliyeva Zərnişan Fərman qızı | | |
| 3 | Quliyeva Xuraman Xəlil qızı | | |
| 4 | Camalova Cəlal qızı | | |
| 5 | | | |
| 6 | | | |
| 7 | | | |

**Xalq məhkəməsi**

Bu binada 1988-ci ilə kimi Zəngilan rayon xalq məhkəməsi yerləşirdi. 1988-ci ildə park salınması ilə əlaqədar bu bina da sökülmüşdür. Xalq məhkəməsi sonra Hərbi komissrlığın bağının aşağı hissəsində olan, əvvəllər Aqrar Sənaye Birliyinin inzibati binasına yerləşdi. İşğal zamanı rayon xalq hakimi Füzuli Novruzəli oğlu Pənahov idi.

**Pənahov Fuzuli Novruzəli oglu**

*1990-2000-ci illərdə Rayon Xalq hakimi*



Pənahov Füzuli Novruzəli oğlu 1959-cu ildə Saatlı rayonunda anadan olub. 1985-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Universiteti bitirdikdən sonra 1985-1990-cı illərdə Saatlı rayonundakı «Uldüz» kolxozunda hüquq məsləhətçisi işləyib. Sonra onu 1990-cı ildə Zəngilan rayonuna xalq hakimi təyin etdilər. Burada o düz on il işlədi. Sonrakı illərdə o, 2000-2007-ci illərdə Astara, 2007-2017- ci illərdə isə Quba rayonunda xalq hakimi işləyib.

Füzuli Pənahov 2017- ci ildən Sabirabad rayon xalq hakimidir.

**Işğal ərəfəsində Rayon Xalq Məhkəməsində işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| **1** | Pənahov Füzuli Novruzəli o | **Hakim** | |
| **2** | İsmayılov Mikayıl Cəlal oğlu | icra məmur | |
| **3** | Yeganə İsmayıl qızı | katibə | |
| **4** | Hüseynova Amaliya Hüseyn qızı | katibə | |
| **5** | | | |

**Köhnə xəstəxana kompleksi**

Pirçivanın rayon mərkəzi kimi təsdiqindən sonra ilk növbədə xəstəxana, məktəb, uşaq bağçaları üçün inzibati binalar tikilir. İlk dövrlərdə inşa edilən bu binada rayon doğum evi, uşaq xəstəxanası, bağça və s fəaliyyət göstərib. Bu bina da 1988-ci ildən sonra sökülmüş və yerində park salınmışdır.

80-ci illərdə şəhərimizdə böyük tikinti, abadlıq işləri başlandı. RİH-nin, RİK-nin, Prokurorluğun, inzibati binaları, Ticarət

mərkəzi, bazar kompleksi, yeni aptek binası, mehmanxana və böyük xəstəxana kompleksi bunlardandır.

Rayon mərkəzi xəstəxanasının binası son dövrlərdə əhalinin tələbatına cavab vermirdi. Xəstəxana köhnə yararsız hala düşmüş binalarda dağınıq halda fəaliyyət göstərirdi. Poliklinika, xəstəxana, doğum şöbəsi başqa–başqa yerlərdə idi. Bunların hamısının bir yerdə fəaliyyət göstərməsi işin keyfiyyətini artırardı.

Yeni xəstəxana kompleksi şəhərimizin cənub-qərb hissəsində yerləşən vaxtı ilə əkin sahəsi kimi istifadə olunan geniş bir ərazidə yaşıllıq bir yerdə inşa edildi. Burada poliklinika, təcili yardım stansiyası, doğum şöbəsi, infeksion şöbə və s var idi. İndi əhaliyə tibb xidmət göstərmək üçün heç bir problem yox idi. Rayon rəhbərliyi şəhərin müxtəlif yerlərindən xəstəxanaya gedib gəlmək üçün avtobus marşrutu da açmışdı. Hər şey yaxşı idi. Lakin bu nankor qonşularımız bizi rahat və firavan yaşamağa qoymadılar. İşğal ərəfəsində rayon mərkəzi xəstəxanasının baş həkimi Eldar Nəriman oğlu Babayev idi.

**Babayev Eldar Nəriman oğlu (1950-2021)**

*rayon mərkəzi xəstəxanasının baş həkimi*



Babayev Eldar Nəriman oğlu 1950-ci ildə Pirçivan kəndində (indiki Zəngilan şəhəri) anadan olmuşdur. 1957-1967-ci illərdə qəsəbə orta məktəbində oxumuşdur. Orta məktəbi bitirəndən sonra Azərbaycan Tibb İnstitutuna daxil olan Eldar Babayev 1973-cü ildə oranı bitirib. Rayona gələndən sonra Gilətağ kənd xəstəxanasının baş həkimi kimi əmək fəaliyyətinə başlayıb. 1989-cu ildə rayon Mərkəzi xəstəxanasının baş həkimi seçilən Eldar Babayev 2015-ci ilə kimi bu vəzifədə işləmişdir. Babayev Eldar Nəriman oğlu 2021-ci ildə Bakı şəhərində vəfat etmişdir. Ailəlidir, oğlu və iki qızı var.

## Işğal ərəfəsində Mərkəzi Xəstəxanada işləyənlər

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Babayev Eldar Nəriman oğlu | Baş həkim | |
| 2 | Qocayev Məzahir Mürsəl oğlu | müavini | |
| 3 | Əliyev Əli | | |
| 4 | Vəliyev Soltam Musa oğlu | | |
| 5 | İskəndərov İskəndər Almaz o | | |
| 6 | Quliyev Allahverdi İman oğlu | | |
| 7 | Məmmədov Yavər Həsən oğlu | | |
| 8 | Hüseynov İqrar Murtuza oğlu | | |
| 9 | Hüseynov Vaqif Murtuza oğlu | | |
| 10 | Əhmədov Səttar Qüdrət o | | |
| 11 | Fərəcova Aidə Əkbər | | |
| 12 | İmaməliyeva Sona Məmmədalı | | |
| 13 | Quliyev Vəli Niyazalı O | | |
| 14 | İmanov Allahverdi | | |
| 15 | Məmmədova Dilbər Hüseyn q | | |
| 16 | Qocayeva Zəhra | | |
| 17 | Sailova İstifa | | |
| 18 | İbrahimova Tahirə | | |
| 19 | Tahirə həkim | | |
| 20 | Mehrəliyeva Səltənət | | |
| 21 | Qəmər | | |
| 22 | Hüseynov Qaçay | | |
| 23 | Siranuş | | |
| 24 | Həsənov Səhiyəddin | | |
| 25 | | | |
| 28 | | | |
| 29 | | | |
| 30 | | | |

## 128 saylı aptek

Şəhərimizdə ilk aptek binası 30- cu illərdə tikilib. Son dörvdə salınan şəhər parkının yerində bir mərtəbəli bir bina var idi. Bu binanın cənub tərəfdən birinci otağında Aptek, sonrakı otaqda Sənaye malları mağazası, daha sonra kitabxana (dəftər kitab mağazası) və sonuncularda isə Rayon qəzeti redaksiyası yerləşirdi.

İkinci bina 60-cı illərdə inşa olunub. Şəhərimizin bu mərkəzi apteki 128 saylı idi. 1988-ci ildə şəhərin baş planına əsasən sökülmüş və yerində park salınmışdır. Əvvəllər MTS-in yerləşdiyi ərazidə müasir tələblərə cavab verən yeni yaraşıqlı ikimərtəbəli aptek binası inşa olundu. Şəhərimizdəki aptekdə əvvəllər Namaz, Fikrət və Fiday adlı həkimlər işləyib. İşğal ərəfəsində isə uzun müddət **Fərəcov Rasif Əkbər oğlu** rəhbərlik etmişdir. O, ilk Zəngilanlı ali təhsilli əczaçıdır.

### Fərəcov Rasif Əkbər oğlu (1943-2017)

*128 saylı Aptekin müdiri*



Fərəcov Rasif Əkbər oğlu 19 avqust 1943- cü ildə Pirçivan kəndində anadan olub. 1960- cı ildə Zəngilan qəsəbə orta məktəbini, 1965-ci ildə isə Azərbaycan Tibb İnstitutunun Əzcaçılıq fakültəsini bitirib. İnstitutu bitirdikdən sonra rayona gələn Rasif Fərəcov uzun illər şəhərimizdəki 128 saylı aptekin müdiri işləmişdir. İşğaldan sonra 31 yanvar 2017- ci ildə Bakı şəhərində vəfat etmişdir. Allah rəhmət eləsin. Həyat yoldaşı Yarışova Natəvan Allahverdi qızı da əczaçı idi. Onlar uzun illər bir yerdə işləmişlər.

## Işğal ərəfəsində 128 saylı Aptekdə işləyənlər

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Fərəcovv Rasif Əkbər o | Baş həkim | |
| 2 | Yarışova Natəvan Allahverdi q | müavini | |
| 3 | | | |
| 4 | | | |

## Sanitar Epidemioloji Stansiya

Bu idarə əvvəllər mərkəzi rayon xəstəxanasının bir bölməsi kimi yaradılıb. Sonralar müstəqil idarəyə çevrilmişdir. İdarənin vəzifəsi əhalini yoluxucu xəstəliklərdən və digər zərərli həşaratlardan qorumaq, evləri və həyətləri yeri gələndə yoxlamaq və lazımı tədbirlər görmək, dərmanlamaq və s ibarət idi.

İşğal ərəfəsində idarənin müdiri İsmayılov Yusif Piri oğlu idi.

### İsmayılov Yusif Piri oğlu

*Zəngilan rayon SES-nin baş həkimi*



İsmayılov Yusif Piri oğlu 1948-ci ildə Zəngilan rayonunun Bartaz kəndində anadan olub. 1955-ci ildə Cahangirbəyli kənd məktəbinin I sinfinə gedib. 1956-cı ildə ailəsi Pirçivan kəndinə köçmüşdür. Bu səbəbdən təhsilini Pirçivan kənd orta məktəbində davam etdirib. 1966- cı ildə Pirçivan qəsəbə orta məktəbinin 11-ci sinfini bitirib. Həmin il ali məktbə daxil ola bilməyən Yusif Piri oğlu Bakı şəhərində qalaraq istehsalatda çalışmışdır. 1968-ci ildə Azərbaycan Tibb İnstitutunun Sanitariya-gigiena fakültəsinə daxil olub. 1974- cü ildə İnsititutu bitirdikdən sonra təyinatla Ağsu rayonuna göndərilib. 1974-cü ilin oktyabrından 1976-cı ilin

fevralına kimi orada epidemioloq həkim kimi əmək fəaliyyətinə başlayıb. 1976-cı ildə işini Zəngilan rayonuna dəyişmiş və burada həkim epidemioloq-parazitoloq vəzifəsinə təyin edilmişdir.

Yusif Piri oğlu 1976- cı ilin avqust ayında boş yer olduğu üçün rayon SES-ə baş həkim vəzifəsinə təyin olunub. Bu tarixdən etibarən o, rayonun işğalına kimi, sonra isə Bakı şəhərində 12 iyun 2018-ci ilə kimi bu vəzifəni icra etmişdir. Ailəlidir, iki oğlu, bir qızı var.

**Işğal ərəfəsində Rayon SES-də işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | İsmayılov Yusif | | |
| 2 | Cəfərov Teymur | | |
| 3 | Məmmədyarova Zümrüd | | |
| 4 | İsmixanova Nazlı | Həkim | |
| 5 | Nuruyev Arif | Həkim | |
| 6 | Quliyev Məmməd | | |
| 7 | Əsgərov Teymur | | |
| 8 | Nail İsmayılov | | |
| 9 | Qarayeva Göyçək Qara qızı | Həkim | |
| 10 | Şakir (Göyçəyin yoldaşı) | | |
| 11 | Kərimov Teymur | | |
| 12 | | | |

**Rayon Statistika idarəsi**

Bu idarəyə 50-ci illərin ortalarında əslən Qubadlıdan olan Ağarza Rzayev, sonra isə Azad Murad oğlu Təhməzov başçılıq etmişdir. İdarəyə sarı rəngli bir «Moskviç 412» markalı avtomaşın da vermişdilər. İdarə redaksiyanın keçmiş binasında fəaliyyətə başladı. Sonrakı illərdə idarəyə uzun müddət Nəriman Abbasov rəhbərlik etmişdir Ondan sonra Niftulla Niftullayev ora

müdir təyin edildi. Rayonun işğalı zamanı isə idarənin müdiri Əsədov Dağbəyi Nəriman oğlu idi.

**Əsədov Dağbəyi Nəriman oğlu (1953-2020)**
*Rayon Statistika idarəsinin müdiri*



Əsədov Dağbəyi Nəriman oğlu 26 iyul 1953-cü ildə Zəngilan rayonunun Ağakişilər kəndində anadan olub. İbtidai təhsilini kənd məktəbində alan Dağbəyi sonra Qubadlı rayonunun Boynakar kənd səkkizillik məktəbində oxumuşdur. Sonra isə Sumqayıt şəhərinə gedərək oradakı 16 saylı orta məktəbi bitirmişdir. Orta məktəbi bitirdikdən sonra rayona qayıtmış və 1971-1973-cü illərdə İskəndərbəyli kənd klubunun müdiri işləmişdir.

Əsədov Dağbəyi Nəriman oğlu 1972-ci ildə Kirovabad (indiki Gəncə) şəhərindəki S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutuna qəbul olunmuşdur. 1973-1975-ci illərdə Sovet Ordusu sıralarına çağırılan Dağbəyi hərbi xidmətini Leninqrad vilayətində keçirmişdir.

Hərbi xidmətini başa vurduqdan sonra təhsilini davam etdirmiş və 1979 -cu ildə ali məktəbi bitirmişdir.

Əsədov Dağbəyi Nəriman oğlu qiyabi oxuya-oxuya 1977-ci ildə Zəngilaan rayon Kənd Təsərrüfatı idarəsinə baş mühasib təyin olunub.

1982-ci ildə onu Tədarük idarəsinə müdir, 1986-cı ildə isə ASB-nə baş iqtisadçı təyin etmişlər.

1988-ci ildə Əsədov Dağbəyini rayonun ən böyük təsərrüfatlarından olan «Bakı fəhləsi» (Məmmədbəyli) kolxoz idarə heyətinin sədri seçmişlər.

Sonra ona daha böyük etimad göstərilmiş o, 1990-cı ildə rayon Statistika idarəsinin rəisi təyin olunmuşdur. Əsədov Dağbəyi Nəriman oğlu  2013-cü ilə kimi bu vəzifədə işlədi.

Əsədov Dağbəyi Nəriman oğlu 1976-cı ildə Mehrəliyeva Solmaz Hüseyn qızı ilə ailə qurmuşdur. Onların üç övladı, 7 nəvəsi var.

O, bir neçə çağırış Zəngilan rayon XDS-nin və Zəngilan şəhər XDS- nin deputatı seçilmişdir.

Əsədov Dağbəyi Nəriman oğlu 23 sentyabr 2020-ci ildə dünyasını dəyişmişdir.

**Işğal ərəfəsində rayon Statistika idarəsində** işləyənlər

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Əsədov Dağbəyi | | |
| 2 | Göyçək | | |
| 3 | Quliyev Rəfi Hüseyin oğlu | | |
| 4 | Məsən | | |
| 5 | Əliyeva Mirvari Həmid qızı | | |
| 6 | Həmkarlara baxan oğlan | | |
| 7 | | | |
| 8 | | | |
| 9 | | | |
| 10 | | | |

**Zəngilan konserv zavodu**

Bu sənaye müəssisəsi rayonumuzun ən gənc və böyük obyektlərindən hesab olunurdu. Rayonda xeyli meyvə və tərəvəz yetişdirildiyini nəzərə alan rayon rəhbərliyi belə bir zavoda tələbat olduğunu nəzərə alaraq mərkəzi hökumətdən xahiş etmiş və nəticədə zavodun tikintisinə razılıq almışlar. İlk illərdə zavoda Fərhad Ağalarov rəhbərlik etmişdir. Sonra onu Qasımov Allahverdi Tumas oğlu əvəz edib. Zavodun son direktoru isə Qocayev Azər Əli oğlu olmuşdur.

## Qocayev Azər Əli oğlu



Qocayev Azər Əli oğlu 27 mart 1958-ci ildə Zəngilan qəsəbəsində anadan olub. 1964-1974-cü illərdə orta məktəbdə oxumuş və Zəngilan şəhər orta məktəbini bitirmişdir. Orta məktəbi bitirdikdən sonra 1975-ci ildə Ukrayna SSR-nin Dnepropetrovsk şəhərindəki Metallurgiya İnstitutunun Mexanika fakültəsinə daxil olmuş, 1980–ci ildə oranı mühəndis-mexanik ixtisası üzrə bitirmişdir.

Qocayev Azər Əli oğlu 1980-1985-ci illərdə Zəngilan Konserv zavodunda baş mexanik kimi əmək fəaliyyətinə başlayıb. O, 1981-1982-ci illərdə istehsalatdan ayrılmadan M.V.Lomonosov adına Odessa Texnologiya İnstitutunu da qiyabi olaraq bitirib.

Qocayev Azər Əli oğlu 1985-1986-cı illərdə konserv zavodunda istehsalat rəisi, 1986-1993-cü illərdə isə zavodun direktoru olub. Rayonun 1993-cü ildə işğalından sonra müxtəlif kommersiya strukturlarında işini davam etdirib.

1987-ci ildə Cəfərova Aidə Alı qızı ilə ailə quran Azər Qocayevin iki qızı və Səbinə adlı bir nəvəsi var..

Həyat yoldaşı ali təhsilli əczaçıdır. Ali məktəbi fərqlənmə diplomu ilə birtirib.

–qızı Qocayeva Gülnar Azər qızı 1988-ci ildə Zəngilan şəhərində anadan olub. Azərbaycan Memarlıq Akademiyasını bitirib, rəssam dizaynerdir.

-qızı Qocayeva Aybəniz Azər qızı 1994-cü ildə Bakı şəhəridə anadan olub. Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirib. Hal-hazırda Almaniyanın Ştutqart şəhərində həkim kardioloq işləyir.

Qocayev Azər Əli oğlu hal-hazırda Bakı şəhərində yaşayır.

## Işğal ərəfəsində rayon Konserv zavodunda işləyənlər

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Qocayev Azər Əli oğlu | | |
| 2 | Ələkbərov Rasif İskəndər o | | |
| 3 | Mustafayev Əmir Qurban o | | |
| 4 | Bədirov Davud Seyfulla o | | |
| 5 | Vəliyeva Aidə Qasım qızı | | |
| 6 | Cəfərova Güllər Səfiyar qızı | | |

## Aqrar Sənaye Bankının Rayon şöbəsi.

Sovet dövründə tək bir bank var idi. Onun adı əvvəllər Dövlət bankı idi, sonralar onu ASB (Aqrar Sənaye Bankı) adlandırdılar. Bu da rayonların mühüm idarələrindən hesab olunurdu və güclü mühafizə sisteminə malik idi. Axı orada dövlətin milyonları saxlanılırdı.

Bu idarəyə uzun illər Mustafayev Mustafa Əlabbas oğlu rəhbərlik etmişdir. Ondan sonra Əhmədova Vəzifə Əli qızı ora müdir təyin olunub. Rayonun işğalı zamanı isə banka Mehrəliyeva Hürü Hüseyn qızı rəhbərlik edirdi.

### Mehrəliyeva Hürü Hüseyn qızı (1936-2021)

*Aqrar Sənaye Bankının rayon şöbəsinin müdiri.*



Mehrəliyeva Hürü Hüseyn qızı 1936-ci ildə rayonun Bürünlü kəndində anadan olmuşdur. 1945-1955-ci illərdə Pirçivan kənd orta məktəbində oxumuş, orta məktəbi bitirəndən sonra o vaxtkı S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsinə daxil olmuşdur. 1960-ci ildə ali məktəbi bitirən Hürü xanımı

təyinatla Respublika Torpaqşünaslıq və Aqrokimya İnstitutuna göndərmişlər. O, İnstituta kiçik elmi işçi qəbul olunur.

Ailə vəziyyəti ilə əlaqədar rayona qayıdan Hürü müəllimə müxtəlif illərdə Rayon XMŞ-də metodist, rayon Komsomol Komitəsinin əvvəl II, sonra isə I katibi olmuşdur. 1965-ci ilin iyununda onu rayon Partiya Komitəsinə II katib seçirlər. O, 1969-cu ilin sonuna kimi bu vəzifədə çalışdı. 1969-1971-ci illərdə Hürü müəllimə Sov. İKP MK yanında Moskva Ali Partiya məktəbində oxumuşdur. Məktəbi bitirəndən sonra onu Ağsu rayon XDS İK-nə sədr seçdilər. O bu rayonda 1978-ci ilin noyabr ayına kimi işlədi.

Elə həmin ilin noyabr ayından onu doğulduğu rayona eyni vəzifəyə dəyişdirdilər. Hürü müəllimə bu vəzifədə 1989-cu ilin yanvar ayına kimi işləmişdir. Sovet işindən gedəndən sonra o, rayon Kino Birliyində direktor, Aqrar Sənaye Bankının rayon şöbəsində müdir olmuş, işlədiyi müddətdə fəaliyyəti yüksək qiymətləndirilərək ona «Şərəf Nişanı» Ordeni və bir çox medallar verilmişdir.

Mehrəliyeva Hürü Hüseyn qızı 2021-ci ildə Bakı şəhərində vəfat etmişdir.

**Işğal ərəfəsində rayon Aqrar Sənaye Bankında işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Mehrəliyeva Hürü Hüseyn qızı | Müdir | |
| 2 | Alməmmədov Oruc Müseyib oğ | Mühasib | |
| 3 | Şixəliyeva Əsnayə | əməliyyatçı | |
| 4 | Abbasova Səidə İdris qızı | əməliyyatçı | |
| 5 | Məmmədhəsənova | mühasib | |
| 6 | Göycəyeva Ülkər Xanməmməd q | | |
| 7 | Hüsüyev Əsgərin yoldaşı | | |
| 8 | | | |

## Təhsil şöbəsi

Sovet hökuməti əsasən iki sahəyə çox diqqət yetirərdi. Bunlardan biri səhiyyə, digəri isə təhsil idi. Əgər millət sağlam və savadlı böyüyərsə onunla istədiyin nailiyyəti əldə edə bilərsən.

Rayon Təhsil Şöbəsi rayon təşkil olunan zamandan fəaliyyətdə olub. Rayonumuzda demək olar ki, ən çox işçisi olan Təhsil şöbəsidir. Büdcədən də ən çox vəsait təhsilə ayrılırdı. Bu təşkilata əvvəllər Maarif şöbəsi deyərdlər. Son adı isə rayon «Təhsil şöbəsi» oldu. Bu sahəyə rayonda tanınmış bir çox adamlar rəhbərlik etmişlər. İşğal zamanı rayon Təhsil Şöbəsinin müdiri isə Heydərov Tofiq Məhəmməd oğlu idi.



**Zəngilan şəhər bir saylı orta məktəbinin iki mərtəbəli, müasir tələblərə cavab verən binası. Məktəb 1968-ci ildə istifadəyə verilmişdir.**

**Heydərov Tofiq Məhəmməd oğlu**

*Təhsil şöbəsinin müdiri.*



Heydərov Tofiq Məhəmməd oğlu 29 noyabr 1950–ci ildə Zəngilan rayonunun Malatkeşin kəndində anadan olub. 1956-1967 ci illərdə Zəngilan qəsəbə orta məktəbində oxuyub. Orta məktəbi bitirdikdən sonra ali məktəbə sənədlərini versə də müsabiqədən keçməyib.

1967-ci ilin sentyabr ayında şəhər 8 illik məktəbində laborant, sonra isə kitabxanaçı işləmişdir.

1968-ci ildə o vaxtkı V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinin qiyabi şöbəsinə daxil olan Tofiq Heydərov 1971- ci ildə Sovet Ordusu sıralarına həqiqi hərbi xidmətə çağırılıb. O, 1971-1973- cü illərdə Rusiyanın Xabarovsk vilayətində iki il hərbi xidmət keçmişdir.

Hərbi xidmətdən sonra rayonun Malatkeşin kənd orta məktəbinə müəllim təyin edilmişdir. Burada əvvəl müəllim, 1976-1980- ci illərdə direktor müavini, 1980-1992-ci illərdə isə direktor işləmişdir.

Malatkeşin kəndində işləməsinə baxmayaraq Tofiq müəllim rayon mərkəzində yaşayırdı. 1992- ci ildə ona böyük etimad göstərilir və o, rayon Təhsil şöbəsinə müdir təyin edilir.

Rayonun işğalından sonra Bakı şəhərində məskunlaşan Tofiq Heydərov ölkəmizin müxtəlif bölgələrində Zəngilan məktəblərinin açılmasında xeyli əmək sərf etmişdir. O, 1996- cı ilə kimi bu vəzifədə işlədi.

Sonra Tofiq müəllim 2002-ci ildən Bakı şəhərindəki 8 saylı Zəngilan orta məktəbində direktor işləyib. Ailəlidir, iki oğlu var.

Tofiq Məhəmməd oğlu Heydərov hal-hazırda təqaüddədir və Bakı şəhərində yaşayır.

## Işğal ərəfəsində rayon TŞ-də işləyənlərin siyahısı

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Heydərov Tofiq Məhmməd o | müdir | |
| 2 | Orucov Akif Məhərrəm o | müavin | |
| 3 | Abbasov Tarverdi | inspektor | |
| 4 | Salahov Ramiz Malik o | inspektor | |
| 5 | Bağırov Asif Kərim o | inspektor | |
| 6 | Muxtarov Nəriman | inspektor | |
| 7 | Babayev Fərman | inspektor | |
| 8 | Cəlilov Arif Muxtar o | inspektor | |
| 9 | Məmmədov Səlim Əbülfəz o | Kadr üzrə inspektor | |
| 10 | Əliyev Eyvaz Əli o | Baş mühasib | * |
| 11 | Abbasova Zərnişan İdris q | mühasib kömək. | |
| 12 | Məmmədova Kəmalə Mamed | mühasib köməu | |
| 13 | Sənubər Şəfi qızı | mühasib kömək | |
| 14 | Məmmədova Gülxanım Fərrux | mühasib kömək | |
| 15 | Quliyeva Rahilə Qulu q | Mühasib kömək | |
| 16 | Yaqubov Süleyman Əli o | anbardar | * |
| 17 | Quliyev Hüseyn | sürücü | |
| 18 | Alverdiyev İsmayıl | Həmkarlar Kom | * |
| 19 | Hüseynov Miris | Met.ka.müdiri | * |
| 20 | Nəcəfov Sabir Cümşüd o | metodist | |
| 21 | Xanımqız Ağəmmədova | metodist-kitabxana üzrə | * |
| 22 | Məmmədov Adil | hərb üzrə met | * |
| 23 | Ağayev Aydın | Idman üzrə met | * |
| 23 | | | |

*Vəfat edənlər

## Çörək zavodu

Bildiyiniz kimi bir çox ərzaq məhsullarının istehsalı mərkəzləşdirilmiş sistem üzrə istehsal olunur və bölgələrə göndərilir. Lakin elə ərzaq məhsulları var ki, onları gərək yerlərdə istehsal edib istehlakçıya çatdırasan. Bunlara misal olaraq çörəyi, süd məhsullarını göstərmək olar. Bu məqsədlə hər bir kiçik şəhər və qəsəbələrdə belə çörək zavodları və süd istehsalı və emalı idarələri yaradılırdı. Rayonumuzda çörək zavodu da (xalq arasında ona pekarnı deyərdilər) sovet hökumətinin ilk zavodlarından idi.

Əvvəlki illərdə əhali yeyəcəyi çörəyi özü bişirirdi. Çünki vaxt məhdudiyyəti yox idi, işini özü istədiyi kimi təşkil edərdi. Ancaq indi artıq dövlət müəssisələrində işləyənlər məcburi müəyyən saat işləməli olurdular. Bu səbəbdən də onların çörək bişirmək üçün o qədər də vaxtı olmurdu. Bunun üçün də çörək zavodlarının tikilməsi zərurəti yarandı

Bu idarə Rayon İstehlak Cəmiyyətinin tərkibində idi. Çörək zavoduna müxtəlif illərdə Mürsəl kişi, Zeynalov Şükür, Pəhlivan, Allahverdi, Camalov Fikrət, Rəhimov Əli və s rəhbərlik etmişlər.

**Rəhimov Əli Əvəz oğlu**

*Çörək zavodunun müdiri.*

İşğal ərəfəsində çörək zavodunun direktoru Rəhimov Əli Əvəz oğlu idi

**Işğal ərəfəsində Çörək zavodunda işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Rəhimov Əli Əvəz oğlu | müdir | |
| 2 | Mehtiyev Şəmil | | |
| 3 | | | |
| 4 | | | |

## Suvarma Sistemləri İdarəsi.

Bilidiyiniz kimi, rayonumuz dağ ətəyində yerləşir və eyni zamanda da ərazidən daimi axar suyu olan 4 çay axır. Məhz bu coğrafi şəraiti nəzərə alaraq bizim rayonda zonalararası su idarəsi yaradılmışdı. İdarə çay daşqınlarının müəyyən qədər qarşısının alınmasına, əhaliyə və təsərrüfatlara zərər verməmsinə cavabdeh idi. İdarəyə uzun illər Heydərli Soltan rəhbərlik edib. Mənim atam da uzun müddət bu idarədə işləmişdir. İşğal zamanı idarənin müdiri Həsənov Halay Səməd oğlu idi.

### Həsənov Halay Səməd oğlu

*Suvarma Sistemləri İdarəsinin müdiri*



Həsənov Halay Səməd oğlu 01 noyabr 1954-cü ildə rayonun Şatarız kəndində anadan olub. 1961-1969-cu illərdə Rəzdərə kənd səkkizillik məktəbində oxumuş və 1969- cu ildə 8-ci sinfi bitirmişdir. Elə həmin il Zəngilan şəhər 1 saylı orta məktəbinin IX sinfinə qəbul olunmuş və 1971-ci ildə orta təhsilini tamamlamışdır.




Orta məktəbi bitirdikdən sonra 1971-ci ilin noyabrından 1972-ci ilin dekabr ayına kimi 41 saylı Səyyar Mexanikləşdirilmiş Dəstədə fəhlə kimi işləyib.

Həsənov Halay Səməd oğlu 1973-cü ildə o vaxtkı Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutuna daxil olmuş 1978- ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Hidromeliorasiya fakültəsini bitirmişdir. Ali məktəbi bitirdikdən sonra onu təyinatla o vaxtkı Jdanov (indiki Beyləqan) rayonuna göndərmişlər.

O burada Suvarma Sistemləri İdarəsində mühəndis müfəttiş, sahə rəisi işləyib.

O, 1982-ci ilin 01 oktyabrından hal-hazıra kimi Zəngilan SSİ-nin rəisi vəzifəsində işləyir.

Həsənov Halay Səməd oğlu 2011-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə «Tərəqqi medalı» ilə təltif olunub. Ailəlidir, üç övladı var.

## Işğal ərəfəsində rayon Suvarma Sistemləri İdarəsində işləyənlər

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Həsənov Halay Səməd oğlu | | |
| 2 | Fehruz Əhmədov | | |
| 3 | Ağalar-Canbarlı | | |
| 4 | Hətəmov Fərəməz | | |
| 5 | Bağırov Əşrəf | | |
| 6 | Sadıq | | |
| 7 | | | |
| 8 | | | |
| 9 | | | |
| 10 | | | |
| 11 | | | |
| 12 | | | |

## Zəngilan şərab zavodu.

Sovet hakimiyyətinin ilk illərindən rayonumuz əsasən pambıqçılıq üzrə ixtisaslaşmışdı. Rayon ərazisində 1974-cü ildə isə son dəfə pambıq əkildi. 1975-ci ildən etibarən isə rayonumuzda üzümçülük geniş yayıldı.

Demək olar ki, bütün alçaq təpəliklərdə belə üzüm əkilmişdi. Üzümçülük çox gəlirli sahə idi, əhalinin son illərdə maddi durumu xeyli yaxşılaşmışdı. Bizə hərtərəfli zərər verən M.Qorbaçovun

1985-ci ildə verdiyi qərardan sonra üzümçülüyə diqqət azaldı və bir çox üzüm sahələri ləğv edildi.

Üzümçülüklə əlaqədar rayonumuzda böyük ilkin şərab emalı zavodları inşa edildi. Bunlardan biri Zəngilan şəhərində, digəri isə Cahangirbəyli kəndində idi. Üzümü ilkin emal etmək üçün iri dəmir çənlər quraşdırlmışdı. Üzümdən həm təsərrüfatlar, həm də ki, əhali xeyli qazanc əldə edirdi. Əgər bu 5-10 ildə belə davam edərdisə, bütün əhali öz güzəranını xeyli yaxşılaşdıracaqdı. Zavoda Orucov Əvəz, sonralar isə Bayramov Şirvan Ağəli oğlu rəhbərlik etmişdir.

**Məhərrəmov Telman.**

*Zəngilan şərab zavodunun direktoru*

Zəngilan rayonunun işğalı zamanı şərab zavodunun direktoru Məhərrəmov Telman idi. O, işğaldan sonra Bakı şəhərində vəfat etmişdir.

**Işğal ərəfəsində rayon Şərab zavodunda işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Məhərrəmov Telman | | |
| 2 | Füzuli | | |
| 3 | Adilə | | |
| 4 | | | |

**İşıq idarəsi.**

Rayonumuza Mingəçevirdən elektrik xətləri 1963-cü ildə çəkildi. Rayon mərkəzinə 1963-cü ildə elektrik enerjisi verildi. Kəndlərdə bu poroses hələ 3-4 il çəkdi. Əvvəlki GES-dən fərqli olaraq indi daha böyük bir idarəyə ehtiyac var idi. Yeni təşkil olunan işıq idarəsi tək bir ES-na deyil, bütün rayon ərazisində enerjinin verilməsinə cavabdeh idi. İşıq idarəsinə uzun müddət

Cəfərov Bəxtiyar Cəfər oğlu rəhbərlik edib. Sonrakı illərdə müəssisəyə Məmmədov İzzət, Zeynalov Dadaş rəhbərlik etmişlər. Dadaş Zeynalov 1993-cü ilin martında xidməti vəzifəsini yerinə yetirərkən şəhərin mərkəzinə atılan qrad mərmisinin qəlpəsindən həlak olub.

**Mehtiyev İbiş Ərşad oğlu**

*İşıq idarəsinin rəisi*



Mehtiyev İbiş Ərşad oğlu 16 iyul 1963-cü ildə Zəngilan qəsəbəsində anadan olub. 1980-ci ildə 1 saylı şəhər orta məktəbini bitirən İbiş Ərşad oğlu Azərbaycan Neft Kimya İnstitutuna daxil olub 1985- ci ildə oranı bitirdikdən sonra İnstitutun Sumqayıt şəhərindəki filialında əmək fəaliyyətinə başlayıb.

Sonra rayona qayıdan gənc mütəxəssisi 1993-cü ildə Zəngilan şəbəkə rayonuna müdür təyin etmişlər. 1993-cü ildə rayonun işğalından sonra Yardımlı, Astara, Masallı, Biləsuvar, Salyan, Hacıqabul, Şirvan, Şamaxı rayonlarında işıq idarəsinin rəisi işləyib.

Mehtiyev İbiş Ərşad oğlu 2010-cu ildən Abşeron rayon İşıq idarəsinin baş mühəndisi vəzifəsində işləyir. İki övladı var. Hər ikisi Daxili İşlər Orqanlarında işləyir.

**Işğal ərəfəsində rayon İşıq idarəsində işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Mehtiyev İbiş Ərşad o | Rəis | |
| 2 | Bayramov Mehralı | | |
| 3 | Vaqif- İçəri Müşlan | | |
| 4 | Həsən-İçəri Müşlan | | |
| 5 | Mustafa-Qıraq Müşlan | | |

| | | | |
|---|---|---|---|
| 6 | İsmayıl-Üdgün | | |
| 7 | Elman | | |
| 8 | Şahbaz Məhərrəm oğlu | | |
| 9 | Qüdrət-Qıraq Müşlan | | |
| 10 | Aslan | | |
| 11 | Əbilov Azad-Bartaz | | |
| 12 | Əliyev Müzəffər-Ördəkli | | |
| 13 | Hüseynov Xanqulu-Şəfibəyli | | |
| 14 | Hüseyn Cəbrayılov | | |
| 15 | Xanlar Cəbrayılov | | |

## Qaz idarəsi.

Rayonumuza təbii qaz xətti 1988-cı ildən çəkiləməyə başlasa da ona qədər əhali qaz balonlarından istifadə edirdi. Bu işləri isə qaz idarəsi nizamlayırdı. Əvvəllər qaz peçləri və balonları ancaq rayon mərkəzində yaşayan əhaliyə verilirdi. Səbəbi də o idi ki, tələbat çox, satışa gələn mal isə az idi. Sonrakı illərdə qaz paylayan maşınların sayı xeyli artdı, eyni zamanda başqa yük maşınları ilə də gedib Horadiz stansiyasından qaz balonları gətirirdilər. Belə olan halda artıq kəndlərdə yaşayan əhali də bundan istifadə edə bildi. Qaz idarəsi təşkil olunanda onun müdiri Əliyev Ənvər Əliyar oğlu idi. Sonralar idarəyə Şəmil, Əliyev Nurəddin, Məcidov Yavər rəhbərlik etmişlər. İşğal zamanı idarənin müdiri Nurəddin Əliyev idi.

### Əliyev Nurəddin

*Qaz idarəsinin müdiri*

İşğal ərəfəsində rayon Qaz istismarı idarəsinin müdiri vəzifəsində Əliyev Nurəddin işləyirdi. O, əslən Keçikli kəndindəndir. Əliyev Nurəddin işğaldan sonra Həcc ziyarətində olmuş və Bakı şəhərində dünyasını dəyişmişdir. (Şəkil və geniş məlumat əldə edə bilmədim.)

**Işğal ərəfəsində rayon Qaz idarəsində işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Əliyev Nurəddin | | |
| 2 | Bayramova Bəsti | | |
| 3 | Nemət | | |
| 4 | Heydərli T | | |
| 5 | Niftəliyev Hidayətin qızı | | |
| 6 | | | |

## Tikinti təmir idarəsi

Şəhərimizin abadlığı ilə bu tikinti təmir idarəsi məşğul idi. Bu idarəyə uzun illər Allahverdiyev Bəhmən rəhbərlik etmişdir. Hümbətov Hümbət də arada müdir işləyib. Rayonun işğalı zamanı isə idarənin müdiri Qarayev Yunis Humay oğlu idi.

### Qarayev Yunis Humay oğlu

*Tikinti təmir idarəsinin müdiri*



Qarayev Yunis Humay oğlu 1953-cü ildə rayonun Məmmədbəyli kəndində anadan olub. Gəncə Politexnik Texnikumunu bitirdikdən sonra rayonda müxtəlif işlərdə işləyib. Uzun illər Rayon İcraiyyə Komitəsində tikinti işləri üzrə müfəttiş olub. İşğal zamanı rayon tikinti-təmir idarəsinin rəisi idi. İşğaldan sonra Sabirabad şəhərində vəfat etmişldir.

**Işğal ərəfəsində rayon TT idarəsində işləyənlər**

| N | Soyadı adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Qrayev Yunis Humay oğlu | | |
| 2 | | | |
| 3 | İbadov Baloğlan | | |
| 4 | Əhmədov Nemət | | |
| 5 | Xanməmməd | | |
| 6 | Cəfərov Səfiyar C əfər oğlu | | |
| 7 | Mubariz | | |
| 8 | Kərəm | | |
| 9 | Nəcəfqulu | | |
| 10 | Məmmədov Nüsrət | | |
| 11 | Məmməd-Şəfibəylidən | | |
| 12 | Xankişi-M.İsmayıllıdan | | |
| 13 | Məmməd-Şəfibəylidən | | |
| 14 | Aslanov Cəbrayıl | | |
| 15 | Cabbar-Məlikli | | |
| 17 | Məliklidən bir nəfər Qurban | | |
| 11 | Məçi-Genlikdən | | |

**Rayon Mədəniyyət şöbəsi.**

Rayonun ən böyük təşkilatlarından biri də mədəniyyət şöbəsi idi. Bu təşkilatın demək olar ki, təhsil şöbəsi kimi bütün kəndlərdə yerli orqanları (klub, kitabxana) var idi. Əksər kəndlərdə klub və kitabxanalar fəaliyyət göstərirdi. Onların bu təşkilatlarla bərabər mədəni çadırları, qiraət yerləri də mövcud idi. Şöbənin bədii kollektivi bir-birindən rəngarəng proqramlarla müntəzəm olaraq çıxış edirdilər. Mədəniyyət şöbəsinə uzun illər Sultanov Camal rəhbərlik etmişdir. İşğal zamanı şöbənin müdiri Cəbrayılov Sərdar Firid oğlu idi.

**Cəbrayılov Sərdar Firid oğlu (1937-2009).***
*Rayon mədəniyyət şöbəsinin müdiri*



Cəbrayılov Sərdar Firid oğlu 1937-ci ildə Zəngilan rayonunun Cahangirbəyli kəndində anadan olmuşdur. 1956-cı ildə Mincivan kənd orta məktəbini bitirdikdən sonra hərbi xidmətə getmişdir. O vaxtlar biz gənclər hamımız xidmət etdiyimiz bu ordunu xilaskar, sülhün dayağı kimi tanıyırdıq, çünkü o belə təbliğ olunurdu. Əslində isə o ordu çox qəddar, zalım və qan tökməkdə mahir bir imperiyanın mənafeyini qoruyan qurum idi. Hərbi xidmətdən qayıtdıqdan sonra Sərdar Firid oğlu Naxçıvan şəhərində, Mincivan qəsəbəsində və Bakıda gözətçi, poçt işçisi və poladəridən peşələrində işləmişdir.

1965-ci ildə o, Azərbaycan Dövlət Universitetinin (BDU) Kitabxanaçılıq fakultəsinə qəbul olunmuş və 1970- ci ildə oranı bitirmişdir. 1971-1977-ci illərdə Cahangirbəyli kənd XDS İcraiyyə Komtəsinin sədri olmuşdur. 1978-ci ildə Sərdar müəllim rayon mərkəzləşdirilmiş kitabxana sisteminə direktor təyin olunur. 1990-cı ilin 20 yanvar hadisələrindən sonra Zəngilan rayonunda da mövcud rejimə, kommunist partiyasına, onun rəhbəri Qorbaçova qarşı narazılıqlar, nümayişlər, siyasi hərəkatlar başlandı. Bu hərəkatın təşkilatçılarından biri də Sərdar müəllim idi.

S.Cəbrayılov rayonun işğalından sonra Bakı şəhərində vəfat etmişdir.

**Işğal ərəfəsində rayon Mədəniyyət Şöbəsində işləyənlər**

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Cəbrayılov Sərdar Firid oğlu | Müdir | * |
| 2 | Almuradov Ağaqulu | Mühasib | * |
| 3 | Sultanov Camal | Müfəttiş | |
| 4 | İsmayıl | Mə.evi.müd | |
| 5 | Həsənov Eldar Xanlar o | Işçi | |
| 6 | Mahmudov Yadulla | Işçi | |
| 7 | Adıgözəlov Aşur Bəşir oğlu | Işçi | |
| 8 | Firudinov Vahid Musa o | Işçi | |
| 9 | Mirzəyev Muradxan | | |
| 10 | Nəsirov Mehman Cümşüd o | kassir | |
| 11 | Abbasova Fatma M. | Katibə | |
| 12 | Ələkbərov Əli | Sürücü | |
| 13 | Rəhim Cəmil oğlu | Sürücü | Genlik |
| 14 | Rəhim | Sürücü | İ.Müşlan |
| 15 | Qəhrəmanova Adilə | Xadimə | |

**Mühafizə idarəsi.**

70-ci illərin əvvəllərində rayon mühafizə dəstəsi yaradıldı. Onların vəzifəsi milis formasında olmaqla dövlət binalarını mühafizə etmək idi. Buna qədər hər bir idarə və müəssisənin özünün xüsusu gözətçisi olurdu. Bu zamandan etibarən gözətçilərin işini mühafizəçi milislər həyata keçirəcəkdi.

İlk dövrdə cəmisi 6 nəfər mühafiz işə alınmışdı. Onlar, səhv etmirəmsə, Xalıqverdi (briqadir), Bəhlul, Şirzad, İslam, Cəlil və Vidadi idi. Sonrakı illərdə bunlar xeyli artdı. Bunlardan əlavə xeyli sayda mülki formada olan mühafizəçilər də bu idarədə çalışırdı. Mən və mənim atam da burada bir müddət işlədik. Mühafizə bölməsinin rəisi isə milis kapitanı Paşayev Əziz Şükür oğlu idi. Rayonun işğalı ərəfəsində isə bölmənin rəisi Kərimov Şahsuvar Qibləli oğlu idi.

## Kərimov Şahsuvar Qibləli oğlu (1938-1995)

*Mühafizə bölməsinin rəisi, milis mayoru*



Kərimov Şahsuvar Qibləli oğlu 1938-ci ildə rayonun Yusiflər kəndində anadan olub. 1959-1962-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmət keçmişdir.

Hərbi xidmətdən sonra bir sıra idarələrdə müxtəlif işlərdə işləmişdir. Sonralar 1970-ci ildən ömrünün sonuna kimi rayon Mühafizə bölməsində işləyib. 1970-ci illlərdə Mərdəkan milis məktəbində qiyabi oxuyub. Kərimov Şahsuvar Qibləli oğlu əvvəl kiçik leytenant rütbəsi ilə xidmətə başlayıb.

Kərimov Şahsuvar Qibləli oğluna 1978-ci ildə kapitan rütbəsi verilib. Sonra onu mühafizə bölməsinə rəis təyin ediblər. Bu dövrdə o, mayor rütbəsində idi. 1986-1994-cü illərdə isə idarənin rəisi işləyib. Onun Fərqlənmə döş nişanı və başqa təltifləri var.

Kərimov Şahsuvar Qibləli oğlu 27 iyul 1995-ci ildə Bakı şəhərində vəfat etmişdir.

### Işğal ərəfəsində rayon Mühafizə bölməsində işləyənlər

| N | Soyadı,adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Kərimov Şahsuvar Qibləli oğlu | Rəis | |
| 2 | Hüseynov Rövşən Gülməmməd o | müavin | |
| 3 | Atlıxanova Gülarə İsmayıl q | | |
| 4 | Qurbanov Əşrəf Ağamalı o | | |
| 5 | Süleymanov Xalıqverdi | | |
| 6 | Yarışov Zülfüqar Allahverdi | | |
| 7 | Həşimov Rəşid İbadulla o | | |
| 8 | Bəhlul | | |
| 9 | Yunis-Şayıflıdan | | |

| | | | |
|---|---|---|---|
| 10 | Cahangirbəylidən Qaranın oğlu | | |
| 11 | Qüdrət Xəzri oğlu Əliyev | | |
| 12 | Səxavət Qüdrət oğlu | | |

**Kino və Video qurğuları idarəsi.**

Məktəb və qəzetlərdən sonra deyərdim ki, kino insanların savadlanması və mədəniyyətləşməsi sahəsində əsas sahələrdəndir. Rayonumuza kino bir qədər gec gəlmişdir. Ilk illərdə ancaq rayon mərkəzində və Mincivan qəsəbəsində filmlər göstərilirdi. Sonrakı illərdə bu şəbəkə bir qədər də genişləndi, kəndlərimizin bəzilərində klub və mədəniyyət şöbəsinin yerli orqanları yaradıldı.

Düzdü, bu kəndlərdə daimi kino qurğuları yox idi. Rayonumuzun kiçik kəndlərində müəyyən aylarda səyyar kino qurğuları vasitəsi ilə filmlər göstərilirdi.

**Ağalarov İsa**

*Kino və Video qurğuları idarəsinin müdiri*

İşğal ərəfəsində Kino və Video qurğuları idarəsinin müdiri Ağalarov İsa idi. O, əslən Şəfibəyli kəndindəndir.

**Filmlərin ilk xəbərçisi**

**Bəşirov Arif Cəbrayıl oğlu (1937-1991)**



Bəşirov Arif Cəbrayıl oğlu 1937- cı ildə Pirçivan kəndində anadan olub. Ilk təhsilini Pirçivan kənd məktəbində alan Arif Bəşirovun həyatı rayon Kino idarəsi ilə bağlı olub. O, uzun illər burada kino mexanik işləyib və eyni zamanda da rayona gələn filmlərin ilk reklamçısı, yəni afişasını yazan olub. Əslində Arif Bəşirovun vəzifəsi mühəndis idi. Bizlər isə onu kino mexanik

kimi tanıyırdıq.

Onun yazdığı afişalar mənim hər zaman diqqətimi cəlb edərdi. Kino idarəsinin direktorlarından olmuş Asif Bağırovun dediyinə görə o, bu müəssisənin əsas simalarından biri idi. Sadəliyi, alicəbnablığı ilə seçilərdi.

Arif Bəşirov eyni zamanda da Zəngilanın futbol komandasının ən yaxşı hücumçularından  hesab olunurdu.

Bizim evin yaxınlığında da bir afişa asılan lövhə var idi. Demək olar ki, hər gün film başlayandan sonra ora gəlib baxardım. Əgər afişa yerindədisə onu qoparıb evə aparardım.

Arif Cəbrayıl oğlu  Bəşirov eyni zamanda şəhid atasıdır. Oğlu Fazil 1993-cü il oktyabrın 24-də Cəbrayıl rayonunun Dərzili kəndindən zirehli texnika ilə hücum edən düşmənə qarşı döyüşdə 6 nəfər polis əməkdaşı ilə birlikdə qeyri-müəyyən şəraitdə itkin düşüb.

Bəşirov Arif Cəbrayıl oğlu 11 iyun 1991-ci ildə Zəngilan şəhərində vəfat etmişdir. Allah rəhmət eləsin

## Qəzet köşkü

Şəhərimizin ilk qəzet köşkünü mən ilk dəfə Məscid düzündə şəhərin ilk ikimərtəbəli binasının cənub hissəsində Rəzdərə istiqamətindən gələn və stansiyaya doğru uzanan Oktyabr küçəsinin sol tərəfində görmüşdüm. Sonralar onu gətirib köhnə milis idarəsinin qarşı hıss**əsinə** qoydular. İlk zamanlar kimin işlədiyini deyə bilmərəm. Amma 50-ci illərdən orada Zeynəb xala işləyirdi. O, rayonun işğalına kimi qəzet köşkündə işlədi**.**

## Dağüstu park.

Şəhərimizin ən füsunkar yerində inşa edilən bu park, əsasən 60-70-ci illərdə salınıb. Bu tikinti uzun illər boyu tədricən inşa edilirdi. Onun ətrafındakı yamaclarda biz məktəblilər də hər il ağac əkməyə gedərdik. O dövrdə bütün iməciliklər bu parkın

ətrafında olardı. Parkın ətrafndakı yamac və terraslara minlərlə ağac və bəzək kolları əkilmişdir. Park Nəzir Qibləli oğlu Kərimovun hakimiyyəti illərində (RİK-nin sədri və I katib) inşa olub. O, 1963-1968-ci illərdə rayon ZDS İK-nin sədri, 1968-1979-cu illərdə isə  rayon PK-nin I katibi olub.  Park V.İ.Leninin adını daşıyırdı və orada onun heykəli ucaldılmışdı.

İlk dövrlərdə bir təpənim üçtündə inşa olunan əsas parkda yeməkxana  və digər inzibati binalar da inşa edilib. Sonrakı illərdə ondan bir qədər cənub tərəfdəki təpəliklərdə parkın davamı olaraq yeni park da salınır. Bu parka K.Marksın adı verilmiş və eyni zamanda da heykəli qoyulmuşdur. Parkların abadlaşdırılmasında, suvarılıb becərilməsində  xeyli işçi çalışırdı. .

## Mərkəzi  park.

Sovet hakimiyyətinin ilk illərində Pirçivan kəndində ilk park salınır. Bu barədə rayon qəzetində müxtəlif yazılar verilirdi. Onlardan birini sizə təqdim edirik.

Rayon mərkəzindəki Lenin bağı nümunəvi hala salınmış, yəni çoxlu gül, çinar, akasiya və sair ağaclar basdırılmış və bağın ən görkəmli yerində  Lenin yoldaşın heykəli qoyulmuşdur. Bağın müdafiəsi üçün ətrafına daşdan hasar çəkilmişdir

Sonrakı illərdə şəhərin baş planına əsasən bu park tikinti sahəsi üçün ayrılmışdır.  Belə olan halda yeni park salınması gündəmə gəlir.

Yeni parkın salınmasına 1988-ci ildən sonra, daha doğrusu, Tofiq Mehtiyev rayona I katib təyin olunandan sonra başlandı. Park şəhərin baş planına uyğun olaraq salınırdı. Bu istirahət yeri şəhərin əsas küçələri olan keçmiş K.Marks küçəsi ilə Lenin küçələrinin arasında yerləşirdi. Parkın mərkəzində rayonumuzun ilk generalı M.Əsədovun heykəli ucaldılacaqdı. Parkda xeyli ağac və bəzək kolları əkilmişdi. Bağın abadlaşdırılmasına, sulanmasına, güllərin əkilməsinə şəhid atası İsa Mönsümov rəhbərlik edirdi.

## Ticarət mərkəzi.

Məscid düzü adlanan yerin yaxınlığında xəstəxananın böyük bağı var idi. Rayon mərkəzi xəstəxanası üçün yeni bina tikiləndən sonra bu bağ da tikinti altına verildi. Burada böyük, ikimərtəbəli ticarət mərkəzi tikilməsi qərara alınır. 80-ci illərdə inşasına başlanan bu böyük ticarət mərkəzi 1986-cı ildə istifadəyə verildi. İkimərtəbəli olan bu kompleksdə ərzaq və sənaye malları mağazaları, restoran, şadlıq sarayı və s var idi. Təəssüflər olsun ki, binadan əhalimiz lazımınca istifadə edə bilmədi. Binanı 13 saylı tikinti idarəsi inşa etmişdir. Təntənəli açılışda «Azərittifaq»ın o vaxtkı sədri Çingiz Həsənov da iştirak etmiş, tikintidə əməyi keçənlərə hədiyyələr verilmişdi.

### Işğal ərəfəsində Ticarət Mərkəzində işləyənlər

| N | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1 | Tərlan | | |
| 2 | Bağırova Səlbi Kərim qızı | | |
| 3 | Əzimova Səmayə | | |
| 4 | Əsgərova Dilarə | | |
| 5 | Qulam | | |
| 6 | Səfərov İlham Bəndalı oğlu | | |
| 7 | Aslanova Zərifə Yusif q | | |
| 8 | Güllər | | |

## Bazar kompleksi.

Şəhərimizin böyüməsi nəticəsində və eyni zamanda onun baş planına uyğun olaraq bir çox idarə və müəssisələr şəhərin mərkəzindən kənara çıxarıldı. Belə idarələrdən biri Sovet hökümətinin ən önəm verdiyi Maşın Traktor Stansiyası idi. Son

illərdə o başqa adla adlanırdı. O demək olar ki, şəhərin mərkəzində, böyük bir ərazini tutmuşdu. 80- ci illərdə onu şəhərdən kənara çıxartdılar. Bunun yerində yeni bazar kompleksi inşa olundu. İşğal zamanı bazarın direktoru keçmiş milis mayoru Məmmədov Musa idi.

**Səməd Vurğun adına şəhər stadionu**

Şəhərimizin əsas stadionu 60-cı illərə kimi 1 saylı orta məktəbin yerində idi. 1964-cü ildə həmin ərazi məktəb tikintisi üçün ayrılanda yeni stadion tikintisi üçün də əvvəllər pambıq sahəsi olan yerdən böyük bir ərazi ayrıldı. Burada yeni stadionun inşasına başlanıldı. Əvvəllər stadionun yeri hamarlandı və sonra da ətrafına mişar daşından 2.5 metr hündürlüyündə hasar çəkildi. Stadionun həm şimal, həm də ki, cənub tərəfdən giriş qapıları var idi. Şəhərimizin stadionu deyərdim ki, kənd rayonları arasında ərazisinə görə ən böyük stadion hesab olunurdu. Stadionun qərb hissəsində tamaşaçılar üçün oturacaqlar da düzəldilmişdi. Əldə olan son məlumatlara görə stadionun ərazisində haylar tikinti işləri aparır və orada binalar inşa ediblər.

50-60–cı illərdə rayonumuzun futbol komandası «Spartak» adlanırdı. Mən hələ uşaq vaxtından tanıdığım futbolçulardan Arif Bəşirovu, Əlibayramı, Rasif Fərəcovu, Alagözü, Şahmar Bayramovu, Bəhmən və Əli Allahverdiyev qardaşlarını, şəxsən tanımadıqlarımdan Kazımov Voroşili, Kazımov Aydını, Rüstəmov Rafiqi, Əsgərov Eldarı, sonrakı illərdə Nizami Məhərrəmovu, Salam Cavadlını, Arif və Aydın Şıxəliyev qardaşlarını, Fazil və Zakir Təhməzov qardaşlarını, Sərdar İsmixanovu, Rəşid İsmixanovu, Əşrəf Qurbanovu, İlham Abbasovu, Mətləb Abışovu, Alış Bayramovu, Əliheydər və Ələkbər Məlikov qardaşlarını xatırlayıram. Adlarını unutduqlarımdan üzr istəyirəm.

Son illərdə şəhər stadionunda həm maraqlı idman yarışları, həm də Novruz və Məhsul bayramları keçirilirdi.

## Şəhərimizin ictimai yaşayış binaları

Pirçivanın rayon mərkəzi kmi təsdiqindən sonra buraya ətraf kəndlərdən güclü köç başlandı. Artıq kənd böyüyür, işçi qüvvəsinə tələbat artırdı. Belə olan halda bu gələn əhalinin yerləşməsi, yaşaması üçün də bir şərait yaratmaq lazım idi. Əvvəl fərdi evlər tikmək məqsədilə əhaliyə müəyən qədər torpaq sahələri ayırdılar ki, özlərinə təcili ev tikib yaşasınlar. Əhalinin ilk olaraq tikdikləri fərdi evlərin bəzisi torpaqdan idi və «dolma divar» adlanırdı. Sonra bunun ləng getdiyini və torpaq sahəsinin yetmədiyini əsas gətirib ictimai yaşayış evlərinin tikintisinə üstünlük verdilər. Gördülər ki, bununla da əhalinin yerləşməsini təmin etmək çətindir, onda həm ikimərtəbəli yaşayış binaları tikintisini genişləndirdlər, həm də əhaliyə torpaq sahələri verdilər. Onu da deyim ki, 1960-cı ilə kimi tikilən fərdi yaşayış evlərinin əksəriyətinin nə qərarı, nə də ki, təhkim aktları var idi.

1963-cü ildə Zəngilanla Qubadlının birləşib ayrılmasından sonra müəyyən ərazilər dəyişdirildi və bu səbəbdən də Zəngilana keçən kəndlərdən bir çox ailə Pirçivana köçməli oldu.

Sovet hakimiyyətinin ilk illərində indiki, son illərdə salınan parkın yerində birmərtəbəli bir bina var idi. Bina üzü gündoğana tikilmişdir. Bu binada bir çox təşkilatlar fəaliyyət göstərib. Binanın şimal hissəsində rayon qəzeti redaksiyası, ondan sonra kitab mağazası (60-cı illərdə burada kənd Zəngilandan olan Şəhrux işləyirdi), onun yanında ərzaq mağazası, daha sonra qarışıq mallar mağazası var idi. Binanın sonunda isə rayonumuzun ilk apteki olan 128 saylı aptek yerləşirdi.

Burada eyni zamanda mənim xatırlamadığım və Asif Bağırovun dediyinə görə, Zəngilanın (Pirçivanın) ilk yeməkxanası da olub. Orada Əkbər Fərəcov müdir işləyirdi. Yeməkxananın aşpazı isə Jenya adlı bir erməni (hay) olub. Burada eyni zamanda Rüstəmov Şahsuvar, Qurbanov Ağamalı və Oruc da işləyib.

70-80-ci illərdə Lenin küçəsinin qərb tərəfində bir –birinin

ardınca bir neçə inzibati bina inşa olundu. Onlardan Rabitə qovşağının, redaksiyanın və RPK binalarını qeyd edə bilərik. Redaksiya üçün ikimərtəbəli müasir tələblərə cavab verən bina tikiləndən sonra redaksiya ora köçdü və rayonun işğalına kimi orada fəaliyyətini davam etdirdi.

**Mədəni mallar mağazası**

Dəmiryolu vağzalı yaxınlığında ikimərtəbəli mədəni-mallar mağazası var idi. 70- ci illərdə şəhərimizin və rayonumuzun bir çox sakini bu mağazadan televizor almışlar. İkimərtəbəli mağazanın birinci mərtəbəsində mədəni-mallar, ikinci mərtəbəsində isə sənaye (geyim) malları satılırdı. Mədəni-mallar şöbəsində Zülfüqar, ikinci mərtəbədə isə satıcılardan Züleyxa Ağayeva, Məmmədov İzzətin yoldaşı Fizzə, biri də Sığortanın mühasibi Məhəmmədəlinin yoldaşı Dilarə Əsgərova işləyirdi. Mənim anam da burada bir neçə il xidmətçi işləyib. Binanın yanında isə ƏMXK–nın tikiş, bərbər və foto işçilərinin çalışdığı sex var idi.

**Zəngilanın giriş lovhəsi**

Müsahibim Zəngilan rayon İcra Hakimiyyətinin Memarlıq və Tikinti Şöbəsinin müdiri Dilşad Həsənova və vaxtı ilə Zəngilan rayon XDS İK-də rayon memarı yanında təsərrüfat hesablı qrup rəhbəri, memar Əli Məhərrəmovdur (Əli Məhərrəmov 2021-ci ildə Bakı şəhərində haqqın dərgahına qovuşdu. Allah rəhmət eləsin.)

-Salam, Dilşad xanım və Əli müəllim. Bu ay Zəngilan rayonunun işğalının 20 ili tamam olur. 20 il Zəngilansız keçən dövr barədə nə deyə bilərsiniz?

-Şöhrət müəllim çox ağrılı yerimizə toxundunuz. Bu 20 ildə biz çox əziyyətlər çəkdik. İnsanın xoşbəxtliyi, rahatlığı təkcə maddi durumdan asılı olmur. Əsas məsələ mənən zənginlikdir.

Bizim həyatımız nə qədər yaxşı, firavan olsa da mənəvi cəhətdən çox çətinliklərimiz, sıxıntılarımız var. Bilirsiniz ki, biz memarlar yaradıcı insanlarıq. Tikmək, qurmaq, yaratmaq bizim peşəmizdir. İnşa olunan hər bir tikinti, küçə, park və s. ilk növbədə bizim çəkdiyimiz layihələrdə canlanır, sonra reallığa çevrilir.

***-Sual.*** Axı indi sizin rayon da başqa məcburi köçkün rayonları kimi, müəyyən bir inzibati əraziyə malik deyildir. İndi sizin işiniz nədən ibarətdir.

***-Cavab.*** Düz deyirsiniz. İndi bizim layihə çəkmək, onu həyata keçirtmək üçün imkanlarımız çox məhduddur. Çünki ərazimiz, torpağımız yoxdur. Amma yenə də bizə aid olan müəyyən işləri görür, əhalimizin digər zəruri problemlərinin həllinə çalışırıq.

***-Sual.*** Əli müəllim siz nə düşünürsünüz?

***-Cavab:*** Mən rayonun işğalından sonra demək olar ki, bu sahədən bir qədər uzaqlaşmışam. Dövlət qurumlarında çalışmasam da, bəzi şəxsi layihələr və dizayn işlərim var.

***-Sual:*** Hər ikinizə bir sualla müraciət etmək istəyirəm. Hər il Zəngilan rayonunun işğalı ildönümündə televiziyada verilən görüntülərdə Zəngilana girişi ifadə edən iri hərflərdən ibarət bir **Zəngilan** yazısı görünür. Hər dəfə zəngilanlılar bu yazını görəndə çox təbii olaraq kədərlənir, qəmlənirlər. Rayonun bir çox yerlərini hamı tanımasa da, bu yazını oxuyan hər bir adam buranın Zəngilan olduğunu biləcək. Bu yazının yaranması barədə nə deyə bilərsiniz. Onu nə vaxt yazmısınız?

***-Cavab:*** Siz, həqiqətən də çox maraqlı bir obyekti nəzərə çatdırdınız. Mən də belə fikirdəyəm ki, gələcək nəsillər bilsin ki, rayonumuz da olan hər hansı bir binanı, abidəni tanımasın. Amma bu yazı özü-özünü tanıdır və deyir ki, mən Zəngilanam. Gələk yazının yaranması məsələsinə. 1988-ci ildə rayonumuza yeni katib gəldi, bilirsiniz ki, yeni gələnlər ilk növbədə yeniliklər etmək istəyirlər. Bir gün məni rayon partiya komitəsinə çağırıb dedi ki, Bakıdan rayona gələn yolun üstündə olan Zəngilan yazısını yaxşı görünən bir yerdə dəmirdən iri hərflərlə yazmaq lazımdır.

O vaxtlar bildiyiniz kimi, Qarabağ hadisələrinin başlandığı dövr idi. Bizim rayon iki tərəfdən, Ermənistan SSR ilə həmsərhəd olduğundan hər cür xoşagəlməz hadisə olacağından ehtiyat edir və özümüz buna hazır olmağa çalışırdıq.

Mənim işim çox olduğundan bu işi bizim qrupun rəhbəri Əli Məhərrəmova həvalə etdim. Bu suala, o dəqiq cavab verər.

***-Sual.*** Əli müəllim, bu yazı necə ərsəyə gəldi?

***-Cavab:*** Dilşad xanımın qeyd elədiyi kimi bu dövrdə işimiz həddən artıq çox və vəziyyət də olduqca gərgin idi. Həm sayıq olmağa çalışır, həm də işimizi görürdük. Düşmənin hər cür təxribatına qarşı hazır olmaq üçün müəyyən müdafiə tədbirləri, qoruyucu qurğular, müdafiə səngərləri də qurmaq lazım idi. Mənim də işim çox olduğundan bizimlə birlikdə işləyən Əli Cümşüdlüdən xahiş etdim ki, mənimlə getsin və bu işi tez yerinə yetirək. Biz birlikdə tikinti təmir idarəsinə getdik ki, həmin hərflərI böyük lay dəmirlərin üzərinə yazaq və qaynaqçı da onları kəsib düzəltsin. Elə oldu ki, bu zaman məni təcili olaraq başqa yerə çağırdılar. Mən də xahiş elədim ki, bu işi Əli müəllim yerinə yetirsin.

***-Sual:*** Belə çıxır ki, bu tarixi yazının, necə deyərlər, yaradıcısı, memarı, ixtisasca müəllim olan Əli Cümşüdlüdür, eləmi?

***-Cavab:*** Tamamilə doğrudur. Bu işi görən Əli Cümşüdlüdür.

***-Sual:*** Dilşad xanım arzu edək ki, torpaqlarımız alınsın, yurdumuza qayıdaq. Belə olan halda ilk işiniz, sirr deyilsə nə olacaq?

***-Cavab:*** Etiraf edim ki, memar olaraq bu yazını biz yazmalı idik, ancaq tale edə gətirdi ki, bunu yazmaq Əli Cümşüdlüyə qismət oldu. İnşallah geri qayıtsaq ilk işim, yeni latın əlifbası ilə Zəngilan yazısını yazmaq olacaq. Bu dəfə şansımızı qaçırmarıq.

-Sağ olun. Mən də arzu edirəm ki, sizinlə yeni yazılacaq **Zəngilan** yazısının yanında görüşək. 2013.

***Söhbəti apardı: Şöhrət Səlimbəyli***

## Pir

Azərbaycanda pirlər çoxdur. Ümumiyyətlə, pirlər bir o qədər də tədqiq olunmayıb. Rayonumuzun da ərazisində xeyli pir və ocaqlar mövcuddur. Ilk dəfə Azərbaycanda pirlər tarixçi alim Məşədixanım Nemət təfəfindən tədqiq olunub. Bu barədə o yazırdı:

«Adətən xanəgah, ribat, pir, türbə, imamzadə və s. abidələrin kitabələrində, həmçinin məzar daşlarında, alimlərin, din xadimlərinin, cəmiyyət şeyxlərinin, təriqət başçılarının adları çəkilir. Belə müqəddəs yerlərin bəzilərində, rəvayətə görə, şiə imamlarının qohumları dəfn olunmuşdur.

Kitabələrdə əsasən mürşid, mənasında işlənmiş ərəbcə şeyx, həzrət, farsca pir, azərbaycanca baba, ağa sözləri böyük ruhani alimlərə, sosial-mədəni-ideoloji-mərkəzlərin rəhbərlərinə verilən ləqəblər idi. Adətən, bu müqəddəs tikili komplekslərində alim, ruhani və yaxud təriqət başçılarının öz zaviyəsi (yaşayış yeri) olurdu. Şeyxlər zaviyədə oturub müridlərinə təlim verir, onların vasitəsi ilə də öz təlimlərini yayırdılar. Şeyxlərin öz nufuzundan ehtiyat edən feodal, tacir və başqaları ona müxtəlif bəxşişlər verirdilər ki, bu da nəticədə onların istədikləri binaları, kompleksləri tikməsinə imkan verirdi. Burada müridlərin yaşaması üçün binalar tikilir, orada tədris işləri aparılır, alimlərlə görüşlər keçirilirdi.

Beləliklə, ticarət yollarının üzərində meydana gələn bu sosial dini mərkəzlər bir mədəniyyət mərkəzi kimi qonşu ölkələrin də diqqətini cəlb edir, ölkələr arasında mədəni əlaqələr yaradırdı. Pir sözünü türkcə olan bir sözü ilə bağlayırlar. Bəzi kitabələrdə və orta əsr mənbələrində bu söz bir formasında işlənib. Pir-bir və yaxud birə sözü çox güman ki, Birinci, yəni öndə gedən, mürşid mənasını bildirir» 352. **6 Məşədixanım Nemət. Azərbaycanda pirlər. Azərbaycan Dövlət nəşriyyat Poliqafiya birliyi. B.1992. s 104.**

## Rayon mərkəzi ilə üzbəüz olan Pir

Pirlər dini inancla əlaqədar yaranmış və xalqın bir növ inam yerinə çevrilmişdi. Bəzən bu pirlər imamzadələrin məzarları üstündə, bəzən də elə belə bir yerdə olurdu. Bu etiqad yerləri İslamdan qabaq da mövcud idi. Onun İslamla heç bir əlaqəsi yoxdur.

Zəngilanda rayon mərkəzi ilə üzbəüz, hündür bir qayalıqda, Oxçuçayın sol sahilində belə bir Pir var. Bunun nə vaxtdan belə bir ziyarətgah halına çevrilmə tarixi məlum deyil. Amma onu deyə bilərik ki, bu, İslamdan xeyli əvvələ təsadüf edir. Pirin yerləşdiyi yer çox hündürdür. Həmin yerdən ətraf ovuc içi kimi görünür. Buradan cənuba doğru hər yer aydın görünür. Bir qədər arxada isə Əsgülüm və Süsən dağları yerləşir. Rayonun ən hündür məntəqəsi olan Şükürataz yaylağından baxanda bu Pir olan yer görünür.

Pirin yerləşdiyi ərazidə saqqız ağacları vardır. Bu ağaclar ancaq buradadır, ətrafda yoxdur.

## Oxçuçayı

Rayonumuzun ərazisindən suyu qurumayan 4 böyük çay axır. Bu barədə biz əvvəllər yazmışq. Burada isə ancaq şəhərimizin ərazisindən keçən Oxçuçaydan bəhs edəcəyik.

Bu çaya bəzən Çaundur da deyilir. Mənbəyini Qapıcıqdan alan Oxçu şərqə doğru axaraq Oxçu dərəsi və vadisindən keçərək, Süsən və Əsgü (Əsgülüm- Ə.S.) dağları arası ilə axıb Mincivan sərhəd postu yanında Araza tökülür. Bu çay Oxçu dərəsində Oxçuçay, mədənlərin və zavodların yerləşdiyi ərazidə Mədən çay, Araza töküldüyü yerdə isə Çaundurçay adlanır. Onun qolları Gığıçay və Acanantdır. Birinci Gığı dərəsi ilə, ikinci isə Acanant-türk dərəsi ilə axır. Çay rayonun Ağkənd kəndi ərazisindən başlayaraq Vəliqulubəyli kəndinə qədər rayonun ərazisindən keçərək Araza tökülür. (şəkil səhifə 431-də.)

## Oxçuçay problemindən

Yaşlı adamların dediyinə görə,əvvəllər çayın suyu olduqca şəffaf, duru, təmiz imiş. Sonralar Qafan və Qacaran rayonları ərazisində mis-molibden zavod və fabriklərinin tam gücü ilə fəaliyyətə başlaması nəticəsində çayın suyu çox lillənmiş və onun keçdiyi ərazi ölü zonaya çevrilmişdir. Rayon ərazisindən axan Bəsit və Həkəri çaylarının hövzəsi yaşıllığa büründüyü halda, Oxçuçay hövzəsində yaşıllıqdan əsər əlamət yoxdur. Bütün kimyəvi və zəhərli maddələr çaya axıdıldığından həm çayın hövzəsi həm də ki, suyu istifadə üçün yararsız hala düşmüşdür.

Sovet zamanında həm Azərbaycan respublikası rəhbərliyi, həm də ki, qonşu İran hökuməti bu barədə dəfələrlə SSRİ hökumətinə etirazlarını bildirsələr də heç bir nəticə alınmayıb. Qonşularımızın imkanı olsaydı dünyanın butün zəhərli maddələrini bu çaya atar və bizi məhv edərdilər. Bütün bunlara baxmayaraq rayonun bəzi təsərrüfatları və əhalisi bu sudan istifadə edirdilər. Nə eləmək olardı başqa çarəmiz var idi? Təsərrüfatlar, heyvanlar susuz necə keçinə bilərdilər.

Asif Bağırovun dedikləri:

-Təxminən, 1960-ci illərin birinci yarısı olardı. Anastas Mikoyan xüsusu qatarla Mincivana gəlmişdi. Bizi də məktəbdən onu salamlamağa aparmışdılar. Yerə xalçalar döşənmişdi.

O vaxt Mikoyanı Ermənistan SSR-nin Qafan şəhərindən SSRİ Ali Sovetinə deputatlığa namizəd göstərmişdilər. Bu səbəbdən də o, yolüstü Mincivanda dayanmışdı.

Kənd Zəngilandan lap yaşlı, əlləri və bədəni əsən Nəsir adlı bir kişi Oxçuçayın lilli suyundan yarım litrlik bir şüşəyə doldurub izdihama yaxınlaşırdı ki, bu suyu Mikoyana göstərsin. Güya bu hay bizim dərdimizə qalacaq. Nəsir kişi demək istəyirdi ki, Qafanın və Qacaranın zavodları bizim torpaqlarımızı, əkinlərimizi, eləcə özümüzü də zəhərləyir. Buna hökumətin bir rəhbəri kimi əncam çəkin. Nəsir kişi nəinki bunları demədi, heç ora yaxınlaşa da

bilmədi. O vaxtkı milis rəisi onu qucaqlayıb kənara tulladı. Heç hayın da xətrinə dəymək olar, amma özümüzünkünü əzərik. Yazıq qoca yerdə sərili qaldı.

Baxın, bu gün bu haylar başımıza nə oyun açır. Onlara əsas dil verən isə bax bu Mikoyan idi ki, biz onu o vaxt təntənə ilə qarşılayıb yola saldıq. Bax biz beləyik.

P.S. Onu da qeyd edim ki, bu Mikoyan 1937- ci ildən 1970 -ci ilə kimi SSRİ Ali Sovetinin deputatı olub. 1964- cü ilin iyunundan 1965- ci ilin dekabrına kimi isə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri işləyib. Erməni soyqırımı məsələsi və Qarabağın Ermənistana birləşdirilməsi ideyaları ona məxsusdur.

Bir haşiyə. 1964-cü ildə Xruşşov Mikoyanı SSRİ AS Rəyasət Heyətinin sədri elədi. Bu Xruşşovun öz işi. Bu münasibətlə deyərdim ki, bütün qəzetlərdə onun böyük bir şəkli və yazı verilib. Görəsən, bizim uğurlarımız barədə onlar öz qəzetlərində bir məlumat verərmi? Məncə, yox.

## Körpü

1960-cı ilə kimi Oxçuçayın üzərində davamlı bir körpü yox idi. 1962-1963-cü illərdə son günlərə kimi istifadə olunan müasir körpü tikildi və bundan sonra əhali çaydan rahat keçib gedə bildi. Körpünü tikinti batalyonu inşa edirdi. Buna qədər hər il müəyyən tikinti materiallarından müvəqqəti körpülər salınsa da, çay daşanda onu dağıdar, əhali də çətinlik çəkərdi. Rayon, xüsusən də şəhər əhalisi son günə kimi bu körpüdən istifadə elədi.

Körpünün sağ tərəfində Oxçuçayın sağında rayonda əksər adamların tanıdığı və yemək yediyi bir kababxana, Dağbəyinin kababxanası var idi.

Qeyd etdiyim kimi 60-70-ci illərdə şəhərimizdə böyük abadlıq və quruculuq işləri aparılmışdır. Bunun davamı olaraq rayon rəhbərliyi şəhərin bir neçə yerində daşdan çox gözəl görünüşlü bulaqlar inşa etdirmişlər. Bunlardan biri keçmiş

Rayon partiya komitəsinin qarşısında, ikincisi K.Marks küçəsi ilə 28 Aprel küçələrinin kəsişdiyi yerdə, üçüncüsü Məscid düzü deyilən yerdə K.Marks küçəsi ilə Oktyabr küçələrinin kəsişdiyi yerdə, şəhərimizin ilk ikimərtəbəli yaşayış binasının şimal şərq küncündə, dördüncüsü isə stansiya məhəlləsində idi. O, Mincivana gedən yolun sağ tərəfində inşa edilib.

Onu da qeyd edim ki, bunları o zaman bizə üzdə dostluq münasibəti göstərən hay ustalar inşa etmişlər. Bunları kimin inşa etməsindən asılı olmayaraq şəhərimizin memarlıq abidələri hesab olunurdu. İndi şəkildən gördüyünüz kimi onların nəvə və nəticələri  babalarının tikdikləri bulaqan su içirlər. Bizim isə ciyərimiz yanır. (şəkil səhifə 431-də)

## Qəbiristanlıq

Yaşayış məntəqələrinin tarixini maddi–mədəniyyət nümünələri olan məişət əşyaları və qəbiristanlıqların tədqiq edilməsi yolu ilə müəyyən edirlər. Şəhərimizdə əvvəllər qədim bir qəbiristanlıq var idi. Bu köhnə Pirçivan deyilən yerdən Beşdəli kəndinə gedən yolun üstündə idi. Pirçivan rayon mərkəzi kimi təsdiq olunandan sonra sürətlə böyüməyə başladı. Kəndlərdən bir çox ailələr bura axışıb gəldi və burada məskunlaşdılar. Eyni zamanda Qubadlı ilə Zəngilan birləşəndə də xeyli ailələr oradan Zəngilana köç etdilər. Əhali artdıqca təbii olaraq ölənlərin də sayı artırdı. Bu səbəbdən də köhnə qəbiristasnlıqda yer olmadığından rayon rəhbərliyi elə o qəbiristanlığın yaxınlığında, bir qədər qərb tərəfdə yeni bir qəbiristanlıq üçün ərazi ayırdı. Mal- qaranın və vəhşi heyvanların əraziyə daxil olmaması üçün  sahənin də ətrafında mişar daşından 1 metr hündürlüyündə divar hörüldü.

Şəkildən göründüyü kimi canımıza və malımıza qəsd edən bu nankor qonşularımız müqəddəs yerlərimizə də təcavüz edərək kimsə ilə işi olmayan o səssiz-səmirsiz daşlara da ziyan vermiş və onları dağıtmışlar. Təkcə İslam dini deyil, bütün dinlərdə qəbiristanlıqlara hörmətsizlik edilməsi pislənilir. (Şəkil s. 429-da)

## «Şərəf Nişanı» ordeni

«Şərəf Nişanı» ordeni (rus. *Орден «Знак Почёта»*) - 25 noyabr 1935-ci ildə təsis olunmuş SSRİ ordenidir. Mövcud olduğu illərdə Ordenlə 1.580.850 nəfət təltif olunub. Bunların arasında 72 nəfər həmyerlimiz də var.

| N | **Soyadı, adı, atasının adı** | **Qeyd** |
|---|---|---|
| 1 | Abdinov Famil Ocu oğlu | K.Marks adına kolxoz |
| 2 | Abdullayev Fərzulla Alış oğlu | Orconikidze adına kolx |
| 3 | Ağayeva Səmayə | Kalinin adına kolxoz |
| 4 | Aliyev Ali Müstəcəb oğlu | Kommuna adına kolxoz |
| 5 | Allahverdiyev Fərman | H.Aslanov adına kolxoz |
| 6 | Babayev Əbdül Hacı oğlu | Orta məktəb müəllimi |
| 7 | Bağırov Qubad Allahqulu oğlu | Baş baytar həkimi |
| 8 | Baxışov Bəhlul Məhəmməd oğlu | İskəndərbəyli XDS |
| 9 | Bayramova Qaratel Hüseyn qızı | Bakı Fəhləsi kolxozu |
| 10 | Bəbişova Gülşən Zaman qızı | Moskva kolxozu |
| 11 | Bəxtiyarov Məhəmmədəli İman o | Rayov ZDS İK katibi |
| 12 | Bəyalıyeva Gülnisə Əhmədalı q | Bakı Fəhləsi kolxozu |
| 13 | Bəylərov Mikayıl Cavad oğlu | Bakı Fəhləsi kolxozu |
| 14 | Cəfərov Diliş Cəmil qızı | Lenin adına kolxoz |
| 15 | Cəfərov Musa Müseyib oğlu | Raykomun II katibi |
| 16 | Cəfərova Gülüstan Abasqulu qızı | Lenin adına kolxoz |
| 17 | Əhmədov İmran Əyyub oğlu | Kommuna adına kolxoz |
| 18 | Əhmədov Şükür Kalbalı oğlu | K.Marks adına kolxoz |
| 19 | Əhmədov Zülfü Şahvələd oğlu | Rayon Partiya Komitəsi |
| 20 | Ələkbərova Balış Əbil qızı | 26 Komissar adına kol |
| 21 | Əliyev Qaçay Mirseyib oğlu | Kalinin adına kolxoz |
| 22 | Əzimov Dünyadur İsaq oğlu | K.Marks adına kolxoz |
| 23 | Hacıyeva Elmira Cəbrayıl qızı | Orconikidze adına kolx |
| 24 | Hacıyeva Fərizə Müseyib qızı | Lenin adına kolxoz |

| | | |
|---|---|---|
| 25 | Haqverdiyeva Rüxsarə Hüseyn q | 1 May adına sovxoz |
| 26 | Heydərli Soltan Heydər oğlu | Suvarma Sistemləri İd |
| 27 | Heydərova Solmaz Bəbir qızı | K.Marks adına kolxoz |
| 28 | Həsənquliyeva Ballı Abış qızı | Qələbə kolxozu |
| 29 | Həşimov İzzət Ələsgər oğlu | Raykomun III katibi |
| 30 | Hətəmov Cəlal Bəşir oğlu | Orconikidze adına kolx |
| 31 | Hüseynov Miriş Hüseyn oğlu | Kommuna adına kolxoz |
| 32 | İskəndərov İskəndər Almas oğlu | Mərk. Xəstəxana.həkim |
| 33 | İskəndərov Oruc Atlıxan oğlu | Bakı Fəhləsi kolxozu |
| 34 | Ismayılova Zəhra Qasım qızı | Şaumyan adına kolxoz |
| 35 | Kərimov Alməmməd Məhəmd | Raykomun II katibi |
| 36 | Kərimov Nəriman Bəhlul oğlu | Aqronom |
| 37 | Qafarova Müşkünaz Səttar qızı | 1 May adına sovxoz |
| 38 | Qəhrəmanova Şərqiyyə Abasqulu | Kalinin adına kolxoz |
| 39 | Quliyev Bəhlul Hüseyxan oğlu | Kalinin adına kolxoz |
| 40 | Quliyev Cəmil Şəmil oğlu | 1 May adına sovxoz |
| 41 | Quliyev Cəmşid Mürsəl oğlu | MTS traktorçu |
| 42 | Quliyev Ərşad Məhərrəm oğlu | Lenin adına kolxoz |
| 43 | Quliyev Qurban Musa oğlu | Rayov ZDS İK sədri |
| 44 | Quliyeva Mehnişan Əmirxan qızı | 1 May adına sovxoz |
| 45 | Qurbanova Adilə Vəli qızı | XXII Qurultay ad. kol |
| 46 | Qurbanova Məlahət Yarvələd q | Orconikidze adına kolx |
| 47 | Məmmədov Bəşir Əvəz oğlu | Engels adına kolxoz |
| 48 | Məmmədov Cəmil Rza oğlu | Kommuna adına kolxoz |
| 49 | Məmmədov Əmir Bayram oğlu | Kommuna adına kolxoz |
| 50 | Məmmədov Qərib Oruc oğlu | Lenin adına kolxoz |
| 51 | Məmmədov Rəşid İsmayıl oğlu | Engels adına kolxoz |
| 52 | Muradov Saleh İsa oğlu | Engels adına kolxoz |
| 53 | Musayeva Şahlıq Əmir qızı | Bakı Fəhləsi kolxozu |
| 54 | Mustafayev Məhərrəm | Mincivan Dəmir yolu |
| 55 | Nəbiyeva Mələk Nəsib qızı | Moskva kolxozu |

| | | |
|---|---|---|
| 56 | Nəcəfov Hidayət İsa oğlu | Traktorçu |
| 57 | Nobatalıyeva Gülbadam Murad q | Bakı Fəhləsi kolxozu |
| 58 | Nuriyeva Lətifə Hətəmxan qızı | Kommuna adına kolxoz |
| 59 | Nuriyeva Ruba Bayram qızı | Lenin adına kolxoz |
| 60 | Rəhimova Gülbəs | Bakı Fəhləsi kolxozu |
| 61 | Rüstəmova Şahsənəm Fərhad q | K.Marks adına kolxoz |
| 62 | Rzayev Köçəri Əli oğlu | XXII Qrultay adına kol |
| 63 | Sarıyeva Telli Cəfərqulu qızı | H.Aslanov adına kolxoz |
| 64 | Səmədova Məhluqə Məmmədqulu | Moskva kolxozu |
| 65 | Süleymanov Xudayar İbrahim o | Mincivan maşinist |
| 66 | Şamıyev Baxış İsaq oğlu | Kommuna adına kolxoz |
| 67 | Şıxəliyev Şıxəli Yaqub oğlu | Bakı Fəhləsi kolxozu |
| 68 | Şükürov Umudvar Əbülfət oğlu | Cahangirbəyli XDS |
| 69 | Zeynalov Əmir Balakişi oğlu | K.Marks adına kolxoz |
| 70 | Zeynalov Məmiş Abbas oğlu | K.Marks adına kolxoz |

*Ola bilsin ki bəzi təsərrüfatlar kolxoz, bəziləri isə sovxoz olub.

## Zəngilanın unudulmayanlarından
## Heç kim unudulmur!

### Quliyev Mədət Mahmud oğlu

*1941-1945- ci illər müharibəsi iştirakçılarından*



Quliyev Mədət Mahmud oğlu rayonun Dərəli kəndində anadan olub. Ilk təhsilini kənd məktəbində alıb. Sonra Şayıflı kənd 8 illik məktəbində təhsilini davam etdirib.

1941-ci ildə səfərbərliyə alınaraq cəbhəyə göndərilən Mədət Quliyev 3 ay kurs keçdikdən sonra döyüşən orduya göndərilir. Bir müddət sonra onu kəşfiyyat bölümünə göndərirlər. Burada da təcrübə keçdikdən sonra onu bir

generalla kəşfiyyata göndərirlər. Onlar Qara dənizdə yerləşən bir gəmidən qayıqla düşmənin artxasına keçirlər. Orada növbədə olan bir alman əsgərini zərərsizləşdirib sonra onun paltarını soyundurub özləri geyinirlər. Mədəd Quliyev həmin əsgərin əvəzindən növbədə dayanır. Bu zaman çölə çıxan bir alman generalını tuturllar. General Mədətə əmr edir ki, onu qayığa aparsın. O, alman generalını qayığa gətirib burada öz generalını gözləyir. Bir azdan general tələsik gələrək bildirir ki, bizi görüblər. Bu zaman bir alman qırıcısı havaya qalxaraq onların üzərinə əvvəlcə işıq salır, sonra isə bomba atır. Təsadüfən xilas olurlar. Həmin generalı qərargaha təhvil verirlər. Buna görə onlar 15 günluk məzuniyyətə buraxılırlar.

1943- cü ildə onu General Jukovun, generalı isə general Rokosovskinin orudusuna göndərirlər. Bu dövrdə o, Ukrayna cəbhəsində vuruşurdu. 1943-cü ilin fevralında yaralanır və Tiflisə hospitala göndərilir. Müalicə olunduqdan sonra onu bu dəfə Mozdok döyüşlərinə göndərirlər. 1945-ci ilin martında hücum zamanı yenidən yaralanıb. Müalicəsi bitmək üzrə olan zaman qələbə xəbərini alırlar.

Müharibədən sonra o, Azərbaycan dəmir yolunun İmişli hissəsində işə başlamış, sonra Mincivan stansiyasına dəyişilmişdir.

Sonrakı illərdə onu Zəngilan atçılıq fermasına müdir təyin edirlər. Burada da bir neçə ay işlədikdən sonra onu Akara tambıq təmizləmə məntəqəsinə müdir göndərirlər. Sonralar o, Kafan şəhərində dəmiryolu stansiyasında işinə davam etmişdir.

Torpaqlarımızın işğalından sonra Bakı şəhərində məskunlaşan Mədət Quliyev 22 sentyabr 1995- ci ildə dünyasını dəyişmişdir. Allah rəhmət eləsin

Onun 5 oğlu, 5 qızı var. Övladlarını vətənə layiq insanlar kimi tərbiyə etmişdir.

**Mustafayev Mustafa Əliabbas oğlu (1916-1978)**

*1941-1945- ci illər müharibəsi iştirakçılarından*



Mustafayev Mustafa Əliabbas oğlu 1916-cı ildə Zəngəzur qəzasının Ağkənd kəndində anadan olub. Sonra Bakı şəhərində Maliyyə Kredit Texnikumunu bitirib. Texnikumu bitirdikdən sonra rayona gələn Mustafa Mustafayev müxtəlif təşkilatlarda işləmişdır. M.Mustafayevin həyat yoldaşı Gülxanımın ikinci adı Rahilə idi. 1940- cı ilin dekabrında Gülxanım Cabbar qızı ilə evlənmişdir. Sonra 1941-1945-ci illər müharibəsi başlayanda səfərbərliyə alınaraq cəbhəyə göndərilmişdir. Döyüşlərin birində yaralanmış, müalicə olunduqdan sonra yenidən cəbhəyə dönmüşdür. Müharibənin sonuna kimi azğın düşmənə qarşı vuruşan M.Mustafayev baş leytenant rütbəsində ordudan tərxis olunmuşdur. Müharibədən sonrakı illərdə onun əsas fəaliyyəti Zəngilan rayon bankı ilə bağlı olub. O bu idarənin formalaşmasında xeyli əmək sərf etmişdir. M.Mustafayev 30 ildən çox rayon Dövlət bankına rəhbərlik edib. M.Mustafayev bir sıra orden və medallarla təltif olunmuşdur. O. 1978-ci ilin 17 iyununda Zəngilan şəhərində vəfat etmişdir.

**Qasımov Əziz Qarakişi oğlu (1906-1980)**

*1941-1945- ci illər müharibəsi iştirakçılarından*



Qasımov Əziz Qarakişi oğlu 1906-cı ildə Zəngəzur qəzasının Pirçivan kəndində anadan olub. Gənc yaşlarından ev təsərrüfatında, sonralar isə Pirçivan kolxozunda işləmiş, briqadir olmuşdur. 1941-ci ildə səfərbərliyə alınaraq cəbhəyə göndərilmişdir. Döyüşlərin birində ağır yaralanmış və müalicə

olunduqdan sonra 1944-cü ildə ordudan tərxis olunmuşdur. Rayona qayıtdıqdan sonra yenə həmin kolxozda işinə davam edən Qasımov Əziz Qarakişi oğlu briqadir, ferma müdiri vəzifələrində çalışmışdır. Müharibə zamanı bir medal alıb. Sonrakı illərdə Qasımov Əziz Qarakişi oğlu qələbə günlərində daha bir neçə medalla təltif olunub.

Qasımov Əziz Qarakişi oğlu 1980–cı ildə rayonda vəfat etmişdir.

**Məmmədov Ələsgər İsmayıl oğlu (1926-1989)**

*Sadə peşə adamlarından*



Məmmədov Ələsgər İsmayıl oğlu 1926- cı ildə Zəngilan rayonunun Rəbənd kəndində anadan olub. Erkən yaşlarında atasını itirən Ələsgər Məmmədovu 17 yaşı olanda səfərbərliyə alıb Bakı şəhərinə arxa cəbhəyə işə göndərmişlər. Bu illər Yusif Kərimov, Əhməd Dünyamalıyev Kolluqışlaq kəndindən Kamil Quliyev, Malatkeşindən Məhəmməd də onunla birlikdə getmişdir. Orada ağır işlərdə, neft sahəsində işləmişlər. Yoldaşları Bakıda qalıb işləməyə davam etsələr də o, geri rayona qayıdır. Orada qalsaydı bəlkə o da Yusif Kərimov, Əhməd Dünyamalıyev, Qaraş Əmirov kimi neft sahəsində böyük nailiyyətlər əldə edərdi. Bu üç nəfər sonralar SSRİ- nin ən yüksək ali mükafatına, Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. Nə isə, qismət.

O, ailə həyatı qurduqdan sonra bir müddət Bakı şəhərində yaşayıb. Bakının havası həyat yoldaşına pis təsir etdiyindən Pirçivan kəndinə köçməyə məcbur olurlar. Rayona qayıdandan sonra Pirçivanda yaşamağa qərar vermiş, ilk illərdə dəmiryolu yaxınlığındakı barakda yaşamışdır. Sonra MTS-də işə keçmiş və

orada işləmişdir. Arada Qaz idarəsində işləsə də yenidən RTS-ə işə qayıtmışdır. O burada o dövrdə rayonumuzda olan ən güclü traktorda S-100- də uzun illər işləmiş və gecəli-gündüzlü kolxoz və sovxozlarda şum aparmış və digər işləri yerinə yetirmişdir. Təsərrüfat elə bir sahədir ki, adam bəzən həftələrlə evinə, ailəsinə baş çəkə bilmir.

Məhz Ələsgər İsmayıl oğlu da belə işçilərdən biri idi. Təbii ki, vaxtlı-vaxtında yeməmək, istirahət etməmək istər istəməz insanı zəif salır və narahatlıq yaranır. Məmmədov Ələsgər İsmayıl oğlu arxa cəbhədəki işinə görə «**Rəşadətli Əməyə görə**» medalı ilə təltif olunub.

Məmmədov Ələsgər İsmayıl oğlu 26 aprel 1989- cu ildə Zəngilan şəhərində vəfat etmişdir.

## Abbasov Məhəmməd Simamverdi oğlu (1910-1997)

*1941-1945- ci illər müharibəsi iştirakçılarından*



Abbasov Məhəmməd Simamverdi oğlu 1910- cu ildə Zəngəzur qəzasının Pirçivan kəndində anadan olub. Pirçivan kənd 7 illik məktəbini bitirib. Sonra Bakıya gedərək Balaxanı kəndində Yunşünaslıq texnikumunu bitirmişdir. Texnikumu bitirdikdən sonra rayona gəlmiş və mərkəzi anbarda müdir işləmişdir.

Məhəmməd Simamverdi oğlu 1941-1945- ci illər müharibəsində iştirak etmiş və bir neçə medalla təltif olunmuşdur. Müharibədən sonra uzun müddət kolxozda işləmiş, təftiş komissiyasının sədri olmuşdur.

Abbasov Məhəmməd Simamverdi oğlu 1997-ci ildə Sumqayıt şəhərində vəfat etmişdir.

## Hacıyev Tofiq Rzaqulu oğlu (1932-2016)

*Şair*



Hacıyev Tofiq Rzaqulu oğlu 26 avqust 1932- ci ildə rayonun Qıraq Müşlan kəndində anadan olub. İlk təhsilini kənd Zəngilan orta məktəbində alan Tofiq Hacıyev elə həmin məktəbi də bitirib. Atası Rzaqulu kişi dövrünün savadlı mollalarından olub. O, eyni zamanda da yaxşı sənətkar-dəmirçi idi. Ailəsi 1952- ci ildə Pirçivan kəndinə köçüb.

Orta məktəbi bitirdikdən sonra o, Rayon İstehlak Cəmiyyətində bir müddət mühasib işləyib. 1952-ci ildə o, iki illik Naxçıvan Pedaqoji İnstitutuna daxil olub və 1954- cü ildə oranı bitirib.

Bu məktəbi bitirdikdən sonra Tofiq müəllim 1954-1955-ci tədris ilində Pirçivan kənd orta məktəbində müəllim kimi əmək fəaliyyətinə başlayır. 1972-ci ildə o, Zəngilan qiyabi axşam orta məktəbin direktoru olub.

Tofiq Hacıyev rayonun işğalına kimi Zəngilan şəhər 1 saylı orta məktəbində işləmişdir. 1985- ci ildə həmin məktəbdə dərs hissə üzrə direktorun müavini olmuşdur.

Rayonun işğalından sonra Bakı şəhərində müvəqqəti məskunlaşan Tofiq müəllim Biləcəri qəsəbəsindəki 284 saylı məktəbdə işini davam etdirmiş, gənc nəslin təlim- tərbiyə və təhsili sahəsində əlindən gələni əsirgəməmişdir.

Burada o, təxminən, on il məktəbin dərs hissə müdiri olmuşdur. Təsəvvür edin, Zəngilan məktəbində hər sinifdən 3 dənə olduğunu nəzərə alsaq, bu təxminən 30 sinif edər. Burada isə 80 sinif var idi ki, bu da təxminən 2000 dən çox şagird deməkdir. Bunların cədvəllərini yazmaq hər oğulun işi deyil. Tofiq müəllim bu işin öhdəsindən layiqincə gəlmişdir.

Tofiq Rzaqulu oğlu Hacıyev eyni zanmanda bədii yaradıcılıqla

da məşğul olmuş və öz stilinə uygun bədii nümünələr yaratmışdır.

Müəllim həmkarı Asif Bağırovun dediyinə görə, Tofiq müəllim Azərbaycanın «Xalq maarif əlaçısı» adı alıb.

Tofiq Hacıyevin 2011-ci ildə **«Gecikmiş şeirlər»** adlı kitabı çapdan çıxıb. Burada onun dostlarının xatirələri, şeirlər, qəzəllər, satirik nümunələr və bayatılar yer alır.

Atası Hacıyev Rzaqulu Mönsüm oğlu 1885-ci ildə qədim Zəngəzurun Qaraçimən kəndində anadan olub 1967- ci ildə Zəngilan şəhərində vəfat etmişdir. Anası Əcəb xala isə əslən Qıraq Müşlan kəndindəndir. Tofiq müəllim eyni zamanda şəhid atasıdır.

Hacıyev Tofiq Rzaqulu oğlu 2016-cı il aprel ayının 16-da Bakı şəhərində dünyasını dəyişmişdir. Allah rəhmət eləsin.

### Tofiq müəllimin yaradıcılığından bir neçə yarpaq. Qəzəl

Məni eşqin döndərdi, əzizim, bülbülə sənsiz,
Qəlbim parçalansın baxsam əgər, gülə sənsiz.
Zülfü hörüyün saldı məni eşqin kəməndinə,
Dözə bilmədi baqi–gülüstan sənsiz.
Bir an səni görməyəndə ildən artıq oldu mənə,
Ötdü hər ayrılığın uzun illər kimi sənsiz.
Aşiqin gözlərinə yoxdu meyl, mənim tək,
Bülbülün yox həvəsi, məndə olan həvəs kimi.
Dözmədi aşiq heç bir əziyyətə Hacı,
Haqq aşıqi dözdü möhnətlərə sənsiz.

### Bayatılardan bir neçə nümunə

Mən aşiq qəlbim qara,
Tapıbdı qəlbim yara,
Dərdim çoxdu bilmirəm,
Çatmayıb yəqin yara.

Əziziyəm gün keçər,
Könlümdən vətən keçər,
Düşmənin yad ayağı,
Torpağı basar keçər.

Əzizim qəmə düşdüm,
Dərd keçər dəmə düşdüm,
Hər an nikbin olsam da,
Bilmədim qəmə düşdüm.

Əzizim kimə qaldı,
Ev tikdim kimə qaldı,
O gözəl ev-eşiyim,
Murdar hayesə qaldı.

Əzizim qara geydi,
Torpaq da qara geydi,
Oğlu şəhid ananın,
Hamısı qara geydi.

**Satirik bir nümunə**

Tutularaq baxışları,
Təhlil etdi çıxışları,
Sözü çəkdi sağa-sola,
Məclis fikir vermir ona.

Atalar beləsi haqda nələr demir
Əzizim özün bilmir,
Danışır sözün bilmir,
Əyilib su içməyə,
Bulağın gözün bilmir.



**Səkildə arxada soldan sağa.** Hüseynov Abbas, Həsənov Əyyub, Əhmədov Abdulla, naməlum, Atakişiyev Seyfət, Səfərov İskəndər, Əsədov Ə, naməlum, naməlum, Eldar m, Səfər m. **Oturanlar:** Qafarov Məmməd, Sona müəllimə, Təhməzov Ziyad, Əliyev Nəriman, Ağayev N, Hacıyev Tofiq, Nəsibov Ziyad, Məməmdov Əsəd, Nəsirov Cəlal

## Quliyev Şəhriyar Paşa oğlu (1924-1992)

*Zəngilanlı şahmat bilicisi*



Quliyev Şəhriyar Paşa oğlu 1924-cü ildə Zəngilan rayonunun Məlikli kəndində anadan olub. Orta təhsilini Zəngilan kənd məktəbində bitirən Şəhriyar elə həmin məktəbdə də müəllim kimi əmək fəaliyyətinə başlayır. 1941-1945-ci illərdə Sovet Ordusunda xidmətdə olub. 1946- cı ildə Azərbaycan Dövlət Universitetinin yeni açılmış Fəlsəfə fakültəsinə daxil olur. Ailə vəziyyəti ilə əlaqədar təhsili yarımçıq qoyub, Ədliyyə Nazirliyi nəzdində xüsusi hüquq məktəbinə daxil olub. 1950-ci ildə hüquqçu ixtisası üzrə həmin məktəbi fərqlənmə diplomu ilə bitirib. 1950-1953-cü illərdə Ədliyyə nazirliyi nəzdində Zəngilan rayon Notariusu vəzifəsinə təyinat alıb. Sonra 1964-1967-ci illərdə Cəbrayıl, 1967-1970–ci illərdə isə Zəngilan rayon Məhsul Kənd Könüllü İdman Cəmiyyətinin sədri işləyib. Şəhriyar Quliyev 1973-1976-cı illərdə Azərbaycan Sovet Ensiklopediyası hüquq redaksiyasında böyük elmi redaktor olub. Sonralar o, 1946-cı ildə daxil olduğu Universiteti 27 ildən sonra 1976-cı ildə bitirir. O, Cəbrayılda şahmat məktəbi yaratmışdır. Indi həmin məktəb onun adını daşıyır. Quliyev Şəhriyar Paşa oğlu tələbələr arasında şahmat üzrə Azərbaycan çempionu olmuşdur.

1951-ci ildə Seyid Mirmahmudun qızı Qumru ilə evlənmiş və ondan üç övladı olmuşdur. Həyat yoldaşı küçədə baş verən qəza səbəbindən dünyasını dəyişmişdir. Bundan çox kədərlənən Şəhriyar Quliyev 38 yaşı olmasına baxmayaraq bir daha evlənməmişdir.

Quliyev Şəhriyar Paşa oğlu 04 fevral 1992-ci ildə Cəbrayıl qəsəbəsində vəfat etmişdir. Onun üç övladı, 9 nəvəsi və 16 nəticəsi var. Əsərləri barədə

1. Şahmat tariximizdən səhifələr. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı 1966. 112 səhifə

2. İliç şahmatı sevirdi. Bakı. Gənclik. 1970, 60 səhifə

3. Nərd oyunu Bakı . Gənclik 1985. 145 səhifə

4. Cəbrayıl. Bakı, İşıq nəşriyyatı. 1993, 106 səhifə

5. Azərbaycan xalqının mədəni məişətində şahmatın tarixi oçerkləri (VI-XX əsr) monoqrafiyası.

Quliyev Şəhriyar Paşa oğlu bunlardan əlavə yüzlərlə elmi və publisistik məqalənin müəllifidir.

**Novruzov İsmayıl Sarı oğlu (1929-2007)**



Novruzov İsmayıl Sarı oğlu 1929–cu ildə Zəngilan rayonunun Malatkeşin kəndində anadan olub. Uşaqlıq illəri II Dünya müharibəsinin ağır illərinə təsadüf edib. Arxa cəbhədə çalışmaqla bərabər 1946-cı ildə Pirçivan kənd orta məktəbini bitirib. Orta məktəbi bitirəndən sonra yenə bir neçə il istehsalatda çalışmış, 1949-1952-ci illərdə Sovet Ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

Ordudan tərxis olunandan sonra yenə də əmək fəaliyyətini davam etdirmiş, 1959-cu ildə Şamaxı kənd təsərrüfatı texnikumunu bitirmişdir. Sonra İsmayıl Novruzov Rostov şəhərində Don Kənd Təsərrüfatı İnstitutunu da bitirmişdir. O, 1952-ci ildən 1970-ci ilə kimi rayonda kolxozda baytar həkimi, ət-süd nəzarəti stansiyasının müdiri, «Oktyabr» kolxozunda sədr, ət tədarükü idarəsində müdir işləmişdir.

Onu 1970-ci ildə «Kalinin» adına sovxoza direktor təyin edirlər. 1973-cü ildə isə sovxozlar birliyinə baş direktor təyin etdilər. Bu illərdə rayonumuzda artıq pambıqçılıq ləğv edilir, onun əvəzinə üzümçülük tətbiq olunur, üzüm sahələri salınırdı. 1981-

1992- ci illərdə İ.Novruzov yenidən «Kalinin» adına sovxozda direktor işləmiş, sonra isə yenidən kolxoz sisteminə keçəndə «Günəşli» kolxozunun sədri seçilmişdir.

Rayonun işğalından sonra Bakı şəhəri Baytar sanitar idarəsində laboratoriya müdiri, baytar həkimi işləyib.

İşlədiyi müddətdə onun əməyi «Qırmızı Əmək Bayrağı» ordeni, «Əməkdə fərqlənməyə görə» medalı və bir çox «Fəxri Fərman» və təşəkkür ilə qiymətləndirilib. İsmayıl Novruzov dəfələrlə Zəngilan rayon və Zəngilan şəhər XDS-nin deputatı seçilib.

Novruzov İsmayıl Sarı oğlu 01 may 2007- ci ildə vəfat etmişdir.

**Novruzov Ərşad Hüseyn oğlu (1940-2013)**



Novruzov Ərşad Hüseyn oğlu 13 sentyabr 1940-cı ildə Zəngilan rayonunun Malatkeşin kəndində anadan olub. 1947-1957-ci illərdə Pirçivan qəsəbə orta məktəbində oxuyub. Orta məktəbi bitirdikdən sonra Oktyabr kolxozunda əmək fəaliyyətinə başlayıb.

Sonra Ərşad Novruzov 1959-1962-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmət keçmişdir. Ordudan tərxis olunduqdan sonra 1962-ci ildə Kirovabad (indiki Gəncə) şəhərindəki S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş 1967-ci ildə oranı baytar həkimi ixtisası üzrə bitirmişdir. Məktəbi bitirəndən sonra Ərşad Novruzov rayona qayıtmış və 1967-1976-cı illərdə rayon Baytar müalicəxanasında baytar həkimi işləmişdir. 1976- cı ildə onu rayon partiya komitəsinə təlimatçı qəbul elədilər. Sonra onu 1977- ci ildə Bakı Ali Partiya məktəbinə göndərdilər. İki il təhsil aldıqdan sonra 1979-cu ildə yenidən rayona qayıtmış və rayon partiya komitəsinin növbəti konfransında raykomun katibi seçilmişdir. 1983-ə kimi bu vəzifədə işlədi. Rayon Partiya

komitəsindən getdikdən sonra Novruzov Ərşad Hüseyn oğlu 1983-2011-ci illərdə Rayon Baytar müalicəxanasının laboratoriyasının direktoru işləyib. Rayonun işğalından sonra Bakı şəhərində məskunlaşan Novruzov Ərşad Hüseyn oğlu 27 may 2013-cü ildə elə bu şəhərdə də vəfat etmişdir.

**Məmmədov Rza Mikayıl oğlu (1916-2014)**

*1941-1945- ci illər müharibəsinin iştirakçılarından*



Məmmədov Rza Mikayıl oğlu 1916-cı ildə Zəngəzur qəzasının Mehri elinin Tuğ kəndində anadan olub. 19 yaşı olanda Zəngilanın Şatarız kəndinə gəlib. Rza dayı 1936-cı ildə Bakı şəhərində kinomexanik kursu bitirib və rayona qayıdaraq Kinolaşdırma idarəsində kinomexanik işləyib. O, 1937-ci ildə Kinolaşdırma idarəsinin müdiri təyin edilib. Rza Məmmədov 1942-ci ildə 1941-1945-ci illər müharibəsinə göndərilmiş və döyüşlərin birində yaralanmışdır. O, yaraları səbəbindən 1944-cü ildə ordudan tərxis olunur və rayona qayıtdıqdan sonra yenə Kinolaşdırma idarəsində öz işinə davam etmişdir. 1965-ci ilə kimi komxozda montyor işləyən Rza dayı 1965-ci ildə Zəngilan şəbəkə rayonu yaradılanda orada baş elektrik montyoru kimi çalışıb və 1970-ci ildən isə həmin idarədə usta işləyib. O bütün həyatı boyu ürəyində 2 sm-lik qəlpə gəzdirib.

1976–cı ildə təqaüdə çıxsa da yenə də işləyib. Rza Məmmədov 1980-ci ildə işdən ayrılıb, 1990-cı ildə Sovet ordusunun Bakı şəhərində əhalimizə divan tutmasından sonra rayon partiya komitəsinin qarşısında müharibə zaman aldığı partiya biletini atmışdır. Rayon qəzetində ədəbiyyat müəllimi Tofiq Hacıyev onun barəsində bir neçə dəfə yazıb.

Məmmədov Rza Mikayıl oğlu rayonun işğalından sonra Sumqayıt şəhərində məskunlaşmış və elə bu şəhərdə də 2004-cü

ildə vəfat edib. Oğulluğu İzzət Məmmədovun dediyi:

- Atalığım çox xeyirxah insan idi. Evdə həmişə böyük lampası olan kabeli olardı. Kimin xeyir işi olardısa, onu aparıb onların çadırına bağlardı. Hüzr yerlərinə də eyni ilə yardım edərdi.

## Məmmədov İzzət Ağabala oğlu



Məmmədov İzzət Ağabala oğlu 22 may 1937-ci ildə Pirçivan kəndində doğulub. 1945-ci ildə Pirçivan kənd orta məktəbinin I sinfinə daxil olan İzzət Ağabala oğlu məktəbin VII sinfini əla qiymətlərlə bitirmiş, sonra isə 1952-ci ildə Bakı Neft Texnologiya kollecinin energetika fakültəsinə daxil olmuşdur.

1956-cı ildə texnikumu bitirdikdən sonra təyinatı Sumqayıt şəhərindəki Boru-prokat zavodunda verlib. Burada 6 il işlədikdən sonra 1962-ci ilin sentyabrında Zəngilan rayonuna dəyişilib. Elə bu ildən elektrik ustası kimi əmək fəaliyyətini davam etdirib. 1965-ci ilin mayında Azenerji yaradılanda Zəngilan rayon şəbəkə rayonuna rəis müavini təyin olunub. 1969- cu ilin 01 oktyabrında Füzuli elektrik şəbəkəsinə dəyişdirilib. Sonra 1976-cı ilin 01 mayında Zəngilan şəbəkə rayonuna rəis təyin edilib. 1981- ci ildə bu vəzifədən azad olunandan sonra 100 kilovoltluq **elekrtoviliz** (bunun dilimizdə qarşılığını tapa bilmədim) xəttində usta işləyib. O, 8 fevral 1983-cü ildə Respublika Kənd Təsərrüfatı Nazirliyində Zəngilan kənd təsərrüfatı enerji müəssisəsinə sədr təyin olunub. 1990- cı ilin noyabrında isə Qubadlı şəbəkə rayonunun Zəngilan şəbəkə rayonu üzrə rəis işləyib. 1993-cü ilin mayında Zəngilan elektrik şəbəkəsinə baş mühəndis vəzifəsinə keçirilib. 29 sentyabr 2002-ci ildə elektrik şəbəkə rayonu ləğv olunandan sonra 02 yanvar 2003 –cü ildə Abşeron elektrik şəbəkəsində Xətai rayonu üzrə mühəndis keçirilib. 2005-ci ilin 03 yanvarında isə 110 kilovoltluq Əhmədli yarımstansiyasında usta işləyib. 08 yanvar 2009- cu ildə

işdən çıxıb. İzzət Məmmədov rayonda keçirilən mədəni kütləvi-idman tədbirlərində fəal iştirak edib. O, 1955-ci ildə dərəcəsiz şahmatçılar arasında Azərbaycan çempionu olmuşdur.

Məmmədov İzzət Ağabala oğlu 1971-ci ildə Zəngilan şəhər XDS-nin deputatu seçilb.

Məmmədov İzzət cavanlığında hücumçu kimi yaxşı futbol oynaması ilə yadda qalıb. Rayonda keçirilən futbol və şahmat turnirlərinə hakimlik etmişdir.

**Ailəsi barədə.** Yoldaşı Məmmədova Fizzə Firudin qızı.

-qızı Rəbiyə. İki oğlu var.

-oğlu Məhiyəddin-6 aylıq olarkən vəfat edib

-oğlu Arzu. Ali təhsili olub. ABŞ-da Kaliforniyada yaşayırdı. Ürək xəstəliyindən vəfat edib. Bir oğlu, bir qızı var

-qızı Sahibə. Ali təhsilli dili müəlimidir. Iki qızı var. Hər ikisi Azərbaycan Tibb İnstitutunu bitirib

-qızı Dilşad. Xarici Dillər İnstitutunu bitirib. Bir oğlu, bir qızı var

-oğlu Firdövsi. Orta təhsillidir, prezident təqaüdçüsüdür. Bir oğlu, bir qızı var

-qızı Gülbikə. Mühasibat texnikuunu bitirib. İki oğlu, bir qızı var

-qızı Kəmalə. Tibb Texnikumunu bitirib. Iki oğlu, bir qızı var.

## İmamverdiyev Cabbar Məhəmməd oğlu



İmamverdiyev Cabbar Məhəmməd oğlu 1937-ci ildə Zəngilan rayonunun Pirçivan kəndində anadan olub. O, 1956-cı ildə Pirçivan kənd orta məktəbini bitirmişdir. Orta məktəbi bitirdikdən sonra mühasiblik üzrə orta ixtisas təhsili aılb.

İmamverdiyev Cabbar Məhəmməd oğlu 50 il müxtəlif idarə və müəssisələrdə çalşımışdır ki, bunun da 39 ili dövlət qullugundadır.

İmamverdiyev Cabbar Məhəmməd oğlu bu illər ərzində Zəngilan rayon Xalq Məhkəməsində dəftərxana katibi, rayon VVAQ şöbəsi müdiri, Zəngilan şəhər XDS İK-nin katibi, Bəsitçay dövlət qoruğunda və Şəhər icra nümayəndəliyində baş mühasib işləmişdir.

İmamverdiyev Cabbar Məhəmməd oğlu 2011-ci ildə təqaüdə çıxmışdır. Bu münasibətlə ona «Fəxri Fərman» və pul mükafatı verilmiş və təqaüdə yola salınmışdır.

## Pirçivanlı ailələr barədə

### 1. Quliyev Kərim Məmmədbağır oğlu

*Kərim kişi barədə kitabımızda məlumat verilib.*

**Bağırova Firəngiz Kərim qızı.** Bağırova Firəngiz Kərim qızı 1926-cı ildə Pirçivan kəndində anadan olub. Ailə həyatı qurduqdan sonra Məlikli kəndində yaşamışdır. Həyat yoldaşı Hüsüyev Hüsü Həsən oğludur. Onların Yusif, Oqtay*, Elbrus, Elxan adlı dörd oğlu, Çimnaz adlı bir qızı var.

Bağırova Firəngiz Kərim qızı 16 dekabr 1984-cü ildə dünyasın dəyişib. Zəngilan şəhər qəbiristanlığında dəfn olunub.

### Bağırov Şamil Kərim oğlu (1927-2007)



Mən Sobu kəndində doğulsam da, Zəngilan şəhərindəki 28 Aprel küçəsində böyüyüb boya-başa çatdım. Məhəlləmizdə müxtəlif təbəqədən olan insanlar yaşasa da, qulluqçular üstünlük təşkil edirdi. Buradakı insanlardan biri olan Şamı Kərim oğlu Bağırovdan danışacağam. Məhəlləmizdəki ən yaxşı ev də Şamı dayının evi idi. Bu adam mənim nəzərimdə belə qalıb. Mən düşünürəm

ki, Şamı dayının öhdəsindən gəlmədiyi iş yoxdur.

Bağırov Şamil Kərim oğlu 16 iyun 1927-ci ildə Pirçivan kəndində anadan olub. İlk təhsilini Pirçivan kənd məktəbində almış, VII sinfi əla qiymətlərlə bitirməsinə baxmayaraq müharibə başlaması üzündən orta təhsil ala bilməyib. Elə bu təhsillə Pirçivan kəndindəki M.C.Bağırov adına kolxozda mühasib köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. Sonra mühasib, baş mühasib olub. 1943-cü ildə Füzuli şəhərində mühasibatlıq kursuna göndərilib.

Bu kurs barədə Qubad Bağırovun xatirələrindən oxuya bilərsiniz.

Samil Bağırov 1946-cı ildə hərbi xidmətə çağırılıb. O, 1952-ci ilin oktyabr ayına kimi xidmət etmiş, starşina rütbəsində xidmətini başa vurmuşdur. Orada onun üçün geniş perspektiv olsa da, anasının vəfatı səbəbindən rayona qayıtmışdır.

Rayonda əvvəl Hərbi komissarlıqda, SSİ-də baş mühəndis, 1953-1957-ci illərdə M.Bağırov adına kolxozda baş mühasib, 1957-1959-da İpək idarəsinbə baş mühasib, 1959-1964-cü illərdə RİC-də baş mühasib, 1965-ci ilin yanvarından 1968- ci ilin mart ayına kimi İpək idarəsində əvvəl baş mühasib, sonra direktor 1968-1975-ci illərdə Rayon ƏMXK-da baş mühasib, 1975-1989-cu illərdə İpək idarəsində baş mühasib, həmin ildən ömrünün sonuna kimi Baytarlıq idarəsində baş mühasib işləmişdir.

Bağırov Şamil Kərim oğlu barədə çox yazmaq olar. Amma mən onun tərcümeyi halını burada nöqtələmək istərdim.

O, 2012-ciilin fevralında gözlərini əbədi olaraq yumdu. Düzdür ömrü verən Allahdır. O bəlkə də çox yaşayardı. 2007- ci ildə işdən gələrkən axşam üstü onu avtomobil vurmasaydı. Aldığı bu zədədən getdikcə halı pisləşdi. Hadisə zamanı onun yanında olan Baytarlıq idarəsinin müdiri Əlifov Elbəyinin dediyinə görə Şamı dayı onu vuran sürücünün əyin-başına baxıb belə deyir.

-Baxıram, kasıb adama oxşayırsan. Qaç aradan çıx. Nə mən səni gördüm, nə də sən məni.

Şamı dayı öz işini bilən, yaxşı qazanan, eyni zamanda da

imkansızlara xərcləyən biri idi. Məscid düzü əsasən pirçivanlıların qədim yaşayış yeridir. Bizlər Pirçivana sonra gəlmişik. O məhəllənin xeyri-şəri onsuz keçməzdi.

Şamı dayı 1956- cı ilin fevral ayında toy eləyən zaman qonşuları Yunis kişi rəhmətə gedir. Bunu eşidən Şamı əslən Malatkeşindən olan toyçuların başı olan Seyidalı kişiyə 200 manat verib deyir. Dayı yeyin-için, amma toy çalınmayacaq.

Burada Şamı dayı haqqında deyilən xeyirxah sözlərlə yazımı bitirəm.

-Şamı Zəngilanın açar qıfılıdır. **Mürsəl Qocayev**

-Şamı Zəngilanın tacıdır. Zəngilanı Şamısız, Şamını da Zəngilansız təsəvvür etmək balığın quruda yaşaması kimi bir iddiadır. Şamı böyük qızıma elçiliyə gəlmişdi. Qızımı istəyən isə Həşimov İbadullanın oğlu Rəşid idi. Tərəddüd içindəydim. Ailəyə və oğlana tam bələd deyildim. Anam fikrimi duydu.

-Bala gör qapımıza kim gəlib?

Anamın sözündən Şamının gəlişindən çıxılmaz vəziyyətdə qalmışdım. Ona böyük hörmətim var. Həm də bilirdim ki, Şamının oğlan tərəfdən ağlı bir şey kəsməsə mənim qapıma gəlməz.

-Hə, dedim. Az keçməmiş yaxşı ailədə gözəl tərbiyə almış Rəşid oğlanlarımdan biri kimi özünü göstərə bildi. **Səhiyyədin Ağayev.**

Belə misallar çoxdur. Şamı dayı çox insanı çətinlikdən, həbs olunmaqdan qurtarıb. Sonda mən də anamdan eşitdiyim bir hadisəni yazmaqla yazımı bitirim.

Mənim atam Rayon İstehlak Cəmiyyətində (el arasında bu təşkilata raypo deyərdilər) fəhlə, anam isə mağazalardan birində xidmətçi işləyirdi. Bir dəfə anamın danışdığı bir hadisə məni bu qənaətə gətirdi ki, Şamı dayı hər işin xüsusilə də maliyyə işinin öhdəsindən əla gələr. Anam deyirdi ki, mağazadakı satıcılardan birinin ayağında mal (el arasında belə deyərdilər) qalıb. Onun dediyinə görə, o vaxtkı pulla, 5 və ya 6 min rus pulu idi. O dövr üçün bu böyük məbləğ idi. Bu pula bir ev və ya maşın almaq olardı.

Satıcı qadın ağlayır, dərdinə çarə axtarırdı. Rayon İstehlak Cəmiyyətində hansı baş bilənə dərdini dedisə, çarə tapılmadı, dedilər ki, mümkün deyil, gərək ödəyəsən.

Günlərin bir günü bir nəfər ona kağızları bir Şamı qağaya da göstər-deyir. Qadın da eləmə tənbəllik dərdini ona anladır. Şamı dayı deyər ki, sənədlərini gətir baxım.

Uzun sözün qısası, Şamı dayı o işi çürütdü və qadından Rayon İstehlak Cəmiyyəti bir qara qəpik belə ala bilmədi. Bax, Şamı dayı işini belə bilən biri idi. Mən deyərdim ki, Şamı dayı rayonumuzun Karl Marksı idı.

**Mustafayeva Səlbi Kərim qızı (1932-2014)**

Mustafayeva Səlbi Kərim qızı 1932- ci ildə Pirçivan kəndində anadan olub. Səlbi xanım uzun illər elə burada mağazada satıcı işləmişdir. Həyat yoldaşı Mustafayev Qurban Əmir oğludur. Onların Rübabə, Sevda, Solmaz, Güləbətin adlı dörd qızı, Əmir adlı bir oğlu var. Əmir ailənin ikinci övladıdır.

Mustafayeva Səlbi Kərim qızı 01 oktyabr 2014-cü ildə Bakı şəhərində vəfat etmişdir.

**Bağırov Şəhriyar Kərim oğlu**
**(1935-1985, yanvar)**



Bağırov Şəhriyar Kərim oğlu 1935- ci ildə Pirçivan kəndində anadan olub. Pirçivan kənd orta məktəbində oxumuşdur. Məktəb illərində tar, qarmon, nağara çalmağı öyrənmişdi. Eyni zamanda yaxşı əl qabiliyyəti var idi. Son dövrlərdə şəhərimizin küçələrini bayramlarda bəzəyən şüarların əksəriyyətini Şəhriyar Bağırov yazardı.

Yeddinci sinfi bitirəndən sonra Salyan

şəhərindəki Kənd Təsərrüfatı Texnikumunu yer quruluşçusu ixtisası üzrə bitirib.

Texnikumu bitirdikdən sonra Pirçivandakı M.C.Bağırov (sonralar Oktyabr) adına kolxozda naryadçı, komsomol komitəsinin katibi, Pirçivan kənd sovetində baş mühasib, Mədəniyyət şöbəsində qırmızı çadır müdiri, evlər idarəsinin müdiri, rayon Əhaliyə Məişət Xidməti Kombinatında sex müdiri vəzifələrində işləmişdir. Şəhriyar Bağırovun, sözün həqiqi mənansında, gözəl əl qabiliyyəti var idi. Bu adam gərək Mədəniyyət şöbəsində, orta məktəblərdən birində əməkmi, nəğməmi, rəsmxəttmi müəllimi kimi işləsəydi ondan balalarımız daha çox şey öyrənərdi, nəinki Əhaliyə Məişət Xidməti Kombinatında da dəmir tor toxumaqla.

Şəhriyar Bağırov, təxminən, 1960-cı ildə axşam məktəbində orta təhsil alıb. Bağırov Şəhriyar Kərim oğlu 1985-ci ilin yanvar ayının 24-də axşam evə gedərkən Şərab zavodunun yaxınlığında maşın vurması səbəbindən, qardaşı Asif Bağırovun dediyi kimi «nəsihətsiz-vəsiyyətsiz» dünyadan köçdü. Natiq adlı bir oğlu var.

## Bağırova Xasa Kərim qızı (1942-1968)

Bağırova Xasa Kərim qızı 1942-ci ildə Pirçivan kəndində anadan olmuş, elə bu şəhərdə də 1968- ci ildə haqqın rəhmətinə qovuşmuşdur.

## Bağırov Asif Kərim oğlu

*Asif müəllim barədə kitabımızda məlumat verilib*

## Məmmədov Tumas Qasım oğlu



Məmmədov Tumas Qasım oğlu Pirçivanın əsas sakinlərindəndir. Əslən Pirveyis kəndindən olsa da övladları Pirçivanda doğulublar və bu şəhərin ilk sakinləridirlər. Böyük vətən müharibəsi iştirakçısı olan Tumas kişi müharibədən sonra «Kalinin» adına sovxozda çalışmış, 1971–ci ildə vəfat etmişdir. Beş övlad böyüdən Tumas kişinin iki oğlu polis mayoru, böyük oğlu Allahverdi isə kənd təsərrüfatı mütəxəssisidir. Qızları Hafizə ticarət işçisi, Firuzə isə müəllimədir.

## Qasımov Allahverdi Tumas oğlu (1941-2020)



Qasımov Allahverdi Tumas oğlu 03 iyun 1941- ci ildə Zəngilan rayonunun Pirçivan kəndində doğulub. 1949-1959- cu illərdə Pirçivan kənd orta məktəbində oxumuşdur. Orta məktəbi bitirdikdən sonra bir neçə il istehsalatda çalışmış, sonra 1963- cü ildə Şəki ipəkçilik texnikumuna daxil olmuşdur. 1964-1966-cı illərdə Sovet Ordusu sıralarında hərbi xidmət keçən Allahverdi Qasımov xidmətini bitirdikdən sonra Moskva şəhərindəki K.A.Timirzayev adına Kənd Təsərrüfatı Akademiyasına daxil olmuşdur. Sonra o, təhsilini Kirovabad (indiki Gəncə) şəhərində olan S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutunda davam etdirmiş, 1971- ci ildə oranı qiyabi olaraq bitirmişdir.

Qiyabi təhsil alan Allahverdi Tumas oğlu, təxminən, 1966-cı ildə İpək idarəsinin müdiri olan Şamı Bağırov tərəfindən həmin idarəyə laborant vəzifəsinə qəbul edilib. Şamı Bağırovun bu

təyinatı gənc mütəxəssis üçün deyərdim ki, uğurlu oldu. İllər sonra Allalhverdi Qasımov ilk dəfə əmək fəaliyyətinə başladığı həmin idarəyə rəhbərlik etdi. Sonra o, rayonda «Kalinin» adına kolxozda baş aqronom işləmişdir. Sonrakı illərdə İpək idarəsində müdir, «Kalinin» adına sovxozun, Konserv zavodunun direktoru, Bitki mühafizə idarəsinin rəisi işləmişdir.

Işlədiyi müddətdə Allahverdi Qasımov «sosializm yarışının qalibi» döş nişanı ilə təltif olunub. Allahverdi Qasımov 2020-ci ildə Bakı şəhərində vəfat etmişdir. Ailəlidir 5 övladı var.

**Qasımov Məmməd Tumas oğlu**

*Polis podpolkovniki*



Qasımov Məmməd Tumas oğlu 1947-ci ilin 01 iyulunda Zəngilan rayonunun Pirçivan kəndində anadan olub. 1966-cı ildə Bakı şəhəri 144 saylı orta məktəbi bitirmişdir.

Sonra Sovet Ordusunda xidmətdə olmuş, 1967-ci ildə ordudan tərxis olunduqdan sonra Bakı milis məktəbinə daxil olmuşdur. Məktəbi bitirəndən sonra 1971-ci ildə təyinatla onu Səlyan rayon DİŞ-nə əməliyyatçı göndərirlər.

1978- ci ilə kimi burada işləyən Qasımov Məmməd Tumas oğlunu sonra Bakı şəhərinin Xətayi rayon DİŞ-nin sərəncamına göndərirlər. Milis sistemində işləyə-işləyə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirən Qasımov Məmməd Tumas oğlu 1999-cu ildə polis polkovnik-leytenantı rütbəsində təqaüdə çıxmışdır.

## Qasımov Zakir Tumas oğlu

*Polis mayoru*



Qasımov Zakir Tumas oğlu 10 iyun 1952-ci ildə Pirçivan kəndində anadan olub.

1960-cı ildə Zəngilan qəsəbə orta məktəbinə getmiş, 1970-ci ildə oranı bitirmişdir. Orta məktəbi bitirdikdən sonra Zakir Tumas oğlu 1971-1973- cü illərdə Sovet Ordusu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən sonra 1973-cü ilin sentyabrında Bakı şəhəri Milis məktəbinə daxil olmuş 1977- ci ildə oranı bitirmişdir.

Məktəbi bitirəndən sonra onu təyinatla Bakı şəhəri N.Nərimanov rayon DİŞ-nə inspektor göndərirlər. 1981-ci ildən isə həmin idarədə sahə müvəkkili kimi işini davam etdirmişdir. Qarabağ döyüşlərinin iştirakçısı olan Zakir Qasımova DİŞ-nin əmri ilə müharibə veteranı vəsiqəsi verilmişdir.

Qasımov Zakir Tumas oğlu 2007-ci ildə polis mayoru rütbəsində təqaüdə çıxmışdır.

## Qasımova Hafizə Tumas qızı

Qasımova Hafizə Tumas qızı 1933-cü ildə Pirçivan kəndində anadan olub. Zəngilanda ilk orta məktəbin yanında yaşayırdılar. Yoldaşı orta məktəbdə işləyən hərbi və idman müəllim Məmmədov Rəhim idi. Rəhim müəllim əslən Qazax rayonundandır. O əvvəlcə rayon Hərbi Komissarlığında işləmiş, sonra ailə həyatı qurduğundan burada məskunlaşmışdır. Hafizə xanım əvvəllər satıcı işləyib. Son illərdə isə evdar qadın idi. Qasımova Hafizə eyni zamanda şəhid anasıdır. Oğlu Səməd Qarabağ müharibəsində şəhid olub.

*Səməd barədə kitabın Zəngilan şəhər orta məktbinin şəhid məzunları bölümündə məlumat verilir.

## Qasımova Firuzə Tumas qızı

Qasımova Firuzə Tumas qızı Pirçivan kəndində anadan olub. Zəngilanda orta məktəbi, sonra Gəncə Pedaqoji İnstitutunu bitirib. Rayonda kənd Zəngilanda yaşayıb və müəllimə işləyirdi. Yoldaşı İbrahimov Zakir Murad oğludur.

## Həsənov Davud Cəfər oğlu



Həsənov Davud Cəfər oğlu 1919-cu ildə Pirçivan kəndində anadan olub. Ali partiya məktəbini bitirmişdir. Uzun illər rayonda rəhbər partiya və sovet orqanlarında işləmişdir. İşğaldan sonra Bakı şəhərində vəfat etmişdir. Həyat yoldaşı İsmət xanım 1923-cü ildə anadan olub. Orta məktəbdə kitabxanaçı işləyirdi. Onların dörd oğlu, iki qızı var.

Qızı Əfruz -ali təhsilli həkim, oğlu Telman- ali təhsilli həkim, oğlu Ramiz - ali təhsilli müəllim, qızı Dilavuz-ali təhsilli müəllim. Fizika-riyaziyyat elmləri namizədi, oğlu Cəfər*(vəfat edib)- ali təhsilli həkim, oğlu Rasif - ali təhsilli mühəndis

## Həsənov Şahsuvar Xankişi oğlu

Haqqında kitabımızda yazı var.

Həsənov Şahsuvar Xankişi oğlu Pirçivanın yerli sakinlərindəndir. Böyük Vətən Müharibəsinin iştirakçısı olan Şahsuvar Həsənov rayonda mühüm vəzifələrdə işləyib. O bir neçə çağırış Zəngilan qəsəbə ZDS İK-nin sədri işləyib. Həyat yoldaşı Minarə xanım Aqrar Sənaye Bankında əməliyyatçı işləyib. Onların iki oğlu, iki qızı var.

Xürrəm* Şahsuvar oğlu- ali təhsilli mühəndis, Dilşad

Şahsuvar qızı- ali təhsilli memar, Gülxar Şahsuvar qızı- ali təhsilli riyaziyyat müəllimi, Xəyyam Şahsuvar oğlu- ali təhsilli mühəndis, polkovnik leytenant

**İbrahimov Qasım Saleh oğlu**



İbrahimov Qasım Saleh oğlu Pirçivan kəndində anadan olub. Uzun illər rayonda sürücü işləyib. Onların uşaqları.

Vahid sürücü, Sahib*-sürücü, Səlbi* müəlimə, Güloğlan sürücü, Mələk, Tahir sürücü, Vaqif, Vidadi, Elçin, Aybəniz.

**İbrahimov Xəlil Saleh oğlu**



İbrahimov Xəlil Saleh oğlu 21 aprel 1918-ci ildə Pirçivan kəndində anadan olub. Xəlil İbrahimov uzun illər şəhərimizdəki yeməkxanalarda aşpaz işləyib. İbrahimov Xəlil Saleh oğlu elə doğulduğu gündə 21 aprel 1985-ci ildə vəfat etmişdir. Onun uşaqları.

Oğlanları Oqtay, Etibar, Rafiq , Zakir, Cənnət*, Saleh, qızları Aygün, Mahirə, Natəvan.

**Namazov Allahverdi**

Namazov Allahverdi uzun illər şəhərimizdə çayçı işləyib. Rayonda çoxları ona «dayı» deyərdi. İşğaldan sonra Sumqayıt şəhərində vəfat etmişdir. Namazov Nadir Allahverdi oğlu. Milis sistemində işləyib. Namazova Şölə Allahverdi qızı, Namazova Bahar Allahverdi qızı

## Cəfərov Bahadur (qoçu)

Bahadur Pirçivanlıdır. Yoldaşı Şaban. Onların uşaqları.
Çiçək Bahadur qızı, İman Bahadur oğlu, Eldar Bahadur oğlu
Elman Bahadur oğlu, İkinci yoldaşı Səriyyə. Ondan da uşaqları var.

## Allahverdiyev Bəhmən

Allahverdiyev Bəhmən Pirçivanın yerli sakinlərindəndir. Uzun illər tikinti-təmir idarəsinin müdiri işləyib. Böyük Vətən müharibəsinin iştirakçısıdır. Şəhərimizin abadlaşdırılmasında onun böyük əməyi olub. Həyat yoldaşı Qorlova Mariya uzun illər şəhər orta məktəbində müəllimə işləyib. Onların iki qızı, iki oğlu var.

Övladları bunlardır. Qızı Liliana (Leyla da deyirdilər, tibb elmləri namizədi), Laura, oğlanları Feliks və Alik

## Firuzə xanım oğlu
## Cahangirov Əmiraslan Məlik oğlu



Cahangirov Əmiraslan Məlik oğlu əslən Sobulu olsa da 2 yaşından atasını itirmiş anası Firuzə xanımla birgə Pirçivan kəndində yaşamışdır. Yoldaşı Gülüzar Allahverdiyev Bəhmənin bacısı qızıdır. Pirçivanlıdır. Onların uşaqları.

Cahangirov Fəxrəddin-zərgər
Cahangirov Nurəddin-ali təhsilli mühəndis
Cahangirova Validə- ali təhsilli müəllimə

## Müseyib Əli oğlu

Mürseyib kişi 1909-cu ildə Pirçivan kəndində anadan olub, 1972-ci ildə elə burada da dünyasını dəyişib.. Yoldaşı Şahbəyim. Onların uşaqları.

Məlahət* Müseyib qızı, Məhərrəm Müseyib oğlu (2022-ci ilin may ayında dünyasını dəyişib.), Hüsü Müseyib oğlu, Gəray Müseyib oğlu, Kifayət Müseyib qızı

## Quliyev Xəlil.



Quliyev Xəlil əvvəllər rayon Komsomol Komitəsinin I katibi olub. Son illərdə isə Rabitə Qovşağında işləyib. Xəlil Quliyevin atası Pirçivan kəndinin axundu olub. Yoldaşı Yazdagül. Onların uşaqları. Quliyeva Xuraman Xəlil qızı, Quliyeva Rahilə *(vəfat edib) Xəlil qızı , Quliyev Rəşid Xəlil oğlu, Quliyeva Rəfiqə Xəlil qızı

## Hacıyev Rüstəm Abdulla oğlu



Hacıyev Rüstəm Abdulla oğlu 1910-cu ildə Pirçivan kəndində anadan olub.

Birinci yoldaşı Zivər, ondan olan qızı İmpiryal

Rüstəm kişinin ikinci yoldaşı Mehriban, ondan Abdulla, Zeynal adlı iki oğlu, Qəndili, Bəsti və Hüsniyyə adlı qızı olub.

## Alməmmədov Oruc Müseyib oğlu



Alməmmədov Oruc Müseyib oğlu 1925-ci ildə Pirçivan kəndində anadan olub. Pirçivan kənd məktəbini bitirib. 1943-cü ildə səfərbər edilərək döyüşən orduya göndərilmişdir. Müharibədən sonra doğma rayona qayıdan Oruc dayı mühasiblik kursunu bitirmişdir. O uzun illər, 54 il 6 ay Zəngilan rayon Aqrar Sənaye Bankında mühasib, baş mühasib işləmişdir. Böyük Vətən Müharibəsinin I qrup əlili idi. Sinəsini orden və medallar bəzəyirdi.

Alməmmədov Oruc Müseyib oğlu 1993-cü ildə rayonumuzun Ermənistan Respublikasının Silahlı Qüvvələri tərəfindən işğalından sonra Bakı şəhərində məskunlaşmışdır. Burada da bir neçə il Xırdalan qəsəbəsində yerləşən rayon Aqrar Sənaye Bankında öz fəaliyyətini davam etdirmişdir.

Oruc Müseyib oğlu I dərəcəli Böyük Vətən Müharibəsi Ordeni və bir neçə medal, «Fəxri Fərman» la təltif olunub.

Oruc dayı 20 oktyabr 2014-cü ildə Bakı şəhərində vəfat etmişdir. Onun 6 övladı, 13 nəvəsi, 21 nəticəsi var.

Övladları bunlardır:

-qızı Ofeliya, 1952-ci ildə Pirçivan kəndində anadan olub.

-qızı Səlbi, 1955-ci ildə Pirçivan kəndində anadan olub.

-oğlu Nəsib, 1957-ci ildə Zəngilan qəsəbəsində anadan olub.

-qızı Solmaz, 1959-cu ildə Zəngilan qəsəbəsində anadan olub.

-qızı Sərfinaz, 1962-ci ildə Zəngilan qəsəbəsində anadan olub.

-qızı Gülşən, 1964-cü ildə Zəngilan qəsəbəsində anadan olub.

## Hüseynov Mafıra Dadaş oğlu



Hüseynov Mafıra Dadaş oğlu 1938-ci ildə Pirçivan kəndində anadan olub. İlk təhsilini kənd məktəbində alan Mafıra sadə peşə adamlarından idi. Natamam orta təhsilli idi. Ömrü boyu fəhləlik etmiş, rayon tikinti təmir idarəsində bacardığı işləri yerinə yetirmişdir.

Hüseynov Mafıra Dadaş oğlu rayonun işğalından sonra Bakı şəhərində məskunlaşmışdır.

Yoldaşı Şövkət Şirin qızıdır. Onların bir oğlu, dörd qızı var.

Sevinc Mafıra qızı, Səadət Mafıra qızı, Aygün Mafıra qızı, Qızılgül Mafıra qızı, Tapdıq Mafıra oğlu

## İsmayılov Qanvoy Oruc oğlu

İsmayılov Qanvoy Oruc oğlu 1915-ci ildə Pirçivan kəndində anadan olub. Onun övladlarından tanıdıqlarım bunlardır.

-İsmayılov Madar Qanvoy oğlu

-İsmayılova Sevil Qanvoy qızı

-İsmayılova Roza Qanvoy qızı

-İsmayılova Ramilə Qanvoy qızı

-İsmayılova Tamilə Qanvoy qızı

-İsmayılova Qamilə Qanvoy qızı

-İsmayılova Elmira Qanvoy qızı

İsmayılov Qanvoy Oruc oğlu Zəngilan şəhərində uzun illər müxtəlif vəzifələrdə işləyib. İşğaldan əvvəl Zəngilan şəhərində vəfat etmişdir

**Kazımov Loğman Mütəllim oğlu**

Kazımov Loğman Mütəllim oğlu 1912 –ci ildə Pirçivan kəndındə anadan olub. Zəngilan şəhərində müxtəlif işlərdə işləmiş, Suvarma Sistemləri İdarəsində anbardar olmuşdur. Yoldaşı Gülçü (Gülçöhrə) xanım idi və şəhərimizdə dərzilik edərdi. Onların bir oğlu bir qızı var

-Kazımov Voroşil Loğman oğlu, ali təhsilli memardır. Uzun illər Bakıda Layihə İnstitutunda direktor işləyib.

-Kazımova Şükufə Loğman qızı, müəllimə

Kazımov Loğman Mütəllim oğlu işğaldan əvvəl Zəngilan şəhərində vəfat etmişdir.

**Mustafayev Qurban Məşədi Əmir oğlu**



Mustafayev Qurban Məşədi Əmir oğlu 1928-ci ildə Pirçivan kəndində anadan olub. Uzun illər şəhərimizdə ticarət sistemində işləyib. Yoldaşı Mustafayeva (Bağırova) Səlbi Kərim qızıdır. 2014-cü ildə Bakı şəhərində vəfat etmişdir. O da ticarətdə işləyib. Onların bir oğlu, dörd qızı var.

-Mustafayeva Rübabə Qurban qızı

-Mustafayev Əmir Qurban oğlu

-Mustafayeva Sevda Qurban qızı

-Mustafayeva Solmaz Qurban qızı

-Mustafayeva Güləbətin Qurban qızı

Mustafayev Qurban Məşədi Əmir oğlu işğaldan sonra Sumqayıt şəhərində vəfat etmişdir.

## Mustafayev Mansur Məşədi Əmir oğlu.

Mustafayev Mansur Məşədi Əmir oğlu 1934-cü ildə Pirçivan kəndində anadan olub. Uzun illər şəhərimizdə ticarət sistemində işləyib.

Yoldaşı **Quliyeva Gülarə Hüseyxan qızı** «Qəhrəman ana» dır. Onların on övladı var. Bu barədə kitabımızda geniş məlumat verilib.

Mustafayev Mansur Məşədi Əmir oğlu-işğaldan sonra Sumqayıt əhərində vəfat etmişdir.

## Süsən xala.

Süsən xalanın iki qızı var. Nura Kacaranda olurdu. Şura Genlikdə ərdə idi

## Qənbər kişi.

Qənbər kişinin iki oğlu, bir qızı var.

-Səfər Qənbər oğlu

-Gülağa Qənbər oğlu

-Sara Qənbər qızı

## Şəhərimizi qurub yaradanlar

Belə bir kiçik şəhər var idi: Zəngilan: ucqar bir kənd rayonu olan, Zəngilanın mərkəzi. Sovet hakimiyyətindən əvvəl kiçik bir kənd idi və o dövrdə Pirçivan adlanardı. Sovet hökumətinin gəlişi ilə o həm adını, həm də ki, görkəmini dəyişdi. Əvvəllər, bəlkə də küçəsi yox idi. Amma 1930-cu ildən sonra rayon mərkəzi statusu alanda, planlı surətdə küçələr və parklar salındı.

Ilk dövrlərdə küçələrə çay daşı döşəyərdilər. İkinci dünya müharibəsindən sonra isə tədricən asfalt salınmağa başladı.

Şəhərimizə ilk asfalt o vaxtkı Lenin küçəsinə, daha dəqiq desək Hərbi komissarlığın arxasından Loğman kişinin, Cabbarov Cəfərin, Uşaq aləmi mağazasının yerləşdiyi küçəyə döşənib.

İlk illərdə kiçik bir asfalt zavodu olan Zəngilanın, işğal zamanı üç asfalt zavodu mövcud idi.

Mən bu yazıda bizim dövrdə üzərində gəzdiyimiz bu küçələrə asfalt salan zəhmət adamlarından danışmaq istərdim. Düzdür, zəhmətkeş insanlarımız çoxdur. Elə mənim atam da ömrü boyu fəhləlik elədi. Məsələ bundadır ki, bu asfalt salanların zəhmətinin, əməyinin bəhrəsini bütün Zəngilan şəhərinin, eləcə də kəndlərdən gələn qonaqlar da görüblər. Bunu gərək unutmayaq.

Lap ilk illəri deyə bilmərəm, amma son dövrdə bu işin əsas ağırlığı Baloğlan İbadovun, Fərruxun, Zülfüqar Salahovun, Mübarizin, Quluş kişinin çiyinlərində idi. Bunların hərəsi bir kənddən gəlmişdi və yeni bir şəhərin təməlini qoyurdular. Burada bu işi görən idarəni, xüsusən də onun rəhbəri Allahverdiyev Bəhməni də qeyd etməmək olmaz. Bu adam öz işinə məsuliyyətlə yanaşar, gördüyü işi keyfiyyətlə yerinə yetirərdi. Onu da qeyd edim ki, Allahverdiyev Bəhmən Böyük Vətən müharibəsinin iştirakçısı idi.

Zəhmətkeş insanlar çoxdu. Yük daşıyan, divar hörən, yer belləyən, əkin əkən və s. Bu asfalt salanlar bəzən yayın 40 dərəcə istisində belə asfalt bişirər və onu yerə yayar, üzərindən ağır asfalt basan sadə mexanizmi irəli-geri hərəkət etdirərək onu hamarlayar, bərkidərdilər. 40 dərəcə havanın istisi, üstəgəl də asfaltın hərarəti. Mən Baloğlan dayının başındakı əl dəsmalı ilə tez-tez alnından muncuq-muncuq axan tərləri sildiyini görmüşəm.

Gəlin onları bir daha yad edək. Ölənlərə rəhmət, qalanlara isə Allahdan sağlıq diləyək.

## İbadov Baloğlan Bəylər oğlu



İbadov Baloğlan Bəylər oğlu 1928-ci ildə Zəngilan rayonunun Nəcəflər kəndində anadan olub. Hərbi xidmətdən sonra Pirçivan kəndində yaşamağa qərar verən İbadov Baloğlan rayonun işğalına kimi tikinti-təmir idarəsində şəhərimizin küçələrinə asfalt salınması sahəsində az əmək sərf etməyib. Demək olar ki, şəhərin bütün küçələrinə onun başçılıq etdiyi briqada yayın istisində də, qışın soyuğunda da bu işi yerinə yetirib. Elə bir zəngilanlı tapmaq olmaz ki, Baloğlan dayının dösədiyi asfaltın üzərində gəzməsin, yeriməsin.

Burada o uzun illər tikinti-təmir sahəsində çalışmışdır. Onun əmək kitabçasından müəyyən qeydləri sizə çatdırım. 01.01.1945-ildən radio qovşağında işçi kimi əmək fəaliyyətinə başlayıb. 1949-cu ilin 26 oktyabrında isə asfalt beton zavoda 3-cü dərəcəli fəhlə kimi işə qəbul olunub. 17 aprel 1964-cü ildə rayon Kommunal təsərrüfat şöbəsində təmir sahəsi üzrə 4-cü dərəcəli asfalt salan işləyib.

1962-ci ildə Zəngilan qiyabi axşam orta məktəbini bitirib.

İbadov Baloğlan Bəylər olğlu 30.01.1974-cü ildə «Sosializm yarışışnın qalibi» döş nişanı, 1970-ci ildə «Lenin» yubiley medalı və 1983-də «Əmək veteranı» medalları ilə təltif olunub.

18 iyul 1988-ci ildə təqaüdə çıxıb və eyni zamanda 2-ci dərəcəli fəhlə kimi yenə işləyib. 08 may 1992-ci ildə işdən tam azad olunan Baloğlan İbadov 2003-cü ildə Şirvan şəhərində vəfat etmişdir.

## Göycəyev Xanməmməd

Göycəyev Xanməmməd rayonumuzun şadə peşə adamlarından biridir. Mən onu tanıdığım zamandan rayonun işğalına kimi tikinti-təmir idarəsində işləyən gördüm. O, burada dülgər işləyirdi.

Xanməmməd kişinin oğlu Rasim bizdən bir sinif aşağı oxuyurdu. Onu məktəbdə hamı yaxşı riyaziyyatçı kimi tanıyırdı. Ümumiyətlə Xanməmməd dayının övladlarının hamısı ali təhsilli mühəndislərdi. Onun 4 qızı da ali təhsilli mühəndisdir. Belə ailələrlə fəxr etməyinə dəyər.

## Əhmədov Nemət Səfəralı oğlu



Əhmədov Nemət Səfəralı oğlu 1940- cı ildə Zəngilan rayonunun Sobu kəndinndə anadan olub. Atası Səfəralı 1941-1945-ci illər müharibəsindən qayıtmayıb, anasının himayəsində böyüyüb. Onlar iki qardaş idilər. Əhməd ondan bir neşə yaş böyük idi. Uşaqlığı ağır müharibə illərinə təsadüf edib. Boyüdükdən sonra hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra Zəngilan qəsəbəsinə köçmüşlər. O burada uzun illər tikinti-təmiri idarəsində dülgər, xarrat kimi şəhərimizin abadlaşdırılmasında əmək sərf etmişdir.

Əhmədov Nemət Səfəralı oğlu işgaldan sonra 2015-ci ildə Bakı şəhərində vəfat etmişdir.

## Əsgərov Eldar Qulam oğlu



Əsgərov Eldar Qulam oğlu 07 iyul 1941- ci ildə anadan olub. O, məhəllənin ən sakit və mədəni insanlarındandı. O, Telli xalanın ilk övladıdır. Eldarın atası Əsgərov Qulam Məhərrəm oğlu 1941-1945-ci illər müharibəsindən qayıtmayıb. Eldar Qulam oğlu 1960-1963-cü illərdə Leninqrad vilayətində hərbi xidmət keçib. Hərbi xidmətdən sonra rayona gələn Eldar düz 51 il

tikinti-təmir idarəsində çalışıb. Bu idarə şəhərimizin abadlıq işləri ilə məşğul idi. Şəhərimizin qurulmasında və abadlaşdırılmasında Eldar Əsgərovun da az əməyi olmayıb.

Eldarın yoldaşı İsmayılova Mədinə Həsən qızı 1949-cu ildə anadan olub. İşğaldan sonra Bakı şəhərində vəfat etmişdir.

Onların Təyyar (1967), Zahir (1968), Zakif (1971) adlı oğlanları və Təranə adlı qızları var. Asif Bağırov həm Eldarın, həm də ki, onun övladlarının toyunu çalıb.

## Üzümçülər qəsəbəsi

80-ci illərdə Sovet hökuməti dağ rayonlarının inkişaf etdirilməsi barədə müəyyən qərarlar verdi. Artıq sovet hökumətində böhran izləri görünürdü. Əhalinin ərzaqla təminatı çətinləşirdi. Bu məqsədlə də kənd təssərrüfatı ilə məşğul olan kənd rayonlarının inkişafına diqqət artırıldı. Zəngilan şəhərinin Kalinin adına kolxozu (sovxozu) rayonun ən iri təsərrrüfatı hesab olunur. Məhz bu səbəbdən də əməkçilərinin tələbatını yaxşılaşdırmaq məqsədi ilə yazı düzündə yeni qəsəbə salınmasına qərar verildi.

## Rayon Komsomol Komitəsinin I katiblərindən

### Ələkbərova Gülarə İsfəndiyar qızı

*Rayon Komsomol Komitəsinin I katiblərindən*



Ələkbərova Gülarə İsfəndiyar qızı 1944-cü ildə rayonun Yuxarı Genlik kəndində anadan olub. 1960-ci ildə Zəngilan qəsəbə orta məktəbini bitirdikdən sonra rayonda açılan pedaqoji kursa daxil olub və onu bitirib. Sonra o, 1964-1969-cu illərdə o vaxtkı V.I.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun İbtidai təhsil medodikası fakültəsində oxuyub. Bu arada Gülarə İsfəndiyar qızı 1964-

1969-cu illərdə rayon Komsomol Komitəsinin II katibi işləyib. Sonra isə ona böyük etimad göstərilmiş və rayon Komsomol Komitəsinin I katibi seçilmişdir. O bu vəzifədə 1973- cü ilə kimi işlədi. Sonra Gülarə xanım 1973-1975-ci illərdə Bakı Ali Partiya məktəbində oxumuşdur. Məktəbi bitirdikdən sonra onu rayon Partiya Komitəsinə təlimatçı qəbul etdilər.

1976-cı ildən pedaqoji fəaliyyətə keçən Gülarə Ələkbərova 1976-1993-cü illərdə şəhər səkkizillik məktəbinin direktoru işlədi.

Rayonun işğalından sonra Bakı şəhərində məskunlaşan Gülarə xanım burada 1994-2011-ci illərdə N.Nərimanov rayonundakı İ.Hacıyev adına Tərəqqi Litseyində müəllimlik etmişdir.

Hal-hazırda təqaüddə olan Gülarə xanım «Lenin Yubiley medalı», Azərbaycan LKGİ MK-nın və Zəngilan rayon Partiya Komitəsinin «Fəxri Fərman» ları ilə təltif olunub.

## Qəhrəman analar

### Əliyeva Şəfiqə Teymur qızı

*Qəhrəman ana, şəhid anası*






Əliyeva Şəfiqə Teymur qızı 15 iyul 1941-ci ildə Mincivan kəndində anadan olub. Onun Arif Cəbrayıl oğlu Bəşirovla evliliyindən on övladı olub. Əliyeva Şəfiqə Teymur qızı eyni zamanda şəhid anasıdır.

Onun oğlu Bəşirov Fazil Arif oğlu Cəbrayıl rayonu ərazisində itkin düşən qəhrəman altı polisdən biridir.

Həyat yoldaşı Bəşirov Arif Cəbrayıl oğlu 11 oktyabr 1937-ci ildə Pirçivan kəndində anadan olub, 11 iyul 1991-ci ildə isə

Zəngilan şəhərində vəfat etmişdir.

Onlar 1957-ci ildə ailə qurublar. Övladları bunlardır

1. Bəşirova Çimnaz Arif qızı 01.07.1957-ci ildə Zəngilan qəsəbəsində anadan olub..
2. Bəşirov Akif Arif oğlu 16.08.1960- cı ildə Zəngilan qəsəbəsində anadan olub.
3. Sərfinaz 27.02.1962-ci ildə Zəngilan qəsəbəsində anadan olub
4. Adil 23.12.1963-cü ildə Zəngilan qəsəbəsində anadan olub.
5. Faiq 16.02.1965- ci ildə Zəngilan qəsəbəsində anadan olub
6. Leyla 16.10.1965-ci ildə Zəngilan qəsəbəsində anadan olub
7. Daha bir övladı 27.12.1967- ci ildə Zəngilan şəhərində anadan olub
8. Zəminə 07.12.1969-cu ildə Zəngilan şəhərində anadan olub.
9. Pənah 13.10.1971- ci ildə Zəngilan şəhərində anadan olub.
10. Könül 09.03.1978-ci ildə Zəngilan şəhərində anadan olub.

**Quliyeva Gülarə Hüseyxan qızı**

*Qəhrəman ana*






Quliyeva Gülarə Hüseyxan qızı 01 iyun 1938–ci ildə Pirçivan kəndində anadan olub. Rayonun işğalına kimi Zəngilan şəhərində yaşamış, işğaldan sonra isə Sumqayıt şəhərində məskunlaşmışlar.

Quliyeva Gülarə Hüseyxan qızı 16 avqust 2019-cu ildə Sumqayıt şəhərində vəfat etmişdir.



Həyat yoldaşı **Mustafayev Mansur Əmir** oğlu 11 yanvar 1934-ci ildə Pirçivan kəndində anadan olub. Rayonda kolxozda və eyni zamanda ticarət sistemində aşpaz və çayçı işləmişdir. O bir müddət Mincivan pambıq qəbulu məntəqəsində qəbuldar kimi də işləyib. Rayonun işğalından sonra Sumqayıt şəhərində məskunlaşan Mustafayev Mansur Əmir oğlu 10 sentyabr 2007- ci ildə elə burada Sumqayıt şəhərində vəfat etmişdir. Övladları bunlardır.

-Tahir 28.08. 1956-ci ildə Pirçivan kəndində anadan olub.

- Sabir 24.10.1957-ci ildə Pirçivan kəndində anadan olub.

-Zülfüqar 07.10.1959-ci ildə Zəngilan qəsəbəsində anadan olub.

-Tariyel 27.08.1961-ci ildə Zəngilan qəsəbəsində anadan olub. 27.10.2015-ci ildə vəfat etmişdir.

-Akif 30.09.1964-ci ildə Zəngilan qəsəbəsində anadan olub.

-Aygün 11.11.1966-cı ildə Zəngilan qəsəbəsində anadan olub.

-Mahir 04.01.1969-ci ildə Zəngilan şəhərində anadan olub.

-Sərvər 23.01.1971-ci ildə Zəngilan şəhərində anadan olub.

-Fariz 10.02.1974-ci ildə Zəngilan şəhərində anadan olub.

-Azər 05 05.1976-ci ildə Zəngilan şəhərində anadan olub.

## Səttərova Mübahisə Abdulla qızı

*Qəhrəman ana*






Səttərova Mübahisə Abdulla qızı 1930–cu ildə anadan olub. Uzun müddət Zəngilan şəhərində yaşamışdır. Onun Məmmədquliyev Gülməmməd ilə evliliyindən 11 övladı olub. 1970–ci ildə SSRİ Ali

Soveti Rəyasət Heyətinin fərmanı ilə ona «Qəhrəman ana» fəxri adı verilib. Səttərova Mübahisə 2011-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Yoldaşı Məmmədquliyev Gülməmməd Şükür oğlu barədə yuxarıda məlumat vermişik. Onun övladları bunlardır.

-Alməmməd 1948-ci ildə Pirçivan kəndində anadan olub.

-Püstə 1951-ci ildə Pirçivan kəndində anadan olub.

-Mələk 1952- ci ildə Pirçivan kəndində anadan olub.

-İsmayıl 1955 ci ildə Pirçivan kəndində anadan olub.

-Məleykə -1958 ci ildə Pirçivan qəsəbəsində anadan olub.

-Şükür 1961 ci ildə Zəngilan qəsəbəsində anadan olub.

-Minə 1963 ci ildə Zəngilan qəsəbəsində anadan olub.

-Əhməd 1965 ci ildə, -Kifayət 1966 ci ildə, -Rövşən 1968 ci ildə, -Sevinc 1970 ci ildə Zəngilan şəhərində anadan olub.

**Quliyeva Zeynəb Cəmil qızı**






Quliyeva Zeynəb Cəmil qızı 30 may 1933-cü ildə anadan olub. Həyat yoldaşı Mustafayev Suqurət (əvvəllər Zəngilanda mağazada işləyib, sonra Sumqayıt şəhərinə köçmüşdür) oğludur. Onların 11 övladı olub. Zeynəb xanım 10 may 2013-cü ildə Sumqayıt şəhərində vəfat etmişdir.



Həyat yoldaşı **Mustafayev Suqurət Ələsgər** oğlu 26 dekabr 1926-ci ildə Nüvədi kəndində anadan olub. Sonralar Zəngilan rayonunun Pirçivan kəndinə köçmüşlər. O uzun illər şəhərimizdə mağazada işləyib. 1969-ci ildə ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçmüşdür.

Mustafayev Suqurət Ələsgər oğlu 18

dekabr 1998-ci ildə Sumqayıt şəhərində vəfat etmişdir. Onlarinn 11 övladı olub.

Vaqif 1948-ci ildə anadan olub.

Südabə 1951-ci ildə Pirçivan kəndində anadan olub.. 4 övladı, 3 nəvəsi var

Zərifə 22 may 1953 –cü ildə Pirçivan kəndində anadan olub. Əvvəl kimya texnikumunu sonra isə Azərbaycan Neft Kimya İnstitutunu bitirib. 3 qızı, 9 nəvəsi var.

Elxan 06.10.1956-cı ildə Pirçivan kəndində anadan olub. 1.07.2017-ci ildə vəfat etmişdir. 3 övladı,2 nəvəsi var

Kifayət 04 12.1957-ci ildə Pirçivan kəndində anadan olub.. 6 övladı, 8 nəvəsi var

Təzəgül 19.02.1959-cu Zəngilan qəsəbəsində anadan olub.

Ələkbər 08.08.1960- cü ildə Zəngilan qəsəbəsində anadan olub.. 3 övladı, 8 nəvəsi var

Almaz 24.12.1962-ci ildə Zəngilan qəsəbəsində anadan olub. 2 qızı 1 oğlu, 1 nəvəsi var

Nadir 10.07.1963-cü ildə Zəngilan qəsəbəsində anadan olub. 5 övladı var

Mehti 04.12.1965-ci ildə Zəngilan qəsəbəsində anadan olub. 20.10.2019-cu ildə vəfat etmişdir 1 qızı, 1 oğlu var

11.Gülbəniz 1967-ci ildə Zəngilan qəsəbəsində anadan olub. 2 oğlu, 1 qızı 2 nəvəsi var

## Talıbova Mahrux Qəhrəman qızı




**Talıbova Mahrux Qəhrəman** qızı rayonun Malatkeşin kəndindəndir. Mahrux xala da «Qəhrəman» anadır. İşğaldan sonra Bakı şəhərində vəfat edib. Həyat yoldaşı Axundov Həsən Məhəmməd oğlu uzun illər sovet orqanlarında işləyib. İşğaldan əvvəl Zəngilan şəhərində vəfat etmişdir. Onların 5 qızı, 5 oğlu var.

-qızları: Minarə, Dilarə, Səmayə, Xanım, Şövkət
-oğlanları: Məhəmməd, Cümşüd, Yavər, Sabir, Bəbir

## Ordenli qadınlar

## Çoxuşaqlı analar barədə

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə 9 uşaq doğub tərbiyə etdiyinə görə «I Dərəcəli Analıq Şərəfi Ordeni» ilə təltif edilmişdir.

Səriyyə Seyid Rza qızı. Yoldaşı Ədil Məhərrəmov. Övladları bunlardır.

Tərlan Ədil qızı Məhərrəmova, Tamara Ədil qızı Məhərrəmova, Təyarə Ədil qızı Məhərrəmova, Abdulla Ədil oğlu Məhərrəmov, Çimnaz Ədil qızı Məhərrəmova, Rəhim Ədil oğlu Məhərrəmov, Məhərrəm Ədil oğlu Məhərrəmov, Nizami Ədil qızı Məhərrəmov, bir oğlu da var

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə 8 uşaq doğub tərbiyə etdiyinə görə «II Dərəcəli Analıq Şərəfi Ordeni» ilə təltif edilənlər.

### Həşimova Məhliqa Mirturab qızı



Həşimova Məhliqa Mirturab qızı 1935-ci ildə Rəbənd kəndində anadan olub. Rayonun işğalından sonra Bakı şəhərində müvəqqəti məskunlaşan Məhliqa Mirturab qızı 2017- ci ilin sentyabr ayında elə bu şəhərdə vəfat etmişdir.




Həşimova Məhliqa Mirturab qızı 8 uşaq doğub tərbiyə etdiyinə SSRİ Ali Soveti Rəyasət Heyətinin

fərmanı ilə II dərəcəli «**Analıq Şərəfi**» Ordeni ilə təltif edilmişdir. Övladları bunlardır.

-Bağırova Həcər Ələsgər qızı -1953- cü ildə, İsmayılova Nailə Ələsgər qızı-1957-ci ildə Pirçivan kəndində, Məmmədov Cəfər Ələsgər oğlu-1960- cı ildə Zəngilan qəsəbəsində, Məmmədov Nazilə Ələsgər qızı-1962- ci ildə Zəngilan qəsəbəsində, -Məmmədov Qəfər Ələsgər oğlu-1964- cü ildə Zəngilan qəsəbəsində, Məmmədova Nuridə Ələsgər qızı -1969- cu ildə Zəngilan şəhərində, Məmmədova Nuşabə Ələsgər qızı -1971- ci ildə Zəngilan şəhərində, Məmmədova Səbinə Ələsgər qızı -1973- cü ildə Zəngilan şəhərində anadan olub.

**Əsli.**




Yoldaşı Ədil Nəsibov. Səkkiz uşaq doğub tərbiyə etdiyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə «II Dərəcəli Analıq Şərəfi Ordeni» ilə təltif olunmuşdur.

Övladları bunlardır:

Şəmil, Qəbil, Əbil, Famil, Kamil, Sabir, Əsəd, Əmir.

## Zəngilan şəhərində doğulan, yaşayan və Qarabağ müharibəsi zamanı şəhid olanlar

### Alışov Fariz Sərməz oğlu



Alışov Fariz Sərməs oğlu 03 iyul 1974-cü idə Zəngilan şəhərində anadan olmuşdur. 1989-cu ildə 2 saylı şəhər səkkizillik məktəbini bitirmiş, sonra 144 saylı Texniki PM-də təhsilini davam etdirmişdir. 1993-cü ilin 12 mayında hərbi xidmətə çağrılan Farizi Goranboy rayonuna xidmətə göndərirlər. Orada bir neçə ay qulluq edəndən sonra vəziyyətlə əlaqədar onun da daxil olduğu rotanı Füzuli rayonu ərazisinə ezam edirlər. 1993-cü ilin 14 avqustunda Alışov Fariz Qaraməmmədli kəndi ətrafında olan döyüşdə həlak olmuş və Zəngilan şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Subay idi.

### Allahverdiyev Qorxmaz Bahadur oğlu

*«Hərbi xidmətlərə görə» medalı ilə təltif olunub.*



Allahverdiyev Qorxmaz Bahadur oğlu 1973-cü ildə Zəngilan şəhərində anadan olmuşdur. 1988-ci ildə Zəngilan şəhər səkkizillik məktəbini bitirmiş, sonra rayon 144 saylı Texniki Peşə məktəbində oxumuşdur. Bu məktəbi başa vurduqdan sonra 1991-ci ilin mayında hərbi xidmətə çağırılır. O, rayonun Quyudərə Xəştab, Rəzdərə, Kolluqışlaq və Qubadlı rayonundakı Başarat kəndi ətrafında gedən döyüşlərdə iştirak edib. 10 aprel 1993-cü ildə qəhrəmancasına şəhid olub. Ölümündən sonra «**Hərbi**

**xidmətlərə görə**» medalı ilə təltif olunub.

Subay idi. Zəngilan şəhər Şəhidlər Xiyabanında dəfn olunub

Şəhid anası 28 ildən sonra oğlunun məzarını ziyarət edib.

Birinci Qarabağ müharibəsi zamanı şəhid olan Qorxmaz Allahverdiyevin anası Zeynəb Allahverdiyeva oğlunun məzarına gül düzüb. «Getdim balamı ağladım, oxşadım. Sinə daşını dağıtmışdılar. Üstünü örtüb gəldim», - deyə şəhid anası bildirib.

## Aslanov Alik Şəmil oğlu



Aslanov Alik Şəmil oğlu 1962-ci ildə Zəngilan qəsəbəsində anadan olmuş, 1979-cu ildə şəhər orta məktəbini bitirmiş, sonra isə Sovet Ordusu sıralarında hərbi xidmət keçmişdir. Rayon Rabitə Qovşağında işə başlayan Alik 1985-88-ci ildə rayon Rabitə Qovşağında mühasib köməkçisi olmuşdur. 20 may 1992-ci ildə Milli Orduya ərzaq apararkən düşmən gülləsinin qurbanı olub. Zəngilan Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

## Bəşirov Adıgözəl Aşur oğlu

*Milli Ordunun kapitan*



Bəşirov Adıgözəl Aşur oğlu 1974-cü ildə Zəngilan şəhərində anadan olub. 1991-ci ildə Zəngilan şəhər 3 saylı orta məktəbini bitirmişdir. 1992-ci ilin may ayının 19-da Adıgözəl Bəşirov Zəngilan rayon **Hərbi** Komissarlığı tərəfindən hərbi xidmətə çağırılır. Hərbi hissənin rəhbərliyi onu gələcəkdə yaxşı bir zabit kimi görmək üçün ali hərbi məktəbə göndərir.

1997-ci ildə Ali Hərbi məktəbi müvəffəqiyyətlə başa vuraraq gənc zabit kimi «N» hərbi hissəyə göndərilib. Onun döyüş yolu Cəbrayıl, **Füzuli**, Ağdam rayonlarından, Murovdağdan keçmişdir. Onun istedad və hərbi bacarığı nəzərə alınaraq 1999-cu ildə kəşfiyyat tağımı, 2000-ci ilin dekabr ayinin 11-də «N» hərbi hissəyə motoatıcı bölük komandiri təyin olunmuşdur. 2002-ci ilin aprelin 13-dən o, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin əmri ilə «N» saylı hərbi hissəyə taqım komandiri vəzifəsinə təyin olunmuşdu. 2003- cü ilin avqust ayının 4 də dövlət tapşırığını yerinə yetirərkən mina partlayışı zamanı aldığı çoxsaylı qəlpələrdən həlak olmuşdur. Bakıda II Şəhidlər Xiyabanında dəfn olunub.

Bəşirov Adıgözəl Aşur oğlunun Bakıda yaşadığı binanın divarına barelyefi vurulub.

## Bəşirov Fazil Arif oğlu



Bəşirov Fazil Arif oğlu 1967-ci ildə Zəngilan şəhərində anadan olub. 1974-1984-cü illərdə 1 saylı şəhər orta məktəbində oxuyub.

Orta məktəbi bitirdikdən sonra 1985-87-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonda serjant rütbəsində rayona qayıdan Fazil Arif oğlu əmək fəaliyyətinə başlayıb. O, mərkəzi rayon xəstəxanasının qazanxanasında və Ictimai İaşə birliyində işləyib. 1993-cü ilin may ayında Zəngilan Rayon Polis Şöbəsinə milis nəfəri kimi işə düzəlib. Xarici müdaxilə ilə yanaşı, ictimai-siyasi gərginliyin artdığı həmin dövrdə Zəngilan şəhərində və Mincivan qəsəbəsində asayişin qorunmasında iştirak edib, Məmmədbəyli kəndində yaradılmış nəzarət postunda xidməti vəzifəsini yerinə yetirib. Daha sonra Şayıflı, Şatarız və Rəzdərə kəndlərinin müdafiəsinə göndərilib. 1993-cü il oktyabrın 24-də

Cəbrayıl rayonunun Dərzili kəndindən zirehli texnika ilə hücum edən düşmənə qarşı döyüşdə 6 nəfər polis əməkdaşı ilə birlikdə qeyri-müəyyən şəraitdə itkin düşüb. 2001-ci ilin iyulunda ona şəhidlik statusu verilib.

## Cəfərov Sərvan Qüdrət oğlu



Cəfərov Sərvan Qüdrət oğlu 18 iyun 1972-ci ildə Zəngilan şəhərində anadan olmuş, 1989-cu ildə şəhər 3 saylı orta məktəbini bitirnişdir. 1991-ci ildə Sovet Ordusu sıralarında qulluğa gedib. Hərbi xidməti başa vurduqdan sonra rayona qayıdan Sərvan rayon Daxili İşlər Şöbəsində işə girmiş, rayonun əsas döyüş zonaları hesab olunan Şayıflı və Şatarız kəndlərindəki döyüşlərdə iştirak etmişdir. 1993-cü il aprel ayının 10-da döyüşdə qəhrəmancasına şəhid olub. «Vətən uğrunda» medalı ilə təltif olunub. Zəngilan Şəhidlər Xiyabanında dəfn edilib. Subay idi.

Cəfərov Sarvan Qüdrət oğlu yaxşı nağara çalırdı. Asif Bağırov bildirir ki, onu bir neçə dəfə toya aparmışam.

## Əliyev Məstalı İxtiyar oğlu



Əliyev Məstalı İxtiyar oğlu 23 avqust 1973-cü ildə Zəngilan şəhərində anadan olmuş, 1980-ci ildə 1 saylı şəhər orta məktəbini bitirmişdir. 1993-cü ilin 07 iyul tarixində Azərbaycan Silahlı Qüvvələrinə hərbi xidmətə çağırılmışdır. Füzuli, Ağdərə, Ağdam rayonları ərazisində gedən döyüşlərdə iştirak etmiş, 1994-cü ilin 30 yanvar tarixində Ağdərə rayonunun Gödəkburun dağı ətrafında gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Subay idi.

## Gülməmmədov Eynulla Valeh oğlu



Gülməmmədov Eynulla Valeh oğlu 1968-ci ildə Zəngilan şəhərində anadan olmuş, 1984-cü ildə orta məktəbin səkkizinci sinfini, 1985-ci ildə isə Zəngilan rayon 144 saylı Texniki peşə məktəbini bitirmişdir. Sovet ordusunda hərbi xidmət keçmiş, 01 dekabr 1991-ci ildən Milli Orduda xidmətə başlamışdır. Zəngilan rayonu ərazisində gedən döyüşlərdə iştirak etmiş, 21 sentyabr 1992-ci ildə rayon uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuş, Zəngilan rayonundakı Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Subay idi.

## Heydərov Şərif Yaşar oğlu



Heydərov Şərif Yaşar oğlu 19 yanvar 1970-ci ildə Zəngilan şəhərində anadan olub. 1988-1990-cı illərdə Sovet Ordusunda qulluq etmiş, sonralar Milli Ordu sıralarına daxil olaraq Zəngilan və Füzuli rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 19 sentyabr 1994-cu ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Polis serjantı olan Şərif Heydərov Bakının Saray qəsəbəsində dəfn olunub. Subay idi.

## Həsənov Samir Nizami oğlu



Həsənov Samir Nizami oğlu 1979-cu ilin aprelin 21-də Zəngilan şəhərində anadan olub. Zəngilan rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Cəbrayıl və Füzuli rayonları uğrunda gedən döyüşlərdə iştirak edib. 1998-ci ilin oktyabrın 13-də Cəbrayıl rayonunun Cocuq Mərcanli kəndində şəhid olub. Xırdalan qəsəbəsində dəfn olunub. Subay idi.

## Həsənov Zaur Həsən oğlu



Həsənov Zaur Həsən oğlu 1974-cü il mayın 27-də Zəngilan şəhərində anadan olub. 1991-ci ildə 1 saylı şəhər orta məktəbini bitirdikdən sonra sənədlərini rayondakı 144 saylı Texniki peşə məktəbinin traktorçu-mexanizator şöbəsinə vermişdir. Məktəbi başa vurduqdan sonra 1992-ci il iyunun 6-da hərbi xidmətə çağırılıb. Zəngilan rayonunun Kolluqışlaq, Şayıflı, Seyidlər və Ağbis, eyni zamanda Goranboy bölgəsində olmuş və oradan Füzuli rayonu istiqamətinə göndərilmişdir. O, Horadiz stansiyası, Babı, Şükürbəyli, Kərimbəyli, Arayatlı, Horadiz kənd, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Kəlbəcər rayonunun Murovdağ bölgəsindəki Ömər, Murov, Güzgü istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ilin aprelin 20-də «Ömər dağı» uğrunda gedən ikinci döyüşdə qəhrəmancasına şəhid olub. Sumqayıtdakı Şəhidlər xiyabanında dəfn edilmişdir. Subay İdi.

## Quliyev Elman İsa oğlu



Quliyev Elman İsa oğlu 1956- cı ilin 15 avqustunda Zəngilan rayonunda (Bir yazıda Sumqayıtda) anadan olub. 1973-cü ildə Sumqayıt şəhərində orta məktəbi bitirmiş, 1974-cü ildə isə Sovet Ordusu sıralarına çağırılmış, hərbi xidmətə göndərilmişdir. 1976-cı ildə hərbi xidmətdən sonra rayona dönmüş və İctimai İaşə obyektində əmək fəaliyyətini davam etdirmişdir. Son dövrlərdə rayon Elektruk Şəbəkə sistemində işləmiş, 1993-cü ilin 23 martında işdən qayıdarkən düşməinin atdığı top mərmisinin partlaması səbəbindən həlak olmuş və Zəngilan şəhərində dəfn olunmuşdur. Ailəli idi, üç qızı var.

## Mehtiyev Allahverdi Bəşir oğlu



Mehdiyev Allahverdi Bəşir oğlu 1952-ci ildə Zəngilan rayonunun Yuxarı Gəyəli kəndində anadan olub, 1969-cu ildə Zəngilan şəhər orta məktəbini, 1972-ci ildə isə Bakı şəhəri 8 saylı Tibb məktəbini bitirmişdir. Allahverdi düz 22 il Zəngilan rayon mərkəzi xəstəxanasında feldşer işləmiş, 1992-ci ildə Milli Ordu sıralarına daxil olmuşdur. Orduda tibb sahəsində qulluq edib. 1994-cü il yanvarın 30-da Füzuli rayonu uğrunda gedən döyüşlərdə yaralı əsgərləri döyüş meydanından çıxaran zaman tank əleyhinə minaya düşərək qəhrəmancasına şəhid olub. 5 övladı yadigar qalıb. Bakı şəhərində II Şəhidlər Xiyabanında dəfn olunub.

**Məmmədov İlham Fərrux oğlu**
***Milli Ordunun zabiti***



Məmmədov İlham Fərrux oğlu 1 oktyabr 1976-cı ildə Zəngilan şəhərində anadan olub. 1983-1993-cü illərdə orta məktəbdə oxuyub. 1993-cü ildə 3 saylı şəhər orta məktəbini bitirdikdən sonra sənədlərini Bakı Ali hərbi məktəbinə verib.

Məmmədov İlham Fərrux oğlu 1995-ci ildə məktəbi leytenant rütbəsində bitirib. İyun ayında onu təyinatla Naxçıvan şəhərinə göndərmişlər.

Burada o bir neçə il xidmət etdikdən sonra Türkiyə respublikasına təkmilləşdirmə kursuna göndərilib.

Məmmədov İlham Fərrux oğlu 05 may-17 avqust 1997-ci il tarixində dost ölkədə hərbi kurs keçdikdən sonra yenidən Naxçıvan şəhərindəki N saylı hərbi hissəyə qayıdıb.

Burada öz xahişi ilə Sədərək rayonu ərazindəki ön hərbi hissəyə tağım komandiri təyin olunur.

1997-ci ilin 11 noyabrında hərbi postu yoxlayarkən pusquya düşürlər. Leytenant öz əsgərini qorumaq üçün irəli çıxır və bu zaman sinəsindən güllə yarası alır. Əsgəri xilas edən komandir özü şəhid olur.

Məmmədov İlham Fərrux oğlu Bakı şəhərində II Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

Atası Məmmədov Fərrux uzun illər RİC-də müxtəlif vəzifələrdə işləyib. Son dövrdə isə Tədarük kontorunun müdiri işləyirdi.

## Məmmədov Ramazan Cəbrayıl oğlu



Məmmədov Ramazan Cəbrayıl oğlu 19 sentyabr 1967-ci ildə Zəngilan şəhərində anadan olub. 1984-cü ildə şəhər 1 saylı orta məktəbini, sonra isə Sumqayıt şəhər 85 saylı Texniki PM-ni bitirmiş, Sovet Ordusu sıralarına getmişdir. Hərbi xidmətdən sonra rayona gələn Ramazan Tədarük Kontorunda bir müddət işləmiş, 1992-ci ilin 3 aprelində könüllü olaraq Milli Orduya yazılmışdır. Onun Bartaz kəndi ətrafından başlayan döyüş yolu Qubadlı və Cəbrayıl rayonları ərazilərində davam etmişdir. 1993-cü ilin 27 oktyabrında düşmən qüvvələri Məmmədbəyli postunu tutanda rayondan onlara ikinci dəfə kömək göndərilir. Köməyə gedənlər Şərifan kəndinə çatar-çatmaz əsgərlərimiz düşmən tanklarının atəşinə məruz qalırlar. Onlara cavab verilsə də, Xocahan tərəfdən gələn düşmənin başqa hərbi qüvvələri qarşısında dayana bilməyən dəstəmiz geri çəkilməli olur. Bu zaman atılan güllələrdən biri Ramazanı şəhid edir. Zəngilan şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunub. Ailəli idi, iki övladı var.

## Məmmədov Səməd Rəhim oğlu



Məmmədov Səməd Rəhim oğlu 1963-cü il sentyabr ayının 13-də Zəngilan qəsəbəsində anadan olub. 1980-ci ildə orta məktəbi bitirəndən sonra Sovet Ordusunda xidmət etmişdir. Ordudan tərxis olunandan sonra rayon konserv zavodunda işləmiş, 1992-ci ildə isə Bakı şəhərinə gedərək orada işə girmişdir. 1993-cü ildə Milli Ordu sıralarına daxil olur və Zəngilana getmək həvəsində olsa da onu

Kəlbəcər rayonu ərazisinə göndərirlər. 1994-cü ilin 26 yanvarında Murovdağ istiqamətindən Kəlbəcərə doğru irəliləsələr də səhv plan üzündən mühasirəyə düşürlər. Mühasirəyə düşənlərdən bir xəbər çıxmayanda Səmədi fərari kimi qələmə veriblər.

Bir neçə müddətdən sonra onun nəşi qarın altından tapılmışdır. Qəhrəman əsgərə atılan böhtan onun üzərindən götürülmüşdür. Sonra məlum olub ki, təslim olmayan əsgərlərimiz vuruşublar və nəticədə onlarla birlikdə Səməd də ürəyindən aldığı güllə yarasından şəhid olub. Bakıda ŞX-da dəfn olunub. Ailəli idi, iki qızı var.

Atası Rəhim müəllim əslən Qazax rayonundan idi. Eşitdiyimə görə, o, oğluna Səməd Vurğunun xatirəsinə onun adını verib. Əsil adı Səməd Vurğun idi.

## Mönsümov Qasım İsa oğlu



Mönsümov Qasım İsa oğlu 1969-cu ilin 15 martında Zəngilan şəhərində anadan olmuş, 1986-cı ildə şəhər orta məktəbini bitirmiş, rayondakı 144 saylı Texniki PM-də oxumuşdur. 1989-1991-ci illərdə Sovet Ordusu sıralarında qulluqda olmuşdur. Sonra Naxçıvan şəhərində sürücülük kursunu bitirmiş, Rayon İstehlak Cəmiyyətinin (Raypo) qarajında işləmişdir. 1992-ci ilin dekabrında hərbi xidmətə çağırılmış, bir müddət çilingər işləmiş, sonra kəşfiyyat qrupuna daxil edilmişdir. 1993-cü ilin aprelində hay kəndlərində keçirilən əməliyyatlarda yaxından iştirak etmiş, sonra Ağdam və Füzuli rayonları ərazisində düşmənə qarşı fəal mübarizə aparmış, bu döyüşlərdə yaralanmış, müalicə olunduqdan sonra yenidən döyüşən hissəyə dönmüşdür. 1993-cü ilin 23 oktyabrında onun daxil olduğu hissə Horadiz tərəfdən geniş hücuma keçən düşmən qüvvələri

ilə vuruşmuşdur. Həmin ayın 25-də Zəngilan istiqamətində irəliləyən düşmən qüvvələrinin qarşısını almaq üçün onların dəstəsi Cəbrayıl rayonunun Dərzili kəndində düşmənlə qarşı-qarşıya gəlirlər. Düşmən xeyli tələfat versə də təslim olmaq istəmir və bizim əsgərlərimizi mühasirəyə almağa çalışırdı. Bu döyüşdə düşmənə ağır zərbə vurulsa da bir neçə əsgərimiz, o cümlədən Qasım da şəhid oldu. Oktyabrın 26- da Qasımı Şəhidlər Xiyabanında dəfn etdilər. Subay idi. Qasım deyilənə görə şən, hazırcavab və zarafatcıl biri idi. Qasımın qəhrəmanlığı barədə lazımi sənədlər hazırlanmış və Milli Qəhrəman adı verilməsi üçün lazımı təşkilatlara göndərilsə də bir cavab verilməmişdir.

### Nərimanov Elşad Əvəz oğlu



Nərimanov Elşad Əvəz oğlu 1967-ci ildə Zəngilan şəhərində anadan olub. 1974-1984-cü illərdə 1 saylı şəhər orta məktəbində oxuyub. SSRİ-nin şimalında Arxangelsk vilayətində qərarlaşan hərbi dəniz donanmasında qulluq edib. Aylarla sualtı qayıqlarda səfərlərə çıxan Elşad həmin dövrdə idmanın karate növünü mənimsəyib. 1987-ci ildə ordudan tərxis olunaraq Bakı Dəmiryol Nəqliyyatı Texnikumunda təhsil alıb. Rayona gələrək Mincivan dəmiryol distansiyasında çalışıb. 1993-cü ilin iyununda Zəngilan Rayon Polis şöbəsində post patrul xidməti rotasının bölmə komandiri kimi xidmətə başlayıb. 1993-cü il oktyabr ayının 25-də Cəbrayıl rayonunun Dərzili kəndi yaxınlığında döyüşdə naməlum şəraitdə itkin düşüb.1997-ci ildə ona şəhidlik statusu verilib.

## Nəsibov Emin Famil oğlu



Nəsibov Emin Famil oğlu 16 aprel 1971-ci ildə Zəngilan şəhərində anadan olub. 1988-ci ildə Zəngilan şəhər 3 saylı orta məktəbini bitirib. Həmin il Sovet Ordusu sıralarına qulluğa gedib və 1990-cı ildə ordudan tərxis olunub. Qarabağ savaşı başlayanda Milli Ordu sıralarına qatılıb. Zəngilan, Cəbrayıl, Füzuli, Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edib. 1993-cü ilin oktyabrında rayonumuzun taleyi həll olunurdu. Düşmən hücumları ara vermirdi. Tank tağım komandiri olan Emin bu döyüşlərdə düşmənin 3 tankını məhv etmiş, birini isə ələ keçirmişdir. Horadiz yolunu bağlayan düşmən oktyabrın 25- də var qüvvəsi ilə rayona hücüma keçir. Döyüşdə düşmən itki verərək geri çəkilir. Kapitan Mehman Hacıyevlə bərabər starşina Emin Nəsibov və sürücü Bəhram düşməni təqib edərək döyüş zonasına girəndə düşmən tankı ilə rastlaşırlar. Bu döyüşdə hər üçü həlak olur. Bir gün sonra əsgərlərimiz həmin yerə gələndə orada iki cəsəd görürlər. Kapitan Mehman Hacıyevdən isə bir xəbər yox idi. Emin Nəsibov Zəngilan Şəhidlər Xiyabanında dəfn olunub. Ailəli idi

1992- ci ildə Hənd əməliyyatı zamanı şəhərimizə Universamın yanına bir neçə hərbi texnika gətirilmişdi. Emin həmin T-72 tankının üzərində gəlmişdi.

**Novruzov Eynur Çapay oğlu**



Novruzov Eynur Çapay oğlu 1970-ci ildə Zəngilan şəhərində anadan olub. 1985-ci ildə şəhər orta məktəbinin 8-ci sinfini bitirərək sənədlərini rayondakı 144 nömrəli peşə məktəbinə verib. 1988-ci ildə orada təhsilini başa vuraraq, traktorçu mexanizator ixtisası qazanıb. Həmin ilin sonlarında Sovet Ordusu sıralarına hərbi xidmətə çağırılıb. 1990-cı ildə Macarıstanda əsgəri qulluqdan Vətənə dönərək Bakı Gəmiçilik İdarəsində işləyib. Milli Orduya yazılaraq torpaqlarımızın müdafiəsinə qoşulub. Döyüş yolu Dərəlidən, Qazançıdan, Rəzdərədən, Yeməzlidən, başqa sərhədboyu kəndlərimizdən keçib. Minaatanlar batareyasının tərkibində Ağdam, Füzuli rayonlarında düşmənə qarşı vuruşub. 1993-cü il oktyabr ayının 24-də Cəbrayıl şəhərinin müdafiəsi uğrunda gedən döyüşdə itkin düşüb. Zəngilan Rayon Məhkəməsinin 28 yanvar 2003-cü il tarixli qətnaməsi ilə ona şəhidlik statusu verilib.

**Paşayev Sabir Əziz oğlu barədə yuxarıda məlumat verilib.**

**Rüstəmov Adil Əmrah oğlu**



Rüstəmov Adil Əmrah oğlu 23 dekabr 1963-cü ildə Zəngilan rayonunda anadan olmuşdur. Atasının xidməti işi ilə əlaqədar 1978-ci ildə İmişli rayonuna köçmüşlər. Bəhrəmtəpə qəsəbəsində səkkizinci sinfi, 1983-cü ildə isə Bakı Politexnik texnikumunu bitirmişdir. Qazaxıstanda hərbi xidmətdə olmuş, xidməti başa vurduq-

dan sonra elə orada Şevçenko şəhərində milis sisteminə daxil olmuş və milis serjantı işləmişdir. 1992-ci ilin oktyabr ayından Milli Orduda xidmətə başlayan Adil kəşfiyyat bölüyünün komandiri olmuş, Zəngilan rayonu ərazisində gedən döyüşlərdə iştirak etmiş, 10 dekabr 1992-ci ildə Ermənistan SQ-nin rayonun Şayıflı zonasına qəflətən hücumu zamanı 1992-ci il dekabrın 10-da Şayıflı stansiyasında düşmənlə əlbəyaxa döyüşdə işgəncələrlə qətlə yetirilmiş, Zəngilan şəhər qəbiristanlığında dəfn olunmuşdur. Göstərdiyi qəhrəmanlığa görə «Azərbaycan Bayrağı» Ordeni ilə təltif olunub. Ailəli idi.

P.S. Adilin göstəridiyi qəhrəmanlığa görə ona Milli Qəhrəman adı düşürdü. Çox təəssüf ki....

Adil şəhid olandan sonra Asif Bağırov onun igidliyi barədə Zəngilan Rabitə Qovşağından o zamankı prezident Əbülfəz Elçibəyə geniş həcmli, ətraflı teleqaram vurur. Çox təəssüf ki, onun bu məlumatına rəsmi cavab verilməsə də sonralar arxiv materialına çevrilmişdir.

## Rüstəmov Emin Qəzənfər oğlu



Rüstəmov Emin Qəzənfər oğlu 19 may 1974-cü ildə Zəngilan şəhərində anadan olub və 1991-ci ildə şəhər 1 saylı orta məktəbini bitirmişdir. 1992-ci ildə hərbi xidmətə çağırılan Emin Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli rayonlarında döyüşlərdə iştirak etmiş, 1994-cü il yanvarın 6-da Füzuli rayonunun Horadiz qəsəbəsi uğrunda gedən döyüşlərdə iştirak etmiş, düşmənin bir neçə əsgərini və bir tankını məhv etmiş və tankdan atılan mərmidən qəhrəmancasına şəhid olmuşdur. Bakıda I Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi. Gözaltısı var idi. Onu sevən qız Eminin ölümünə dözməyərək intihar etmişdir.

## Rzayev Faiq Əvəz oğlu



Rzayev Faiq Əvəz oğlu 17 noyabr 1961-ci ildə Zəngilan şəhərində anadan olub. Zəngilan 1 saylı şəhər orta məktəbini bitirmiş, Sovet Ordusu sıralarında hərbi xidmət keçmişdir. Bakı **Dövlət** Universitetinin tarix fakültəsini bitirmiş, Zəngilan rayon Komsomol Komitəsində şöbə müdiri işləmiş, Ermənistan Respublikasının Silahlı Qüvvələrinin ərazimizə təcavüzündən sonra Zəngilan rayonu Daxili İşlər Şöbəsində işə keçmişdir. Baş leytenant olan Faiq Rzayev əvvəl sahə müvəkkili, sonra isə Zəngilan Rayon Daxili İŞ-də kadrlar şöbəsinin rəisi vəzifəsinə keçirilmişdi. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak etmiş, 1993-cü il avqust ayının 24-də faciləli surətdə həlak olmuş və Zəngilan şəhərində dəfn olunmuşdur. Ailəli idi, bir övladı var.

## Tağıyev Qiyas Veysəl oğlu



Tağıyev Qiyas Veysəl oğlu 1973-cü ildə Zəngilan şəhərinin “Köhnə Pirçivan” adlanan hissəsində anadan olub. Həmin ərazidəki 2 nömrəli natamam orta məktəbdə təhsil alıb. İkiillik əsgəri qulluğunu 1990-1992-ci illərdə RSFSR-in Tula şəhərində keçirib. 1992-ci il oktyabr ayının ilk günlərində Seyidlər kəndində “Lokatr” adlandırılan ermənilərin mühüm mühafizə sahəsi yaxınlığındakı postda keşik çəkib. 1992-ci il dekabr ayının 10-da erməni silahlı dəstələri sübh çağı posta qəfil hücum ediblər. Əsgərlərimizin müqavimətini qırıb 5 nəfəri qətlə yetiriblər. Bu faciədən bir neçə gün sonra danışıqlar aparıb, əsgərlərimizin bir neçəsinin meydini geri almaq mümkün olsa da, Qiyas Tağıyevin nəşi onların

arasında aşkarlanmayıb.

Zəngilan Rayon Məhkəməsinin qətnaməsi ilə ona şəhidlik statusu verilib.

## Zeynalov Dadaş Muxtar oğlu



Zeynalov Dadaş Muxtar oğlu 1949-cu ildə Zəngilan rayonunda anadan olub. 1966-cı ildə Zəngilan qəsəbə orta məktəbini, 1971-ci ildə isə Bakı Energetika Texnikumunu bitirmişdir. Sonralar qiyabi olaraq Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu da bitirən Dadaş rayon elektrik şəbəkə sistemində əmək fəaliyyətinə başlamışdır. Texnik kimi işə başlayan Dadaş sonra şəbəkənin müdiri vəzifəsinə kimi yüksəlmişdir. 1993-cü ilin 24 martında Zəngilan şəhərinin mərkəzi küçəsinə düşən top mərmisinin partlaması nəticəsində xidməti borcunu yerinə yetirərkən həlak olmuşdur. Zəngilanda dəfn olunub. Ailəli idi.

## 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi zamanı şəhid olan zəngilanlılar

1.Kapitan Noçuyev Surxay Əbdül oğlu, Məmmədbəyli
2. Leytenant Rzazadə Həsən Vüqar o-Mincivan
3. Dövlətzadə Cəbrayıl Dövlət oğlu- Vənətli kəndi
4. Abdullayev Sənan Şahin oğlu
5.Əbdüləzimli Emil Rasif oğlu- Vənətli kəndi
6. Cəfərov Cavid Mikayıl oğlu
7. Sarıyev Samir Əli oğlu
8. Həsənzadə Cavid
9.Məmmədov Xəqani Füzuli oğlu
10. Allahverdizadə Elnur Əli oğlu

11. Məhərrəmov Fərid Asif oğlu
12. İbadov Rafiq Baloğlan oğlu
13. Hüseynov İmaməli Cəlil o
14. Mehtiyev İsmayıl David oğlu
15. Səfərov Fazil Şəmil oğlu
16. Əhmədov Emil Bahadur oğlu
17. Adıgözəlov Cəmil Əli oğlu
18. Yusifzadə Xudayar Müslüm oğlu

## Sovet Ordusu sıralarında xidmət zamanı həlak olanlar

### Hacıyev Şahin Tofiq oğlu

*Sovet Ordusunda xidmət zamanı şəhid olanlardan*



Hacıyev Şahin Tofiq oğlu 09 yanvar 1965-ci ildə Zəngilan qəsəbəsində anadan olub. 1972-1973- cü dərs ilində Zəngilan şəhər orta məktəbinin I sinfinə getmiş, 1982-ci ildə oranı bitirmişdir.

Orta məktəbi bitirdikdən sonda ali məktəbə daxil ola bilməyən Hacıyev Şahin Tofiq oğlu istehsalatda çalışmış, 1983- cü ilin may ayında Sovet Ordusu sıralarında həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətə Murmansk şəhərində başlayan Şahin tank hissəsində xidmət etmişdir. Hərbi təlim zamanı başından yaralanan Şahin Hacıyev aldığı zədədən 14 mart 1984-cü ildə dünyasını dəyişmişdir. Subay idi. Allah rəhmət eləsin.

Bu xəbər surətlə şəhərdə yayılmışdır. Sonra onun nəşini Bakıya gətirmişlər. Bakıdan isə rayondan gedən xüsusu maşınla Zəngilan şəhərinə gətirilmiş və şəhər qəbiristanlığında dəfn edilmişdir.

Atası Hacıyev Tofiq Rzaqulu öğlu ali təhsilli dil-ədəbiyyat müəllimi, anası Fəraiz Məmmədova isə tibb bacısı idi.

**Həsənov Elnur Əbil oğlu**

*Sovet Ordusunda xidmət zamanı şəhid olanlardan*
*Qirmizi Ulduz Ordenli*



Həsənov Elnur Əbil oğlu Zəngilan şəhidlərindən biridir.

O, Əfqanıstanda hərbi xidmətini yerinə yetirərkən qəhrəmancasına həlak olmuş, göstərdiyi igidliyə və qəhrəmanlığa görə «**Qırmızı Ulduz**» ordeni ilə təltif olunmuşdur. Yaxşı yadımdadır, 1985-ci ilin yazında şəhər qəbiristanlığındakı izdihamlı dəfn mərasimi. İnsan yaranıb yaşamaq və şərəflə ölmək üçün. Biz hamımız bu dünyada müvəqqəti qonağıq, bir gün tez, bir gün gec ölümü dadacağıq. Ölümlər də müxtəlif olur. Şərəflə yaşayıb, şərəflə ölmək hər adama qismət olmur. Elnur cavan yaşında şərəfli bir ölümlə, əbədiyyətə qovuşdu. Onun məzarı üstündə ucaldılan abidəsi indi bütün Zəngilana keşik çəkir.

Elnur Həsənov 5 may 1966-cı ildə Zəngilan şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1983-cü ildə şəhər orta məktəbini əla qiymətlərlə bitirir. Onun həm səkkiz illik təhsil haqqında şəhadətnaməsində, həm də orta təhsil haqqında attestatında bir dənə də olsa 4 yoxdur, hamısı əladır. Orta məktəbi bitirdikdən sonra bir neçə ay rayon Avtonəqliyyat Müəssisəsində işlədikdən sonra, 1984-cü ilin may ayında hərbi xidmətə çağırılmışdır. Müəyyən hərbi təlim keçdikdən sonra hərbi xidmətini davam etdirmək üçün Əfqanistana göndərilir.

1979-cu ildə Sovet İttifaqı müstəqil Əfqanistana hərbi müdaxilə etdi. Özünü dünyada sülhün carçısı, dayağı adlandıran nəhəng bir dövlətin belə bir addım atması dünyanı çaşdırmışdı. Əfqan xalqına qarşı aparılan bu müharibə işğalçılıq müharibəsi idi. Azərbaycanın da say seçmə oğulları məcburi olaraq bu savaşa cəlb edilmiş və həyatlarını qurban vermişlər. Elnur da bunlardan biri idi. O, bir əsgər idi, xidməti borcunu yerinə yetirirdi. O, ona tapşırılmış işin

öhdəsindən layiqincə gəlmiş və qəhrəmancasına həlak olmuşdur. İndi torpaqlarımızın düşmən tapdağı altında olduğu bir zamanda, bizim Elnur kimi oğullara böyük ehtiyacımız var.

Sonda onu da qeyd etmək istərdik ki, Həsənov Elnur Əbil oğlu 15 may 1988-ci ildə Əfqanistan prezidentinin fərmanı ilə xeyirxah Əfqan xalqının «**Beynəlmiləl döyüşçüsü**» medalı ilə təltif olunub. Allah rəhmət eləsin! **302.Nəbz qəzeti. N-31. 06.09.2012**

## Əhmədov Sahib Əhməd oğlu

*Sovet Ordusunda xidmət zamanı həlak olanlardan*



Əhmədov Sahib Əhməd oğlu 1949-cu ildə Pirçivan kəndində anadan olub. 1956-cı ildə Pirçivan kənd orta məktəbinə gedib və 1964- cü ildə VIII sinfi bitirəndən sonra Bakı şəhərinə getmiş və Rabitə Texikumuna daxil omuşdur. 1967- ci ildə texnikumi bitirən Sahib Əhməd oğlu 1968-ci ilin noyabr ayında Sovet Ordusuna həqiqi hərbi xidmətə çağırılmışdır.

Sahib Əhmədov hərbi xidmətə Türkmənistan SSR-nin Mari şəhərində başlayıb. Yaxşı xidmət etdiyinə görə onu 1970-ci ilin martında məzuniyyətə buraxıblar.

Məzuniyyətdən qayıtdıqdan sonra Sahib Əhmədov rabitəçi olduğundan kəşfiyyat dəstəsinin tərkibində Əfqanıstana göndərilir.

Əhmədov Sahib Əhməd oğlu 1970–ci ilin avqust ayında hərbi xidmətini yerinə yetirərkən həlak olmuş və nəşi rayona gətirilərək dəfn edilmişdir. Subay idi.

P.S. Asif Bağırov bildirir ki, Sahibin həlak olma xəbəri gələn gün Köhnə Pirçivan ərazisində yaşayan milis serjantı Şirzad Cəfərovun oğlunun kiçik toyu idi. Toyu mən çalacaqdım. Bu barədə mənə bir həftə əvvəl demişdilər.

Həmin gün axşamüstü Şirzadın evinə getdik. Məsələdən o da xəbərdar idi. Mən bu toyu çala bilməycəyimi deyəndə o da razılaşdı. Biz bu toyu çalmadıq.

## PİRÇİVANIN XİDMƏT İŞÇİLƏRİNDƏN

Zəngilan rayonu ətraf rayonlardan kiçik olsa da rayon mərkəzi Pirçivanın təbii şəraiti elə idi ki, o hər tərəfə genişləndirilə bilərdi. Məhz bu səbəbdən də o zaman rayonlaşma həyata keçiriləndə Zəngilan kəndindən rayon mərkəzi Pirçivan kəndinə köçürüldü. Bu kənd son 60 ildə böyüdü gözəlləşdi. Demək olar ki, şəhərimiz günbə gün böyüyürdü. Hər ay demək olar ki, bir neçə ailə özünə yeni fərdi ev tikir, bir həyət abadlaşır, bir küçə, park təmir edilirdi. Əgər sovet sistemi dağılmasaydı 10-15 il sonra həm əhalinin maddi vəziyyəti yaxşılaşardı, həm də ki, şəhər gözəlləşərdi.

Məhz bu Pirçivanda insanlar bir- birini tanıdı, bir-biri ilə ünsiyyətə girdilər. Müharibədən sonra bura deyərdim ki, kütləvi axın başladı. Bu da təbii idi. Yeni yaradılan mərkəzdə tədricən yeni xidmət sahələri yaradılırdı. İctimai iaşə obyektləri, Əhaliyə Məişət xidməti kombinatı və s. Biz burada onlardan qısa da olsa danışacağıq.

### Çayçılar.

**Nadirxan.** Pirçivanın mərkəzində salınan parkın içərisində müxtəlif obyektlər var idi. Bunlardan ilk növbədə çayxana və yeməkxananı qeyd edərdim. Çünki insanların ilk növbədə zəruru ehtiyacını ödəmək və asudə vaxtının səmərəli keçməsini təmin etmək lazım idi.

Burada açılan çayxanada uzun illər Nadirxanın işlədiyinin şahidi oldum. Bu adam demək olar ki, öz peşəsini yaxşı bilirdi. İlk dövrlərdə çayı indiki kimi dəm çayniklərində deyil, elə bir başa stəkanda müştərilərə verərdilər. Bu adam əlində 5-6 stəkanı tutar və müştərilərə gətirərdi. Sonralar Nadirxan Stansiya məhəlləsində

yeni açılan çayxanaya köçdü. Bundan sonra burada Əsgərov İsmayıl çayçılıq elədi. Onu da deyim ki, o dövrdə çayxanada belə bir elan var idi. Çay qənd ilə 3 qəpik.

**Dayı Allahverdi Namazov.** Pirçivanın ilk çayçılarından biri də «**D**ayı» adı ilə tanınan Allahverdi Namazov idi. Bu adam da işini yaxşı bilən idi. Rayonda hamı onu adından da çox «dayı» kimi tanıyırdı. Mən də onun adının Allahverdi olduğunu sonralar bildim. Dayının oğlu Nadir sonralar milis sistemində işlədi zabit idi. Deyilənə görə Moskvada, Kremli mühafizə edən dəstədə xidmət edib. Allah rəhmət eləsin.

Allahverdi dayı da cavan vaxtlarında yaxşı futbolçu olub. O, rayon yığma komandasının heyətində mərkəz müdafiəçisi kimi uzun illər oynayıb.

**Əsgərov İsmayıl.** İsmayıl əslən İçəri Müşlan kəndindəndir. O əvvəllər rayon qəzeti redaksiyasında mürəttib, yəni hərf düzən işləyirdi. Nadirxandan sonra Lenin bağındakı çayxanada bir müddət İsmayıl Əsgərov işlədi. Sonralar İsmayıl Əsgərov RİK-də gözətçi kimi işinə davam elədi.

Ismayıl dayının oğlu Fehruz orta məktəbdə mənimlə bir sinifdə oxuyurdu. Yaxşı qarmon çalardı. Amma arxasınca getmədi və bu işi davam etdirmədi.

**Quliyev Allahverən.** Lenin bağının şimal hissəsində şəhər orta məktəbinin qarşısında son illərdə yeni bir çayxana açıldı. Daha doğrusu Lenin bağı artıq öz ömrünü başa vurmaq üzrə idi. Bu səbəbdən də çayxana başqa yerə köçürüldü. Burada son illərə kimi əvvəl milisdə işləmiş Allahverən çayçılıq etməyə başladı.

## Aşpazlar

Lenin bağındakı yeməkxanda Xəlil İbrahimov, rayon klubunun yaxıınlığındakı yeməkxanda isə Bədəlov Qənbər aşpaz idi. O, Kinavda da işləyib. Buradakı yeməkxanada Mirseyib kişinin oğlu Rəşid də aşpaz işləyib.

## Kababçılar

## Dağbəyi



Pirçivanın (Zəngilanın) ən gözəl yerlərindən biri olan şəhərin girişində Oxçuçayının kənarında bir kababxana var idi. Burada oturub yemək yeyəndə Oxçuçayının səsi, əsən mehin sərinliyi insanın iştahını artırardı. Şəhərimizə gələn qonaqların əksəriyyəti ən çox Dağüstü parka və bu pavilyona gələrdilər.

Mən əvvəllər bir müdət mühafizə bölməsində gözətçi işlədim. Cavan oldu-ğumdan əvvəllər məni kim məzuniyyətə çıxardısa, onu əvəz etməyə göndərərdilər. Bir ay Dağbəyinin kababxanasını qorudum. İlk gün idi. Axşam saat 18.00-da gəlib obyekti təhvil aldım. Həyətdə gəzirdim. Birdən məni Dağbəyi çağırdı. İçəri girdim dedi:

-Gəl otur, dedi:

O mənə yer göstərdi, mən də oturdum. Gətirib mənim oturduğum stola çörək, kabab, salat düzdü. Sonra da üzr istəyirəm o dövrdə belə idi, yüz qram da ondan süzüb dedi. Bunlar sənin. Əvvəl bir şey anlamadım. Sonra öyrəndim ki, Dağbəyi hər axşam gözətçiyə yemək verərmiş. Rayonun işğalına kimi Dağbəyi burada işlədi. İşğaldan sonra isə o öz sevimli peşəsini Bakı şəhərində davam etdirdi.

Dağbəyi də öz işinin ustası idi. Eyni zamanda da insaflı idi. Müştərilərə mədəni xidmət göstərirdi.

## Cəlal

Rayon maşın Traktor stansiyasının (MTS) həyətində bir kababxana da var idi. Burada isə Cəlal adlı biri işləyirdi.

## Ayaqqabı təmirçiləri

### Fərhadov Əli Azad oğlu



Fərhadov Əli Azad oğlu 1929-cu ildə Zəngilan rayonunun Canbar kəndində anadan olub. Erkən yaşlarında əvvəl atasını, sonra isə anasını itirib.

Sonrakı illərdə rayon mərkəzinə köçmüşlər. Bir bacı, bir qardaş Məscid məhəlləsində bir həyətdə yaşamışlar. Sonra onları Tovuz şəhərində olan uşaq evinə aparmışlar. Burada bir neçə il qalmış, yenidən rayona qayıtmışlar. Burada onlarla bir həyətdə İmaməliyev Məmmədalı, Zalı müəllim də yaşayıb.

Sonra Fərhadov Əli Bakı şəhərinə getmiş və Sabunçu rayonunda neft mədənlərində işləmişdir. Bir müddət işlədikdən sonra rayona qayıdır. Elə bu illərdə qonşuluqdakı qızı bəyənir və onunla evlənir.

Fərhadov Əli ailə qurduqdan sonra yeznəsi (bacısının yoldaşı) Məmmədalı İmaməliyevin təklifi ilə bir sənət öyrənmək qərarına gəlir. Bu dövrdə o, Qərib adlı ustadan çəkməçilik sənətini öyrənir.

Rayonun işğalından sonra Bakı şəhərində məskunlaşan Əli dayı Sabunçu rayonu ərazisində bir köşk düzəldib orada da sənətini işlətmişdir.

Fərhadov Əli Azad oğlu 2016-cı ildə Bakı şəhəriundə vəfat etmişdir. Onların iki oğlu və üç qızı var. Həyat yoldaşı Məmmədova Güllər Xanlar qızıdır. Övladları bunlardır.

-qızı Narın 18 avqust 1958-ci ildə anadan olub. İngilis dili müəllimәsi idi. Dünyasını dəyişib

-oğlu Baxış 17 iyun 1960-cı ildə anadan olub. Məktəbdə texniki işçidir.

-qızı Xavər 10 fevral 1963-cü ildə anadan olub. Xırdalan rayonunda məktəbdə dərs hissə müdiri işləyir..

-qızı Münəvvər 09 iyun 1965-ci ildə anadan olub. Sumqayıt şəhərində 33 saylı məktəbdə rus dili müəllimәsi işləyir.

-oğlu Aydın 25 yanvar 1970-ci ildə anadan olub. Bakıbus şirkətində mexanik işləyir. .

Əli dayını şəhərimizdə tanımayan yox idi. O uzun illər rayon ƏMXK-da ayaqqabı təmirçisi kimi əhaliyə xidmət etmişdir. Əli Fərhadovun ayaqqabı təmiri köşkü o vaxtın ən məşhur istirahət yeri olan Lenin bağının girişində idi.

O, ayaqqabıları təmir etməklə yanaşı yaxşı dəri ayaqqabılar da tikirdi. İşini bilən biri idi. Eşitdiyimə görə Əli Fərhadov həm də haqqı, ədaləti gözləyən biri olub.

## Bağırov İbad Allahqulu oğlu



Bağırov İbad Allahqulu oğlu 21 mart 1932-ci ildə Zəngilan rayonunun Keçikli kəndində anadan olub. 1939-cu ildə kənd məktəbinə gedən İbad atasının müharibəyə getməsi səbəbindən məktəbə davam edə bilməyib. Kiçik yaşlarından kolxozda işləyib. Ermənistan SSR-nin Qafan şəhərində ayaqqabı təmirçisi üzrə peşə məktəbini birirdikdən sonra 1954-cü ildən rayon ƏMXK-da çəkməçi kimi əmək fəaliyyətinə başlayıb. Bu ustalar həm ayaqqabıları təmir edər, həm də ki, yaxşı ayaqqabı tikərdilər. İbad Bağırovun üç övladı var.

Hazırda təqaüddə olan İbad Bağırov vaxtını nəvələri ilə keçirir.

Onun əvvəlki köşkü Məscidlə Quliyev Xəlilin evinin arasında, daha doğrusu, çəpərin yanında idi. Sonralar tunel məhəlləsində yerləşən obyektdə əhaliyə xidmət edirdi. Bağırov İbadın ilk şagirdlərindən Mehtiyev Bəhramı qeyd edərdim. Bəhram o vaxt əsgərlikdən qayıtmışdı. O, Macarıstanda xidmət etmiş, o illərdə orada baş verən qiyamda bir ayağını itirmişdi. Burada bərbər Bəndalının da bir köşkü var idi.

Həyat yoldaşı **Bağırova Diləfsə Musa** qızı 1936-cı ildə Keçikli kəndində anadan olub, 2011-ci ildə vəfat etmişdir. Övladları bunlardı:

-qızı **Bağırova Maya İbad** qızı 1958- ci ildə anadan olub. Azərbaycan Dövlət Kənd Təsərrüfatı və Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirib. Uzun müddət rayon Komsonol Komitəsinin katibi, rayon PK-də təlimatçı, rayon İcra Hakimiyətində baş məsləhətçi və hazırda isə şöbə müdiri vəzifəsində işləyir.

-qızı **Bağırova Göyçək İbad qızı** 1961-ci ildə anadan olub. Sumqayıt şəhər Yüngül Sənaye Texnikumunu bitirib. İşıq Təchizatı idarəsində mühəndis işləyib, 1993- cü ildə vəfat etmişdir.

-oğlu **Allahquliyev İsmayıl İbad** oğlu 1967-ci ildə anadan olub. Azərbaycan Politexnik İnstitutunu bitirib. Rayonda Sumqayıt Üzvi Sintez zavodunun filialı olan Tələbat kiçik müəssisəsinin rəhbəri olub , hazırda Neft şirkətinin filialında işləyir.

-oğlu **Allahquliyev Emin İbad** oğlu 1969-cu ildə anadan olub. Cəlilabad Kənd Təsərrüfatı Texnikumunu birtirib. Rayon polis şöbəsində və Şamaxı rayon polis şöbəsində sahə müvəkkili işləyib. Hazırda təqaüddədir.

## Məmmədov Məhəmmədəli Şəmil oğlu

Məmmədov Məhəmmədəli Şəmil oğlu 1941-ci ildə Vənətli kəndində anadan olub. Uşaq yaşda atasını itirib, sonra ana babası

İbrahim kişi onu böyüdüb. Orta məktəbi kənddə bitirdikdən sonra sənətlə məşğul olub. Çəkməçiliyi Qərib adlı ustadan öyrənib.

Məmmədov Məhəmmədəli Şəmil oğlu 18 yaşı olanda Pirçivana gəlib və burada işləməklə bərabər həm də, Roza Ağayeva ilə ailə qurub. Onların bir qızı, üç oğlu olub.

-qızı Toqət 1962-ci ildə anadan olub, Azərbaycan Pedaqoji İnstitutunu bitirib. Hazırda müəllimə işləyir.

-oğlu Şəmil 1963-cü ildə anadan olub, Lvov (Ukrayna) Poliqrafiya İnstitutunu bitirib. Hazırda Sankt Peterburda yaşayır.

-oğlu Elsevər 1965-ci ildə anadan olub Bir müddət Rusiyada Həştərxan şəhərində yaşayıb. Sonra Bakıya gəlib və burada dünyasını dəyişib.

-oğlu Müşfiq 1970-ci ildə anadan olub O da Sankt Peterburqda bir müddət yaşayıb, sonra vətənə dönüb. Burada qəflətən vətat edib.

Məmmədov Məhəmmədəli Şəmil oğlunun Asif Bağırovun dediyinə görə yaxşı səsi olub, muğam ifa edib. Asif müəllim deyir ki, mən onu bir neçə dəfə konsertlərdə müşaiyət etmişəm.

## Fotoqraflar

### Həşimov Abas

Abbas kişinin əvvəllər Həşimov İbadullanın evi ilə 60 -cı illərdə tikilən Mehmanxana arasında bir köşkü var idi. O eyni zamanda Pionerlər evində foto dərnəyinin də rəhbəri idi. Sonrakı illərdə Fotoqraflar əvvəl tunel adlanan binada işləyirdilər. Sonralar Lenin bağındakı obyekt inşa ediləndən sonra buraya köçürüldülər. Abas kişi uzun illər Lenin bağında fotoqraf işləyib. O, dünyasını dəyişəndən sonra burada Mincivandan olan Əliyev Famil işləyirdi.

## Mahmudov Mehtiqulu-kababçı



Mahmudov Mehtiqulunun da Abas kişinin köşkünün yanında köşkü var idi. Rayonda son illərdə kababçı kimi çalışan Mehtiqulu əvvələr fotoqraflıq eləyib. O da Lenin bağındakı obyektdə əhaliyə xidmət edərdi. Mahmudov Mehtiqulu rayon mehmanxanasının da yeməkxanasını işlədib.

## Əliyev Famil Rəhim oğlu



Abas kişinin və Mehtiqulunun sənətdən getməsindən sonra burada Mincivandan olan Əliyev Alı Rəhim oğlu fotoqraf kimi işə başladı. Sonra Alı müəllim pedaqoji işə keçdiyindən onun yerinə qardaşı Famil bu işi davam etdirdi.

Əliyev Famil Rəhim oğlu 1952-ci ildə Mincivan qəsəbəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakı şəhərindəki 12 saylı texniki peşə məktəbinin fotoqraf şöbəsini bitirmiş, 1970-ci ildə rayon ƏMXK-da fotoqraf işləmiş, sonra hərbi xidmətə getmişdir. Ordudan qayıtdıqdan sonra 1973-cü ildə yenidən öz peşəsini davam etdirmişdir.

Famil Rəhim oğlundan bizlərə o illərdə orta məktəb məzunlarının vinetkaları yadigar qalıb.

Əliyev Famil Rəhim oğlu 20 sentyabr 1999-cu ildə Bakı şəhərində dünyasını dəyişib. Allah rəhmət eləsin.

## Oqtay Alməmməd oğlu Yarışov

Daha bir fotoqraf stansiya məhəlləsində olan ƏMXK-nın obyektində fəaliyyət göstərirdi. Bu, Yarışıov Oqtaq Alməmməd oğlu idi. Onun əsas müştəriləri kəndlərdən rayon mərkəzinə gələnlər idi. Oqtay əvvəllər kino idarəsində nəzarətçi–yəni biletləri yoxlayan idi.

## Bərbərlər

## Quliyev Rafiq Vəli oğlu.



Quliyev Rafiq Vəli oğlu 1949-cu ildə Zəngilan rayonunun Qıraq Müşlan kəndində anadan olub. Zəngilanda Rafiqi çoxları Atış adı ilə tanıyırdı. Rafiq çox diqqətli, səliqəli və sözü bütöv biri idi. O əvvəllər Zəngilan rayon ƏMXK-da bərbər işləyirdi. İşini bilən, deyə bilərəm ki, usta idi. Həmişə özünün xüsusu müştəriləri olardı. Təəssüflər olsun ki, son illərdə müəyyən səbəblər üzündən işini atdı.

Rafiq Zəngilanda xeyir və şərdə öndə gedənlərdən idi. Həm xeyirdə, xüsusən də hüzr yerlərinə hamıdan əvvəl gələr və əlindən gələn köməyi edərdi. O, yaxşı çayçı idi. Ömrünün son illəri sıxıntılar içində keçmişdi.

Düşünürən ki, Rafiq evlənsəydi, bəlkə də həyatı belə acı sonluqla bitməzdi.

Onu da qeyd edim ki, Rafiqin atası Vəli Quliyev 1941-1945-ci illər müharibəsinin qəhrəmanı olub. O, «Şöhrət Ordeni»nin hər üç dərəcəsini alan yeganə Zəngilanlıdır.

Rafiq eyni zamanda həm hazırcavab, həm də ki, diqqətli biri idi.

Quliyev Rafiq Vəli oğlu işğaldan sonra Bakı şəhərində vəfat etmişdir. Allah rəhmət eləsin.

## Hüsü Mirseyib oğlu

Şəhərimizin ən gənc və istedadlı bərbərlərindən biri də Hüsü idi. Rayonumuza gələn vəzifə sahibləri onun xidmətindən istifadə edərdilər.

## Bəndalı

Bəndalı da şəhərimizin yaşlı bərbərlərindən biri idi. Onun da iş yeri son illərdə ƏMXK-nın əsas binasında idi. Bu bina şəhərimizin qərb hissəsində idi. O da işini yaxşı bilən bir usta idi. Sınıqçılıqdan da anlayırdı. Şəhərdəki xeyirdə-şərdə həmişə fəal iştirak edərdi. 2021-ci ildə Sumqayıt şəhərəində vəfat edib. Qəbri nurla dolsun.

## Dərzilər

**Mustafa kişi.** Pirçivanın mərkəzində Lenin küşəsində yerləşən köhnə bəy evlərinin xidməti otaqlarından birində İçəri Müşlandan olan Mustafa kişi uzun illər burada dərzilik elədi. O dövrdə bütün kişilər özlərinə dimdikli kepka adlanan bir papaq tikdirərdilər. Onu əsasən çadır materiallarından tikərdi Mustafa **kişi.** Atam da hər il Mustafa kişidən belə bir kepka alardı. Mustafa kişidən sonra oğlu Mürsəl onun işini davam etdirdi.

**Hüseynov Xanqulu.** 60-cı illərdə Şəfibəylidən olan Xanqulu Hüseynov da ƏMXK-da dərzi işləyirdi. Deyilənə görə, yaxşı usta idi. Sonralar işıq idarəsində montyor işlədi.

**Gülsüm xala.** Əslən Keçikli kəndindən olan bu qadın şəhərimizi köhnə Pirçivanla ayıran dərənin o tayında ilk illərdə

mövcud olan sexdə dərzi işləyib. Əvvəllər burada Kombinatın sexi və idarəsi yerləşirdi. Gülsüm xanımın ƏMXK -nın inzibati binasında da iş otağı var idi.

**Mürsəl Mustafa oğlu Vəliyev.** Mürsəl Mustafa kişinin oğlu idi. O, atasından sonra bu binada onun peşəsini davam etdirdi. Mürsəl ailə həyatı qurandan sonra burada yaşamalı oldu. Bu səbəbdən də o stansiya məhəlləsində yeni açılan obyektə köçməli oldu, həyat yoldaşı Nazilə xanımla bərabər rayonun işğalına kimi burada əhaliyə xidmət elədi.

**Dərzi Gülçü (Gülçöhrə).** Lenin küçəsində daha bir dərzi var idi. Bu Kazımov Loğmanın yoldaşı Gülçü xala idi. O, qadın paltarları tikərdi. Onların evi də Lenin küçəsində yerləşirdi. Loğman kişi atamla Su idarəsində bir yerdə işlədiyindən anam da Gülçü xala ilə tanış olmuşdu və yeri gələndə ona sifariş verərdi. Onların oğlu Voroşil memar idi və Bakı şəhərində yaşayırdı. Voroşil eyni zamanda yaxşı futbol da oynayırdı.

## Şəhərimizin mağazaları barədə

**Kitab mağazası**. Kitab mağazası əvvəllər milis şöbəsinin qarşısında olan binada yerləşirdi. Bu binada lap əvvəllər mərkəzi univermaq, sonralar kitab mağazası olub. Burada kitab bölməsində Pakizə, (Rabitə Qovşağında işləyən İxtiyarın yoldaşı), dəftərxana bölməsində isə Bəhram işləyirdi. Amma hamı burada  tək Bəhramın işlədiyini güman edirdi. Son illərdə şəhərin baş planına uyğun olaraq bu bina söküldü və kitabxana daha bir könhə Univermaq olan binaya köçdü. Bu mağaza işğala kimi fəaliyyət göstərdi.

**Şəfiqə xalanın ərzaq mağazası.** Şəhərin mərkəzində son illərdə inşa olunan parkın yerində bir ərzaq mağazası var idi. Burada əvvəllər Mələk adlı bir xanım, sonralar isə Şəfiqə xala (Eldar Eyvazovun anası) işləyirdi.

**Saranın ərzaq mağazası.** Lenin küçəsi ilə Oktyabr küçəsinin kəsişdiyi yerdə bir ərzaq mağazası var idi. Burada əvvəllər Əşir Seyfulla oğlu Hacıyev, sonra Almuradov Xanqulu işləyib. 70-ci illərdə burada Sara adlı bir xanım işləyirdi. O əslən Zəngilan kənd sovetindən idi. Son illərdə isə orada başqa birinin işlədiyini gördüm. Deyəsən, RİC-də sürücü işləyən Əli Qabil oğlunun yoldaşı Çimnaz idi.

**Uşaq aləmi mağazası.** Bu mağaza da Lenin küçəsində yerləşirdu. Burada ilk dövrlərdə Şəfibəylidən olan Əziz kişi işləyib. Sonralar uzun illər Xanpəri və Şura işlədi. Son illərdə isə o mağaza əvvəlki funksiyasını yerinə yetirmir və müxtəlif təsərrüfat malları da satılırdı. Son illərdə isə orada veteranların da bir şöbəsi açılmışdı ki, orada da müharibə veteranı Kərimov Ədil veteranlara xidmət edirdi.

**Piri kişinin ərzaq mağazası.** Məscidə bitişik, daha doğrusu, Məscidin yardımçı binalarından olan və sonralar mağaza funksiyasını yerinə yetirən bu mağazada əvvəllər Allahverdi Namazov, Suqurət, Ələkbərov Ələsgər, Sarıldan Xasay adlı biri də işləyib. Burada son illərdə Məmmədov Piri ərzaq malları satardı.

**Süsənbər xanımın ərzaq mağazası.** Bu mağazada əvvəl Şirvan Nəcəfqulu oğlu müdir işləyib. Eyni zamanda, Bayramova Diləfsə Ağa qızı da 70 -ci illərdə bu mağazada satıcı olb. K.Marks küçəsində, RTS-ə yaxın bir yerdə yerləşirdi. Orada əvvəllər Süsənbər xanım, sonra Mirzəxan işləmişdi. Burada işləyən sonrakı satıcıları xatırlaya bilmədim.

**Stansiya məhəlləsindəki sənaye malları.** Bu mağaza ikimərtəbəli idi. Onun birinci mərtəbəsində mədəni mallar, ikinci mərtəbəsində isə sənaye malları satılırdı. 70-ci illərdə burada

birinci mərtəbədə Zülfüqar adlı biri, ikinci mərtəbədə isə Züleyxa Ağayeva və Məmmədov İzzətin yoldaşı Fizzə xanım işləyirdi.

**Dilnavaz xanımım mağazası.** Köhnə Pirçivanla Zəngilan şəhərinin sərhəddində, daha doğrusu, H.Hacıyev küçəsinin şimal tərəfində dərənin o tayında da bir ərzaq mağazası var idi. Burada uzun illər Dilnavaz Bəşirova ərzaq şöbəsində, Məstan xala isə sənaye malları şöbəsində işləyiblər. Son dövrdə orada kimin işlədiyini unutdum.

**Afitab xanımın ərzaq mağazası.** Köhnə Pirçivan ərazisində bir ərzaq mağazası var idi Burada Afitab Məmmədyarova (İsmayıl Zeynalovun yoldaşı) işləyirdi. Burada eyni zamanda Allahverdiyev Bəhmənin yoldaşı da işləyib.

## Lenin bağının bağbanları

### Şükür Sayad oğlu

Şükür Sayad oğlu əslən Sobu kəndindəndir. Gənclik illərində şəxsi təsərrüfatlarında, sonralar isə kolxozda işləyib. Müharibə başlayanda orduya çağırılmış, almanlara qarşı vuruşmuşdur. Müharibədən qayıtdıqdan sonra Pirçivan kəndində məskunlaşan Şükür Sayad oğlu bir müddət kolxozda işləyib. Son illərdə o, şəhərimizin mərkəzi parkı olan Lenin bağında həm bağban, həm gözətçi, həm suçu kimi qulluq etmişdir.

Dağüstü park salınandan sonra onu təcrübəli bir bağban kimi ora göndərdilər. Şükür kişinin yoldaşı Tükəz adlı bir qadın idi.

Övladları bunlardır. Bəylər, Aramais, Konfrans, Məhəmmədəli və qızları. Sonuncu oğlu Məhəmmədəli şəhərimizdə yaşayırdı və bir müddət Əhaliyə Məişət Xidməti Kombinatında bərbər işləmişdir. Sonralar o da işləmək üçün Rusiyaya getmişdir.

Şükür Sayad oğlu işğaldan əvvəl rayonda vəfat etmişdir.

## Kərim Məmmədbağır oğlu Quliyev (1889-1980)



Quliyev Kərim Məmmədbağır oğlu 1889-cu ildə Pirçivan kəndində anadan olub. Gənclik illəri I Dünya müharibəsi illərinə təsadüf edib. Sovet hakimiyyətinin rayonumuzda bərqərar olmasından sonra hələ rayon mərkəzi kənd Zəngilanda olan dövrdə Qara İlyasovun rəhbərliyi altında milis dəstələri təşkil edilmişdi. Bu dəstəyə o zaman Həsənqulu Bayramov, Muxtar kişi və Kərim Quliyev də daxil idilər. Sonralar bu dəstənin başçısı onlara verilən mandatları almış və özü də aradan qeyb olmuşdur. Sonralar Həsənqulu Bayramov və Muxtar kişi bu işə davam etsələr də Kərim Quliyev bir daha o dəstəyə getməmişdir.

Sonra o kolxoz təsərrüfatında işləməyə başlamış, 1941- 1945-ci illər müharibəsi zamanı Gürcüstanın Batumi, Süxumi, eləcə də Tuapse, Soçi şəhərlərində xidmət etmişdir. Müharibədən sonra müxtəlif sahələrdə çalışan Kərim kişi GES (elektrik stansiyası)-də, kolxozda təftiş komissiyasının sədri, bostan briqadiri, ipək qurdlarının dirildilib kolxozçulara paylanması kimi mühüm işlər görüb. O son dövrlərdə şəhərimizin mərkəzi parkı hesab olunan Lenin bağında həm bağban, həm gözətçilik edərək bağa qulluq etmişdir. Məhz onların sayəsində bu bağda can dərmanı desən tapmaq olardı.

O illərdə televiziyanın hələ evlərimizə girmədiyi dövrdə hər bir kənddə, şəhərdə müəyyən evlərdə el ağsaqqaları, sinədəftər baba və nənələrimiz toplaşar, uzun qış gecələrində həm dərdləşər, həm də ki, şifahi xalq ədəbiyyatını təbliğ edərdilər. Məhz sovet hakimiyyətinin ilk illərində Kərim kişinin evi də belə bir məclis rolu oynamışdı. Burada Rüstəm kişi, Xəlil, Gülüş kişi, Əziz, Qasım, Xudaverdi və s. insanlar toplaşar söhbət edərdilər.

Kərim Məmmədbağır oğlunun üç oğlu, üç qızı olub. Oğlanları Şamı, Şəhriyar, Asif Bağırovlar, qızları Səlbi, Firəngiz və Xasadır. Kərim kişi işğaldan əvvəl 1980-ci ilin 06 yanvarında 91 yaşında Zəngilan şəhərində vəfat etmişdir. Allah rəhmət eləsin.

Kərim kişi eyni zamanda dövrünün savadlı adamlarından olub. O dövrdə Quran oxuyanları barmaqla saymaq olardı. Onlardan biri də Kərim Quliyev idi. Sovet hökuməti ondan Quran oxumaması üçün dilindən iltizam alıb. Onu da əlavə edim ki, eşitdiyimə görə, Kərim kişi (övladları ona Kərim əmi deyə müraciət edərdilər) həm də çox xeyirxah bir iş sahibi olub. O, şəhərimizdə dalaşanları, mübahisə edənləri, qız qaçıranları barışdırmaq, elçilik eləmək kimi missiyanı da yerinə yetirib. Iki məqamı qeyd edəcəyəm. Vaxti ilə Pirçivan kolxozunun sədri işləmiş Həşim kişi (Abbas Hüseynovun atası) ilə Qəbil (ona el arasında törə Qəbil deyərdilər) arasında mübahisə baş vermiş və Qəbil onun ayağından tutub yerə yıxmışdır. Həşim kişi də ondan şikayət eləmiş və Qəbilin həbsi təhlükəsi yaranmışdı. Qəbil Kərim kişinin yanına gələrək məsələni anlatmışdır. Kərim kişi də Həşim kişiyə minnətə gedərək onları barışdırmışdır.

İkincisi. Köhnə Pirçivanlı Allahverdi kişi (ona el arasında qara Allahverdi deyərdilər, Əlinin, Bəhmənin, Bahadurun atası) ilə Ədil Kərimovun qardaşı Atlıxan yer üstündə dalaşmışlar (bu gün nə o torpaqlar var, nə də ki o insanlar. Görəsən, niyə bizlər belə mənasız şeylər üçün dalaşırdıq. Bu torpaq hamımıza yetəcək, hamımızı udacaq) və Allahverdi şana ilə vurub onun başını yarmışdır. Atlıxan da ondan şikayət edib. Allahverdi kişi minnətə getsə də Atlıxan ipə- sapa yatmır ki, yatmır.

İş belə olanda onlar Kərim kişiyə minnətə gəlirlər. Kərim kişi də soraqlayıb Ədil Kərimovu tapır və məlum olur ki, o, milis şöbəsində növbədədir. Kərim kişi baxır ki, Ədil növbəni tərk edib qardaşının evinə gedə bilməz. Odur ki, şöbəyə gəlib məsələni Ədilə deyir. Ədil Kərimov da onu dinləyib qardaşı Atlıxana belə bir məktub yazar:

-Atlıxan Kərim əmi sizə gəlir. O nə desə, onu dinlə. Beləliklə, Kərim kişi onları da barışdırır.

Kərim Quliyev eyni zamanda qoşulub qaçan qızların ailələrini də barışdırmış, onları davadan, ədavətdən çəkindirmişdir.

## Rayon Pionerlər evi

Şəhərimizdə musiqi məktəbi açılmazdan əvvəl Pionerlər evi adlanan bir təşkilat var idi. Bu təşkilat 1948–ci ildə yaradılıb. Onun ilk müdiri Məmmədova Zənfirə Gülüş qızı olmuşdur. Pionerlər evində şagirdlərə müxtəlif peşələr öyrədilirdi. Peşələrlə yanaşı burada müəyyən qədər müsiqi də şagirdlərə öyrədilirdi.

İlk dövrlərdə burada 7 dərnək olub. Sonrakı illərdə, daha doğrusu, Asif Bağırovun direktor olduğu dövrdə bu dərnəklərin sayı 30-a çatıb. İşgal ərəfəsində isə 35 dərnək mövcud idi.

Sonrakı illərdə Pionerlər evinə İstifa Rzaqulu qızı Hacıyeva, Nəriman Eyvazov, Mirhüseyn Mirəli oğlu və uzun illər isə (1970-1989-cu illərdə) Asif Kərim oğlu Bağırov rəhbərlik etmişlər. Pionerlər evinin son direktoru isə Hikmət Hüseynov idi.

Bu təşkilat rayonumuzun Ermənistan Respublikasının Silahlı Qüvvələri tərfindən işğalına kimi öz fəaliyyətini davam etdirmişdir.

Sovet dövründə Pionerlər evinin tərkibində məktəbdən kənar 7 dərnək fəaliyyət göstəriridi. Bunlar aşağıdakılardır.

-Gənc Təbiətçilər dərnəyi

-Gənc Texniklər dərnəyi,

-İdman dərnəyi

-Tikiş və əl işləri dərnəyi -2 dərnək olub

-Şeir həvəskarları dərnəyi

-Şahmat dərnəyi

Sonrakı illərdə bu dərnəklərdən 4-ü müstəqil təşkilata çevrildilər.

-Gənc Təbiətçilər stansiyası -müdiri Süleymanov İsmayıl

-Gənc Texniklər stansiyası, rəhbəri Şıxəliyev Aydın İdris oğlu

-İdman məktəbi- Kərimov Vidadi Mirzəxan oğlu

-Şahmat məktəbi- Əliyev Zöhrab Əli oğlu, sonra Məmmədov Malik Məmməd oğlu

**Məmmədova Zənfirə Gülüş qızı (1926-2019)**

*Pionerlər evinin direktorlarından*



Məmmədova Zənfirə Gülüş qızı 1926-cı ildə Zəngilan rayonunun Pirçivan kəndində doğulub. İlk təhsilini Pirçivan kənd məktəbində alıb. Sonra müəllimlik etmişdir. O illərdə, müəllimlərə ehtiyac olduğundan yaxşı qiymətlərlə VII sinfi bitirənləri müəllim təyin edərdilər. Zənfirə xanım da bu illərdə bir müddət müəllimlik etmişdir. Sonra onu Rayon Pionerlər evinə direktor təyin etmişlər. Ailə vəziyyəti ilə əlaqədar Kirovabad (indiki Gəncə) şəhərinə köçmüşdür. Onu da qeyd edim ki, Zənfirə xanım Bağırov Şamilin baldızı, Məmmədov Zülfüqarın isə bacısıdır. Məmmədova Zənfirə 2019-cu ildə dünyasını dəyişib.

**Hacıyeva İstifa Rzaqulu qızı (1926-2000)**

*Pionerlər evinin direktorlarından*



Hacıyeva İstifa Rzaqulu qızı 03 may 1926-cı ildə Zəngilan rayonunun Qıraq Müşlan kəndində anadan olub. Kənd Zəngilanda orta məktəbi bitirdikdən sonra o vaxtkı Qaryagin (indiki Füzuli) rayonunda da pedaqoji məktəbi bitirib.

Məktəbi bitirdikdən sonra 1945-ci ildə müəllimliyə başlamışdır.

Həyat yoldaşı Mönsümov İsa şəhərimizin

yaşıllaşdırılması sahəsində xeyli iş görmüşdür.

Sonrakı illərdə İstifa Rzaqulu qızı Hacıyeva Sosial təminat şöbəsində işləyib. Bundan sonra o, 1957-1959-ci illərdə rayon Pionerlər evinin direktoru olmuşdur.

Son illərdə rayon Əmanət Kassasında işləyən İstifa Rzaqulu qızı Hacıyeva rayonun işğalından sonra 2000-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

Allah rəhmət eləsin.

Hacıyeva İstifa Rzaqulu qızı həm də şəhid anasıdır. Oğlu Qasım hay qatilləri ilə mübarizədə xüsusi qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlmişdir.

Qasım İsa oğlu haqqında kitabda yazımız var.

**Eyvazov Fərman Allahyar oğlu (1929-2000)**

*Pionerlər evinin direktorlarından*



Eyvazov Fərman Allahyar oğlu 1929-cu ildə Zəngəzur mahalının İçəri Müşlan kəndində anadan olub. 1936-1946-cı illərdə Zəngilan kənd orta məktəbində oxuyub. Orta məktəbi bitirdikdən sonra 1946- cı ildə H.B.Zərdabi adına Kirovabad (indiki Gəncə) şəhərində Pedaqoji İnstituta daxil olub. Ali məktəbi 1949- cu ildə bitirən Eyvazov Fərman 1950-1951- ci illərdə əvvəl Canbar, sonra isə Seyidlər kəndlərində müəllimlik etmişdir. O, 1951- ci ilin mayından 1954- cü ilin may ayına kimi Sovet Ordusunda hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra rayona gələrək Hacallı kənd orta məktəbində işinə davam edib.

Eyvazov Fərman Allahyar oğlu 1959-1965-ci illərdə rayon Pionerlər evinin direktoru olmuşdur. 1966-cı ildə Zəngilan kənd orta məktəbində olan internatın direktoru işləyib. 1968-1976-ci illərdə isə Soltan Qardaşov adına orta məktəbdə direktor işləmişdir.

1977-ci ildən rayonun işğalınadək həmin məktəbdə ibtidai sinif müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir.

Eyvazov Fərman Allahyar oğlu yaxşı işinə görə Azərbaycan LKGİ MK-nın «**Fəxri Fərman**» ı ilə təltif olunub.

Eyvazov Fərman Allahyar oğlu 2000-ci ildə dünyasını dəyişib. Allah rəhmət eləsin.

## Əhmədov Hüseyn (Mirhüseyn) Əli (Mirəli) oğlu (1946-2004)

*Pionerlər evinin direktorlarından*



Əhmədov Hüseyn Əli oğlu 01 aprel 1946-cı ildə Zəngilan rayonunun Gilətağ kəndində anadan olub. 1963-cü ildə Zəngilan qəsəbə orta məktəbini bitirib. 1966-cı ildə H.B.Zərdabi adına Kirovabad (indiki Gəncə) şəhərindəki Azərbaycan Pedaqoji İnstitutuna daxil olub. 1971–ci ildə oranı Pedaqogika və ibtidai təhsil metodikası ixtisası üzrə qiyabi olaraq bitirib.

Ali məktəbdə oxuya- oxuya 1966- cı ildə onu rayon Pionerlər evinə direktor təyin ediblər. Mirhüseyn Mirəli oğlu bu vəzifədə 1970–ci ilə kimi işlədi. Sonra o, rayon Maarif şöbəsində filmoteka bölməsinin müdiri işləmişdir. Bundan sonra o, ticarət sisteminə keçmiş və Dağüstü parkda müdir işləmişdir.

Onu da qeyd edim ki, Mirhüseyn seyid nəslindəndir və rayonumuzda böyük hörmət sahibi olan Mirəli ağanın oğludur.

Əhmədov Hüseyn Əli oğlu 10 dekabr 2004- cü ildə Bakı şəhərində vəfat etmişdir. Allah rəhmət eləsin.

**Bağırov Asif Kərim oğlu**

*Pionerlər evinin direktorlarından*



Bağırov Asif Kərim oğlu 1947-ci ilin 01 yanvarında Zəngilan rayonunun Pirçivan kəndində anadan olub. 1954-55-ci tədris ilində Pirçivan kənd orta məktəbinin I sinfinə getmiş, 1966-cı ildə Zəngilan qəsəbə orta məktəbinin 11-ci sinfini bitirmişdir. Orta məktəbi bitirdikdən sonra o vaxtkı V.İ.Lenin adına (indiki Nəsirəddin Tusi) Azərbaycan Dövlət Pedaqoji İnsiitutunun tarix fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, oranı 1974-cü-ildə bitirmişdir. Məktəbdə oxuya-oxuya 1967-1970–ci illərdə rayon Mədəniyyət şöbəsində müxtəlif vəzifələrdə işləyib. Mədəniyyət şöbəsində ona görə işə qəbul edilmişdir ki, o, musiqi təhsili olmadığı halda qarmonda yaxşı ifa edirdi. Ali məktəbdə oxuyarkən 1970-ci ildə onu rayon Pioner və məktəblilər evinə direktor təyin edirlər. Sovet zamanında Pionerlər evinin nüfüzu məktəbdən heç də geri qalmırdı.

1978-1979-cu illərdə Bakı zona Komsomol məktəbini bitirmişdir. Oraya Zaqafqaziya Respublikalarından dinləyicilər gəlirdilər. 1989-cu ilin oktyabrından 1991-ci ilin sonuna kimi isə Asif Bağırov daha bir mədəni quruma, rayon Kino-video qurğuları idarəsinə rəhbərlik etmişdir. 1992-ci ilin 01 yanvarından oktyabrına kimi rayon İcra Hakimiyətində məsləhətçi olub. 1992-ci ilin sonundan 1993-cü ilin sentyabr ayına kimi isə Zəngilan rayon qiyabi axşam orta məktəbin direktoru işləmişdir.

Rayonumuzun işgalı ərəfələrində Asif Bağırovu 01 senytabr 1993-cü ildə rayon Təhsil şöbəsinə inspektor göndərirlər. Burada o, 2015-ci ilin yanvarına, yəni təqaüdə çıxana kimi gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Asif Bağırov ailəlidir üç övladı, 6 nəvəsi var. O, Qarabağ Müharibəsi veteranı, eyni zamanda rayon Ağsaqqallar şurası sədrinin müavinidir.

İşlədiyi müddətdə onun əməyinə layiqincə qiymət verilmiş, xeyli təltifləri var. O, 1983-cü ildə Azərbaycan LKGİ MK- nin Fəxri Fərmanına, Maarif Nazirliyinin Fəxri Fərmanına, eləcə də Rayon İcra Hakimiyyətinin, rayon Təhsil şöbəsinin Fəxri fərmanları ilə təltif olunub.

O, rayonumuzdakı istedadlı uşaqların seçilib rayon müsabiqəsinə, oradan da Respublika turuna göndərilməsində əsas simalardan biri olub. Məhz onun rəhbərliyi altında bir çox istedadlı gənc sənhəyə ilk olaraq ayaq basıb. Asif Bağırov eyni zamanda həm rayonumuzu, həm də Azərbaycanı Ümumittifaq Pioner təşkilatı olan «Artek» də təmsil edib.

PS. Asif Bağırov çoxsahəli insandır. İxtisasca tarix müəlimi olmasına baxmayaraq bizlər onu yaxşı qarmon ifaçısı kimi tanıyırdıq. Mən son illərə kimi onun musiqi təhsili olmadığını bilmirdim.

Özünün dediyinə görə, qarmon çalmağı qardaşı Şəhriyardan öyrənib. Bu insanın Zəngilanda xoş niyyətlə açmadığı qapı yoxdur. Özünün dediyinə görə, 2000 dən yuxarı toy çalmışdır. Bilirsiniz bu nə deməkdir. Orta hesabla hər toyda 200 adamın iştirak etdiyini nəzərə alsaq, bu 400 min adama sevinc bəxş etməkdir. O, rayondan əlavə qonşu Qubadlı, Cəbrayıl, Füzuli, Naxçıvan, Ordubad habelə Ermənistan SSR-nin Qafan, Qacaran şəhərlərində, Gorus, Sisiyan və Vedi rayonlarında dəfələrlə el şənlikləri keçirib.

Onun fəaliyyəti bununla bitmir. Eyni zamanda o, bədii yaradıcılıqla da məşgul olur. Indiyə kimi onun Zəngilanla bağlı və digər mövzularda 200-ə yaxın elmi, publisistik və bədii yazıları çap olunub. Onun bədii yaradıcılığının zirvəsi isə rayonun işğalından sonra nəşr etdirdiyi «Doğma yurda qayıtmaq istəyinə boy verən Zəngilan lətifələri» kitabıdır.

Mən bu kitabı oxuyandan sonra çox şey öyrəndim. Rayonumuzdakı bəzi insanları onun vasitəsi ilə yaxından tanıdım.

Son olaraq. Asif müəllim canınız sağ, gününüz xoş, ruziniz bol olsun ki, qələminizi hər zaman işlədəsiniz.

**Hüseynov Hikmət Allahverdi oğlu**

*Pionerlər evinin direktorlarından*



Hüseynov Hikmət Allahverdi oğlu 1956-cı ildə Pirçivan kəndində (sonrakı illərdə Zəngilan şəhəri) anadan olub. 1963-1973–cü illərdə Zəngilan qəsəbə (şəhər) orta məktəbində oxuyub. Orta məktəbi birtirdikdən sonra Bakı şəhərində Səttarxan adına maşınqayırma zavodunda tornaçı kimi əmək fəaliyyətinə başlayıb. 1974-1976- cı illərdə Sovet Ordusu sıralarında qulluq etmişdir. Hərbi qulluqdan sonra 1976-1981-ci illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutunda oxumuş, rus dili və ədəbiyyatı müəllimi ixtisasına yiyələnmişdir.

1981- ci ildə rayona gələn Hikmət Hüseynov əvvəl Bürünlü kənd orta məktəbində ixtisası üzrə müəllim işləmişdir. Onun təşəbbüsü ilə Bürünlü kəndində dəmiryolu stansiyasının yaxınlığında 1941-1945-ci illər müharibəsi iştirakçılarının xatirəsinə abidə ucaldılıb. Abidənin müəllifi və öz hesabına quraşdıranı Hikmət müəllimin özündən böyük qardaşı-rəssam Cavad Cavadovdur.

Sonra o, rayon mərkəzinə gəlmiş və rayon Təhsil Şöbəsində filmoteka şöbəsinin müdiri işləmişdir.

Hikmət Hüseynov 1984-1987-ci illərdə Rusiya Federasiyası Tula Vilayət Komitəsində hərbi vətənpərvərlik şöbəsinin baş məsləhətçisi işləyib. Bədnam qonşularımızın torpaqlarımıza göz dikdikləri dövrdə rayona qayıtmış və 1989-cu ildə Zəngilan rayon Estetik Tərbiyə Mərkəzinə direktor təyin edilmişdir. Hal-hazırda da bu vəzifədə çalışır. Ailəlidir, 4 övladı var.

## Rayon Partiya Komitəsinin I katiblərinin sürücüləri

Nəci-Babaylıdan
Cahangir- Qıraq Müşlandan
Əhməd-Zəngilan qəsəbəsindən
Abdullayev Cəbi-Zəngilan qəsəbəsindən
Həsənov Həsən-Zəngilan şəhərindən
Cavadov Əbülfət- Zəngilan şəhərindən
Həşimov Məcid İzzət o-Zəngilan şəhərindən
RİK sədri Ş.Mehtiyevin «Pobeda» markalı avtomaşını (1957-1960-cı il illər) Rüstəmov Şahsuvar idarə edib.

Eşitdiyimə görə, ilk milis maşınını Hətəmov Yaqub işlədib. Sonra o, dornazor (yol nizamlayıcısı) olub. İlk milis işçilərindən Məmmədquliyev Gülməmməd Şükür oğlunu, Kərimi, Ədili, usta Fərruxun atası İldırımı, Kərimov Ədili, Allahveridiyev Bəyləri qeyd edə bilərik.

İlk illərdə rayon milis şöbəsinin xüsusi atları var idi. Bu atlara baxanlardan birincisi Cəlilov Muxtar olub. Sonra Pirveyisli Fərman, Pirçivandan İsrafil də bu işə cəlb olunub.

## İlk təcili tibbi yardım maşını

Yenə eşitdiyimə görə, ilk təcili tibbi yardım maşınını Sobulu Muxtar Cəfər oğlu Həsənov işlədib. O vaxtlar indiki kimi müasir maşınlar yox idi. Təcili tibbi yardım maşını üstü bağlı qaz -51 tipli maşınlar olub. Sonralar Cəbiş, Cahangir, Şəmil, Cümşüd, Əsəd, Bəhmən təcili tibbi yardım maşınında işləmişlər.

# ZƏNGİLANIN MUSİQİ MƏKTƏBİ

Zəngilan rayonunda 1961-ci ildə musiqi məktəbi açıldı. İlk illərdə üç müəllimlə işə başlayan məktəbin 45 nəfər şagirdi oldu. İlk dərslər 01 sentyabrdan başladı. Bu illər ərzində məktəbin neçə-neçə istedadları nəinki rayon, eləcə də respublika miqyasında tanındı, lauerat adı qazandı.

## Musiqi məktəbinin direktorları

### Bağırov Tapdıq Baxşəli oğlu

*Zəngilan musiqi məktəbinin ilk direktoru,*
*«Sənin Zəngilan» mahnısının bəstəçisi.*



Bağırov Tapdıq Baxşəli oğlu 1940-cı ildə Naxçıvanda anadan olub. Orta və ilk musiqi təhsilini Naxçıvan şəhərində alıb. Sonra təhsilini artırmaq məqsədi ilə Bakıya gələn Tapdıq Bağırov sənədlərini A.Zeynallı adına musiqi məktəbinə verir. Dörd illk təhsili başa vurduqdan sonra onu təyinatla Zəngilanda açılan musiqi məktəbinə direktor yollamışlar.

Hər işin ilki çətin olur. O, rayonda yeni məktəbin açılması üçün müəyyən çətinliklərlə üzləşsə də sonda məktəbin açılmasına nail olub.

O illərdə hələ Zəngilan qəsəbə idi, müsiqi təhsilli kadrlarımız yox dərəcəsində idi. Tapdıq müəllim bu dörvrdə Zəngilanlı müəllim Nəriman Əliyevin xüsusi olaraq mahnı üçün yazdığı şeirə musiqi bəstələmişdir. Bu ilk yerli bir mahnı idi. O illərdə uşaqdan böyüyə hamı bu mahnını oxuyurdu. Bu mahnı uzun illər ərzində repertuardan düşmədi. Rayon miqyaslı elə bir tədbir olmazdı ki, o, ifa edilməsin. Mahnının ilk ifaçısı isə Məleykə Həsənxan qızı Azadova olmuşdur.

Sonrakı, ildə Tapdıq müəllim yerini yeni gələn musiqi müəlliminə təhvil verərək Bakı şəhərinə dönmüşdür.

Əldə olan məlumata görə o sonra Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.

Bədəlov Nəcəf Abbas oğlu-1962-1966.
Kərimov Məcnun Təbriz oğlu-1966-1967
Bayram Budaqi-1967-1968
Kərimov Məcnun Təbriz oğlu-1968-1969
Hacıyeva Rəfiqə Əhməd qızı-1969-1973
Nəsirov Çərkəz Cəlal oğlu 1974-1990
Quliyev Aqil Əli oğlu-1990-2011
Həziyev Rövşən -2011-dən

**Mənbə. Çərkəz Nəsirli. Zəngilanda musiqi ocağı. Bakı, Elm və təhsil, 2013, 216 səhifə.**

**Məcnun Təbriz oğlu Kərimov**

*Zəngilan musiqi məktəbinin direktorları (1963-1967)*



Xalq artisti, sənətşünaslıq doktoru, professor, Qədim Musiqi Alətləri Ansamblının yaradıcısı və bədii rəhbəri

Məcnun Təbriz oğlu Kərimov 1 sentyabr 1945-ci ildə Zəngəzur mahalının Şəki kəndində müəllim ailəsində anadan olub.

1959-1963-cü illərdə Ağdam rayon orta ixtisas musiqi məktəbində təhsilini başa vurduqdan sonra, 1967-ci ilə kimi Zəngilan rayonu yeddi illik uşaq musiqi məktəbinin direktoru işləyib.

1972-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının «Xalq çalğı alətləri» şöbəsini bitirərək pedaqoji fəaliyyətlə məşğul olub. Elə həmin ildən etibarən

orta əsrlərdə Azərbaycanda istifadə edilmiş, dövrümüzə gəlib çatmayan, unudulmuş qədim musiqi alətlərinin öyrənilməsi və bərpası istiqamətində elmi-tədqiqat işlərinə başlayıb.

1975-ci ildə o, artıq ilk qədim musiqi alətinin nümunəsini hazırlamış, nəticədə neçə-neçə elm və mədəniyyət xadimlərinin böyük dəstəyini qazanmışdı.

Məcnun Kərimov 1991-ci ildə Bakı Musiqi Akademiyasında «Qədim musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi» elmi laboratoriyasını yaratdı. Həmin ildən elmi laboratoriyanın müdiri vəzifəsində çalışıb. Burada unudulmuş 11 müxtəlif musiqi alətini (çəng, barbət, çəqanə, çoğur, tənbur, sənbur, rübab, rud, qopuz, ney, nüshə) bərpa edib, onların müxtəlif surətlərini hazırlayıb.

1995-ci ildə «Azərbaycanın qədim simli çalğı alətləri» (tarixi-nəzəri, bərpa və təkmilləşdirmə məsələləri) mövzusu üzrə dissertasiya müdafiə edərək sənətşünaslıq elmləri namizədi alimlik dərəcəsi adı  alıb.

Azərbaycanın qədim musiqi alətləri haqqında tədqiqatların müəllifidir, 10-dan çox qədim musiqi alətimizi bərpa edib, bu mövzuda beynəlxalq simpoziumlarda çıxış edib.

Məcnun müəllimin ən böyük arzularından biri də o idi ki, bu qədim musiqi alətləri yalnız muzey eksponatları kimi sərgilənməsin, həm də ansambl şəklində səsləndirilsin. Əlbəttə, onun bu istəyi də reallaşdı. Belə ki, 1996-cı ildə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində bərpa edilmiş musiqi alətlərindən ibarət ansambl yaratdı. Həmin il Respublika prezidenti mərhum Heydər Əliyev tərəfindən bu iş yüksək qiymətləndirilmiş və ansambla Dövlət statusu verilmişdi.

1998-ci ildən Bakı Musiqi Akademiyası «Xalq çalğı alətləri» kafedrasının dosenti idi. Azərbaycan mədəniyyətinə göstərdiyi xidmətlərinə görə 2006-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 2011-ci ildə Xalq artisti fəxri adlarına layiq görülüb.

Uzun müddət xərçəng xəstəliyindən əziyyət çəkən M.Kərimov 2013-cü il oktyabr ayının 2-də, saat 19.00 radələrində 68 yaşında

dünyasını dəyişib

M.Kərimovla vida mərasimi Bakı Musiqi Akademiyasında keçirilmişdir. O, Bibiheybət qəbiristanlığında-valideynlərinin yanında dəfn olunmuşdur.

**https://az.wikipedia.org/wiki/Məcnun_Kərimov**

**Bədəlov Nəcəf Abbas oğlu**

*(1962-1966-cı illərdə musiqi məktəbinin direktoru)*

Bədəlov Nəcəf Abbas oğlu 1935- ci ildə Bakı şəhərində doğulub. A.Zeynallı adına orta ixtisas məktəbini bitirib 1962-ci ildə təyinatla Zəngilan musiqi məktəbinə göndərilib. Nəcəf Bədəlov zamanında məktəbin ilk məzunları oldu.

**Bayram Budaqi**

*(1966-1967-cı illərdə musiqi məktəbinin direktoru)*

**Hüseynova Rəfiqə Əhməd qızı**

*(1969-1973-cü illərdə musiqi məktəbinin direktoru)*

Rəfiqə Əhməd qızı Hüseynova 1946-cı ildə Zəngilan rayonunda doğulub. O, Bakı Kitabxanaçılıq texnikumunu bitirib. Rəfiqə xanım Mincivan qəsəbəsində yaşadığından sonralar Mincivan qəsəbə musiqi məktəbində fəaliyyətini davam etdirmişdir.

**Nəsirli Çərkəz Cəlal oğlu**

*(1974-1990-cı illərdə musiqi məktəbinin direktoru)*

Nəsirli Çərkəz Cəlal oğlu 1949-cu ildə Zəngilan rayonunun Keçikli kəndində anadan olub. 1956-1966-cı illərdə Zəngilan qəsəbə orta məktəbində oxuyub. Orta məktəbdə təhsil aldığı dövr-də həmdə (1961-1966-cı illərdə) rayon uşaq musiqi məktəbinin tar sinfində də oxuyub.

Sonra o, 1966-1969-cu illərdə Ü.Hacıbəyov adına Ağdam şəhər orta ixtisas musiqi məktəbində musiqi təhsilini davam etdirib.

1970-ci ildən rayon uşaq musiqi məktəbində əmək fəaliyyətinə başlayıb. Nəsirli Çərkəz 1974-1990-cı illərdə həmin məktəbin direktoru olub. O eyni zamanda 1979-1974-cü illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda oxuyub və mədəni-maarif ixtisasına yiyələnib. Hazırda təqaüddədir.

**Quliyev Aqil Əli oğlu**

*(1990-2011-cı illərdə musiqi məktəbinin direktoru)*

Quliyev Aqil Əli oğlu 1939-cu ildə Mincivan qəsəbəsində anadan olub. Mincivan qəsəbə orta məktəbini bitirdikdən sonra Bakıya gedərək A.Zeynallı adına orta ixtisas musiqi məktəbinə daxil olub və oranı bitirmişdir. Sonralar o, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Koncervatoriyasını da bitirib, təyinatla Sumqayıt şəhərindəki S.Hacıbəyov adına orta ixtisas musiqi məktəbinə göndərilib. Burada bir müddət işlədikdən sonra rayona qayıdaraq Zəngilan musiqi məktəbində əmək fəaliyyətini davam etdirmişdir.

**Həziyev Rövşən Qürbət oğlu**

*(2011-ci ildən musiqi məktəbinin direktoru)*

## Sənət adamlarımız

### Hüseynova Həcər



Yaşlı zəngilanlılar 50-70-ci illərdə bir məlahətli səsi yəqin ki, unutmayıblar. Mən lap uşaq yaşlarımda onu görmüşdüm. Haradasa 9-10 yaşım olanda onu dinləmişdim. O zaman, bəlkə də onun oxuduqlarını mən tam mənası ilə anlamırdım. Sonralar onu daha yaxşı tanıdım. Bu zəngilanlı müğənni Həcər xanım idi.

Həcər Hüseynova, haradasa, 1934-cü ildə Qərbi Azərbaycanın Nüvədi kəndində anadan olub. Sonralar uzun illər Zəngilanda yaşayıb-yaratmışdır. Deyilənə görə, bir müddət Naxçıvan Muxtar Respublikasında işləyib. O, Naxçıvanda Filarmoniyanın solisti kimi çıxış etmişdir. (A.Bağırovun məlumatı). Bu müddətdə Naxçıvanın əməkdar Mədəniyyət işçisi adı almışdır.

Həcər xanım sözün əsil mənasında sənətkar idi. Zəngilan kimi kiçik bir əyalət mərkəzində təbii ki, onun sorağı çox da uzaqlara getmirdi. Rayonun bütün mədəni-kütləvi və ictimai tədbirləri onsuz keçməzdi.

Həcər xanımla bir yerdə işləmiş, rayonun sənət adamlarından biri və birincisi olan Asif Kərim oğlu Bağırovun dediklərindən:

-Həcər xamımın çox yüksək diapazonlu səsi var idi. O, Qarabağ şikəstəsini digər ifaçılardan bir qədər də zildə oxuyardı. Mən özüm onu müşaiyət eləmişəm. Deyərdim ki, əgər Həcər xanım Bakıda yaşasaydı Sara Qədimova, Şövkət Ələkbərova, Fatma Mehrəliyeva, Tükəzban İsmayılova kimi sənətkarlardan biri olardı. O oxuduğu «Şahnaz», «Qatar», «Segah» muğamlarını, «Qarabağ şikəstəsi», «Kəsmə şikəstə», bütün zərb muğamlarını özünəməxsus tərzdə ifa etmişdir. O umumiyətlə bütün muğamları,

təsnif və xalq mahnılarını da ifa edib. Onlar unudulmaz ifalardandır. Həcər xanım sözün əsil mənasında sənətkar idi.

Bu gün Həcər xanımın harada olduğunu bilmədiyimdən onun haqqında daha geniş danışmağa və son söz deməyə çətinlik çəkirəm. Inşəallah sağdırsa onu tapıb mütləq görüşmək arzusu ilə sözümü bitirirəm.

Həcər xanımın səsi var idi, amma, dəstək olan adamı yoxdu. Onun Bakıya gedib paytaxtın musiqi dünyasına qarışmaq imkanı məhdud idi.

**Gülməmmədov Xeybər Ağabala oğlu**



Gülməmmədov Xeybər Ağabala oğlu 1931-ci ildə Zəngilan rayonunun Böyük Gilətağ kəndində anadan olub. 1948- ci ildə iki illik Ağdam müəllimlər İnstitutuna daxil olmuş və 1950-ci ildə oranı bitirmişdir. Elə həmin ildən də Gilətağ kənd orta məktəbində müəllim kimi əmək fəaliyyətinə başlamışdır.

Xeybər müəllim 1960-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş və 1964-cü ildə oranın riyaziyyat fakültəsini qiyabi olaraq bitirmişdir.

Xeybər müəllim 2010–cu ilə kimi nə az, nə çox, düz 60 il gənc nəslin təlim və tərbiyəsi ilə məşğul olmuşdur.

Xeybər müəllim gənc nəslə bilik öyrətməklə bərabər, gözəl səsi ilə də rayonumuzda yaxşı tanınıb. O, dəfələrlə rayonda keçirilən müsiqi yarışmalarının qalibi olmuş, eyni zamanda Respublika Mahnı və Rəqs bayramında Bakı şəhərində keçirilən respublika turuna vəsiqə qazanmış və mükafata layiq yer tutmuşdur.

Gözəl səsi olmasına baxmayaraq o, müəllim peşəsinə daha çox önəm verərək, bu sahədə xalqımıza xidmət göstərmişdir.

Xeybər müəllimin Tamella, Rəşidə, Xatirə, Natella, adlı dörd qızı, Zahid, Tofiq, Mürşüd və Teymur adında dörd oğlu var.

Xeybər müəllimin özündən kiçik iki qardaşı- Aydın və Vəliyəddin Quliyevlər də mühüm tədbirlərdə muğam oxumuşlar. Onlar kütləvi surətdə toy şənliklərində iştirak etməsələr də münasib dostlarının şənlik məclislərində ürək sözlərini muğamlarla demişlər.

**Orucova Almaz Ədil qızı**

*Respublikanın əməkdar artisti*



Orucova Almaz Ədil qızı 02 iyun 1966-cı ildə Zəngilan şəhərində anadan olub. 1983-cü ildə 1 saylı Zəngilan şəhər orta məktəbini bitirib. Sənətə gəlməsində anası Seyrana xanımın və dayısı Xeybər müəllimin böyük təsiri olub. Onların da gözəl səsi var idi.

Almaz Orucova sonra 1985-1990-cı illərdə A.Zeynallı adına orta ixtisas müsiqi məktəbində oxuyub və həmin məktəbi bitirib. 2010-cu ildə Türkmənistanda keçirilən festivalda I yeri tutaraq «Qran Pri», mükafatı alıb. 2012-ci ildə «Respublikanın əməkdar artist»i, fəxri adına layiq görülüb. Azərbaycan Dövlət Filarmoniyasının solisti olan Almaz xanım Almaniya, İtaliya, Fransa, Şotlandiya, Norveç, İran və Türkiyədə müsiqimizi təbliğ edib.

Anası və dayısı eyni zamanda Zəngilan rayon Mədəniyyət şöbəsinin nəzdində fəaliyyət göstərən xalq çalğı alətləri ansamblında müxtəlif illərdə çıxış etmişlər. Dayısı Xeybər müəllim isə 1953-cü ildə Respublika mahnı və rəqs müsaqbiqəsinə vəsiqə qazanmış və mükafata layiq yer tutmuşdur.

## Zəngilanın sənət dünyası

Hər bir xalq, millət özünü insanları vasitəsi ilə tanıdır. Bura elm, mədəniyyət, sənət sahələri, etnoqrafiya və s. daxildir. Xalqımızın da dünyada öz maddi mədəniyyət nümunələri ilə xüsusi yeri var. Zəngilan Azərbaycanın kiçik bir diyarı kimi öz daxilində və eləcə də ərazidən kənarda ölkə miqyasında sevilib seçilən insanları, mədəniyyəti və maddi mədəniyyət abidələri ilə özünə məxsus yer tutur. Bizim ən böyük nemətimiz təbii çinar meşəsidir ki, bunu da tanıtmağa gərək yoxdur, çünki dünya bunu yaxşı bilir.

Mən burada Zəngilan kimi kiçik bir bölgənin böyük adamlarından, daha döğrusu, qəlblərdə özünə yer eləyən sənət adamlarından danışacağam.

Xalqları ədəbiyyatsız, teatrsız, musiqisiz təsəvvür etmək çətindir. Müəyyən hallarda yeməksiz, geyimsiz keçinmək olar, amma, ədəbiyyatsız, teatrsız, müsiqisiz, idmansız olmaz. Belə bir xalq öz mövcudluğunu qoruyub saxlaya bilməz.

Sovet hakimiyyətindən əvvəl Zəngilan vahid bir inzibati ərazi vahidi olmasa da, sənət adamları, qəhrəmanları var idi. Sobu musiqiçiləri o dövrdə Təbrizdə, Ordubadda, Sisyanda belə toylar aparmışlar. Bu barədə Sobululardan yazacağımız kitabda bəhs etdiyimdən onun üzərində geniş dayanmayacağam.

Sovet hakimiyyətinin qələbəsindən sonra Zəngilan müəyyən edilmiş sərhədə və əraziyə malik bir inzibati ərazi vahidinə çevrildi və bu 1993- cü ilin oktyabrına kimi, yəni Ermənistan silahlı qüvvələrinin işğalına kimi davam etdi.

Bu lllər ərzində çox uğurlu və acı günlərimiz oldu. 1941-1945- ci illər müharibəsində və son illərdə olan Qarabağ savaşında yüzlərlə ailənin çırağı söndü, uşaqları yetim, analar övladsız, gəlinlər ərsiz qaldı, amma yenə də həyat davam elədi. Deyirlər, xeyirlə-şər əkizdir. Ölənlə ölmək olmaz.

İmam Hüseyn (ə) Kərbəlada 17 ailə üzvünü itirdiyi günün

səhəri öz qızını qardaşı İmam Həsənin oğlu Qasıma nişanladı.

Həyat davam etməlidir.

Zəngilanın biz burada müsiqi aləmindən danışacağıq. Rayonumuzda ilk rəsmi musiqi məktəbi 1961- ci ilin sentyabr ayının 1-də açıldı. Lakin buna qədər heç bir musiqi təhsili olmayan onlarla sənət adamlarımız var idi. Bunlar əsrlər boyu el şənliklərində qədim musiqimizi yaşadaraq günümüzə kimi gətirən el sənətkarları idi.

Fəaliyyətdə olduğu 32 il ərzində Zəngilan musiqi məktəbinə yüzlərlə uşaq gəlib keçdi, özünü sınadı, uğur qazandı. Biz burada onlardan danışacağıq. Təbii ki, onları qeyd etməklə onlara bu incə sənəti öyrədən müəllimləri də yeri gələndə xatırlayacağıq. Ola bilsin ki, hamını xatırlaya bilmədik. Amma yenə də çalışacağıq ki, sizə müəyyən məlumat verək. Yaddan çıxanlar bizi bağışlasın.

## Zəngilan musiqi məktəbi barədə

Zəngilanın ilk musiqi məktəbinin direktoru əslən Naxçıvandan olan Bagırov Tapdıq Baxşəli oğlu olub. O, 1961-1962-ci illərdə məktəbin direktoru işləyib.

Öz fəaliyyəti ərzində məktəbin 7 direktoru olub. Təbii ki, bu illərdə yerli kadrlara böyük ehtiyac olduğundan müəllimlər də kənardan gəlməli idi.

Respublikanın başqa rayonlarından fərqli olaraq bizim rayonda dram teatrı fəaliyyət göstərməyib. Düzdür, rayonda dram dərnəyi olmuşdur. Bu səbəbdən də biz, əsasən, müsiqi kollektivlərindən, ifaçılardan danışacağıq.

Zəngilanlı musiqiçilər rayondan əlavə qonşu Qubadlı, Cəbrayıl rayonlarında, eləcə də qədim türk yurdu Zəngəzurun Qafan, Qacaran (Gec alınan) şəhərlərində toy şənlikləri keçirmişlər.

Bu illərin ifaçılarından Həcər Hüseynovanı, Xeybər müəllimi, Seyrana xanımı, Aşur Adıgözəlovu, Gilətağlı Gülüşü, Alıbəylidən Anarı, Mincivandan Ətabbanı, Alıbəylidən Tamam Bəşirovanı,

şəhərdən Aydın Şıxəliyevi, Valeh Mirzəyevi, Hüseyni, Rəbənddən Cəlil Məmmədov, Məmmədbəyli kəndindən Fikrət müəllimi, əslən Sobudan olan Ağa Ağayevi, Gülalı və Nüsrət Məmmədov qardaşlarını, Əflatun Ələkbər oğlu Şıxəliyevi qeyd edə bilərəm.

Musiqi alətlərini ifa edənlərdən Asif Bağırov (qarmon), Qəzənfər Rüstəmov (tar), Yelmar Şəfiyev (klarnet), Yavər Paşayev (nağara), İzzət Bağırov (kamançada, sonralar gitara), Allahyar (klarnet), Arif Şıxəliyev (nağara), Eldar Həsənov (klarnet), Tahirə Mönsümova (piano), Məhəmməd (balaban), Əmir Əsədov (gitara), Cəmil Əsədov (kamança), Vahid Firudinov (klartnet), Sarıl kəndindən Musanı (qarmon) qeyd edərdim.

Musiqi məktəbinin ilk ansamblı Məcnun Təbriz oğlu Kərimovun (bu barədə kitabda geniş məlumat verilib) zamanında təşkil olunub. O zaman ansamblda Asif Bağırov qarmonda (akkordeon) Ruslan Vəli oğlu Quliyev, Məzahir Mürsəl oğlu Qocayev, Rəşid Soltan oğlu Heydərli tarda ifa edərdilər.

Sonrakı illərdə musiqi məktəbinin müəllimi Tahirə Mönsümova 1971-ci ildə məktəbin musiqi ansamblını yaradır. Ansambla «Çinar» adı verilir. İlk belə məktəb ansamblı Məcnun Kərimov zamanında təşkil olunmuşdu.

## Əhmədov Məhəmməd.

Bu adam şəhərimizdə bərbər işləməklə bərabər toylarda da zurna və balabanda ifa edərdi. O, zurnada demək olar ki, yaxşı ifa edərdi. Asif müəliim deyir ki, Bakıdakı zurna və balaban çalanların alətlərində yarım pərdələr olduğu halda Məhəmmədin alətində bu yox idi. O bunu dodaqları ilə edərdi. Deyərdim ki, nəinki Zəngilanda hətta ətraf rayonlarda belə onun kimi zurna və balaban ifaçısı yox idi. Təəssüf ki, bunu tam üzə çıxara bilmədi.

Asif Bağırov bildirir ki, 1989- cu ildə bir müəllimlər ansamblı yaratdıq. Onun ilk üzvləri Ağayev Ağa, Gülalı və Nüsrət Məmmədov qardaşları, Vidadi (klarnet çalan), Akif (Mincivandan qarmon çalan), Cəmil Əsədov, Babaylıdan Fikrət müəllim

(oxuyan), Sarıldan Musa qarmon ifaçısı), Zəngilan şəhərindən Əmir Əsədov ( gitaraçı) idi.

Sonrakı illərdə Vahid Firudinov, Valeh Mirzəyev, Hüseyn, Aydın Şıxəliyev, Eldar Həsənov, Məhəmməd, Tahirə Mönsümova ansamblda iştirak etmişlər

Hər il mart ayında rayonumuza Bakıdan musiqiçilər gələr və istedadlı uşaqları, gəncləri seçərdilər. Bir dəfə Bakıdan Qafar Namazəliyev adlı biri gəlmişdi. Özü də gözəl səslə oxuyardı.

Seçim zamanı o əslən Sobudan olan Əflatun Şıxəliyevin ifasını çox bəyəndi. Asif müəllim deyir ki, Əflatun çox istedadlı gənc idi. Əgər bu sənətin dalınca getsəydi, bəlkə də böyük uğur qazanardı.

Rayon mövcud olduğu illərdə və ondan sonra Azərbaycan Musiqi Akademiyasını (əvvəllər Üzeyir Hacıbəyli adına Konservatoriya) bitirən Zəngilanlılar.

## Konservatoruiyanı bitirən zəngilanlılar

Bəxtiyar Kərimov
Balaqadaşova Yaqut Seyfulla qızı -(Sobulu)*
Şıxəliyeva Zümrüd Firudin qızı -(Sobulu)*
Nəsirov Fərhad Cəlal oğlu
İzzətin qızı
Quliyev Aqil Mincivandan
Nəsirli İradə Çərkəz qızı
*Bunların ikisi Sobuludur.

## Komsomol toyu

Mincivandakı 36 saylı orta məktəbdə vaxtı ilə Mincivanlı müəllim İdrislə bir rus qızının komsomol toyu olub. Bu toyda ilk dəfə gəlin bəylə bərabər məclisdə oturub. Mən ikinci belə bir toyu qonşuılqda gördüm. Həsənov Bəylərin oğlunun toyunda da bəylə gəlin məclisdə oturdu.

## Rayonumuza gələn musiqi kollektivləri və digər incəsənət xadimləri.

Sovet zamanında insanların asudə vaxtının təşkili istiqamətində müəyyən tədbirlər keçirilirdi. Bakıdan sənət adamları, musiqi kollektivləri, ifaçılar, teatr kollektivləri rayonlara ezam olunar, kənd təsərrüfatı qabaqcılları, eləcə də rayon zəhmətkeşləri qarşısında rəngarəng proqramlarla çıxış edərdilər. Bakıdan, eləcə də kənd rayonlarından qonşu rayonlara konsert verməyə, məhsul bayramında iştirak etməyə gedərdilər.

Bakıdan rayonumuza bu illər ərzində bir çox sənət adamları, musiqi kollektivləri gəlmişdir. Burada onlardan bəhs edəcəyik.

Muğam ustalarından Sahib Şükürov (Razi Şükürovun atası), İldırım Həsənov, Anaxanım Salayeva, Sara Qədimova (1922-2005, xalq artisti), Yavər Kələntərli (1902-1979, əməkdar artist), Tükəzban İsmayılova (1923-2009, o hər zaman yoldaşı tarzən xalq artisti Həbib Bayramovla (1926-1994, xalq artisti) birlikdə gələrdi), Əbülfət Əliyev (xalq artisti), Canəli Əkbərov (xalq artisti), Mütəllim Mütəllimov (1990-1981), Mürşüd Məmmədov (1929-1996), Anatollu Qəniyev (1931-1987), Mahmud Mahmudov, Validə Mahmudova, Təranə Vəlizadə, Raziyyə Şirinova, Ağabala Abdullayev (1910-1976), Əliyar Əmirov (1925-1994), Mais Salmanov (respublikanın əməkdar artisti, 1933-2008), Mais Məmmədov, Nazim Çələbiyev, Nazim Ağayev (respublikanın əməkdar artisti 1939-2018), Məmməd Salmanov kimi muğam ustaları və xalq mahnılarının ifaçlıları rayon əhalisi qarşısında dəfələrlə çıxış etmişlər. Bunlardan başqa Aftandil İsrafilov (qarmon), Teyyub Dəmirov (qarmon), Abbas Abbasov (qarmon), aktyorlardan Bəşir Səfəroğlu (xalq artisti), Lütvəli Abdullayev (1914-1973, xalq artisti), Əliağa Ağayev (1913-1983 xalq artisti), Səyavuş Aslan (1935-2013 xalq artisti), Məmmədsadıq Nuriyev (1919-1973 əməkdar artisti, Arif Quliyev (xalq artisti), Mübariz Əlixanoğlu (1944-2007) əməkdar artist, əslən Zəngilanlıdır) kimi

sənətkarlar da rayonumuzda səhnəciklər göstərmişlər.

Bunlardan əlavə Naxçıvan Muxtar Respublikasının xalq çalğı alətləri ansamblı, Dram teatrı da burada olmuşdur. Naxçıvan kollektivinin tərkibində həmyerlimiz Həcər Hüseynova da yoldaşı Bəşirlə birlikdə konsertdə iştirak etmişdir. Naxçıvan kollektivinin tərkibində muğam ifaçısı Vahid Ərəboğlu və Abdulla adlı biri də olub.

Eyni zamanda Ordubad, Beyləqan, Cəlilabaddan, qonşu Füzuli, Goyçay rayonundan gələn kollektivin aparıcıları olan Eldar və Çingiz qardaşları, Tovuz aşıqları və onların nümayəndəsi aşıq Xanlar, pəhləvanlardan Hüseyn Rəhimov, Dağıstandan gələn pəhlivən Sali Süleyman, oğlu və qızı ilə birlikdə burada öz qabiliyyətlərini nümayiş etdirmişlər.

Bu illərdə, eyni zamanda Ermənistanın Qafan rayonu ilə də belə görüş mübadiləsi keçirilirdi. Onlar Sovet hakimiyyətinin qurulduğu günlərdə yəni 28 apreldə bizə gələr, bizlər də 29 noyabrda onlara qonaq gedərdik. Qafan şəhər Mədəniyyət evində belə tədbirlər hər il keçirilərdi.

Belə tədbirlərin birində Asif Kərim oğlu Bağırov (qarmon), Arif (nağara) və Aydın (solist) Şıxəliyev qardaşlarından ibarət trio Qafan şəhər Mədəniyyət sarayında konsert vermişlər. Bu sovet hökümətinin xalqları bir-birinə süni yaxınlaşdırmaq, əvvəllər olmuş xalqlar arasındakı milli münaqişəni ört-basdır, eləmək, süni bir sovet xalqı yaratmaq ideyasının bir hissəsi idi.

Sonrakı illərdə şəhərimizdə də belə qruplar təşkil olunmuşdur. Şəhərdəki üçlükdə Bağırov Asif Kərim oğlu (1947, qarmonda), Şıxəliyev Arif İdris oğlu (1947) nağarada və Şəfiyev Elmar Eylas oğlu (əslən Qubadlı rayonunun Hal kəndindəndir) klarnetdə, Əhmədov Teymur (1944 Cəbrayıl rayonunudan, klarnetdə) ifa ediblər. Oqtay Zəngilanlı (1939. qarmon) və qardaşı Ələkbərli Eldar İskəndər oğlu (1951. nağarada) tədbirlərdə iştirak ediblər.

Bir qədər sonra isə Mincivandan Abdullayev Allahyar Abbas oğlu, Şıxəliyev Aydın İdris oğlu (şəhər, solist), Həsənov

Eldar Xanlar oğlu  (1953. şəhər, klarnet), bərbər Məhəmməd (şəhər, zurnada) Bağırov İzzət Məhəmməd oğlu (şəhər, gitara), Adığözəlov Aşur Bəşir oğlu (1947. Rəzdərə, solist) Həsənov Hüseyn Yunis oğlu (solist), Firudinov Musa (şəhər, qoşa nağara), Firudinov Vahid Musa oğlu (şəhər, klarnet), Mirzəyev Valeh (şəhər, nağara və solist)  Quliyev Mahir (1951. Kolluqışlaq kəndindən), Qəhrəman və s. bu dəstəyə qoşulmuşlar.

1980–ci ildən sonra isə misiqiçilər aləminə  Heydərli Natiq Soltan oğlu (şəhər), Cəlal, Dünyamalıyev, Mehti Nəbi oğlu (Sobudan), Hüseynov Oruc Məhərrəm oğlu (Sobudan), Əsədov Əmir Ədil oğlu (şəhər, gitara), Vəliyev Azər Əliş oğlu (şəhər, gitara) bu qruplara qoşulmuşlar. Bu illərdə artıq ansambl və qruplara yeni musiqi alətləri olan ionika və sintizator da daxil oldu. ( Yazı A.Bağırovun məlumatı əsasında yazılıb)

## Üçlüklər

Rayonumuzun müsiqi tarixi ərzində müxtəlif illərdə fəaliyyət göstərmiş  üçlüklər

Asif Kərim oğlu Bağırov (qarmon), 1947-ci ildə Pirçivan kəndində anadan olub.

Arif İdris oğlu Şıxəliyev (nağara) 1947-ci ildə Pirçivan kəndində anadan olub.

Aydın İdris oğlu Şıxəliyev (solist) 1954- cü ildə Pirçivan kəndində anadan olub.

***

Rasim Abdun oğlu Rəsulov (qarmon) 1957- ci ildə Zəngilan qəsəbəsində anadan olub.

Vahid Musa oğlu Firudinov (klarnet) Zəngilan qəsəbəsində anadan olub.

Valeh Mirzəyev (solist) Zəngilan qəsəbəsində anadan olub.

Bu üç gənci 1970- ci ildə Asif Bağırov dərnəyə qəbul etmişdir. Heç bir musiqi alətində çala bilməyən və musiqidən bir o qədər

də anlayışı olmayan bu üç gənc məhz Asif Bağırovun səyi və tələbkarlığı sayəsində rayonda, eləcə də respublika turlarında iştirak etmiş, müvafiq yerlər tutmuşlar.

**Pirçivan kəndindəki M.Bağırov adına kolxozun sədrlərindən**

1. Həşim kişi-Pirçivan. İngilis dili müəllimi Abbas Hüseynovun atası
2. Cəfərov Məmiş- Qıraq Müşlanlı, Lenin Ordenli.
3. Nəbiyev Şirin- Qubadlı.
4. Əsgərov Muxtar-Pirçivan
5. Vəliyev Şəmil.əslən Babaylı
6. Həsənov Hüseyn-Ördəkli
7. Bağırov Hidayət-Keçikli
8. Novruzov İsmayıl-Malatkeşin
9. Hacıyev Tofiq (briqadir olan)-Pirçivan
10. Bağırov Famil-Keçikli, kənd təsərrüfatı elmləri namizədi

**Lenin bağı**

Pirçivan kəndinin, sonra qəsəbəsinin, sonda da Zəngilan şəhərinin mərkəzi bağı olan Lenin adına bağ şəhərimizin, eləcə də kəndlərdən iş üçün rayon mərkəzinə gələnlərin istirahət, yeyib-içmək məkanı idi.

Zəngilan şəhərinin əsas küçəsi sovet zamanında K.Marksın adını daşıyırdı. Bu park K.Marks küçəsi ilə ona şərq tərəfdən paralel olan 28 Aprel küçələrinin arasında idi. Parkın cənub tərəfində Suvarma Sistemləri idarəsi yerləşirdi. Bu idarənin cənub tərəfində hündürlüyü 2 metr olan çay daşından tikilmiş divar var idi. Ümumiyyətlə, həm Suvarma Sistemləri (SSİ) İdarəsinin, həm də parkın ətrafı belə hündür divarla əhatəyə alınmışdı ki, bu da mal-qaranın parka zərər verməməsi üçün idi. SSİ-nin cənub tərəfində eni 2 metr olan bir ara yol var idi. O yol K.Marks

küçəsindən şərqə doğru 28 Aprel küçəsinə, daha doğrusu Sosialist Əməyi Qəhrəmanı Həsənov Allahverən Gülmalı oğlunun həyət qapısına çıxırdı. Girişin cənub tərəfində başqa bir divar, yəni parkın divarı var idi. Bu divardan şəhərimizin Yay klubuna kimi olan ərazi parkın ərazisi idi. Parkın həm K.Marks küçəsi, həm də ki, 28 Aprel küçəsi tərəfdən girişi var idi. Bu girişdən eni iki metr olan bir asfalt cığır bağın mərkəzinə kimi gələr, oradan 90 dərəcə sola dönərək bağın cənub divarına qədər, yəni Yay klubuna kimi uzanardı. Həmin yolun mərkəzə qədər olan yerində sağ tərəfdə Leninin hündür heykəli var idi. Hər il bu heykəli tikinti-təmir idarəsinin (Bəhmən Allahverdiyevin müdir olduğu idarə) işçiləri tərəfindən alüminium tozu ilə boyayardılar. K.Mark küçəsi tərəfdən içəri girəndə yolun sağında taxtadan bir ticarət köşkü var idi. Burada əvvəl Salman Ağayev, Mirzəxan, Rəfiqə (RİC-də işləyən Əsəd Əsədovun yoldaşı), son illərdə Mariya Əliyar qızı Əliyeva işləmişdir. Sol tərəfdə isə Fərhadov Əlinin ayaqqabı təmiri köşkü var idi. Əli dayı həm yaxşı ayaqqabı tikər, həm də ki, təmir edərdi. Digər təmirçilərə baxanda Əli dayı bir az bahacıl idi, amma işi səliqəli və keyfiyyətli idi.

Bağdakı Lenin heykəlini ildə dörd-beş dəfə əhali ziyarət edərdi. Yaşlılar hər il sovet hökümətinin qurulduğu 7 noyabrda və zəhmətkeşlərin Beynəlxalq həmrəylik günü olan 1 mayda şəhərdə keçirilən nümayişdən sonra bura gələr, dahi rəhbərin heykəli önünə əklil qoyar və şəkil çəkdirərdilər. Komsomolçular 29 oktyabrda, pionerlər isə 19 mayda onu ziyarət edərdilər. Bəzən buraya hərbi xidmətə gedənlər də gələrdilər. Nə isə maraqlı və insanlara xöş təsir bağışlayan anlar idi.

Heykəlin arxa tərəfində sağ hissədə Əhaliyə Məişət Xidməti Kombinatının bir binası var idi. Bu iki gözdən ibarət olan binanın sağ hissəsində fotoqraflar, sol hissəsində isə bərbərlər əhaliyə xidmət edərdilər. Fotoqraflar Abas kişi və son illərdə kababçı olan Mehdiqulu idi. Bərbər isə Fərrux dayı idi. Fərrux dayı eyni zamanda uşaqları da sünnət edərdi. Bu illərdə eyni zamanda

Qafan şəhərindən olan bir hay (erməni) da burada şəkil çəkirdi.

Bu binanın sol hissəsində isə yeməkxana var idi. Burada şəhərin əsas yeməkxanası və çayxanası yerləşirdi. Mənim yadıma gələn burada Xəlil İbrahimov aşpaz, Şükür Talıbov bufetçi, Əkbər Fərəcov müdir, Hüseyn bufetçi, Nadirxan, İsmayıl (İsmayıl dayı əvvəllər uzun illər «**Kənd həyatı**» qəzeti redaksiyasında linotipçi, hərf düzən işləyib) çayçı idilər.

Yeməkxanada eyni zamanda mədəni-kütləvi tədbirlər, ad günləri və, komsomol toyu keçirilirdi.

Lenin bağındakı yeməkxanadan sol tərəfdə tir (atıcı) var idi. Ondan da sol təfərdə cənub divarının yanında eni- boyu orta hesabla 10 metr olan bir şüşəbənd otaq var idi. Burada Rüstəmov Qəzənfər OADKYC (DOSAAF)-nin xətti ilə makinaçı kursu təşkil eləmişdi. Bura demək olar ki, sanki təbiətin bir parçası idi.. Ağaclar, güllər, çiçəklər insana bir rahatlıq, gətirir insanın ruhu rahat olurdu. Təbii ki, bu bağ öz-özünə əmələ gəlməmşdi. İlk illərdə rayonun yerli hökuməti bağa zərər verənlərə qarşı sərt tədbirlər görmüş, cəzalar müəyyən etmişdi. Bağ ona baxanların ağaclara, güllərə su verib onlara qulluq eləmələri sayəsində ərsəyə gəlmişdi.

Burada həmin qərarı sizlərə təqdim edirik.

**1950-il rayon qəzetindən**

Rayon ərazisində və xüsusən onun mərkəzi küçələrində görkəmli mənzərə və abadlıq tədbirləri yaratmaq məqsədi ilə

**Zəngilan rayon ZDS İK- si QƏRARA ALIR.**

1. Rayon mərkəzində və xüsusən onun mərkəzi küçələrində yerləşən idarə, müəssisələrin rəhbərləri və ayrı-ayrı ev sahibləri məcbur edilsinlər ki, evlərin və idarələrin xaricini suvayıb ağartsınlar.

2. Mərkəzi küçələrdə rayon mərkəzinin mənzərəsini xarablaşdıran qamış, civir və sairə bu kimi materiallardan budkalar tikilməsi qadağan edilsin və mövcud olan belə budkalar götürülsün

3. Mərkəzi küçələrdə tövlə, pəyə tikilməsi və heyvan saxlanılması qadağan edilsin. Bütün mövcud olan tövlə və pəyələrin sökülüb basqa yerlərdə tikilməsi həyata keçirilsin.

4. Mərkəzi küçələrdə küləş, civir və qamış örtüyü olan təndirlər sökülsün.

5. Mərkəzi küçələrdə təmizlik işini qaydaya salmaq məqsədi ilə Pirçivan kəndində Bağırov kolxozunun və kolxozçuların mal-qarasının mərkəzi küçələrdən gediş-gəlişi qadağan edilsin.

6. Bütün idarələr və yaşayış evləri yanında ayaq yolları rayon texnikinin və sanitar müfəttişinin göstərişi əsasında tikilsin.

7. Bütün kommunal yaşayış evləri yanında möhkəm örtülən zibil yeşikləri qoyulsun, xüsusi evlər və idarələrin yanında isə idarələrin və ev sahibləri tərəfindən qoyulsun, toplanılmış zibil həmin yeşiklərə tökülsün.

8. Kommunal yaşayış evlərinin yanından zibilin kommunal idarəsinin maşını ilə, idarə müəssisə və xüsusi yaşayış evlərinin həyətlərində olan zibilin daşınıb atmasını isə özləri təmin etsinlər

9. Rayon mərkəzində aparılan hər hansı bir tikinti işləri yalnız rayon ZDS İK-nin inşaat texnikinin icazəsi ilə aparılmalıdır. İcazəsiz hər hansı bir tikiliş işləri qadağan edilsin. Həmin qərarı pozan şəxslər inzibati qayda ilə yüz manata yaxın cəriməyə və yaxud bir ay müddətində islah əmək işinə cəlb edilsinlər. Həmin pozuculuq ağırlaşdırıcı xasiyyət daşıyarsa müqəssirlər cinayət məsuliyyətinə cəlb edilsinlər. Həmin qərarın icrası rayon Milis Şöbəsinə, rayon ZDS İK-nin inşaat texnikinə, sanitar müfəttişliyinə və Pirçivan kənd sovetliyinə tapşırılsın. Həmin qərar bu gündən etibarən bir il müddətinə verilir və elan ediləndən on gün sonra qüvvəyə minir. Qabaqca bu haqda Zəngilan ZDS İK-si tərəfindən verilmiş bütün qərarlar qüvvədən düşmüş hesab olunsun. Bu

qərarın üzərinə nəzarət rayon Prokurorluğuna həvalə edilsin.

Zəngilan rayon ZDS İK-nin sədri: Ziyad. Məmmədov

Zəngilan rayon ZDS İK-nin katibi: Xanlar Həsənov. Stalinçi qəzeti, 06.06.1950,N-22**.**

**Zəngilan rayon ZDS İK-nin Q**ərarı**. N-2. 16 May 1950-il**

Rayon mərkəzi Pirçivan kəndində yaşıllıqların mühafizəsini möhkəmləndirmək məqsədi ilə

**Zəngilan rayon ZDS İK-si Qərara alır.**

Yaşıllıqların mühafizə qaydalarını pozan, əkilmiş küçə və bağlarda olan ağacları, gülləri, qıran, sındıran və tələf edənlər üçün inzibati qayda ilə aşağıdakı tənbeh tətbiq edilsin.

a. Küçə və bağ ağaclarını xüsusən cavan ağacları sındırmaq, tərpətmək və yaxud başqa qayda ilə məhv etdikdə 50 manat

b. Bağda olan gülləri qopartmaq, öz başınalıq ilə gül dərdikdə, 50 manat

v. Öz malqarasını başlı-başına mərkəzi küçələrə buraxmaqla ağaclara və ümumiyyətlə yaşıllığa zərər vurduqda, 50 manat.

q. At və başqa minik və qoşqu heyvanlarını rayon mərkəzində olan ağaclara bağladıqda, 30 manat,

ğ. Gül dərmək və yaxud başqa məqsədlə şəhər bağının barısından aşmaq, istər bağların istərsə də, küçələrin barılarına zərər yetirdikdə, 100 manat cərimə edilsinlər.

Qeyd. Cərimələni verməkdən imtina edənlər hər 100 manat üçün bir ay islah əmək işinə cəlb olunsunlar.

Həmin qərar verilir bu gündən etibarən bir ilin müddətinə qanunu qüvvədə olur, elan ediləndən on gün sonra.

Bu qərarın yerinə yetirilməsi üzərində nəzarət edilməsi rayon Milis Şöbəsinə və Pirçivan Kənd Sovetinə həvalə edilsin.

Zəngilan rayon ZDS İcraiyyə Komitəsinin sədri: Ziyad Məmmədov

Zəngilan rayon ZDS İcraiyyə Komitəsinin katibi: Xanlar Həsənov**. Stalinçi, 23 iyun 1950, N-24**

Bağ Pirçivanın rayon mərkəzi kimi seçilməsindən sonra

salınmış və Sovet hökumətinin tarix səhnəsindən getməsi ilə öz varlığına son vermişdir.

Lap əvvəlki dövr barədə bir söz deyə bimərəm. Amma bağa baxanlardan, yəni bağbanlardan bir neçəsini xatırlamaq yerinə düşərdü. Düzdür, bu insanları gənclər sevməzdilər, çünkü onlar bağı qoruyurdu, gənclər isə bağda şıltaqlıq eləmək istəyirdi. Bu gənclikdir, belədir, təbii idi.

Bu bağa baxanlardan İsmayıl (o, redaksiyada mühasib işləyən Kamilin atası idi) kişini, Şükür Sayad oğlunu və Quliyev Kərim Məmmədbağır oğlunu (1889-1980) xatırlamaq yerinə düşərdi. Mən son ikisini gördüm. Onlar, bəlkə də öz şəxsi həyatlərinə belə qayğı göstərməzdilər ki, bu bağa göstərərdilər, axı o, dahi rəhbərin adını daşıyırdı. Bağda istənilən sayda oturacaqlar, heykəllər, ictimai iaşə obyektləri var idi.

Mənim 11-12 yaşım olanda bir gün Lenin bağına getmişdim. Gördüm orada ağacların əhatəsinsdə olan oturacaqların birində bir nəfər cavan oğlan oturaq halda başını arxaya söykəyib yuxulayıb. Biz–üç-dörd nəfər idik. Skamyada oturub söhbət edirdik. Bir azdan o oyandı. Cibindən bir kart çıxarıb onu əlində elə yaydı ki, sanki zontik alındı. O bunu bir neçə dəfə təkrar elədi.

Biz ona dedik ki, bunu bizə də öyrət. Dedi ki, gəlin oynayaq, kim mənə qalib gəlsə, ona öyrədərəm. Onunla oynadıq və dördümüz də məğlub olduq. O bu sirri bizə demədi.

Mən sonralar onun rəhmətlik Yavər Əli oğlu Paşayev olduğunu öyrəndim.

Adamlar görmüşdüm ki, saat 17-də işdən çıxandan sonra bura gələr, yeyib içər, stolüstü oyunlardan nərd, domino oynar, axşam saat 22-23 –də evlərinə gedərdilər.

Şəhərimizdə vaxtı ilə atamla Su Elektrik Stansiyasında işləyən Məmmədov Gülüş (Məmmədov Zülfüqarın atası –RİC, yəni raypoda işləyən) adlı bir kişi var idi.

Yaşlı vaxtlarında o hər gün parka gələrdi. O zamanlarda bəzi stolüstü oyunların ləvazimatı çətin tapılırdı. Gülüş kişinin şəxsi dominosu var idi. Mən onun dəfələrlə əlində domino bağa

gəldiyini və axşamüstü də domino ilə bərabər evinə getdiyini görmüşdüm.

Ondan başqa daha bir ixtiyar da bağa öz dominosu ilə gələrdi. Bu Kərbalayi Niftalı idi (1880-1980). Onun bir qara torbası var idi. Torbada o, dominonu gəzdirərdi. Eyni zamanda axşam üstü çayxanada çay içəndə torbasından evindən gətirdiyi kəllə qənddən istifadə edərdi. Digərlərindən fərqli olaraq o,dominoda uduzanda əsəbiləşməz, hətta digər yaşlılara deyərdi ki, onlar sizin övladlarınız yaşındadır, uduzanda əsəbləşməyin.

Bağa istirahət etməyə Alı həkim, Abbas müəllim, Əsgər müəllim də gələrdi.

Dediyim odur ki, bu bağ sözün həqiqi mənasında bir mədəni istirahət mərkəzi idi.

Bağda Lenin heykəlindən başqa pambıqçı qız, maral balası ilə, heykəlləri də var idi. Bağın içərisində eyni zamanda böyük bir dairəvi hovuz da var idi. Bağda bir çox quş növləri (bülbül və s) var idi. Yayda onların səsi, qızıl güllərin qoxusu adamı valeh edirdi.

Sözün qısası ye, iç, istirahət elə. Kaş o günlərə dönə bilsəydik.

## İdarə və müəssisələrin bağları.

Zəngilanın idarə və müəssisələri mövzusuna keçməzdən əvvəl bu idarələrə məxsus bağlar barədə qısa məlumat vermək istərdim. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra təşkil olunan mühüm dövlət orqanları üçün ilk növbədə inzibati bina məsələsini həll edirdilər. Bunu həll etdikdən sonra onların hər birinə bağ üçün geniş sahələr ayırır və orada müxtəlif meyvə ağacları əkirdilər. Bağlara baxan xüsusi adamlar, yəni bağbanlar var idi.

Mən yalnız şahidi olduğum bağlardan məktəb məhəlləsində yaşadığımdan ilk növbədə məktəbin bağından, sonra isə atamın işlədiyi SSİ-nin bağından danışacağam.

Təxminən, 1961-ci ildən əvvəl olardı, hələ məktəbə getmirdim. Məktəblə evimizin arası 100 metr olardı. Bir dəfə anam da qonşu

qadınlarla bağa getmişdi. Məni də özü ilə apardı. Bağa baxan adam yetişmiş meyvələri əhaliyə satırdı. Bağda nə desən yox idi. Deyərdim ki, hər meyvədən var idi. Qonşu qadınlar meyvəni özləri toplayar, o, məsul adam da çəkər, pulunu alardı.

**SSİ-nin bağı.** Atam bu  idarədə can qoydu. Deyərdim ki, 24 saat orada işlərdi. Gündüzlər fəhləlik edər, gecələr də idarənin qarovulunu çəkərdi. Düzdür, gecələr müəyyən saatlar yatardı. Burada xeyli sayda dadlı ləzzətli, müxtəlif növ alma ağacları var idi. Onu qoruyardılar. Yayın axırında toplayar ortalığa töküb hər işçiyə vedrə ilə bölərdilər, satmazdılar. Almanın çox olması bizim fərasətimizə qalardı. Deyərdim ki, hər gün gündüzlər dərs kitabımı da götürüb orada olar, bağı gözləyərdim. Arada uşaqlıq dostlarımı da yaddan çıxartmaz,  onları almaya qonaq edərdim. O zaman SSİ ərazisində olan evlərdə ki işçilərdən məni müdirə şikayət eləmişdir.

Maraqlı odur ki, atamı gündüzlər başqa yerə işə aparırdılar. Bağı qorumaq bizə qalırdı. Anlamıram atam işçi idi, bəs biz kimik. Əlavə olaraq gecələr rəhmətlik nənəmlə müdirin evində qalar, evi qoruyardıq. O bu illərdə SSİ ərazisində yaşayırdı, evi hələ hazır deyildi. Onun bağını da atam əkər, anam meyvələri toplardı. Deyərdim ki, biz sanki onun köləsiydik. Atamın da oradan aldığı qəpik-quruş idi.

*Bağlar barədə əlavə məlumatı Asif Bağırovun dedikləri əsasında kitabda oxuya bilərsiniz.

## Pirçivanlılar

İnsanlar əvvəl bir yerdə yaşamışlar, sonra zaman –zaman dünyanın hər yerinə səpələnmişlər. Heç bir xalq, millət deyə bilməz ki, bura tarixən mənimdir. Lakin müəyyən zaman kəsiyində bir nəsil, bir tayfa bir yerdə məskunlaşmış və orada bir-iki nəsli davam edibsə, onda onlar deyə bilər ki, mən bu torpaqda doğulmuşam və mən buralıyam.

Mən də istədim ki, mənim yaşadığım bu Zəngilan şəhərinin (əvvəl Pirçivan adlanıb) təxminən ilk sakinlərini sizlərə tanıdam. Məsələn, mənim atam müharibədən sonra bura gəlib məskunlaşıb. Mənim «mən Pirçvanlıyan» deməyə mənəvi haqqım yoxdur. Amma atası burda doğulanların bunu deməyə haqqı var. Təbii ki, hər bir yerin ilk sakinləri olur və zaman keçdikcə şəhərlər böyüyür və bu səbəbdən də ətraf yerlərdən bura axın olur.

Mən burada Pirçivanın ilk (ilk də olmasa) və ya əvvəlki sakinlərini xatırlamaq istədim. Çoxlarınız bilir ki, Pirçivanın ən qədim binalarından biri Məsciddir. İslam dininin bərqərar olmasından sonra əhali əsasən Məscidin ətrafında məskunlaşmağa meyl etmişlər. Mən də düşünürəm ki, Pirçivan Məscidinin həndəvərində olan ailələr, Pirçivanın ilk sakinlərinin törəmələridirlər.

Bu ərazi Oktyabr (son illərdə küçəyə şəhid Elnur Həsənovun adı verilmişdi) küçəsinin hər iki tərəfində, K.Marks küçəsinin əsasən şərq hissəsində məskunlaşan əhalidir. Onları bacardığım qədər sizə təqdim edirəm.

1. Abasov Mürvət Abiş oğlu- 1924*, ticarət işçisi- atası gəlmədi
2. Abbasov Müslüm-1908, Telefonçu Baharın dayısı
3. Ağayev Oruc-Köhnə Pirçivandan
4. Allahverdiyev Bəhmən- tikinti təmir idarəsinin uzun illər müdiri işləyib-1916
5. Allahverdiyeva Məhliqa (Bəhmən kişinin bacısı) -1900
6. Alməmmədov Oruc Müseyib oğlu-1924, bankda mühasib işləyirdi
7. Zeynəb-1885, o əslən Bartazdan olan son illərdə Məscidin yanında mağazada işləyən Piri Məmmədovun qayınanasıdır
8. Asya-1918, tikintidə işləyən Vaqiflə, mühafizə bölməsində işləyən Vidadinin anası
9. Bağırov Şamı Kərim oğlu, 1927-mühasib

10. Bahar-1924 telefonçu-o əvvəl Maliyyədə işləyən Əliş Əliyevə ərə gedib
11. Quliyev Cavanşir, 1935 əvvələr RİC-də fəhlə, son illərdə isə yanğından mühafizə dəstəsində işləyirdi
12. Cəlilov Muxtar-Köhnə Pirçivandan
13. Ələkbərov Eldar –usta Fərruxun qardaşı
14. Əhmədov Aqil Həsən oglu- 1933, tikinti işçisi
15. Əhmədov Cobuş (Famil) Həsən oglu- 1938, telefon montyoru
16. Əhmədova Səriyyə Həsən qızı–1918, Qurbanov Allahqulunun qaynanası.
17. Əkbərov İsa Hüseyn oğlu-1928, Rabitə Qovşağında montyor
18. Əsədov Çingiz İsmayıl oğlu-1935. Mustafayev Qurbanın dayısı oğlu
19. Əsgərov İsmayıl--usta İmranın-atası 1933
20. Faxrı- Abbas Bayramovun arvadı. Abbas Bayramovla Piri Məmmədov eyni zamanda bacanaqdılar.
21. Gülməmməd kişi-1915, köhnə milis işçisi, Oğlu Şükürov Məhəmməd kənd təsərrüfatı elmlər namizədidir
22. Gülüş kişi 1886- əslən Nüvədidəndi, uzun illər rayon SES-nı işlətmişdir. Şamı Bağırovun qayınatası.
23. Hacıyev Rüstəm Abdulla oğlu- 1910
24. Hacıyev Yusif-1927
25. Hacıyev Muxtar-1905, Əsgər müəllimin atası
26. Həsənov Davud Cəfər oğlu- 1919. RİC –nin keçmiş sədri. Telman həkimin və fizika- riyaziyyat elmləri namizədi Dilavuz Həsənovanın atası
27. Həsənov Şahsuvar Xankişi oğlu- 1909, Zəngilan qəsəbə sovetinin keçmiş sədri, memar Dilşad Həsənovanın və rəhmətkik Xürrəm Həsənovun atası
28. Həşim kişi-1880, gəlmədir, arvadı Nisə-1890, onun Məhəmməd adlı oğlu olub-1924. 1941-1945-ci illər

müharibəsində həlak olub. Orta məktəbdə direktor olmuş ingilis dili müəllimi Abbas Hüseynovun atası.

29. Hüseynov Mafıra Dadaş oğlu -1938, tikintidə fəhlə işləyib.
30. Hüseynova Fəzilə-1923, onlar sonra İpək idarəsi məhəlləsinə köçdülər, yoldaşı Əmir Nəcəfov
31. İbrahimov Əli Saleh oğlu-Pavilyonun yanında yaşayırdı
32. İbrahimov Xəlil Saleh oğlu- uzun illər Lenin bağındakı mərkəzi yeməkxanada aşpaz işləyib
33. İbrahimov Qasım Saleh oğlu-sürücü, yoldaşı Quliyev İskəndər Paşa oğlunun bacısıdır
34. İsfəndiyar Nəcəf oğlu- 1918, arvadı Nubar. Rəssam Adilin atası
35. Ismayıl Hümbət oğlu- Köhnə Pirçivanda olurdu. Məhərrəm Hümbət oğlunun qardaşı, qızı Şura uşaq aləmi mağazasında işləyirdi, oğlu Şahbaz
36. İsmayılov Qanvoy Oruc oğlu- 1915
37. Kazımov Loğman Mütəllim oğlu- 1912, Suvarma Sistemləri İdarəsində anbardar işləyib. Memar Voroşilin atası
38. Kazımov Yunis Qara oğlu –1925, Nizami küçəsində, Zəngilan rayon İcra Hakimiyyətinin 1992-ci ildəki başçısı Telman Kazımovun atası.
39. Kazımova Mələk-qızı Nazilə, RİC-də xidmətçi işləyib.
40. Kərbəlayi Musa-1892, RİK-nin keçmiş sədri Qurban Quliyevin atası
41. Qarayev Mikayıl- 1927 köhnə Pirçivanda yaşayırdı
42. Qasım- arvadının adı Sənəm. Quliyev Kərimin evinin arxasında
43. Qasımov Allahverdi Tumas oğlu-1941, - aqronom, atası Tumas Pirveyisdən gəlmədi
44. Qasımov Əziz-1895, sürücü Adışirinin atası
45. Qəndili-1894, Qasımov Əzizin bacısı –Lenin küçəsində
46. Quliyev Kərim Bağır oğlu-1889, Şamı dayının atası
47. Hacıyev Qurban-ticarət obyektlərində işləyib

48. Məhəmməd Həbiboğlu-Qasımov Allahverdinin dayısı
49. Məhərrəmov Tofir Kərimxam oğlu- 1935, tikintidə işləyib.
50. Məmmədbağır-1890, -onun qızı tibb bacısı Solmazdır
51. Məmmədvəli kişi-1899 Köhnə Pirçivanda yaşayırdı, komxozda işləyib
52. Mərcan-1905, tibb bacıları Firuzənin, Hafizənin və Quliyev Şəhriyarınn anası, o eyni zamanda da İmamverdiyev Cabbarın xalasıdır.
53. Mikayıl (Mikayıl)- Məşi kişinin qayınatası
54. Miman Mirələsgər oğlu1939- seyid
55. Mirhəsən-1922, RİC-də işləyib, arvadı Sona
56. Müseyib-1895, qəbiristanlığın mühafizi, prukuroruluğun sürücüsü Cümşüdün atası
57. Müseyib-1911- bərbər Hüsünün atası
58. Mustafayev Cəmil Ələsgər oğlu- 1921, ticarət işçisi, sonralar Sumqayıt şəhərinə köçmüşdür
59. Mustafayev Qurban Məşədi Əmir oğlu- 1928
60. Mustafayev Mansur Məşədi Əmir oğlu- 1934
61. Mustafayev Suqurət Ələsgər oğlu- 1927, ticarət işçisi, sonralar Sumqayıt şəhərinə köçmüşdür
62. Namazov Allahverdi (dayı)- çayçı-1923, oğlu Nadir milisdə işləyib
63. Nisə-Həşim kişinin arvadı- Abbas Hüseynovun anası.
64. Seyid Səkinə -1905, usta Fərruxun (1937) anası
65. Seyid Suqra- 1931, Qəbilin baldızıdı
66. Səfərov Həmzə Bəhmən oğlu- 1917
67. Səkinə Məmmədbağırın qızı-1920
68. Səkinə-1915, Ağayev Salmanın (1908), arvadı, milis Zöhrabın anası
69. Süsən-1910, qızları Nura və Şura
70. Şüşəbəyim- oğlu Quliyev Novruz.
71. Tarçı Mizan- 1924
72. Tumas kişi-1908

73. Yaqubov Həsən-1914
74. Yəhya Mirələsgər oğlu-1937, seyid, Baytar həkimi
75. Zeynəb-1895, Piri Məmmədovun qaynanası
76. Zəriş-Abbas Hüseynovun ana bir ögey bacısı
77. Müseyibin bacısı Zinyət- 1928

*Doğum tarixləri təxmini rəqəmlərdir.

## Futbol topu

Futbolun inkişafının ilkin mərhələsində top heyvanların sidik kisələrindən düzəldilirdi; amma belə toplar, güclü zərbə vuranda, tez sıradan çıxırdı. Topun istehsalı, 1838-ci ildə Çarlz Qudier tərəfindən vulkanizasiya edilmiş kauçuk kəşf ediləndən sonra, daha keyfiyyətli oldu. 1885-ci ildə Qudier rezindən hazırlanmış topu təqdim edir. Topun rezindən hazırlanması onun sıçrayış keyfiyyətini və möhkəmliyini artırdı.

7 ildən sonra Riçard Lindon ilk hava ilə doldurulan top üçün rezin kamera hazırlamışdı. Sonra o, kamera üçün nasos hazırladı və Londondakı sərgidə medal qazandı. Kauçuk və hava ilə doldurulan kamerlər sayəsində futbol topunun sənaye istehsalı üçün lazımi texniki şərait yaranıb.



1863-ci ildə, futbol qaydalarını bəlli edən, İngiltərə Futbol Assosiasiyası yarandı, amma həmin vaxt futbol topu haqqında heç nə yox idi. 1872-ci ildə topun rəsmi standart ölçüsü və kütləsi elan olundu. O vaxta qədər topun ölçüsü və kütləsi iki komanda arasında qarşılıqlı razılaşmayla müəyyənləşdirilirdi. Yeni qaydalara əsasən, sferik formasında olmalı və həcmi 68,6-71,7 sm olmalıdı. Kütləsi isə 368-dən 425 qrama qədər dəyişə bilərdi



1937-ci ildə topun kütləsi 410-450 qrama qədər artırıldı və bu qayda indiyədək tətbiq olunur. 1888-ci ildə İngiltərə futbol liqası yaranır və məhz bu liqanın sifarişləri sayəsində topun istehsalı artdı. Bu topları «Mitrel», və «Thomlinson», kompaniyası hazırlıyırdı. XX əsrin əvvəllərində topun keyfiyyəti yaxşılaşdı. Bu yeni və daha möhkəm kauçuk sayəsində baş verdi. Top daxili kameradan və cilddən ibarət idi. Cild təbii dəridən və bir birinə tikilmiş 18 paneldən hazırlanırdı. Nippel (topu dolmaya kömək edən və boşalmağa imkan verməyən topun içində olan qurğu) kəndirlərin altında yerləşirdi. 1960-cı ildə ilk sintetik top hazırlanmışdı. Təbii dəri yenə də istifadə olunsa da 1980-ci ildə sintetik materiallar onu tam əvəzlədi. **https://az.wikipedia.org/wiki/Futbol_topu**

O dövrdə bu futbolçuları yönləndirən və ya oyuna hazırlayan indiki kimi məşqçilər yox idi. Onları demək olar ki, məmurlar yönləndirir, tapşırıqlar verirdi. Bu işə əsasən rayon rəhbərliyinin göstərişi ilə kənd könülü idman cəmiiyətinin sədrləri rəhbərlik edirdi.

Müxtəlif illərdə bu vəzifədə işləyənlərdən Kamil Qurbanovu (son illərdə rayon qəzeti redaksiyasında mühasib), Həsən Nağıyevi (milis, sahə müvəkkili), Ərşad Əzimzadəni, Şəhriyar Quliyevi, Qüdrət Səmədovu, Əlibayram Rəsulovu, Məhəməmd Quliyevi, Rəşid, Qəzənfər Rüstəmovu qeyd edə bilərəm. İlk illərdə bu iş ictimai əsaslarla olsa da sonralar bunun üçün xüsusi ştat ayrılmışdı. Eyni zamanda veteran futbolçulardan daha çox təcrübəsi olanlar da bu işdə futbolçularaköməklik göstərirdilər.

Cəmiyyət ilk dövrlərdə Maliyyə şöbəsi ilə üzbəüz olan üç otaqlı binada yerlıəşirdi. Otaqların birində bu cəmiyyət, birində DOSAAF (OADKYC), üçüncüdə isə onun anbarı yerləşirdi. Sonralar burada Notarius yerləşrdi. 70-ci illərdə isə burada rayon DİŞ-yanında Mühafizə bölməsi (rəis Əziz Şükür oğlu Paşayev) yerləşirdi.

Aldığım məlumata görə, təxminən 1964- cü ildə Rasif Əkbər oğlu Fərəcov «İskra», adlı bir komanda yaratmış və cavanlara həm öz təcrübələrini öyrətmiş, həm də ki, məşqçilik etmişdir.

## Zəngilanlı futbolçular

**Abdulla Ədil oğlu Məhərrəmov**-müdafiəçi

**Aqil Rzayev**- müdafiəçi. Mincivandan. Maşinist Güclü atlet olub. Səmədov Qüdrətin bacısının yoldaşı.

**Allahverdi Namazov***-dayı, çayçı

**Arif Cəbrayıl oğlu Bəşirov***-əsil peşəsi kino mexanik idi. Onun haqqında kitabda yazı verilib. Hücumçu

**Bəhmən Allahverdi oğlu Allahverdiyev**- Bankda əməliyatçı işləyib. Mərkəz müdafiəçisi

**Cabbar Məhəmməd oğlu İmamverdiyev-** uzun illər dövlət qulluğunda mühasib işləyib. Onun haqqında kitabda yazı verilib.

**Eldar Qulam oğlu Əsgərov-**-tikinti idarəsində dülgər işləyib. Onun haqqında kitabda yazı verilib.

**Emin (Eynulla) Məlikov**-Mincivandan, əsas peşəsi maşinist. Hücümçü

**Əli Allahverdi oğlu Allahverdeiyev**- RİC-də işləyib

**Əlibayram Rəsulov***- mühasib idi

**Ərşad Mütəllim oğlu Əzimzadə**-qapıçı. Əsas peşəsi jurnalist. Onun haqqında kitabda yazı verilib.

**Əşir Seyfulla oğlu Hacıyev**

**Fikrət Bəşirov-**briqadir Tofiq Hacıyevin qardaşı

**Əzizov Xankişi Əmiraslan o- müdafiəçi,** Mincivandan. Bu adam qəza nəticəsində qatarda yanaraq faciəli surətdə həlak olmuşdur.

**Xankişi-** əsas peşəsi ticarətçi**. B**u adam da Mincivandan idi, hakimlik edərdi. .

**İlyas Göyüşov** -Rabitə Qovşağında montyor işləyib.

**İlyas Həsən oğlu Yaqubov**-yarımmüdafiəçi. Köynəyinə özü ceyran şəkli çəkmişdi.

**İzzət Ağabala oğlu Məmmədov-**hücumçu, hakim. Əsas peşəsi energetik. Onun haqqında kitabda yazı verilib.

**Qüdrət Rəhman oğlu Səmədov***-Partiya məktəbini bitirib, müxtəlif sahələrdə işləyib

Qüdrət Rəhman oğlu Səmədov 1938–ci ildə anadan olub. Orta məktəbi bitirdikdən sonra partiya və sovet orqanlarında işləmiş və oradan Ali partya məktəbinə göndərilmişdir. Ali partiya məktəbini bitirdikdən sonra rayon partiya və İcraiyyə komitələrində işləmişdir. O bir müddət rayon Aqrar Sənaye Birliyinin direktoru olub. Son illərdə Zəngilan rayon İcra hakimiyyətində işləyirdi. Bakı şəhərində rəhmətə getmişdir.

**Qüdrət-**qapıçı Mincivandan, maşinist işləyib.

**Məhəmməd Mürsəl oğlu Hüseynov***-qapıçı. Onun haqqında kitabda yazı verilib.

**Nəriman Ağayev**

**Rafiq Şahsuvar oğlu Rüstəmov***-əsas peşəsi sürücü

**Rasif Əkbər oğlu Fərəcov***-Zəngilanlı ilk ali təhsilli əczaçı idi. 128 saylı Aptekdə uzun müddət müdir olub. Onun haqqında kitabda yazı verilib.

**Şahmar Həsənqulu oğlu Bayramov***- əsas peşəsi jurnalist. Partiya işçisi.

**Voroşil Loğman oğlu Kazımov***- əsas peşəsi memar. Bakıda yaşayırdı.

**Voroşil Loğman oğlu Kazımov 1938**–ci ildə Pirçivan kəndində anadan olub. Pirçivan qəsəbə orta məktəbini, sonra isə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsini bitirib. O, uzun illər Bakı şəhərindəki Layihə İnstitutlarında memar, baş memar işləyib. Loğman kişi bu adı ona ilk Sovet İttifaqı marşallarından biri olan Klement Yefromoviç Voroşilovun xatirəsinə verib.

## Məmmədov Zülfüqar Gülüş oğlu



Məmmədov Zülfüqar Gülüş oğlu 20 yanvar 1936-cı ildə Pirçivan kəndində doğulub. 1945-1955- ci illərdə Pirçivan kənd orta məktəbində oxuyub. Orta məktəbi bitirdikdən sonra ali məktəbə daxil ola bilməyən Zülfüqar rayon Rabitə Qovşağında və Mədəniyyət şöbəsində iki il işləyib.

1957-ci ildə o Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş və oranı 1963-cü ildə əmtəəşünas ixtisası üzrə bitirmişdir.

1963- cü ildə ailə həyatı qurub. Gənc yaşlarında o yaxşı futbol oynaması ilə bizim yaddaşımızda alıb.

Zülfüqar Məmmədov 1964-1968-ci illərdə qəsəbəmizdə fəaliyyətdə olan ticarət kursunun rəhbəri olub. 1977-1982- ci illərdə İaşə birliyinidə müdir, 1982-1983-cü illərdə RİC-nin qarajında müdir və 1983- 1989- cu illərdə isə RİC-nin ticarət şöbə müdiri işləyib. Məmmədov Zülfüqar Gülüş oğlu bir ara RİC -nin sədri vəzifəsini də müvəqqəti icra etmişdir.

1990-1993- cü illərdə isə o, şəhərimizdə yeni açılan Ticarət mərkəzində işləyib.

Rayonun işğalından sonra o. Bakı şəhərində müvəqqəti məskunlaşmışdır.

***Bunlar dünyasını dəyişib**

Mənbə**: Bağırov Asif Kərim oğlunun məlumatı**

## ŞƏHƏRDƏKİ GÖZƏGƏLİMLİ BİNALARDAN

1. 1 saylı şəhər orta məktəbi
2. 13 saylı tikinti
3. 3 saylı şəhər orta məktəbi
4. 30-cu illərdən qalma 2 saylı şəhər orta məktəbinin binası

5. 33 saylıl tikinti
6. 65 saylı tikinti
7. Ağayev Nərimanın evi
8. Aptek
9. Bağçalar
10. Bank
11. Barama idarəsi
12. Baytar müalicəxanası
13. Bir musiqi məktəbi
14. Bir neçə hamam
15. Bir neçə kitabxana
16. Cəfərov Musanın evi
17. Çörək zavodu
18. Dezinfeksiya şöbəsi
19. Dərzi Mürsəlin evi
20. DTK rayon şöbəsi
21. Elektrik şəbəkəsi
22. ƏMXK
23. ƏMXK-nın xidməti binaları
24. Ənvər Əhməd oğlu Məmmədyarovun evi
25. ƏSMM
26. Həmkarlar təşkilatı
27. Hərbi komissarlıq
28. Hüseynov Murtuzanın evi
29. Xalq məhkəməsi
30. Xəstəxana zonasında iki ədəd dörd mərtəbəli yaşayış binası
31. İctimai iaşə birliyinin yeməkxana və çayxanaları
32. İkimərtəbəli kitab mağazası
33. İpək idarəsi məhəlləsində dükançı Şəmilin evi
34. İskəndər həkimin evi
35. İşıq idarəsi
36. Keçmişdən qalma dörd bəy evi.
37. «Kənd Həyatı» redaksiyası

38. Kərimov Heydərqulunun evi
39. Kino klub
40. Kolxoz bazarı
41. Kolxozlararası tikinti
42. Kommunal müəssisələri kombinatı
43. Köhnə mehmanxana binası
44. Qaz idarəsi
45. Qənnadı sexi
46. Qəşəmin evi
47. Maarif şöbəsi
48. Maliyyə şöbəsinin inzibati binası
49. Mərkəzi xəstəxana kompleksi.
50. Məscid
51. Mətbəə
52. Milis şöbəsi
53. Mühafizə bölməsi
54. Nəzir Qiləli oğlu Kərimovun evi
55. Prokurorluğun yeni binası
56. Rabitə qovşağının binası
57. Rayon İcra Hakimiyətinin inzibati binası
58. Rəsul Məmmədalı oğlu İmaməliyevin evi.
59. Rəzdərə yolu üstündə Alış İman oğlu Quliyevin evi
60. RİC
61. RİC-nin anbarları
62. RİK üçün tikilmiş yeni bina
63. RTS
64. SES
65. Stansiyada ikimərtəbəli univermaq
66. Statistika idarəsi
67. Su idarəsi
68. Şahmat məktəbinin inzibati binası
69. Şamı Kərim oğlu Bağırovun evi
70. Şəhər icra nümayəndəliyi binası

71. Talıbov Şükürün evi
72. Televiziya ötürücüsü
73. Tədarük kontoru
74. Tikinti Təmir idarəsi
75. Tikintisi başa çatmayan mədəniyyət sarayı
76. Tikiş fabriki
77. Uşaq poliklinikası
78. Vergilər idarəsi
79. Yadulla Hacıyevin evi
80. Yağ-pendir idarəsi
81. Yeni mehmanxana
82. Zəngilan konserv zavodu
83. Zəngilan şərab zavodu

## PİRÇİVAN KƏND SOVETİNDƏN 1941-1945- ci illər MÜHARİBƏSİNƏ GEDİB GƏLMƏYƏNLƏR

**Abbasov Qüdrət** 1922-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, aprel 1943-cü ildə itkin düşmüşdür

**Allahverdiyev İsmayıl Həsən** oğlu 1917-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 04 mart 1943-cü ildə həlak olmuş, Smolensk vilayəti, Temkinsk kəndində dəfn olunmuşdur*

**Allahverdiyev Niftalı Xudu** oğlu 1905-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, sentyabr 1942-cii ildə itkin düşmüşdür

**Aslanov Ağadadaş Salman** oğlu 1910-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 15 sentyabr 1942-ci ildə həlak olmuş, Xarkov vilayəti, Prikovka kəndində dəfn olunmuşdur*

**Aslanov Məmməd İsmayıl** oğlu 1918-ci ildə Pirçivan kəndində anadan olmuş, 13 dekabr 1942-ci ildə həlak olmuş,

Orconikidze vilayəti, Kirov kəndində dəfn olunmuşdur*

**Atayev İsmayıl Atakişi** oğlu Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş və itkin düşmüşdür

**Baxşəliyev Sədətqulu** 1923-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə həlak olmuş, Şimali Osetiya Respublikasının Saneva kəndində dəfn olunmuşdur*

**Balakişiyev İsa Səfər** oğlu 1905-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, yanvar 1943-cü ildə həlak olmuş, Vitebsk vilayəti Poznen rayonunun Dobronuşe kəndində dəfn olunmuşdur*

**Bayramov Əliş Dadaş** oğlu 1914-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1942-ci ildə itkin düşmüşdür

**Bədəlov Vəli Dünyamalı** oğlu 1911-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, mart 1942-ci ildə itkin düşmüşdür

**Cəfərov Hüsü Qəhrəman** oğlu 1921-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 04 oktyabr 1943-cü ildə itkin düşmüşdür

**Cəfərov Ramazan Cəfər** oğlu 1913-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1943-cü ildə itkin düşmüşdür

**Dünyamalıyev Məmməd İsmayıl** oğlu 1907-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1942-ci ildə itkin düşmüşdür

**Əfəndiyev Səlim Ağayar oğlu** 1905-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, sentyabr 1944-cü ildə itkin düşmüşdür

**Əhmədov Allahverdi Alməmməd oğlu** 1898-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, iyul 1944-cü ildə itkin düşmüşdür

**Əsgərov İbrahim İskəndər oğlu** 1905-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, fevral 1942-ci ildə itkin düşmüşdür

**Əsgərov Kazım Məhərrəm oğlu** 1917-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, fevral 1943-cü ildə itkin düşmüşdür

**Fərəcov Qanboy Baba** oğlu 1906-cı ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, sentyabr 1944-cü ildə itkin düşmüşdür

**Heydərov Balakişi Həsənqulu** oğlu 1924-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, oktyabr 1944-cü ildə itkin düşmüşdür

**Həsənov Ağakişi Ağakişi** oğlu 1916-cı ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, avqust 1942-ci ildə itkin düşmüşdür

**Həsənov Həsən Babakişi** oğlu 1910-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1942-ci ildə itkin düşmüşdür

**İbişov İsmayıl Mustafa oğlu** 1922-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 25 noyabr 1943-cü ildə itkin düşmüşdür

**İbrahimov Bəhmən İbrahim oğlu** 1913-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, avqust 1942-ci ildə itkin düşmüşdür

**İbrahimov İsa İbrahim oğlu** 1907-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 14 avqust 1944-cü ildə itkin düşmüşdür

**İmanov Süleyman Balaca oğlu** 1921-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, iyun 1943-cü ildə itkin düşmüşdür

**İmanquliyev İbad Abış oğlu** 1901-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, iyun 1943-cü ildə itkin düşmüşdür

**İmanquliyev Kərimxan İmamqulu oğlu** 1906-cı ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, iyun 1944-cü ildə itkin düşmüşdür

**İsmayılov Əli Abdul oğlu** 1901-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 28 noyabr 1943-cü ildə itkin düşmüşdür

**İsmayılov Əli Haqverdi oğlu** 1907-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 28 aprel 1944-cü ildə itkin düşmüşdür

**İsmayılov Xanış İsmayıl oğlu** 1911-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, avqust 1944-cü ildə itkin düşmüşdür

**İsmayılov İskəndər Cəfərqulu oğlu** 1915-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1943-cü ildə itkin düşmüşdür

**İsmayılov Şirzad Məmməd oğlu** 1908-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, may 1942-ci ildə itkin düşmüşdür

**İskəndərov Novruz Mazan oğlu** 1915-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1943-cü ildə itkin düşmüşdür

**Kərimov Astan Muxtar** oğlu 1896-cı ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 11 noyabr 1943-cü ildə itkin düşmüşdür

**Kərimov Rzaqulu Əhəd** oğlu 1897-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, noyabr 1944-cü ildə itkin düşmüşdür

**Kərimov Rzaqulu Əhəd** oğlu 1911-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 2 dekabr 1944-cü ildə itkin düşmüşdür

**Qaraşov C.S.** 1899-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə həlak olmuş, Krasnodar diyarı, Voronenko r-nunun Lenin xutorunda dəfn olunmuşdur*

**Qarayev Qara** 1903-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş,1943-cü ildə həlak olmuşdur

**Qasımov Allahverdi** 1894-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə həlak olmuşdur

**Qasımov Bahadur Həmid** oğlu 1907-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Qasımov Əli** 1897-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə həlak olmuş, Ukrayna SSR, Zaporojye şəhərində dəfn olunmuşdur*

**Qasımov Ələkbər Şirin** oğlu 1902-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Qasımov Həbib Abbasəli** oğlu 1915-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1944-cü ildə itkin düşmüşdür

**Qasımov Hüseyn Səlim** oğlu 1924-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə həlak olmuş, Podqornı vuturunda dəfn olunmuşdur*

**Qasımov Cəlal K** oğlu 1914-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Qasımov İsmayıl Qasım** oğlu 1909-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə itkin düşmüşdür

**Qasımov Mehman** 1914-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə itkin düşmüşdür

**Qasımov Məhərrəm İsmayıl o**ğlu 1909-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə həlak olmuş, Kaluqa vilayəti,

V.Bayratinsk rayonunun Zasevo-Qara kəndində dəfn olunmuşdur*

**Qasımov Məmməd Fərhad** oğlu 1909-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə itkin düşmüşdür

**Qasımov Məmməd** 1916-cı ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1941-ci ildə həlak olmuşdur

**Qasımov Mirəli Qənbər** oğlu 1897-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1944-cü ildə itkin düşmüşdür

**Qasımov Mirzə Qasım** oğlu 1916-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1944-cü ildə itkin düşmüşdür. Polşa Respublikasında dəfn olunduğu deyilir

**Qasımov Musa Əli** oğlu 1910-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Qasımov Surxay Baxt**ıyar oğlu 1920-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə həlak olmuş, Belorusiya SSR-in Moqilyov vilayətinin Qoretsk r-nu Kotelovbo kəndində dəfn olunmuşdur*

**Qasımov Tələt Abasəli** oğlu Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Qədirov Qara** 1903-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1944-cü ildə itkin düşmüşdür

**Qədimquliyev Qədimqulu Bədəl** oğlu 1896-cı ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə itkin düşmüşdür

**Qəhrəmanov Hüseyn** 1925-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü

ildə itkin düşmüşdür

**Qəhrəmanov Qaraş Əli** oğlu 1900-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Qəhrəmanov Qəhrəman Xəlil** oğlu 1909-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1941-ci ildə həlak olmuş, Rostov vilayəti ərazisində dəfn olunmuşdur*

**Qəhrəmanov Naib Həsən** oğlu 1900-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Qəhrəmanov Niftalı** 1894-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə itkin düşmüşdür

**Qoçiyev Osman** 1916-cı ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə həlak olmuş, Oryol vilayəti, Verxovye rayonunda dəfn olunmuşdur*

**Quliyev Abbas** 1918-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1941-ci ildə itkin düşmüşdür

**Quliyev Ağalar Mehti** oğlu Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Quliyev Bəhlul Tarvedi** oğlu 1923-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Quliyev Bəşir Rəhim** oğlu 1895-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-ci ildə itkin düşmüşdür

**Quliyev Əbdüləzim Qəhrəman** oğlu 1909-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Quliyev Əşrəf** 1898-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 22 sentyabr 1943-

cü ildə həlak olmuşdur

**Quliyev Həsənqulu Rəsul** oğlu 1915-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, itkin düşmüşdür

**Quliyev Humay Xudu** oğlu 1919-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, itkin düşmüşdür

**Quliyev Hüseyn Qulu** oğlu 1895-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Quliyev Hüseyxan Qulu** oğlu 1911-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə itkin düşmüşdür

**Quliyev İbrahim Cavad** oğlu 1915-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə itkin düşmüşdür

**Quliyev İmamalı Dünyamalı** oğlu 1911-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, yanvar 1944-cü ildə həlak olmuş, Moldaviya Respublikası, Kausanur r-nu, Haamus kəndində dəfn olunmuşdur*

**Quliyev İslam Abbas** oğlu 1910-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə itkin düşmüşdür

**Quliyev İslam Muradxan** oğlu 1901-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə itkin düşmüşdür

**Quliyev Qardaşxan** 1917-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Quliyev Məmməəd Əli** oğlu Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş,1942-ci ildə həlak olmuşdur

**Quliyev Məmməd Həşim** oğlu 1903-cü ildə Pirçivan kəndində

anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Quliyev Məhəmməd Həşim** oğlu Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Quliyev Məmməd Vəli** oğlu 1896-ci ildə Pirçivan kəndində anadan olub, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə həlak olmuş, Soçi şəhərində dəfn olunmuşdur*

**Quliyev Oruc Cavad** oğlu 1909-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Quliyev Polad Haşım** oğlu 1919-cu ildə Pirçivan kəndində anadan olub, 1943-cü ildə həlak olmuş, Bryansk vilayəti, Qaraçev ryonunun Odvina kəndində dəfn olunmuşdur*

**Quliyev Rəsul** 1902-ci ildə Pirçivan kəndində anadan olub, 1941-1945-ci illər müharibəsinə göndərilmiş,yanvar 1944-cü ildə həlak olmuş, Vitebsk vilayətində dəfn olunmuşdur*

**Quliyev Rzaqulu Hüsü oğlu** 1917-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1942-ci ildə həlak olmuşdur.

**Quliyev Sadıq İsmayıl** oğlu 1912-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1944-cü ildə itkin düşmüşdür

**Quliyev Surxay Muxtar** oğlu 1909-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1944-cü ildə itkin düşmüşdür

**Quliyev Yarməmməd Məmməd** oğlu 1901-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə itkin düşmüşdür

**Qurbanov Hüseyn** 1895-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1943-cü ildə həlak olmuş, Vitebsk vilayəti Poznen rayonunun Dobronuşe kəndində dəfn olunmuşdur*

**Qurbanov İsa Hümbət** oğlu 1918-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1944-cü ildə itkin düşmüşdür

**Qurbanov Teymur Həsənqulu** oğlu 1900-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 1944-cü ildə itkin düşmüşdür

**Mehtiyev Ibiş Mehti** oğlu 1912-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, sentyabr 1942-ci ildə itkin düşmüşdür

**Mehtiyev Musa Məmməd** oğlu 1904-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1943-cü ildə itkin düşmüşdür

**Məhərrəmov Mahmud Baba** oğlu 1909-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, sentyabr 1943-cü ildə itkin düşmüşdür

**Məhərrəmov Qurban Cəmil** oğlu 1918-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, iyul 1943-cü ildə itkin düşmüşdür

**Məlikov Minbaşı Məlik** oğlu 1907-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, fevral 1942-ci ildə itkin düşmüşdür

**Məmişov Alış Nuru** oğlu 1901-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1942-ci ildə itkin düşmüşdür

**Məmmədov Xasay Teymur** oğlu 1917-ci ildə Pirçivan kəndində anadan olub, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 28 iyul 1943-cü ildə həlak olmuş, Krım vilayəti Neberjaevka kəndində dəfn olunmuşdur*

**Məmmədov İman Məmməd** oğlu 1919-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, avqust 1942-ci ildə itkin düşmüşdür

**Məmmədov İsmayıl Bayram** oğlu 1918-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə

göndərilmiş, dekabr 1944-cü ildə itkin düşmüşdür

**Məmmədov Nəcəf Qulu** oğlu 1919-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, 09 dekabr 1943-cü ildə itkin düşmüşdür

**Məmmədvəliyev Hüseyn Nəcəf** oğlu 1901-ci ildə Pirçivan kəndində anadan olmuş, may 1942-ci ildə itkin düşmüşdür

**Məmmədvəliyev Süleyman Nəcəf** oğlu 1912-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, iyun 1942-ci ildə itkin düşmüşdür

**Muradov Yaqub Almurad** oğlu 1910-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1942-ci ildə itkin düşmüşdür

**Nəcəfov Kamil Həmid** oğlu 1908-ci ildə Pirçivan kəndində anadan olub, 1941-1945-ci illər müharibəsinə göndərilmiş,14 iyun 1943-cü ildə həlak olmuş, Krasnodar vilayəti Blaqodat yüksəkliyi 181-də dəfn olunmuşdur*

**Osmanov Məmməd İsmayıl** oğlu 1916-cı ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, dekabr 1942-ci ildə itkin düşmüşdür

**Paşayev Abış Nuru** oğlu 1911-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, avqust 1943-cü ildə itkin düşmüşdür

**Paşayev Dadaş Nuru** oğlu 1915-ci ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, avqust 1943-cü ildə itkin düşmüşdür

**Rəhimov Lətif Fərzalı** oğlu 1910-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, mart 1943-cü ildə itkin düşmüşdür

**Rüstəmov Nazir Rüstəm** oğlu 1919-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, may 1943-cü ildə itkin düşmüşdür

**Rzayev Ələsgər Məcid** oğlu 1909-cu ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş,

1943-cü ildə itkin düşmüşdür

**Sadıqov Tapdıq Şirin** oğlu 1900-cü ildə Pirçivan kəndində anadan olmuş, 1941-1945-ci illər müharibəsinə göndərilmiş, avqust 1944-cü ildə itkin düşmüşdür

